AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ



ÜMUMTƏHSİL
MƏKTƏBLƏRİNİN
V-XI SİNİFLƏRİ
ÜÇÜN

# TARİX PROQRAMLARI

AZ
Z-1
(1,2000)

Georg-Eckert-Institut BS78
1 021 826 2

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN V-XI SİNİFLƏRİ ÜÇÜN

# TARİX PROQRAMLARI

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
12.07.2000-ci il tarixli 699 saylı əmri ilə təsdiq edilmişdir

BAKI - 2000

KBT 63.3.
Ü 11

**"Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları" Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu tərəfindən maliyyələşdirilmişdir.**

**Tarix elmləri doktoru, əməkdar elm xadimi, professor Y.M.MAHMUDOV və tarix elmləri doktoru, əməkdar elm xadimi, professor İ.M.MƏMMƏDOVUN ümumi redaktəsi ilə**

**Buraxılışa məsul:** filologiya elmləri namizədi
Nəcəf NƏCƏFOV

Ü 11 Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları. - Bakı, "Əbilov, Zeynalov və oğulları"; 2000-ci il. - 238 səh.

Georg-Eckert-Institut
für internationale
Schulbuchforschung
Braunschweig
-Schulbuchbibliothek-
2001/244

Ü $\frac{0504000000-032}{AB0\ 22016-2000}$ sifarişlə

İSBN – 5 – 87459-235-0 © "Əbilov, Zeynalov və oğulları", 2000

A2
2-1
(1, 2000)

Proqramları 1995-ci ildə nəşr olunmuş "Orta ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları və metodik vəsait", 1999-cu ildə nəşr olunmuş "Ümumtəhsil məktəblərinin X-XI sinifləri üçün Azərbaycan tarixi proqramları" əsasında yenidən işləyənlər:

## AZƏRBAYCAN TARİXİ

**V SİNİF**

Prof. Y. M. Mahmudov (rəhbər), R. Z. Xəlilov, S.Ə.Ağayev, N.Ş. Məmmədova, B. H. Mehdiyev, S. M. Məhərrəmov, Ş. B. Məmmədova, H. K. Əlişova, B. Ə. Xubyarov

**VI-VIII SİNİFLƏR**

Prof. Y. M. Mahmudov (rəhbər), R. Z. Xəlilov, S.Ə.Ağayev, Ş. B. Məmmədova, prof. S. M. Məhərrəmov, B.H.Mehdiyev, Ə.K.Əlişova, B.Ə.Xubyarov, prof. S.A.Məmmədov.

**IX SİNİF**

Prof. T. T. Vəliyev (rəhbər), prof. Y. M. Mahmudov, prof. İ. M. Məmmədov, prof. S.A.Məmmədov, Ş. B. Məmmədova, H.K.Əlişova, P.Ə.Vəliyeva, R.Z.Xəlilov, S.Ə.Ağayev, K.Ə.Məmmədova

**X CİNİF**

Prof. T. T. Vəliyev (rəhbər), prof. Y. M. Mahmudov, prof. İ. M. Məmmədov, dos. R. İ. Əliyev, R. Z. Xəlilov, S.Ə.Ağayev, Ə. Ə. Qocayev, H. K. Əlişova, K. Ə. Məmmədova.

**XI SİNİF**

Prof. İ.M.Məmmədov (rəhbər), prof. Y.M.Mahmudov, t. e. d. T.B.Qaffarov, R.Z.Xəlilov, S.Ə.Ağayev, A.Ə.Hüseynov, M.Ö.Vəliyev, Ş.B.Məmmədova.

## ÜMUMİ TARİX

### VI CİNİF

Prof. Y.M.Mahmudov (rəhbər), prof. V.H.Əliyev, R.Z.Xəlilov, S.Ə.Ağayev, Ə. Ə. Qocayev, Ş. B. Məmmədova, H.K.Əlişova, S. M. Məhərrəmov, B. H. Mehdiyev, B. Ə. Xubyarov, M. İ. Əmrahov.

### VII-VIII SİNİF

Prof. Y.M.Mahmudov (rəhbər), R.Z.Xəlilov, Ə.Ə.Qocayev, S.Ə.Ağayev, S. M. Qənbərov, Ş. B. Məmmədov, H. K. Əlişova, S. M. Məhərrəmov, B. H. Mehdiyev, B. Ə. Xubyarov.

### IX SİNİF

Prof. T. T. Vəliyev (rəhbər), prof. Y. M. Mahmudov, prof. İ. M. Məmmədov, prof. R.S.Süleymanov, prof. N. C. Mehdiyeva, prof. M.C.Qasımov, dos. M. B. Fətəliyev, M. Ö. Vəliyev, A. Ə. Hüseynov, R. Z. Xəlilov, S.Ə.Ağayev.

### X SİNİF

Prof. T.T.Vəliyev (rəhbər), prof. Y. M. Mahmudov, prof. İ. M. Məmmədov, prof. R.S.Süleymanov, prof. N.C.Mehdiyeva, prof. M.C.Qasımov, dos. M. B. Fətəliyev, M.Ö.Vəliyev, Ə.Ə.Qocayev, A.Ə.Hüseynov, R. Z. Xəlilov

### XI SİNİF

Prof. İ.M.Məmmədov (rəhbər), prof. Y.M.Mahmudov, prof. M.C.Qasımov, dos. M.B.Fətəliyev, t.e.n. A.R.Göyüşov, Ə.Ə.Qocayev, R.Z.Xəlilov, M.Ə.Əliyeva, E.Ə.Arzumanova, S.Ə.Əhmədova.

# ÖN SÖZ

Azərbaycan artıq on ilə yaxındır ki, müstəqillik şəraitində yaşayıb inkişaf edir. Müstəqillik əldə edildikdən sonra respublikamızda təhsilin yenidən qurulması, onun dünya standartları səviyyəsinə çatdırılması yolunda çox ciddi addımlar atılmışdır. Təhsilə dair direktiv sənədlər, təhsil sisteminin yenidən qurulması, fənlər üzrə yeni proqram və dərsliklərin hazırlanması bu qəbildən hesab edilməlidir. Tarix üzrə yeni proqram və dərsliklərin hazırlanmasına, ilk növbədə ümumtəhsil məktəbləri üçün "Azərbaycan tarixi" və "Ümumi tarix" proqramlarının tərtibinə daha ciddi diqqət yetirilmişdir.

Ümumtəhsil məktəbləri üçün "Azərbaycan tarixi" və "Ümumi tarix" proqramları "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nın tələblərinə əsaslanaraq tərtib edilmişdir. Yeni tarix proqramları ("Azərbaycan tarixi"nin və "Ümumi tarix"in) qarşısında aşağıdakı vəzifələri müəyyənləşdirmişdir:

- dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaq;
- öz soy-kökünə, milli-mənəvi zəminə əsaslanan, adət-ənənələrinə, şərəfli tarixi keçmişinə dərindən yiyələnən və ondan iftixar hissi keçirən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan milli vətənpərvərlər yetişdirmək;
- ümumbəşəri dəyərlərə yiyələnən və onları milli-mənəvi zəmin əsasında əlaqələndirməyi, ahəngdar inkişaf etdirməyi bacaran, insan haqları və azadlıqlarına hörmət edən və onlara əməl etməyə, Azərbaycanda hüquqi demokratik cəmiyyətin qurulmasına layiqli töhvələr verməyə hazır olan azad və demokratik ruhlu vətəndaşlar tərbiyə etmək.

**Yeni proqramlarda tarix tədrisinin məqsədləri aşağıdakı kimi müəyyənləşdirilir:**

- qədim dövrdən bu günədək bəşəriyyətin keçdiyi tarixi inkişaf haqqında biliklərin əsaslarının şagirdlər tərəfindən mənimsənilməsinə nail olmaq;
- şagirdlərə tarixi təhlil, müqayisə və ümumiləşdirmə aparmaq bacarıqları formalaşdırmaq əsasında hadisə və prosesləri, fakt və qanunauyğunluqları, anlayışları mənimsətmək;
- şagirdlərdə tarixə inam və hörmət hissini formalaşdırmaq, humanizm ideyalarına, insan hüquqlarına, demokratik dəyərlərə, milli- mənəvi zəminə əsaslanan, öz soy-kökünə, xalqına və millətinə hörmət, vətənpərvərlik və xalqlar arasında qarşılıqlı anlaşma kimi yüksək mənəvi-əxlaqi keyfiyyətləri tərbiyə etmək;

- Azərbaycan xalqının və digər xalqların dininə, dilinə, mədəniyyətinə, tarixi inkişafının müxtəlif məqamlarına maraq yaratmaq, öz ölkəmizin və bütün bəşəriyyətin mədəniyyətini qorumağa və yaşatmağa çalışmaq hissi aşılamaq;

- bütövlükdə Azərbaycan tarixi üzrə baza biliklərini müvafiq olaraq yaxın və uzaq ölkələrin tarixi ilə əlaqələndirmək bacarığı yaratmaq, şagirdlərdə onun yaşadığı region, rayon, şəhər və kəndin tarixinin, vətən tariximizin, eyni zamanda dünya tarixinin tərkib hissəsi olması inamını aşılamaq.

Təqdim olunan proqramlar ümumtəhsil məktəblərində peşəkar müəllimlərin iş təcrübəsində əldə edilmiş nəticələr, müxtəlif səviyyələrdə irəli sürülmüş çoxsaylı təkliflər nəzərə alınmaqla 1995-1997-ci illərdə nəşr olunmuş "Orta ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları və metodik vəsait", 1998-ci ildə çapdan çıxmış "Ymumtəhsil məktəblərinin X-XI sinifləri üçün Azərbaycan tarixi proqramları" əsasında qrup aparıcı alimlər, orta təhsil məktəblərinin qabaqcıl müəllimləri və metodistləri tərəfindən yenidən işlənmişdir.

Bu proqramlar bəzi cəhətlərinə görə əvvəlkilərdən fərqlənir.

**Əvvəla,** bu proqramlarda tarixi materialların öyrənilməsində sosial (sinfi) münasibət deyil, tarixilik, elmilik və obyektivlik metodologiyasının əsas göstərilməsinə ciddi riayət olunmuşdur.

**İkinci,** tarixi gerçəkliyə müvafiq olaraq dövrləşməyə yenidən baxılmış, o, daha da dürüstləşdirilmişdir. Misal olaraq indiyə qədərki proqramlarda "Qədim dövr" adı altında gedən dövr iki yerə - ibtidai və qədim dövrlərə bölünmüşdür; "müasir dövr" məntiqi olaraq "ən yeni dövr" kimi verilmişdir.

**Üçüncü,** bəşər tarixinin ayrı-ayrı dövrlərinin bölgülər üzrə əvvəllər tətbiq edilmiş prinsiplərində dəyişiklər edilmişdir: VI-VIII siniflərdə Vətən tarixi, Şərq, Türk dünyası, Qafqaz xalqları və Qərb ölkələri prinsipi, IX-XI siniflərdə isə Vətən tarixi, Qərb, Türk dünyası, Qafqaz xalqları və Şərq xalqları prinsipi tətbiq edilmişdir. Bu bölgü tarixi inkişaf prosesinə tamamilə uyğundur: çünki ən qədim dövlətlər, sivilizasiyalar, Şərqdə meydana gəlmiş, sonrakı mərhələlərdə isə Qərbdə siyasi, iqtisadi, sosial və mədəni sahələrdə dünya inkişafına əhəmiyyətli dərəcədə təsir etmiş, dəyişiklirlər baş vermişdir.

**Dördüncü,** ümumi tarix proqramlarında əsas diqqət Şərq və Qərb sivilizasiyalarının üzvi şəkildə tədris edilməsinə, ümumbəşəri dəyərlərin öyrədilməsi ilə yanaşı milli-mənəvi dəyərlərin qabarıq verilməsinə yönəldilmişdir. Belə ki, türk-islam amili, türk islam xalqlarının zəngin, çoxəsrlik tarixi və mədəniyyəti ilə bağlı məsələlərin dərindən öyrənilməsi ön plana çəkilmişdır. VII sinifdə orta əsrlər tarix kursuna "Uyğur dövləti" və "Avar xanlığı", IX sinifdə yeni tarix kursuna "Misir", "Suriya və İraq Osmanlı imperiyasının tərkibində" və s. mövzular əlavə edilmiş, digər mövzularda isə zəruri dəyişik-

liklər və dəqiqləşmələr aparılmışdır.

**Beşinci,** yeni proqramlarda iqtisadi və sosial münasibətlərin, Azərbaycanın və dünya xalqlarının mədəniyyətinin inkişafı məsələlərinin öyrənilməsinə daha çox vaxt ayrılmışdır.

**Altıncı,** son illərin hadisələrinin və tarixi proseslərə verilən yeni qiymətin mövcud dərsliklərdə öz əksini tapmadığı nəzərə alınaraq, müəllimə kömək etmək, ona istiqamət vermək məqsədilə proqramlarda müvafiq təlim materialları genişləndirilmiş şəkildə təqdim olunmuşdur.

**Yeddinci,** X-XI siniflər üzrə Azərbaycan tarixi proqramlarında əhəmiyyətli dərəcədə məzmun və struktur dəyişikliyi aparılmışdır. Bu proqramlarda xalqımızın milli azadlıq hərəkatı ön plana çəkilmiş, müstəqillik uğrunda mübarizəsi, bu mübarizədə respublika prezidenti H.Əliyevin tarixi rolu öz əksini tapmışdır.

**Səkkizinci,** əvvəlki proqramlardan fərqli olaraq təqdim olunan proqramların "Ümumi tarix" hissəsində də "Kursdaxili, kurslararası və fənlərarası əlaqələr", "Mövzu üzrə formalaşdırılan anlayışlar", "Şagirdlərin əsas bacarıqları" bölmələri verilmişdir. Bu, tarix proqramlarının tərtibində ilk təcrübədir.

**Doqquzuncu,** ümumtəhsil məktəblərinin təmayülünə müvafiq olaraq tarix fənlərinin tədrisinə ayrılan saatlar müxtəlif variantlarda müəyyən olunmuşdur. Fənn müəllimləri həm Azərbaycan tarixi, həm də ümumi tarixdən proqram materiallarını planlaşdırarkən öz məktəbləri üçün müəyyən edilmiş variantları ona müvafiq saatların miqdarını hökmən nəzərə almalıdırlar. Belə bir mühüm məsələyə diqqət yetirilməlidir ki, hər bir sinif üçün Azərbaycan tarixi və ümumi tarixdən proqramlar maksimum tələblər əsasında tərtib olunmuşdur. Məsələn, bazis tədris planı əsasında işləyən, ictimai fənlərin təhsil sahəsi seçilmədiyi IX sinifdə yeni tarix həftədə 2 saat olmaqla, il boyu 68 saat tədris edilməlidir. Maksimum proqramda isə bu kursun tədrisinə həftədə 4 saat olmaqla, il boyu 136 saat vaxt nəzərdə tutulmuşdur. Odur ki, birinci variant seçilərkən, yeni tarixin planlaşdırılması da həmin proqramı əhatə etməlidir. Lakin burada müəllim, şagirdlərin fənnə olan marağı və meyllərini nəzərə almaqla, ayrılan 68 saat vaxtı əsas götürərək yeni tarix kursunun şagirdlərə çatdırılması daha vacib olan məsələlərini ön plana çəkməlidir. Digər variantda isə müəllim ayrılmış saatları proqramın məzmununa uyğun olaraq hər hansı mövzunun öyrənilməsi üçün daha geniş şəkildə tətbiq edə bilər.

**Onuncu,** proqramlarda hər bir kursun sonunda bölmələr üzrə zəngin elmi-metodik ədəbiyyatın, habelə sinifdən xaric oxunun siyahısı verilmişdir. İctimai fənlərin təhsil sahəsi seçildiyi siniflərdə, xüsusilə X-XI siniflərdə bu ədəbiyyatdan müəllimlər, habelə onların tövsiyəsi əsasında şagirdlər də istifadə edə bilərlər. Proqramların sonuna xəritələrin, sxemlərin, cədvəllərin,

diaqramların, şəkillərin, audiovizual vasitələrin siyahısı əlavə edilmişdir. Müəllim məktəbin maddi-texniki imkanlarından, həmin materialların çap olunanlarından, özünün və şagirdlərin bacarığından istifadə etməklə təlimi daha səmərəli və məzmunlu təşkil etməyə nail ola bilər.

Təqdim olunmuş proqrmalarda ən önəmli cəhətlərdən biri bölmələr üzrə "Kursdaxili, kurslararası və fənlərarası əlaqələr", "Mövzu üzrə əsas anlayışlar" və "Şagirdlərin əsas bacarıqları" başlıqları altında verilən metodiki tövsiyələr sistemidir. Onlar fənn müəllimlərinə, hətta şagirdlərə kömək üçün çox müstəsna əhəmiyyəti olan materiallardır.

"Kursdaxili, kurslararası və fənlərarası əlaqələr" dərsin təlim-tərbiyə və inkişafetdirici vəzifələrinin yerinə yetirilməsi məqsədi ilə verilir. Onlar tarixi faktlar anlayışı, səbəb-nəticə əlaqələrinin, qanunauyğunluqların mənimsənilməsinə, tarixi materialın tərbiyəvi imkanlarının gerçəkləşdirilməsinə, mövzunun məzmunu ilə bağlı əsas bacarıq və vərdişlərin formalaşdırılmasına xidmət edir.

Proqramlarda bölmələr üzrə qruplaşdırılan "əsas anlayışlar" müəllimi hər bir dərsin anlayışlar dairəsini müəyyən etməyə, onların qruplaşdırılması və yerində tətbiq edilməsinə istiqamətləndirir. Onlardan faktiki materialın təhlil və qiymətləndirilməsi zamanı istifadə olunur. Təlim materiallarının əsas anlayışlar ətrafında cəmləşdirilməsi şagirdlərin tarixə dair biliklərini sistemləşdirməyə kömək edir. Buna görə də əsas anlayışların şagirdlər tərəfindən mənimsənilmsi təmin olunmalıdır. Bu zaman müəllim unutmamalıdır ki, şagirdin anlamadığı bir faktı, məsələni uzun müddət hafizəsində saxlaması və ondan faydalanması mümkün deyildir.

Təcrübə göstərir ki, anlayışların formalaşdırılması üçün müəllim onların məzmununu şərh etmək və əlamətlərini sadalamaqla kifayətlənməməli, mənimsəmə prosesinin (qavrama, dərketmə, yadda saxlama və tətbiq etmə) qanunauyğunluqlarına riayət etməli, şagirdləri zəruri təfəkkür əməliyyatlarının icrasına cəlb etməlidir. Bunsuz anlayışların mənimsənilməsi mümkün deyildir. Beləliklə, şagirdin bu istiqamətdə qazanacağı uğurların səviyyəsi onun əqli qabiliyyətlərinin inkişafından asılıdır. Odur ki, proqram materialları şagirdlərə elə çatdırılmalıdır ki, onların hafizə, təfəkkür, təxəyyül və s. psixi fəaliyyət formaları əlaqələndirilsin, normal zehni fəaliyyətləri təmin olunsun. Bu işə müəllimdən tələb edir ki, hər bir konkret dərsə hazırlaşarkən təlim materiallarının məzmununun tələb etdiyi zehni əməliyyatları konkret olaraq, müəyyənləşdirsin və dərs prosesində bütün şagirdlərin həmin əməliyyatları icra etmələrinə nail olsun.

Bu işin öhdəsindən gəlmək üçün proqram bölmələrinin sonunda verilmiş "şagirdlərin əsas bacarıqları" tövsiyyəsindən istifadə edilməlidir. Bunlar dərsin əsas məsələlərinin, anlayışlarının mənimsənilməsi üçün tələb

olunan zehni əməliyyatları müəyyənləşdirməkdə müəllimə istiqamət verə bilər. Bu tövsiyyənin əsas mənası mövzunun məzmununa müvafiq əlaqələndirmə, müqayisə etmə, təhliletmə, ümumiləşdirmə və nəticəçıxarma üsulları ilə şagirdlərin təfəkkür qabiliyyətini üzə çıxarmaq, onlarda bacarıq vərdişləri formalaşdırmaqdır. Müəllimin başlıca vəzifəsi hər bir mövzuya müvafiq bacarıqları seçib dəqiqləşdirməkdir. Bunsuz müəllimin təlim materiallarının mənimsənilməsinə nail olması müşkül olar.

Şagirdlərin inkişafı, tərbiyəsi, onların fəal ictimai-siyasi həyata hazırlanması üçün də bu tövsiyyənin müstəsna əhəmiyyəti vardır. Müəllim "Bacıarıqlar"dakı tövsiyyələrdən istifadə edərək şagirdlərdə konkret mövzular üzrə proqramda göstərilən vacib problemlər, məsələlər üzrə müstəqil bilik əldə etmək, məlumat, məruzə, müsahibə və referat hazırlamaq, icmal və tezislər, cədvəllər tərtib etmək, yoldaşları, valideynlər qarşısında çıxış etmək, ümumməktəb tədbirlərində iştirak etmək vərdişləri aşılamalıdır.

Proqramın sözügedən tövsiyəsi şagirdlərdə proqnozlaşdırmaq vərdişlərinin də formalaşdırılmasına kömək etməlidir.

Təqdim olunan proqram Azərbaycan Respublikası Tarix Müəllimləri Assosasiyasının (ARTMA) 2000-ci il mayın 30-da keçirilmiş seminarında müzakirə edilərək bəyənilmiş, Georq Ekkert institutunun eksperti Maqda Telus tərəfindən müsbət qiymətləndirilmiş və Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "tarix" bölməsinin 2000-ci il 28 iyun tarixli iclasında nəşrə məsləhət görülmüşdür.

Fikrimizcə, proqram strateji məqsədlərə çatmaq üçün istiqamətverici tarixi materialları şagirdlərə çatdırmaq, onları mənimsətməkdir. Burada müəllim şəxsiyyəti, müəllim biliyi və peşəkarlığı, müəllim təşəbbüskarlığı və yaradıcılığı çox mühüm şərtdir.

Proqram materiallarını şagirdlərə mənimsətmək, ləyaqətli vətəndaşlar yetişdirmək naminə müəllim ənənəvi dərs proqramları ilə yanaşı indi dünya praktikasında yayılmış və özünü doğrultmuş yeni formalardan - diskusiya, debat, disput, konfrans, müsabiqə və b. dərs formalarından da istifadə etməlidir. Bunlar Vətənimizi sevən, qanunlarımıza hörmətlə yanaşan, azad və demokratik ruhlu, savadlı və ləyaqətli, təşəbbüskar nəslin yetişdirilməsinə kömək edərdi.

Fikrimizcə, yeni redaktədə təqdim olunan bu proqramlar nöqsanlardan da xali deyildirlər. Onlar daim yeniləşdirməli və təkmilləşdirməlidirlər. Buna görə də tərtibçilər təqdim olunan proqramlar barədə elmi-pedaqoji kollektivlərin, tarix müəllimlərinin və mütəxəssislərin verəcəkləri irad və təklifləri, tövsiyələri yüksək qiymətləndirir və onlara əvvəlcədən öz təşəkkür və minnətdarlıqlarını bildirirlər.

# AZƏRBAYCAN TARİXİ

## V SİNİF

## ATA YURDU

**Həftədə 2 saat, il boyu 68 saat.**

### GİRİŞ

**Ata yurdum Azərbaycandır - (2 saat).**

Vətən ata yurdudur. Ata yurdu bizim tərcümeyi-halımızdır - ulularımızın müqəddəs ruhlarıdır. Azərbaycan bizim Vətənimizdir. Vətən tarixini - ata yurdumuzun keçmişini nə üçün öyrənirik? Ata yurdumuzun sərhədləri. Təbii sərvətləri. Müstəqil Azərbaycan dövləti. Onun sərhədləri. Əhalisi. Qəhrəmanlıq keçmişi. Xalqımız hümanist və sülhsevərdir.

**Azərbaycan abidələr diyarıdır - (1 saat).**

Abidələr tarixin yadigarıdır. Abidələr necə tapılır? Azərbaycan ərazisindəki ən məşhur abidələr: Azıx, Aveydağ, Qazma mağaraları, Qaya rəsmləri, Qobustan, Gəmiqaya rəsmləri, Xüdafərin körpüləri. Qobustan rəsmləri nədən danışır? Abidələrin yaşının və sayının çoxluğu nəyi göstərir?

**Azıx mağarasının sirri - (1 saat).**

Azərbaycan qədim insanların yaşayışı üçün əlverişli diyar idi. azıx mağarası. Əsas tapıntılar. azıx adamı. azıx adamı necə yaşayır və işləyir? Ocaq.

**Xalqımızın novruzu - (1 saat).**

Novruz bahar bayramıdır. Novruz bayramı ilə qədim insanların məşğuliyyəti arasında əlaqə. Novruz bayramına hazırlıq və onun keçirilməsi. Səməni. Novruz bayramının keçirilməsinin əhəmiyyəti.

**Azərbaycan dövləti Manna - (1 saat).**

Manna dövlətinin gücü və idarə edilməsi. Maldarlıq. Əkinçilik. Suvarma kanalları. Sənətkarlıq. Mannalılar nə satır və nə alırdılar?

**Tomirisin qeyrəti (1 saat).**

İran hökmdarı Azərbaycana sahib olmaq istəyirdi. Tomiris ağıllı və tədbirli hökmdardır. Tomirisin hünəri. Tomiris xalqımızın qeyrət mücəssiməsidir.

**Atropaten - Azərbaycan - (1 saat).**

Azərbaycanın cənub torpaqları İranın hakimiyyəti altında Atropatın öz ölkəsini müstəqil elan etməsi. Atropaten. "Atropatenin" "Azərbaycan" şəklinə düşməsi.

**Qədim albaniya dövləti və onun paytaxtı Qəbələ - (1 saat).**

Qədim Albaniya dövlətinin ərazisi. Şəhərlər ölkəsi. Əhalinin məşğuliyyəti. Qədim Albaniya dövləti necə idarə olunurdu? Qədim albaniya ən qüdrətli dövlətlərdən biri idi.

Qəbələ qala-şəhərdir. Qəbələ paytaxt-şəhərdir. Qədim qəbələlilərin yaşayışı və məişəti. Sənətkarlıq. Sənətkarların məharəti. Qəbələ bazarı.

**Cavanşir - (1 saat).**

Cavanşir dövründə albaniya. İran və ərəb qəsbkarlarının alban torpaqlarına basqınları. Cavanşir görkəmli sərkərdə və ağıllı dövlət başçısıdır.

**Dəmirqapı Dərbənd - (1 saat).**

Dərbənd keçidinin əhəmiyyəti. Dərbənd qala şəhərdir. Dərbənd liman-şəhərdir. Xarici düşmənlərin Dərbəndə basqınları. Ərəblərin Dərbəndi ələ keçirməsi. Dərbənd ticarət şəhəridir.

**Babək - (1 saat).**

Azərbaycan ərəblərin hakimiyyəti altında. Ərəb zülmünə qarşı xalq üsyanları. Babək. Babək üsyanı xalq azadlıq müharibəsidir. Üsyanın əhəmiyyəti.

**Bərdə paytaxt-şəhər - (1 saat).**

Bərdə paytaxt-şəhərdir. Bərdə qalaşəhərdir. Əhalinin məşğuliyyəti. Bərdə bazarı. Bərdə - "Arranın anası". Bərdənin var-dövləti haqqında xəbərlər başqa ölkələrə necə yayılırdı? Rusların Bərdəyə yürüşü. Bərdənin qarət olunması. Bərdənin süqutu.

**Şamaxı - Şirvanşahlar dövlətinin paytaxtı - (1 saat).**

Şamaxı şəhərinin əlverişli yerdə salınması. Əhalinin məşğuliyyəti. Şəhərin böyüməsinə təsir göstərən amillər. Şamaxı paytaxt-şəhərdir. Məktəb və mədrəsələr. Şer məclisləri. Xaqani. Şamaxı əhalisinin qonaqpərvərliyi.

**Gəncə - (1 saat).**

Gəncənin əsasının qoyulması haqqında rəvayət. Gəncənin yüksəlişi. Gəncə paytaxt şəhərdir. Şəhərin inkişafı, əhalinin məşğuliyyəti. Gəncə darvazaları. Gəncədə zəlzələ. Yadelli basqınları.

**"Dədə Qorqud" - (2 saat).**

"Dədə Qorqud"- yurdumuzun tarix salnaməsi. "Dədə Qorqud" dastanlarının kitab şəklində tapılması. "Dədə Qorqud" oğuz dastanlarıdır. "Dədə Qorqud"un yaşı. Oğuzlar. "Dədə Qorqud" dastanlarından ulu babalarımızın məşğuliyyəti haqqında nə öyrənirik? Oğuzların vətən sevgisi. "Dədə Qorqud" və adətlərimiz. Yurdumuzun tarixini öyrənmək üçün "Dədə Qorqud"un əhəmiyyəti.

**Nizami dünyası və tariximiz - (1 saat).**

Nizami Gəncəvi dahi Azərbaycan şairidir. Qədim tariximiz Nizaminin əsərlərində. Dərbənd, Bərdə, Gəncə şəhərləri, Bərdəyə rusların basqınları

və s. haqqında Nizami əsərlərindən nə öyrənirik?

**Atabəy Şəmsəddin Eldəniz - (1 saat).**

Şəmsəddin Eldəniz - böyük Azərbaycan hökmdarı. Nə üçün Eldəniz sultan sarayında xüsusi hörmət qazandı? Atabəy. Azərbaycan Atabəylər dövləti necə və nə zaman yarandı? Atabəy Eldənizin gürcü çarlarının basqınlarına qarşı mübarizəsi. Atabəylər dövlətinin tariximizdə yeri.

**Naxçıvan - (1 saat).**

Naxçıvan Azərbaycanın qədim şəhəridir. Nə üçün Naxçıvan sürətlə böyüyür və inkişaf edirdi? Əhalinin məşğuliyyəti. Naxçıvana düşmən basqınları. Naxçıvan paytaxt şəhərdir.

**Memar Əcəmi (1 saat).**

Qüdrətli və varlı dövlətin paytaxtı da gözəl və böyük olur. atabəylər dövlətinin baş memarı. Əcəmi böyük memardır. Möminə xatun türbəsi. Əcəminin başqa memarlardan fərqi.

**Marağa rəsədxanası - (1 saat).**

N.Tusi. Rəsədxana. Rəsədxana insanlara nə üçün lazımdır? Marağa rəsədxanası alimlər ocağı idi. Şərqdə ilk akademiya - elm ocağı. N.Tusinin dünya elminə töhfəsi.

**Təbriz - (1 saat).**

Təbriz - Azərbaycanın qədim və gözəl şəhəri. Əhalinin məşğuliyyəti. Təbriz zəngin ticarət şəhəridir. Şəhərin ölkənin həyatında mühüm rol oynaması.

**"Rəşidiyyə" - qədim Azərbaycan universiteti - (1 saat).**

F. Rəşidəddin ədalətli dövlət xadimi, məşhur alim və xeyirxah insandır. "Rəşidiyyə" - "Şəfa evi". Kitabxana.

**Uzun Həsən - (1 saat).**

Ağqoyunlu dövlətinin meydana gəlməsi. Əhalinin məşğuliyyəti. Uzun Həsən dövləti necə idarə edirdi? Avropalı elçilər Uzun Həsənin sarayında Uzun Həsənin apardığı müharibələrdən xalq nə üçün narazı idi? Uzun Həsənin abadlıq işləri.

**Sara Xatın - (1 saat).**

Sara Xatın savadlı və tədbirli dövlət xadimidir. Sara Xatın Uzun Həsənin yaxın məsləhətçisi kimi. Sara Xatının Türkiyə sultanı ilə görüşü. Ağqoyunlu diplomatiyasının böyük qələbəsi, Sara Xatın Azərbaycanın ilk görkəmli diplomat qadınıdır.

**Ərdəbil - (1 saat).**

Ərdəbil hakimləri. Səfəvilər. Şeyx Səfi. Ərdəbil - qədim Azərbaycan şəhəri. Əhalinin məşğuliyyəti. Yarmarka. Qarətçi yürüşlər.

**Qüdrətli Azərbaycan dövləti - (1 saat).**

Azərbaycan XV əsrin sonunda. Xalq vahid dövlətin yaranmasını istəyir.

Səfəvilərin Şamaxını tutması. Bakının alınması. Ağqoyunlu hökmdarları üzərində qələbə. Şah İsmayıl. Azərbaycan torpaqlarının birləşdirilməsinin başa çatması və bunun əhəmiyyəti. Şah İsmayılın övladlarına vəsiyyətləri.

**Dahi Füzuli - (1 saat).**

Füzuliyə nə üçün dahi deyilir? Şairin zəmanəsindən şikayəti. "İt və pişik", "Sağlamlıq və xəstəlik" əsərlərində xeyirxahlıq, insanpərvərlik, sağlamlıq. "Meyvələrin söhbəti". Bağda və bostanda baş verən hadisələr bizə nə deyir? Xalq Füzulinin adını yaşadır.

**"Koroğlu" - 1 saat.**

"Koroğlu" xalqımızın tarix salnaməsidir. Azərbaycan xalqının yadellilərə qarşı azadlıq hərəkatının "Koroğlu" dastanlarında əks olunması. Xalqımızın əfsanəvi qəhrəmanı Koroğlu.

**Şəki - (1 saat).**

Şəki Azərbaycanın qədim şəhərlərindən biridir. Hacı Çələbi. Şəki xanlığının yaranması və idarə olunması. Ölkənin birləşdirmək cəhdi və yadellilərə qarşı mübarizə. Xan sarayı memarlığımızın əvəzsiz incilərindəndir.

**Şuşa qalası - Pənahabad (1 saat)**

Şuşa - qədim Azərbaycan şəhəri və Qarabağ xanlığının mərkəzi. Şuşa böyük hərbi əhəmiyyəti olan qaladır. Əhalinin məşğuliyyəti. Şuşanın böyüməsi.

Yadellilərə qarşı mübarizədə Şuşanın rolu. Qarabağ xanı İbrahimxəlil xanın dövründə Şuşanın möhkəmləndirilməsi.

**Cavad xan - (1 saat).**

Cavad xan Gəncə xanıdır. General Sisyanovla Cavad xanın məktublaşması. Gəncənin ruslar tərəfindən mühasirəsi. Gəncə ermənilərinin xəyanəti. Gəncənin qəhrəman müdafiəsi. Cavad xanın qəhrəmanlığı. Kişi qeyrətli Bəyim xanım. Gəncənin adının dəyişdirilməsi.

**İrəvan xanlığı - (1 saat).**

İrəvan xanlığı Qərbi Azərbaycan torpaqlarında yaranmış Azərbaycan dövlətidir. Xanlıhın ərazisi, əhalisi. Əhalinin məşğuliyyəti. Xanlığın "qara donlu kafirlər"ə qarşı mübarizəsi. Xanlıhın daxilindəki çəkişmələr və bunun nəticəsi. İrəvanın Rusiya işğalına qarşı mübarizəsi.

**Gülüstan dağı - (1 saat).**

Azərbaycan uğrunda Rusiya ilə İran arasında müharibə. Rus qoşunlarının Bakıya yaxınlaşması. Sisiyanovun öldürülməsi. Talış xanlığının alınması. Gülüstan sülhü. Azərbaycanın Rusiya ilə İran arasında birinci dəfə bölüşdürülməsi. Azərbaycan xalqının faciəsi.

**Türkmənçay müqaviləsi - xalqın faciəsi - (1 saat).**

Azərbaycan uğrunda yeni Rusiya - İran müharibəsi. Naxçıvan və İrəvan xanlıqlarının tutulması. Türkmənçay müqaviləsi - Azərbaycanın Rusiya ilə

İran arasında bölüşdürülməsinin başa çatması. Qarətçilik, sərvətlərimizin aparılması. Rusiyanın ermənilərі Azərbaycana köçürməsi - bugünkü faciəmizin başlanğıcı.

**A.Bakıxanov - (1 saat).**

Abbasqulunun uşaqlığı. A.Bakıxanov hərbi xidmətdə. A.Bakıxanov tarixçi, səyyah və şairdir. Onun uşaqlara nəsihətləri.

**Quba üsyanı - (1 saat).**

Rusiya Azərbaycanda necə ağalıq edirdi? Qubada üsyanın başlanması. Kəndlilər nə üçün üsyan edirdilər? Ruhanilər nədən narazı idilər? Üsyanın gedişi və nəticələri.

**M. F. Axundzadə - (1 saat).**

M.F.Axundzadənin təhsil və xidmət illəri. M.F.Axundzadə xalq üçün yaşayırdı. M.F.Axundzadə və ədəbiyyatımız. Mirzə Fətəli və bugünkü əlifbamız. M.F.Axundzadə və azadlığımız.

**Mirzə Kazımbəy - (1 saat).**

Mirzə Kazımbəyin uşaqlıq illəri. Elmi fəaliyyəti. Dünya şöhrətli alim. Mirzə Kazımbəy Azərbaycan xalqını təmsil edirdi.

**Həsən bəy Zərdabi - (1 saat).**

Həsən bəy Zərdabinin təhsil illəri. Həsən bəy Bakı gimnaziyasının müəllimidir. Nə üçün çar hökuməti Azərbaycan xalqının savadlanmasından qorxurdu? Həsən bəyin "Əkinçi" qəzetini çıxarmaq uğrunda mübarizəsi. Milli mətbuat günü. "Əkinçi" vətən övladlarına nə öyrədirdi?

**Xalq intiqamçıları. Qaçaq Nəbi, Qaçaq Kərəm - (1 saat).**

Qaçaq hərəkatı və onun səbəbləri. Kimlərə qaçaq deyilirdi? Qaçaq Nəbinin qəhrəmanlıqları? Həcər Nəbiyə dayaqdır. Qaçaq Kərəm. Qaçaq Nəbi və Qaçaq Kərəm Cənubi Azərbaycanda.

**Neft Bakısı - (1 saat).**

Bakı neft diyarıdır. Sahibkarlar və fəhlələr. Bakı milyonçuları. Bakı sürətlə böyüyən çoxmillətli şəhərdir. Bakı bu gün.

**Böyük xeyriyyəçi - (1 saat).**

H.Z.Tağıyevin uşaqlıq və gəncliyi. H.Z.Tağıyevin sahibkarlıq fəaliyyəti. Onun xeyriyyəçilik fəaliyyəti. Qızlar məktəbi. Teatr binası. Bakıya su kəmərinin çəkilişi.

**"Molla Nəsrəddin" - (1 saat).**

Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"i nə üçün yaratdı? "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım". "Molla Nəsrəddin" kimlərə gülürdü? Niyə gülürdü? Xalqımız və bütün Şərq dünyası nə üçün "Molla Nəsrəddin"in adına böyük hörmətlə yanaşırlar?

**Böyük Sabir - (1 saat).**

"Molla Nəsrəddin" jurnalı və Sabir. Sabir nəyi və kimləri tənqid edirdi?

Sabir və tariximiz. Ölməz şair. Sabir bu gün də yaşayır.

**Səttarxan - (1 saat).**

Təbrizdə üsyan. Üsyançılar nə istəyir və kimə qarşı mübarizə aparırdılar? Səttarxanın igidlikləri. Səttarxan üsyan edən xalqın rəhbəridir. Üsyanın yatırılması. Səttarxanı kim həbs etdi?

**Unudulmaz generallarımız Ə.Şıxlınski və S.Mehmandarov - (1 saat).**

Məktəb illəri. Hərbi xidmət. Ə.Şıxlınski birinci dünya müharibəsində "Artilleriyanın allahı". General Ə.Şıxlınski doğma Azərbaycana xidmət edir. Mehmandarov görkəmli topçu generalıdır. ADR-in hərbi naziri. Azərbaycan Milli Ordusunun yaradılması.

**Xalqımıza qarşı soyqırımı - mart qırğını (1918) - (1 saat)**

Bakı Soveti. Bakı Sovetinin və onun hərbi qüvvələrinin rəhbərliyi erməni millətçilərinin - daşnakların əlindədir.

Müsəlmanların kütləvi qırğını. Erməni vəhşilikləri. Xalqımıza qarşı soyqırımının nəticələri.

**"Bir kərə yüksələn bayraq bir daha enməz" (1 saat).**

Azərbaycan xalq Cümhuriyyətinin (AXC) yaranması. 28 may Milli İstiqlal günü. Türk - islam şərqində ilk respublika. Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimləri: M.Ə.Rəsulzadə. F. Xoyski, Ə. Topçubaşov, N. Yusifbəyli və b. AXC-nin ən mühüm tədbirləri. Dövlət rəmzləri. Dövlətin qanunları harada və necə qəbul olunurdu? AXC-nin xarici dövlətlər tərəfindən tanınması.

**28 aprel faciəsi - (1 saat).**

Bakı Sovet Rusiyasının işğalçılıq planında. Ermənilərin yeni düşmənçiliyi. XI Ordunun Azərbaycanı işğal etməsi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu. İstiqlalın itirilməsi. Xalq yenidən mübarizəyə başlayır. Gəncə üsyanı. İşğalçıların vəhşilikləri. Üsyançılara divan tutulması.

**Ş. M. Xiyabani - (1 saat).**

Təbrizdə 1920-ci il üsyanı. Xiyabani üsyanın rəhbəridir. Xiyabaninin sədrliyi ilə hökumətin təşkili. Onun tələbləri. Üsyanın məğlub olması.

**Otuz yeddinci il - (1 saat).**

Sovet dövləti xalqımızın və başqa türk xalqlarının oyanmasından qorxurdu. Əlifbamızın dəyişdirilməsi. Xalqımızın adının dəyişdirilməsi. Kütləvi həbslər, sürgünlər. Günahsız qurbanlar.

**Üzeyir Hacıbəyli - (1 saat).**

Üzeyirin uşaqlıq illəri. Necə oldu ki, Üzeyir xanəndə yox, bəstəkar olmaq arzusuna düşdü?

Qori seminariyasında təhsil illəri. Böyük sənətə gəliş. Dahi bəstəkar Ü.Hacıbəyli və xalq musiqimiz. "Koroğlu" mərdliyə, qəhrəmanlığa çağırış. Ü.Hağıbəylinin Vətən qarşısında xidmətləri.

**Həzi Aslanov - (1 caat).**

İkinci dünya müharibəsi. Azərbaycan SSR - vahid hərbi düşərgənin bir hissəsi.

Həzi Aslanovun döyüş yolu haradan başlandı? Görkəmli tank komandiri H.Aslanov Stalinqrad və Kursk döyüşlərində. H.Aslanov - iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Qəhrəmanın müəmmalı ölümü.

**Mehdi Hüseynzadə - (1 saat).**

Xalqımızın oğulları partizan hərəkatında. M. Hüseynzadə - Mixaylo əfsanəvi kəşfiyyatçıdır. Mehdinin qəhrəmanlıqları. Qəhrəmanlar ölmürlər.

**"Qara qızıl"ımız faşizmə qarşı mübarizədə (1 saat).**

Bakı Sovet ordusunun əsas cəbbəxanasıdır. Bakı nefti və müharibə. Neftimizin qələbədə rolu. Y. Məmmədəliyev. Azərbaycan qələbə üçün nə verdi?

**Ustad Şəhriyar - (1 saat).**

Şairin uşaqlıq və gəncliyi. Şəhriyar böyük şairdir. "Heydər babaya salam", "Ürəyimdən tikan çıxdı", "Azərbaycan". Onun adı sağlığında əbədiləşdirilmişdir.

**Bakı Universiteti - (1 saat).**

Yaranması. BDU Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. Azərbaycan ali məkiəbləri BDU-nun yetirməsidir. Azərbaycan elminin inkişafında BDU-nun rolu. Respublikada gənc mütəxəssis kadrların hazırlanmasında BDU-nun əhəmiyyətli rol oynaması.

**L.Zadə - müasir dünyanın elm dahisi - (1 saat)**

Uşaqlıq və təhsil illəri. L.Zadənin elmi kəşfləri. Lütfizadənin dünyaya yeni baxışı. Dünyanın idarə olunması imkanları. L.Zadə və müasir Azərbaycan. Sağlığında adı əbədiləşdirilən alim.

## İSTİQLAL YOLLRINDA

**Oyanış - (1 saat).**

H.Əliyev Azərbaycan SSR-ə rəhbərlik etməyə başlayır. Onun əvvəlki rəhbərlərdən fərqi. Azərbaycanın müstəqil həyata hazırlanmasında H. Əliyevin xidmətləri. Xalqın milli mənlik şüurunun oyanmasında H.Əliyevin rolu.

**Dirçəliş - (1 saat)**

SSRİ-nin dağılmağa başlaması və ermənilərin bundan istifadə etməyə çalışması. H.Əliyev SSRİ rəhbərliyinin və ermənilərin qarşısında duran güclü maneədir. SSRİ və Azərbaycan SSR rəhbərlərindən xalqın narazılığının artması. 17 noyabr Milli Dirçəliş günüdür.

**Qanlı Yanvar - (1 saat).**

Azadlıq hərəkatının güclənməsi. Azərbaycan Xalq Cəbhəsinin yaradıl-

ması. Onun nüfuzunun artmasının səbəbləri. SSRİ rəhbərlərinin xalqımızın azadlıq hərəkatını boğmağa çalışması. Azərbaycan rəhbərlərinin xəyanətkarlığı. 1990-cı il yanvarın 19-20-də Bakıya qoşun yeridilməsi. Şəhidlər. Həyat və mübarizə davam edir. H.Əliyev qanlı 20 yanvar haqqında.

**18 oktyabr - istiqlalımızın bərpası günüdür - (1 saat).**

SSRİ məkanında böhran vəziyyətinin dərinləşməsi və SSRİ-nin dağılması. Müstəqilliyimizin bərpası uğrunda mübarizə.

1991-ci il avqustun 30-da dövlət müstəqilliyimizi bərpa etmək barədə "Bəyanat"ın qəbul edilməsi. Oktyabrın 18-də Azərbaycanın "Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı"nın qəbul olunması. Azərbaycanın müstəqillik yoluna qədəm qoyması.

**Xocalı faciəsi - (1 saat).**

Xocalı şəhərinin yaranması və inkişafı. "Arxalı köpək qurd basar". Xocalı qırğını. Şahidlər nə deyir?

H.Əliyev Xocalı qırğını haqqında

**H.Əliyev - yeni Azərbaycanın qurucusu - (2 saat).**

İstiqlalı qoruyub saxlamaq ona nail olmaqdan daha çətindir. 31 dekabr-Dünya Azərbaycanlılarının həmrəyliyi günü. Atəşkəs. "Əsrin müqaviləsi". Konstitusiya günü. Dünya dövlətləri içərisində Azərbaycanın nüfuzunun daha da artması. Uşaqların böyük dostu.

**Təkrar - (1 saat).**

**Kursda formalaşdırılan ilk təsəvvürlər:** Azərbaycanda qədim insanların yaşayış məskənləri. Azərbaycan abidələr diyarıdır. Xalqımızın bayramları. Xalqımızın yadelli işğalçılara qarşı mübarizəsi. İşğalçıların Azərbaycanda ağalığı və bunun nəticələri. Zəhmətkeşlərin zülmkarlara qarşı mübarizəsi. Azərbaycan - qədim şəhərlər vətənidir. Azərbaycanda paytaxt-şəhər, qala-şəhərlər, liman-şəhərlər. Azərbaycan dahi sənətkarlar diyarıdır. Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsi. H.Z.Tağıyev -böyük xeyriyyəçidir. Xalqımızın Azərbaycanın azadlığı, dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəsi. Azərbaycanın dövlət müstəqilliyi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və süqutu. Azərbaycanın alman faşistlərinə qarşı mübarizədə iştirakı. Azərbaycanın qəhrəman oğulları. Milli qəhrəmanlar.

**Şagirdlərdə formalaşdırılan əsas bacarıqlar:**

Dərslikdəki hekayənin və ya müəllimin nəqlinin məzmununu öz sözləri ilə danışmaq. Dərsliyin mətnindən və müəllimin izahındakı əlavə faktlardan istifadə etməklə tarixi əhvalatın məzmununu danışmaq.

Bədii əsərdə oxuduğu, tədris və bədii filmlərdə gördüyü əhvalatlardan istifadə etməklə dərsliyin mətninin və ya müəllimin nəqlinin məzmununu danışmaq. Terminin izahını dərslikdən tapmaq. İllüstrasiyanın məzmununu

açan materialı dərsliyin mətnindən tapmaq, öz fikrini sübut etmək üçün dərslikdəki hekayənin məzmunundan faktlar seçmək; hekayənin sonunda verilən nəticəni sübut edən parlaq faktı dərsliyin mətnindən tapmaq; hekayənin məzmununa istinad etməklə tarixi termin və ifadəni izah etmək; həmcins tarixi faktları, sadə təzahürləri qarşılaşdırmaq, müqayisə etmək, onların ümumi və fərqli cəhətlərini tapmaq; dərsliyin mətnindən və müəllimin nəqlindəki əlavə faktlardan istifadə etməklə hadisənin qəhrəmanını, tarixi şəxsiyyəti səciyyələndirmək; sübut üçün müxtəlif mənbələrdən dəlillər gətirmək. Hadisələrin məntiqi əlaqələrini, birinin o birini doğurduğunu müəyyən etmək; hekayənin bir hissəsinin, bütün hekayənin, öz cavabının sadə planını tərtib etmək; özünün tərtib etdiyi və ya sinifdə tərtib olunmuş sadə plan əsasında hekayənin məzmununu nəql etmək. Yoldaşının cavabı haqqında fikir söyləmək; dərsliyin illüstrasiyasının, tədris şəklinin, diapozitiv seriyasından bir kadrın məzmununu təhlil etmək; xronoloji tarixləri qeyd etmək və sadə xronoloji məsələləri həll etmək.

Kənar informasiya mənbələrindən alınan məlumatları müvafiq mövzularla əlaqələndirmək.

Bunlardan başqa, bu sinifdə tarix dərsliyinin mətnini ifadəli oxumaq, tarix xəritəsindən istifadə etmək vərdişlərinin yaradılması sahəsində məşğələlər aparmaq.

# VI SİNİF

## QƏDİM DÖVR

**Həftədə 1(2) saat, il boyu 34 (68) saat[1].**

## GİRİŞ

**Azərbaycan tarixi ümumdünya tarixinin tərkib hissəsidir - 1(1) saat.**

Azərbaycan tarixini öyrənmək nə üçün lazımdır? Məktəbdə tarix fənnində biz nəyi öyrənirik? Məktəb tarix fənnində Azərbaycan tarixinin yeri.

"Azərbaycan tarixi"-coğrafi anlayış kimi. Azərbaycanın tarixi sərhədləri. Ərazisi və əhalisi. Azərbaycanın təbii-coğrafi şəraiti. Müstəqil Azərbaycan Respublikası Azərbaycanın bir hissəsi kimi.

Azərbaycan tarixini öyrənmək üçün mənbələr.

Dünya tarixi inkişaf prosesində Azərbaycanın və Azərbaycan xalqının yeri və rolu. Azərbaycan tarixinin dərindən araşdırılması və öyrənilməsinin qonşu Şərq ölkələri tarixinin, dünya tarixi inkişaf prosesinin ayrı-ayrı problemlərinin araşdırılması üçün əhəmiyyəti.

Nəticə

Sənəd

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Vətənimiz Azərbaycandır, Azıx mağarasının sirri, Azərbaycan abidələr diyarıdır. Ümumi tarix (VI sinif): tarix nədir və onu nə üçün öyrənirik?

**Mövzu üzrə formalaşdırılan əsas anlayışlar:** "Azərbaycan tarixi" coğrafi anlayış kimi, Müstəqil Azərbaycan Respublikası Azərbaycanın bir hissəsidir. Azərbaycan tarixi ümumdünya tarixinin tərkib hissəsidir.

**Şagirdlərin əsas bacarıqları:** Mövzu üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Digər mövzu, kurs və fənlərdən alınmış bilik və bacarıqları mövzunun öyrənilməsinə tətbiq etmək. Azərbaycanın tarixi sərhədlərini və müstəqil Azərbaycan Respublikasının ərazisini xəritədə göstərmək, onu tarixi xəritələrimizlə müqayisə etmək, Azərbaycan tarixini öyrənmək üçün mənbələrin əhəmiyyətini aydınlaşdırmaq. Azərbaycanın ərazisi ilə əhalisinin tərkibi arasındakı əlaqəni açıqlamaq. Mövzunun əsas anlayışlarından istifadə etməklə Azərbaycan tarixinin ümumdünya tarixinin tərkib hissəsi olduğunu aşılamaq.

---

[1] ***Mötərizədə verilmiş saatlar ictimai fənlərin təhsil sahəsi seçildiyi siniflər üçün nəzərdə tutulmuşdur.***

## I BÖLMƏ

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ İBTİDAİ İCMA QURULUŞU - 6(13) saat.

**1.Azərbaycan ərazisində ilk insan məskənləri - 1(3) saat.**

Azərbaycanın təbii-iqlim şəraiti. İbtidai insanların heyvanlar aləmindən ayrılması. Ən qədim insanlar. "Bacarıqlı adam". İbtidai insan dəstələrinin meydana gəlməsi. Onların əmək alətləri və məşğuliyyəti: yemtoplama və ovçuluq. Azərbaycan ərazisində ən qədim insan izləri. azıx adamı. Oddan istifadə.

**Qəbilə icmasının meydana gəlməsi - 1(2) saat.**

Azərbaycanın ən qədim sakinlərinin əmək prosesində təkamülü. "Ağıllı adam". Nəsil icmalarının yaranması. Qobustan. İbtidai incəsənət. Qədim insanların dini təsəvvürləri.

**İstehsal təsərrüfatlarının yaranması - 1(2) saat.**

Yemtoplamadan toxa əkinçiliyinə, ovçuluqdan maldarlığa keçilməsi. Oturaq həyat. Sənətin inkişafı. Nəsil və tayfa. Metal emalının başlanması.

**Azərbaycanda metal alətlərindən istifadə - 1(2) saat.**

Metal alətlər. Xış və kotan əkinçiliyi. Nəsli icmaların dağılmağa başlaması. Maldarlığın əkinçilikdən ayrılması. Təsərrüfatın inkişafında böyük irəliləyişlər. Maldar tayfalar. Köçəri həyat. Bərabərsizliyin meydana gəlməsi.

**İbtidai icma quruluşunun dağılması - 1(3) saat.**

Nəsli icmaların dağılması. Qonşuluq icması. İcmaçı kəndlilər. İcmanın idarə edilməsində dəyişikliklər. Hərbi başçıların və əyanların rolunun artması. Məişətdə və dini təsəvvürlərdə dəyişikliklər. İbtidai incəsənət.

**Təkrar - ümumiləşdirici dərs: Azərbaycan dövlətəqədərki dövrdə - 1 (1) saat.**

Nəticə
Sənəd
Xronologiya
Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Azərbaycan abidələr diyarıdır, Qobustan, Azıx adamı, Azərbaycan tarixi (VI sinif): Azərbaycan tarixini öyrənmək üçün mənbələr. Ümumi tarix (VI sinif): ibtidai icma quruluşu anlayışı. İbtidai icma quruluşu bəşəriyyətin inkişafında ümumi pillədir. İbtidai icma quruluşunun inkişafında əməyin rolu. Təbiətşünaslıq (V sinif): Yer kürəsi və Günəş haqqında təsəvvürlər. Heyvanlar və bitki aləmi haqqında təsəvvürlər.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Ən qədim insan izləri.

Ulu icma. Nəsil icması. Qonşuluq icması. Azıx adamı. İbtidai incəsənət. Oturaq və köçəri həyat. Metal alətlər. İcmaçı kəndli. Əmlak bərabərsizliyi. Dini təsəvvürlər. Məişət. Sənət.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Digər mövzu, kurs və fənlərdən alınmış əlaqədar bilik və bacarıqları mövzunun öyrənilməsinə tətbiq etmək. Azərbaycan ərazisində yaşayan qədim insanların məşğuliyyəti və yaşayışını təbii iqlim şəraiti ilə əlaqələndirmək. Azıx adamının inkişafını əmək alətləri ilə əlaqələndirmək. Yemtoplama və toxa əkinçiliyinin, ovçuluqla maldarlığın meydana gəlməsi arasındakı əlaqəni açıqlamaq. Əkinçilik, oturaq həyat və sənətin inkişafı arasındakı əlaqəni açıb göstərmək. İbtidai insan dəstəsi, nəsil və tayfa arasındakı fərqi aydınlaşdırmaq. Əkinçi, tayfalarla maldar tayfaların həyat tərzini müqayisə etmək. Toxa əkinçiliyini xış və kotan əkinçiliyi ilə müqayisə etmək. Əkinçiliyin və maldarlığın inkişafı ilə nəsil icmalarının dağılmasının arasındakı əlaqəni aydınlaşdırmaq. Nəsil icması üzvləri ilə icmaçı kəndliləri müqayisə etmək. Metal alətlərdən istifadə edilməsi nəticəsində təsərrüfatın inkişafında böyük dəyişikliklər baş verdiyini faktlarla sübut etmək. İcmanın idarə edilməsində baş verən dəyişiklikləri aydınlaşdırmaq. Hərbi başçıların və əyanların rolunun artmasını ibtidai icma quruluşunun dağılması ilə əlaqələndirmək. İbtidai insanların incəsənəti ilə onların əməyi, məişəti və dini təsəvvürləri arasındakı əlaqəni açıqlamaq. "Metal alət", "Əmək məhsuldarlığı" və "Əmək bərabərsizliyi" anlayışlarını tətbiq etməklə ibtidai icma quruluşunun dağılmasının səbəbini şərh etmək. İnsanın özünün, məişətinin, həyat şəraitinin, əmək alətlərinin təkmilləşdirilməsindən, əmək vərdişlərinin inkişafından asılı olaraq, dəyişdiyini Azərbaycan tarixindən gətirilən misallarla aydınlaşdırmaq. Ən qədim insanların dini təsəvvürləri ilə məşğuliyyəti arasındakı əlaqəni açıb göstərmək.

## II BÖLMƏ

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLK TAYFA BİRLİKLƏRİ VƏ ERKƏN DÖVLƏTLƏR - 12(25) saat.

**2. İlk tayfa birlikləri və erkən dövlətlər - 2(5) saat.**

**İlk tayfa birlikləri - 1(2) saat.**

E. ə. III-II minilliklərdə Azərbaycan ərazisində yaşayan ən qədim tayfalar. Lullubi, kuti, hurri, turukkilər və başqaları. İlk tayfa birliklərinin meydana gəlməsi.

**Erkən dövlət qurumları - 1(3) saat.**

Azərbaycanın şimal və cənub bölgələrində inkişafın fərqli cəhətləri. Er-

kən dövlətlər. Lullubi dövlət qurumu. Lullubilərin ərazisi və məşğuliyyəti. Lullubi dövlət qurumunun yüksəliş dövrü. Qonşu ölkələrlə münasibətləri. Kuti dövlət qurumu. Ərazisi, məşğuliyyəti. Kutilərin qonşu ölkələrlə münasibəti. Dövlət qurumunun yüksəlişi.

Erkən Azərbaycan dövlət qurumlarının parçalanması. Xarici basqınlar. assurların yürüşləri.

**3. Manna dövləti: - 4(9) saat.**

**Mannanın təbiəti və əhalisinin məşğuliyyəti - 1(2) saat.**

Mannanın ərazisi. Mannanın təbii sərvətləri. Əhalisi. Məşğuliyyəti.

**Manna dövlətinin yaranması və yüksəlişi - 1(2) saat.**

E.ə. birinci minilliyin əvvəllərində Manna tayfa birliyi. Şəhərlər. Manna dövlətinin meydana gəlməsi, onun dövlət quruluşu. Padşah Manna dövlətini necə idarə edirdi? İnzibati bölgü. Vergilər və mükəlləfiyyətlər. Mannada hərbi işin yüksəlişi. Manna dövlətinin güclənməsi. Mərkəzləşdirmə siyasəti. Qonşu ölkələrlə münasibətlər.

**Mannanın zəifləməsi və süqutu - 1(3) saat.**

Daxili çəkişmələr. Xarici hücumların güclənməsi. Mannanın süqutu.

**Mannanın təsərrüfat və mədəniyyəti - 1(2) saat.**

Sənət və mübadilə. Mannalıların dini görüşləri və mədəniyyəti.

**4. İskitlər (skiflər) və Azərbaycan - 2(5) saat.**

**İskit (Skif) padşahlığının yaranması - 1(2) saat.**

İskit (Skif) tayfaları. Onların Azərbaycan ərazisinə gəlməsi. Manna ərazisində iskitlərin (skiflərin) yerli əhali ilə qaynayıb qarışması. İskit (skif) padşahlığının Midiya tərəfindən işğal edilməsi və süqutu.

**İskit (Skif) mədəniyyəti - 1(2) saat**

İskit (Skif) kurqanları və İskit (Skif) mədəniyyəti. İskitlərin (Skiflərin) mannalıların mədəniyyətinə, hərbi işinə təsiri.

**5. Azərbaycan Midiya və Fars Əhəməni imperiyalarının tərkibində - 3(5) saat.**

**Azərbaycan Midiya imperiyasının tərkibində - 2(3) saat.**

Midiyanın Mannanı işğal etməsi. Manna Midiya imperiyasının tərkibində ən çox inkişaf etmiş əyalətdir. Mannanın işğal edilməsinin Midiya üçün əhəmiyyəti. Manna mədəniyyətinin və dini baxışlarının Midiya mədəniyyətinə təsiri.

**Azərbaycan Fars Əhəməni imperiyasının tərkibində - 1(2) saat.**

Fars Əhəmənilərin Midiyanı işğal etməsi nəticəsində Azərbaycanın cənub vilayətlərinin əhəmənilər dövlətinin tərkibinə qatılması. Qaumatın üsyanı.

**Təkrar ümumiləşdirici dərs: Azərbaycanın ərazisində ilk tayfa birlikləri və erkən dövlətlər - 1(1) saat.**

Nəticə
Sənəd
Xronologiya
Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Azərbaycan abidələr diyarıdır. Azərbaycan dövləti Manna. Tomrisin qeyrəti. Ümumi tarix (VI sinif): Nəsil icmaları və tayfalar. Cəmiyyətdə sosial təbəqələşmənin başlaması. Qədim Misir. İşkitlər. Midiya dövləti. Azərbaycan tarixi (VI sinif): Azərbaycan ərazisində ibtidai insanlar. Ən qədim insan məskənləri. İbtidai insanların məişəti və dini təsəvvürləri. Azərbaycan ərazisində ibtidai icma quruluşunun dağılması.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Soykökü. Tayfa birlikləri. İlk dövlət qurumları. Dövlət. Erkən dövlətlər. Sənətkar. Mübadilə. Vergi. Mükəlləfiyyət. Qoşun. Xərac. Yadelli. Din. Bütpərəstlik. İskit (Skif) kurqanları. Süvari qoşun növü. Qrifon. Riton. Sfinks.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa mövzu, kurs və fənlərdən alınmış əlaqədar bilik və bacarıqları mövzunun öyrənilməsinə tətbiq etmək. Mövzu xəritəsində və müasir xəritələrdə Azərbaycanda ilk tayfa birliklərinin yerləşdiyi əraziləri müəyyənləşdirmək. Tayfa birliyinin nəsil icmasından fərqli cəhətlərini açıb göstərmək. Azərbaycan ərazisində erkən dövlət qurumlarının meydana gəlməsi ilə əhalinin təsərrüfat həyatı arasındakı əlaqəni göstərmək. Lullubi dövlət qurumunun yüksəliş səbəblərini aydınlaşdırmaq. Lullubilərin qonşu ölkələrlə münasibətlərini təhlil etmək və fərqli cəhətləri aşkara çıxarmaq. Erkən Azərbaycan dövlət qurumlarının parçalanması səbəblərini müəyyənləşdirmək. Erkən dövlətlərin yüksəliş və tənəzzülünə aid faktları ayırd etmək.

Manna dövlətinin mövcud olduğu müddəti əsrlərlə müəyyən etmək. Manna dövlətinin ərazisini xəritədə göstərmək. Azad icmaçı kəndlinin quldan fərqini göstərmək. Əkinçi ilə sənətkarın əməyi və yaşayışı arasındakı fərqi və oxşarlığı aydınlaşdırmaq. Manna dövlətinin apardığı müharibələrin padşah, əyanlar, hərbi rəislər və sıravi döyüşçülər üçün nəticələrini aydınlaşdırmaq. Sənətlə mübadilə arasındakı əlaqəni izah etmək. Mannada hərbi işin yüksəlişi səbəblərini aydınlaşdırmaq. Mannanın qonşu ölkələrlə münasibətlərini təhlil etmək. Manna tarixinə aid öyrənilən faktların Manna dövlətinin meydana gəlməsi, yüksəlişi və tənəzzülü mərhələlərindən hansına aid olduğunu müəyyənləşdirmək. Manna əhalisinin təsərrüfat məşğuliyyəti ilə din və mədəniyyəti arasındakı əlaqəni açıb göstərmək. Manna dövlətinin və Azərbaycan ərazisində meydana gəlmiş erkən dövlətlərin idarə edilməsində olan fərqləri müəyyənləşdirmək. İskit (Skif) tayfalarının

Azərbaycana gəldiyi yolu və İskit (Skif) padşahının ərazisini xəritədə göstərmək. Tarixdə il hesabını düzgün tətbiq etməklə İskit (Skif) padşahlığının müasir dövrdən neçə əsr əvvəl yarandığını müəyyən etmək. İskitlərlə (Skiflərlə) Azərbaycanın yerli əhalisinin bir-birinə qarşılıqlı təsirini faktlarla göstərmək. İskit (Skif) kurqanları anlayışını tətbiq etməklə İskit (Skif) mədəniyyətinin izah etmək. Bu kurqanların Azərbaycan tarixini öyrənmək üçün əhəmiyyətini açıqlamaq. İskit (Skif) padşahlığının Midiya tərəfindən işğalının səbəb və nəticəsini aydınlaşdırmaq.

Mövzu xəritəsində və müasir xəritədə Midiya və Mannanın ərazisini, habelə, Əhəmənilər imperiyası və Azərbaycanı göstərmək. Midiyanın Mannaya yürüşünün və onu işcal etməsinin səbəblərini aydınlaşdırmaq. Mannanın Midiya imperiyası tərkibində ən çox inkişaf etmiş əyalət olduğu fikrini faktlarla əsaslandırmaq. Mannanın işğal edilməsinin Midiya üçün əhəmiyyətini göstərmək. Midiyaın işğalı ilə Azərbaycanın cənub vilayətlərinin Fars Əhəmənilər dövlətinin tərkibinə qatılması arasındakı əlaqəni aydınlaşdırmaq. Qaumatın başçılığı ilə üsyanın səbəb və nəticələrini açıqlamaq. Manna mədəniyyətinin və dini baxışlarının Midiya mədəniyyətində oynadığı rolu izah etmək.

## III BÖLMƏ

## ATROPATEN - AZƏRBAYCAN DÖVLƏTİDİR - 8(13) saat.

**Atropaten dövləti - 8(15) saat**

**6.Atropaten dövlətinin yaranması - 2(4) saat.**

Fars Əhəmənilər dövlətinin zəifləməsi. Makedoniyalı İskəndərin İrana yürüşü. Makedoniyalı İskəndərin Midiyanı işğal etməsi və atropatın Kiçik Midiyaya hakim təyin edilməsi. Atropat görkəmli diplomat və dövlət xadimidir. Cənubi Azərbaycanın ərazisində Atropaten dövləti.

**Atropatenin əhalisi və təsərrüfatı - 2 (4) saat.**

Atropatenin ərazisi, əhalisi və etnik tərkibi. Təbii sərvətləri. Əkinçilər necə yaşayır və işləyirldiər? Balıqçılıq. Sənətkarlar necə yaşayır və işləyirdilər? Duz istehsalı. Ticarət. Atropaten karvan yollarının qovuşucunda. Mübadilə. Tapılan pullar. Şəhərlər və qalalar.

**Atropatenin qonşu dövlətlərlə münasibətləri - 1(2) saat.**

Atropaten - Parfiya münasibətləri. Roma və Atropaten. Ermənilərin Atropatendən asılı olması.

**Atropaten dövlətinin Azərbaycan tarixində yeri və rolu - 1(2) saat.**

Azərbaycan sözünün formalaşması. Azərbaycan xalqının formalaşması prosesinin başlaması. Atropatendə feodal münasibətləri rüşeymlərinin meydana gəlməsi.

**Atropaten mədəniyyəti - 1(2) saat.**

Sənət növləri və nümunələri. İncəsənət, Zərdüşt dini. "avesta".

**Təkrar - ümumiləşdirici dərs: Atropaten - Azərbaycan dövlətidir - 1(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Atropaten - Azərbaycan. Azərbaycan tarixi (VI sinif): Atropaten - Azərbaycan Əhəmənilər imperiyasının satraplıqlarından biridir. Ümumi tarix (VI sinif): Midiya dövləti. Əhəmənilər imperiyası. Qədim Yunanıstan.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Müstəqil Atropaten dövləti. Karvan yolları. Ticarət. Feodla rüşeymləri. "Avesta". Elin mədəniyyəti. Dövlətlərarası münasibətlər. Zərdüştlük.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa mövzu, kurs və fənlərdən alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Mövzu xəritəsində Böyük Midiya və Kiçik Midiyanın ərazisini göstərmək. Müstəqil Atropaten dövlətinin sərhədlərini və Qazaka şəhərinin yerini müasir xəritədə müəyyənləşdirmək. Tarixdə il hesabını düzgün tətbiq etməklə Atropaten dövlətinin müasir dövrdən neçə əsr əvvəl yaranmasını hesablamaq. Müstəqil Atropaten dövlətinin yaranmasında Atropatın rolunu göstərmək. "Atropat görkəmli diplomat və dövlət xadimidir" xarakteristikasını faktlarla əsaslandırmaq. Tapılan pullar əsasında Atropatenin ticarət etdiyi ölkələri göstərmək. Atropaten əhalisinin məşğuliyyətini Azərbaycanın təbii-coğrafi şəraiti ilə əlaqələndirmək. Atropatenin başqa dövlətlərlə münasibətlərini onun coğrafi mövqeyi ilə bağlamaq. Atropatenin Parfiya və Roma ilə əlaqələrini aydınlaşdırmaq. Atropaten dövlətində ermənilərin vəziyyətini təsvir etmək. Atropaten - Azərbaycan anlayışlarının əlaqəsini aydınlaşdırmaq. Atropaten dövlətinin Azərbaycan tarixində yerini və rolunu göstərmək. Atropatenın təsərrüfat həyatında feodal rüşeymlərinin əmələ gəldiyini faktlarla sübut etmək.

## IV BÖLMƏ

## ALBANİYA ÇARLIĞI - 7(13) saat.

**7. E.ə. IV - eramızın III əsrlərində Albaniya - 7(13) saat.**

**Albaniya dövlətinin yaranması - 1(2) saat.**

Ərazisi. Təbiəti. Əhalisi. Etnik tərkibi. Zümrələr. Əhalisinin məşğuliyyəti. İctimai quruluşu. Albaniya dövlətinin meydana gəlməsi. Albaniya dövləti

necə idarə olunurdu?

**Albaniyanın təsərrüfatı - 2(4) saat.**

Əkinçilik. Süni suvarma. Əkinçilər nə və necə əkirdilər? Maldarlıq. Bağçılıq. Bostançılıq. Balıqçılıq. Sənətkarlıq. Toxucular və duluzçular nə və necə düzəldirdilər. Kirəmit və şüşə istehsalı. Ticarət. Karvan yolları. albanlar nə satır və alırdılar? Şəhərlər. Alban şəhərləri haqqında antik müəlliflərin məlumatları. Qəbələ - "Albaniyanın baş şəhəri". Şəhər təsərrüfatı. Albaniyada feodal münasibətlərinin yaratmağa başlaması.

**Albaniyanın qonşu dövlətlər ilə münasibətləri. Yadellilərə qarşı mübarizə - 2(4) saat.**

Atropaten və Albaniya arasında qarşılıqlı təsərrüfat əlaqələri və onun genişlənməsi. Alban döyüşçüsü. Alban qoşunu. Albanların Roma işğalçılarına qarşı mübarizəsi. Arazdan şimaldakı Azərbaycan torpaqlarının bütövlüyünün qorunub saxlanmasında Alban dövlətinin rolu.

**Albaniyanın mədəniyyəti - 1(2) saat.**

Mədəni həyat. Alban yazısı. Memarlıq. Atropaten və Albaniya arasında mədəni əlaqələr. Albanların dini görüşləri. Dini təsəvvürlər, el adəti və mərasimləri. Albaniyanın bəzi vilayətlərində xristianlığın yayılması. Azərbaycan xalqının yaranması prosesi.

**Təkrar - ümumiləşdirici dərs: Albaniya çarlığı Azərbaycanın şimal torpaqlarında yaranmış ilk dövlətdir 1(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Qədim Albaniya. Qəbələ. Azərbaycan tarixi (VI sinif): Romalıların şərqə işğalçı yürüşləri. Azərbaycanın təbii-coğrafi şəraiti, Azərbaycan dövləti Atropaten.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Əhalinin təbəqələşməsi. Zümrələr. Azərbaycan torpaqlarının bütövlüyü. Feodal qaydaları. Mədəni həyat. Təsərrüfat əlaqələri. Mədəni əlaqələr. El adətləri və mərasimləri.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Digər mövzu, kurs və fənlərdən alınmış əlaqədar bilik və bacarıqları mövzunun öyrənilməsinə tətbiq etmək. Mövzu xəritəsində Albaniya dövlətinin ərazisini göstərmək. Kontur xəritədə Albaniya və Atropaten dövlətlərinin ərazilərini nişanlamaq. Albaniya dövlətinin idarə olunmasını Qədim Şərqin hər hansı bir dövlətinin idarə olunması ilə müqayisə etmək. Əkinçilərin nə və necə əkdiklərini təsvir etmək. Albaniyanın təbii sərvətləri ilə sənətkarlığın inkişafı arasındakı əlaqəni gös-

tərmək. Toxucular və dulusçuların nə və necə hazırladıqlarını şərh etmək. Albaniyada əkinçilik, sənətkarlıq və ticarətin inkişafı ilə şəhərlərin meydana gəlməsi arasındakı əlaqələri göstərmək. Albaniyanın paytaxt şəhərlərini göstərmək, onların paytaxt kimi seçilməsinin səbəblərini aydınlaşdırmaq. Alban doyüşçüsünü təsvir etmək. Alban qoşununu təhlil etmək. Arazdan şimaldakı Azərbaycan torpaqlarının bütövlüyünün qorunub saxlanılmasında Albaniya dövlətinin rolunu göstərmək. Albaniyanın təsərrüfat həyatında feodal qaydalarının meydana gəlməsini faktlarla sübut etmək. Albaniyada feodal-kəndli münasibətlərini təhlil etmək. Atropaten və Albaniya arasında qarşılıqlı təsərrüfat və mədəni əlaqələrin genişlənməsini faktlarla sübut etmək və bunun Azərbaycan xalqının yaranması ilə əlaqəsini aydınlaşdırmaq. Albanların dini təsəvvürləri, el adəti və mərasimləri arasındakı əlaqələri izah etmək.

**Yekunlaşdırıcı ümumiləşdirmə: Azərbaycan ərazisində ibtidai icma və quldarlıq cəmiyyətlərinin əsas xüsusiyyətləri - 0(1) saat.**

## Qaynaqlar və ədəbiyyat

### I bölməyə dair


1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

2. Azərbaycan tarixi, I cild. Bakı, 1958.

3. Azərbaycan tarixi (Z. M. Bünyadov və Y. B. Yusifovun redaktəsi ilə), Bakı, 1994.

4. Azərbaycan tarixi (K. Əliyev və S. Əliyarlının redaktəsi ilə). Bakı. 1996.

5. Azərbaycan tarixi. 7 cilddə. I cild. Bakı, 1999.

6. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР, Баку, 1982.

7.Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур, Баку, 1959.

8. Алекперов А.К. Исследование по археологии и топографии Азербайджана, Баку, 1960.

9. Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, 1984.

10. Bünyadov. T.Ə. Azərbaycan arxeologiyası oçerkləri.Bakı, 1960.

11. Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixindən. Bakı, 1964.

12. Cəfərov Ə.Q. Quruçay dərəsində. Bakı. 1990.

13. Əliyev V.H. Qədim Naxçıvan. Bakı, 1990.

14. Əliyev V.H. Tarixin izi ilə. Bakı, 1975.

15. Əliyev V.H. Gəmiqaya abidələri. Bakı, 1993.
16. Əliyev V.H. Azərbaycanda boyalı qablar mədəniyyəti, Bakı, 1977.
17. Göyüşov R. B. Azərbaycan arxeologiyası. Bakı, 1986.
18. Hüseynov M. M. Azərbaycan arxeologiyası. Daş dövrü. Bakı, 1976.
19. Hüseynov M. M. Uzaq daş dövrü. Bakı, 1973.
20. Hüseynov M. M. Azıx mağarasının sirri. Bakı, 1968.
21. Haqverdiyev Ə. Ş. Azərbaycan tarixi (ən qədim zamanlardan VII əsrə qədər). Bakı, 1985.
22. Xəlilov S.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959.
23. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.
24. Исмаилов Г.С. Археологические исследования древного населения Бабадервиша. Баку, 1978.
25. İsmizadə O. Yaloylutəpə mədəniyyəti. Bakı, 1956.
26. Камской С.М., Джафарзаде И.М.Гобустан. Баку, 1979.
27. Muradova F. R. Qobustan tung dövründə. Bakı, 1979.
28. Rüstəmov S. N. Qobustan dünyası. Bakı, 1994.

**II Bölməyə dair:**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
2. Azərbaycan tarixi. I cild. Bakı, 1958.
3. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə, Bakı, 1994.
4. Azərbaycan tarixi (K.Əliyev və S. Əliyarlının redaktəsi ilə). Bakı, 1996.
5. Azərbaycan tarixi. 7 clddə. I cild. Bakı, 1999.
6. Алиев И.П. История Мидии. Баку, 1960.
7. Дяконов И.М. История Мидии. М. Л. 1956.
8. Heredot. Tarix. Bakı, 1998.
9. Крамер С.Н. История начинается в Шумере. Москва, 1965.
10.Кашкай С.М. Из истории Маннейского царства. Баку, 1977.
11. Qaşqay S. M. Manna dövləti. Bakı, 1993.
12. Qumilyov L. N. Qədim türklər. Bakı, 1993.
13. Səfərov Y. Qədim Azərbaycan: nə bilirik? Bakı, 1989.
14. Yusifov Y. B., Kərimov S. K. Toponimikanın əsasları. Bakı, 1987.
15. Юсифов. Ю.Б. Киммеры, скифы и саки в древнем Азербайджане-Кавказско-Ближневосточный сборник. Тбилиси, 1988.

**III Bölməyə dair:**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

2. Azərbaycan tarixi. I cild. Bakı, 1958.
3. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.V.Yusifovun redaktəsi ilə), Bakı, 1994.
4. Azərbaycan tarixi (K. Əliyev və S. Əliyarlının redaktəsi ilə). Bakı, 1996.
5. Azərbaycan tarixi. 7 cilddə. I cild. Bakı, 1999.
6. Алиев И. Очерки истории Атропатены. Баку. 1989.
7. Алиев И.П. История Мидии. Баку, 1960.
8. Fazili A. Atropatena. E.ə. IV - eramızın VII əsri. Bakı, 1992.
9. İsmayılov M.A. Azərbaycan tarixi. Bakı, 1992.
10. Qasımova S. Y. Cənubi Azərbaycan III-VII əsrlərdə. Bakı, 1983.
11. Ямпольский З.М. Атропатена и Кавказская Албания в III-I вв до н.э. Баку, 1952.
12. Zeynaloğlu Cahangir. Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992.

**IV Bölməyə dair**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
2. Azərbaycan tarixi. I cild. Bakı, 1958.
3. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redakiəsi ilə), Bakı, 1994.
4. Azərbaycan tarixi (K.Əliyev və S.Əliyarlının redaktəsi ilə). Bakı. 1996.
5. Azərbaycan tarixi. 7 cilddə. I cild. Bakı, 1999.
6. Алиев К.Г. Кавказская Албания (I в до н.э. - I в н.э.) Баку, 1974.
7. Алиев К.Г. Античная Кавказская Албания, Баку, 1992.
8. Алиев К.Г. Города Кавказкой Албании. Баку, 1990.
9. Babayev Y.A., Əhmədov Q. M. Qəbələ. Bakı, 1982.
10. Бабаев И.А. Кавказская Албания. Баку, 1991.
11. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в до н.э.. III в н.э.). Баку, 1985.
12. İsmayılov M. Ə. Azərbaycan tarixi. Bakı, 1992.
13. Kalankaytüklü Musa. Albaniya tarixi. Bakı, 1993.
14. Геюшов Р.Б. Христианство в Кавказкой Албании. Баку, 1984.
15. Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1994.
16. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982.
17. Сумбатзаде А.С. Азербайджанцы - этногенез и формирование народа. Баку, 1990.
18. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М-Л. 1959.

19. Ямполский З.М. Древняя Албания. III-I вв до н.э. Баку, 1962.
20. Voroşil Q.L. Qafqaz Albaniyası, Bakı, 1993.

**Sinifdənxaric oxu üçün ədəbiyyat:**
1. Çəmənzəminli Y. M. Qızlar bulağı.
2. Oktay Altunbay Tomiris.
3. Həbiboğlu Vəli. Türk sərkərdələri.

**I. Xəritələr və atlaslar:**
1. "Dünyanın siyasi xəritəsi"
2. "Azərbaycan Respublikasının siyasi tarixi".
3. "Azərbaycan Respublikası. Arxeoloji abidələr və mədəniyyətlər".
4. "İlk dövlət birlikləri".
5. "Manna çarlığı" (e. ə. IX-VII əsrlər)
6. "Atropatena"
7. "Albaniya e.ə. III əsrdə"
8. "Mada (Midiya) dövləti (e. ə. VII əsrin son rübü-e.ə. VI əsrin ortaları)".

**II. Cədvəllər, sxemlər, diaqramlar.**
1. "Azərbaycan ən qədim zamanldardan dövlətəqədərki dövrdə: arxeoloji dövrlər, abidələr, hadisələr".
2. "Azərbaycanda tung və dəmir dövrü: abidələr, təsərrüfat və sosial-siyasi həyat".
3. "Azərbaycan və ona qonşu olan vilayətlərin əhalisinin etnik tərkibi" (e.ə. III-II minillik).
4. "Azərbaycan və ona qonşu olan vilayətlərin əhalisinin etnik tərkibi" (e.ə. I minillik).
5. "Atropatena əhalisinin etnik tərkibi".
6. "Albaniya əhalisinin etnik tərkibi".

**III. Audovizual vasitələr:**
Tədris filmləri: "Qobustan", "Azərbaycanın arxitektura abidələri".
Bədii film: "Bizim eradan milyon il əvvəl".

## VII SİNİF

# AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ

**Həftədə 1(2), ilboyu 34(68) saat.**

## I BÖLMƏ

**Azərbaycan Sasani imperiyası tərkibində (III-VII əsrin ortaları) - 5(12) saat.**

**1. Azərbaycanda feodal münasibətləri - 1(2) saat.**

**Azərbaycanda feodal münasibətlərinin yaranması - 0,5 (1) saat.**

Torpaq üzərində feodal mülkiyyəti: meydana gəlməsi, formaları və xüsusiyyətləri. Feodallar və kəndlilər. Kəndlilərin yaşayışı və əməyi.

**Natural təsərrüfat - 0,5(1) saat.**

Vergi və mükəlləfiyyətlər. Feodalların həyatı və məişəti. Azərbaycanda feodal münasibətlərinin **Qərbi avropa ölkələrindən** fərqli cəhətləri.

**2. Atropatendə feodal münasibətlərinin dərinləşməsi - 1(2) saat.**

**Atropatenin Sasani imperiyası tərkibinə qatılması - 0,5(1) saat.**

Sasanilərin Atropateni işğal etməsi. Zərdüştülüyün Atropaten ərazisində rəsmi din elan olunması. Zərdüştülüyün baş məbədi.

**Atropatendə feodal qaynaqları - 0,5(1) saat.**

Feodal münasibətlərinin dərinləşməsi. İcma torpaqları. Məbəd torpaqları. Qul əməyindən istifadə. Can və torpaq vergiləri. Əlavə vergilər. Vergilər necə ödənilir?

**3. Albaniyada feodal münasibətlərinin inkişafı - 3(7) saat.**

**Albaniya dövləti - 0,5(1) saat.**

IV əsrdə Albaniya dövlətinin ərazisi, əhalisi, təsərrüfat həyatı. Vergilər. Albaniya dövlətinin idarə olunması.

**Albaniyada feodallar və kəndlilər - 0,5 (2) saat.**

Feodal qrupları: patriklər və azatlar. Feodal torpaq sahibliyinin formaları. Xüsusi sahibkar torpaqları, iri feodalların irsi torpaqları. Kəndli qrupları: azad kəndlilər, asılı kəndlilər.

Ölkə ərazisinin bəzi yerlərində xristianlığın yayılması və bunun feodal münasibətlərinin möhkəmlənməsində rolu. Albaniyanın Sasanilərdən asılı vəziyyətə düşməsi.

**Azərbaycanda Sasani əsarətinə qarşı üsyanlar - 1(2) saat.**

Azərbaycanda Sasani zülmü. Köçürmə siyasəti. Sasani əsarətinə qarşı üsyanlar. Xalxal üsyanı. Albaniyada hökmdar hakimiyyətinin ləğvi və yenidən bərpası. Məzdək hərəkatı və onun nəticələri.

**Girdiman dövləti. Cavanşir - 0,5(1) saat.**

Mehranilər sülaləsi, Qirdiman dövləti. Albaniya hökmdarı Cavanşir. Cavanşirin dövründə Albaniyanın ərazisi.

**Sasanilərin hakimiyyəti dövründə Azərbaycan mədəniyyəti - 0,5(1) saat.**

Azərbaycanın cənub vilayətləri ilə şimal vilayətləri arasında mədəni əlaqələr. Sasani mədəniyyətinin təşəkkülündə Azərbaycanın rolu. Alban əlifbası. Ədəbiyyat və elm. Dəvdək. M.Kalankatlı. Alban memarlığı. Dini görüşlər və xalq mərasimləri.

Türk tayfaları və onların Azərbaycan xalqının təşəkkülündə rolu. Vahid xalqın yaranması prosesinin sürətlənməsi.

**Təkrar - ümumiləşdirici dərs: Azərbaycan feodal münasibətlərinin yaranması və dərinləşməsi 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Atropaten - Azərbaycan. Qədim Albaniya dövləti. Qəbələ - Albaniyanın paytaxtı. Cavanşir. Azərbaycan tarixi (VI sinif): Atropaten və Albaniyada feodal münasibətləri. Ümumi tarix (VII sinif): feodal münasibətlərinin meydana gəlməsi və inkişafı. Sasani imperiyasının yaranması. Qafqaz erkən orta əsrlərdə.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Torpaq üzərində dövlət və xüsusi feodal mülkiyyəti formaları. Torpaq üzərində xüsusi feodal mülkiyyətinin iki forması: irsi torpaq sahibliyi, şərti torpaq sahibliyi. Natural təsərrüfat. Azərbaycanda feodal münasibətlərinin fərqləndirici cəhətləri. Siyasi müstəqillik. Feodal dövləti. Məzdəkilik. Böyük knyaz. Xalqın formalaşması. Mərzban. Mədəni əlaqələr. Alban əlifbası. Patrik. azad. Şinakan. Ramik. Can vergisi (gezit). Xərac. Alban kilsəsi. Provoslav kilsəsi. Şəxsi asılılıq. Təhkimki kəndli. Biyar. Maniçilik. Dini zəmində qiyamlar. İcma torpaqları. Etnik siyasət. Köçürmə siyasəti.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış bilik və bacarıqları mövzuların öyrənilməsinə tətbiq etmək. Feodalizm quruluşu və onun əsas xüsusiyyətini aydınlaşdırmaq. Feodalizm quruluşunun quldarlıq quruluşundan əsas fərqlərini ayırmaq. Təhkimki ilə asılı kəndli arasındakı fərqləri göstərmək. Qul əməyi ilə kəndli əməyini müqayisə etmək əsasında feodalizm cəmiyyətində əmək məhsuldarlığının daha üstün inkişafı nəticəsini çıxarmaq. Azərbaycanda feodalizm quruluşunu Qərbi avropada feodalizm quruluşu ilə müqayisə etmək, onlar arasında əsas fərqi

aydınlaşdırmaq. Atropaten və Albaniyada feodalizmin inkişaf xüsusiyyətini müəyyənləşdirmək. Torpaq üzərində feodal mülkiyyət formalarını ayırd etmək. Natural təsərrüfatın mahiyyətini açmaq. Feodal dövləti ilə quldarlıq dövlətini müqayisə etmək. Atropaten və Albaniyada Sasani zülmünün fərqini göstərmək. Məzdəkiliyin mahiyyətini şərh etmək. Mani təlimi ilə Məzdək təlimi arasındakı ümumi və fərqli xüsusiyyətləri müəyyənləşdirmək. Sasanilərin etnik və köçürmə siyasətinin mahiyyətini izah etmək. Cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş vermiş dini-siyasi qiyamların mahiyyətini izah etmək, onların Azərbaycanın tarixi ərazilərinə sahib olmaq istəyən ermənilərin məkrli siyasətinin tərkib hissəsi olduğunu faktlarla sübut etmək. Atropaten və Albaniyanın idarə edilməsində fərqli cəhətləri müəyyənləşdirmək. Xalqın formalaşdırılmasını şərtləndirən amilləri göstərmək. Sasani mədəniyyətinin təşəkkülündə Azərbaycan mədəniyyətinin rolunu açıqlamaq. Azərbaycanın şimal və cənub vilayətləri arasında mədəni əlaqələrin inkişafında Sasani imperiyasının rolunu aydınlaşdırmaq. Sasani imperiyasının Azərbaycanda mədəni inkişafa təsirini müəyyənləşdirmək.

## II BÖLMƏ

## AZƏRBAYCAN XİLAFƏTİN TƏRKİBİNDƏ (VII ƏSRİN ORTALARI - IX ƏSRİN ORTALARI) - 5(12) saat.

**4. Azərbaycan ərəb işğalları ərəfəsində - 1,5(3) saat.**

**Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət - 0,5 (1) saat.**

Ərəb işğalları ərəfəsində Azərbaycanın siyasi və iqtisadi vəziyyəti. Xarici ölkələrlə ticarət əlaqələri.

**Alban hökmdarı Cavanşirin yadellilərə qarşı mübarizəsi - 0,5(1) saat.**

Cavanşirin xarici siyasəti və Sasani dövləti. Sasanilərin ərəblərə qarşı mübarizəsi və Cavanşir. Albaniya-Xəzər münasibətləri və xarici siyasəti. Cavanşirin ölkənin müstəqilliyinin saxlanması uğrunda mübarizəsi.

**Ərəblərin Azərbaycanı işğal etməsi - 0,5(1) saat.**

Ərəblərin Sasani imperiyasını məğlub etməsi. Azərbaycanın Xilafətin tərkibinə daxil edilməsi. Azərbaycanda islam dininin yayılması. Azərbaycanın müstəqilliyinə son qoyulması.

**5. Azərbaycan Xilafətin tərkibində - 3,5 (8) saat.**

**Sosial-siyasi vəziyyət - 0,5 (1) saat.**

Azərbaycanda ərəb zülmü. Feodal münasibətlərin daha da möhkəmlənməsi. Torpaq sahibliyi. İqta. Ərəblərin vergi siyasəti. Ərəblərin hakimiyyəti dövründə Azərbaycanın idarə edilməsi. Köçürmə siyasəti.

**Ərəb əsarətinə qarşı xalq azadlıq hərəkatının başlanması - 0,5 (1) saat.**

Xalq azadlıq hərəkatının başlanması. Xürrəmilər hərəkatı. Cavidan.

**Babəkin başçılığı altında Azərbaycan azadlıq müharibəsi - 1 (2) saat.**

Babəkin başçılığı ilə xalq azadlıq hərəkatının qüvvətlənməsi. Babək. Həştadsar vuruşması. Azərbaycan xalqının mübarizəsinin Xilafətin zəifləməsində rolu.

**Xilafət dövründə Azərbaycanın təsərrüfat həyatı - 0,5 (2) saat.**

Xilafət dövründə sənətkarlıq, ticarət. Ticarət yolları. Şəhərlər. Azərbaycan vilayətləri arasında əlaqələrin möhkəmlənməsi. Azərbaycanın xarici ticarət əlaqələrinin genişlənməsi.

**Xilafət dövründə Azərbaycan mədəniyyəti - 0,5 (1) saat.**

İslam mədəniyyəti və Azərbaycan. Azərbaycanın islam mədəniyyətinin təşəkkülündə rolu. Ərəb səyyah və alimləri Azərbaycan haqqında.

**Azərbaycan xalqının təşəkkülü - 0,5 (1) saat.**

Vahid Azərbaycan xalqının təşəkkül prosesi və prosesdə islam dininin rolu. Azərbaycan xalqının yaranması prosesinin başa çatması.

**Təkrar ümumiləşdirici dərs: Azərbaycan Ərəb Xilafətinin tərkibində - 0 (1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Cavanşir. Dəmirqapı-Dərbənd. Babək. Azərbaycan tarixi (VI sinif) atropoten dövlətinin yaranması. Azərbaycan xalqının təşəkkül prosesinin başlanması. Azərbaycan tarixi (VII sinif) Atropaten və Albaniyada feodal münasibətləri. Ümumi tarix (VII sinif) Ərəb xilafətinin yaranması. İslam dininin qəbul edilməsi. İslam mədəniyyəti. Azərbaycan Respublikasının fiziki coğrafiyası (VII sinif) Azərbaycan səyyahlarının gözü ilə. Azərbaycanda coğrafiya elminin inkişafında səyyah və coğraficaşünasların rolu.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Xürrəmilər. Mühərrimilər. Kəndli müharibəsi. azadlıq müharibəsi. İqta. İcma. Mülk. Vəqf. Cizyə. Fitrə. Zəkat. Xums. Ulaclar. İlçə. Zimmilər. Mövlalar. Əmir. Əmirlik. Vali. amil. Mütəqəbbil. Mütəsərrif. İslam dini. İslam mədəniyyəti. Bəril. Xarici ticarət. Vahid xalqın təşəkkülü prosesi. Etnik axınlar. İrsi torpaq sahibliyi.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış bilik və bacarıqları mövzunun öyrənilməsinə tətbiq etmək. Ərəb işğalları

ərəfəsində Azərbaycanın təsərrüfat həyatını səciyyələndirmək. Ərəb işğallarının xilafətin güclənməsinə və süqutuna təsirini izah etmək. Cavanşirin sasanilər, ərəblər, Bizans və xəzərlərlə əlaqə və münasibətlərində nə məqsəd güddüyünü izah etmək. Azərbaycanda ərəb işğallarını asanlaşdıran amilləri müəyyənləşdirmək. İslam dininin Azərbaycanda könüllü qəbul edilməsinə təsir edən amilləri aydınlaşdırmaq və islam dininin humanist, ədalətli, həyati bir din kimi rəğbətlə qarşılanmasının səbəblərini göstərmək. Cavanşirin bir sərkərdə, diplomat, dövlət xadimi kimi yeritdiyi daxili və xarici siyasəti təhlil etmək. Ərəb ağalığı dövründə Azərbaycanda feodal münasibətlərinin möhkəmləndiyini faktlarla göstərmək. Ərəblərin Azərbaycanı işğal etməsi prosesini xəritə üzrə izləmək və şərh etmək. Ərəb işğalına qədər Azərbaycanda olan şərti torpaq sahibliyi ilə iqta arasındakı ümumi cəhəti göstərmək. Sasanilərin və ərəblərin hakimiyyəti dövründə Azərbaycan torpaqlarının idarə edilməsində ümumi və fərqli cəhətləri aşkara çıxarmaq. Xürrəmiliyin məzmununu açmaq. Babəkin başçılığı altında hərəkatın həm azadlıq müharibəsi, həm də kəndli müharibəsi olduğunu və xilafəti zəiflətdiyini sübut etmək. Xilafət dövründə Azərbaycanda sənətkarlıq, ticarət və şəhərlərin inkişafı səbəblərini və bunların arasındakı əlaqələri aydınlaşdırmaq. Xilafət dövründə ticarət yollarını və Azərbaycanın xarici ticarət əlaqələrini xarici ticarət kontur xəritədə nişanlamaq. Azərbaycanın şimal və cənub vilayətləri arasında mədəni əlaqələrin inkişafında ərəb xilafətinin rolunu aydınlaşdırmaq. İslam mədəniyyəti ilə Azərbaycan mədəniyyətinin qarşılıqlı əlaqədə inkişaf etdiyinə dair konkret faktlar gətirmək.

## III BÖLMƏ

## XİLAFƏTİN SÜQUTU VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN DİRÇƏLİŞİ. İQTİSADİ VƏ MƏDƏNİ TƏRƏQQİ (IX ƏSRİN II YARISI - XI ƏSRİN ORTALARI) - 23 (41) saat.

**6. Azərbaycan dövlətçiliyinin dirçəlişi - 1(2) saat.**

**Ərəb xilafətinin zəifləməsi və Azərbaycanda müstəqil dövlətlərin yaranması - 1 (2) saat.**

Ərəb xilafətinin zəifləməsi və iri feodalların mövqeyinin qüvvətlənməsi, əyalət hakimlərinin müstəqilliyinin artması. Feodal zülmünə qarşı mübarizə. İşğal olunmuş torpaqlarda xalq azadlıq hərəkatının genişlənməsi. Azərbaycanda müstəqillik meylinin güclənməsi. İri feodalların müstəqil yerli hakimlərə çevrilməsi. Azərbaycan ayrı-ayrı vilayətlərin müxtəlif feodal sülalələri tərəfindən idarə olunması. Azərbaycanda yerli feodal dövlətlərin yaranması. Azərbaycan dövlətçiliyinin dirçəlişinin əhəmiyyəti. Siyasi oya-

nış (intibah).

**7. Şirvanşahlar dövləti - 2 (3) saat.**

**Şirvanşahlar dövlətinin yaranması və siyasi yüksəlişi - 1 (1) saat.**

Məzyədilər. Şirvanın müstəqil elan olunması. Qonşu Lahıcanşahlığın Şirvanşahlar dövlətinə birləşdirilməsi. Paytaxtın Şamaxıya köçürülməsi. Xırda feodal mülklərinin Şirvan ətrafında birləşdirilməsi prosesinin davam etməsi. Qəbələ, Bərdə və Şabranın ələ keçirilməsi. Dərbənd əmirliyinin Şirvanşahlarla birləşdirilməsi və bunun hərbi-strateji əhəmiyyəti. Dərbənd qalasının möhkəmləndirilməsi. şirvanşahların ərazisinin və nüfuz dairəsinin genişlənməsi.

**Şirvanşahlar dövlətinin iqtisadi inkişafı - 1(2) saat.**

Təsərrüfat həyatı, şəhərləri və kəndləri. Ərəb səyyahları Şirvanşahlar dövlətinin şəhər və kəndləri haqqında. Əhalinin məşğuliyyəti. Sənətkarlıq. Neft və duz hasilatı. Balıqçılıq. Ticarət. Əmtəə istehsalının artması. Şirvan şəhərlərinin ayrı-ayrı əmtəə növlərinin istehsalı üzrə ixtisaslaşması. Şamaxıda ipək parça istehsalı. Karvan yolları. Beyləqanda dulusçuluq. İkiyaruslu dulusçuluq sobası. Şüşə və şüşə məmulatları istehsalı. Şirvanşahların basqınlarına qarşı mübarizə.

Şirvanşahlar dövlətinin meydana gəlməsinin tarixi əhəmiyyəti.

**8. Sacilər dövləti - 2(3) saat.**

**Sacilər dövlətinin yaranması - 1(1) saat.**

Sacilər sülaləsinin mənşəyi. Sacilər dövlətinin meydana gəlməsinin etnik-siyasi əsası. Sacilərin hakimiyyəti dövründə Azərbaycanın cənub rayonlarında müstəqil dövlətin yaranması. Məhəmməd ibn Sacin erməni və gürcü hakimlərinə qarşı mübarizəsi.

**Sacilər dövlətinin xarici siyasəti - 1(2) saat.**

Sacilər dövləti Yusif ibn Əbu Sac dövründə. Dövlətin ərazisi. Paytaxtı. Azərbaycanın bütün torpaqlarının Sacilər dövlətinin tərkibində birləşdirilməsi və bunun tarixi əhəmiyyəti. Yusif ibn Əbu Sacin erməni hakimlərini asılı vəziyyətə salması. Yusifin Dvini ələ keçirməsi. Yusif ibn Sacin Gürcüstan yürüşü. Kveli qalasının mühasirəsi və alınması. Dərbənd qalasının möhkəmləndirilməsi.

**9. Salarilər dövləti - 1(2) saat.**

Salarilər dövlətinin yaranması. Ərazisi. Paytaxtı. Dövlətin ərazisinin genişləndirilməsi. Slavyanların basqınlarına qarşı mübarizə. Erməni hakimliyinin Salarilər dövlətinə qatılması. Şərqi Gürcüstanın itaət altına alınması. Azərbaycan torpaqlarının yenidən vahid dövlət daxilində birləşməsi.

İqtisadi həyat. İqtisadi əlaqələrin inkişafı. Sənətkarlıq və ticarətin tərəqqisi. Xarici ticarət əlaqələrinin genişlənməsi. Azərbaycanın ticarət gəmilərinin üzməyə başlaması. Bütün Yaxın və Orta Şərqdə Azərbaycanın iqtisa-

di və hərbi-siyasi rolunun artması. Azərbaycan xalqının formalaşmasının daha da dərinləşməsi.

Salarilər dövlətinin süqutu və onun səbəbləri.

**10. Rəvvadilər dövləti - 1(2) saat.**

**Rəvvadilər dövlətinin yaranması - 1(2) saat.**

Rəvvadilər sülaləsinin mənşəyi. Rəvvadilər dövlətinin əsasının qoyulması. Rəvvadilərin Azərbaycanın cənub torpaqlarını öz hakimiyyəti altında birləşdirməsi. Oğuz tayfalarının Azərbaycana yeni axınları. Bizans imperiyasına və erməni-gürcü feodallarına qarşı mübarizədə rolu.

Ölkənin paytaxtının Ərdəbildən Təbrizə köçürülməsi, bunun səbəbləri və tarixi əhəmiyyəti.

**11. Şəddadilər dövləti - 2(3) saat.**

**Şəddadilər dövlətinin yaranması - 1(1) saat.**

Azərbaycan Şəddadilər dövlətinin əsasının qoyulması. Şəddadilərin hakimiyyətinin qüvvətlənməsi. Dövlətin ərazisinin şərqə doğru daha da genişlənməsi. Mərkəzi hakimiyyətin gücləndirilməsi. Erməni hakiminin Şəddadilər dövlətinə bac verməyə məcbur olması. Gürcü feodallarına qarşı mübarizə. Xüdafərin körpüsünün salınması və əhəmiyyəti.

**Şəddadilər dövlətinin xarici siyasəti - 1(2) saat.**

Şəddadilərin digər Azərbaycan sülaləri ilə əlaqələri. Oğuz axınları. Şəddadilərin hərbi qüdrətinin artması. Dəbili ələ keçirməyə çalışan Bizans-erməni qoşunlarının məğlub edilməsi. Bizans və gürcü feodallarının birləşmiş qüvvələrinin Tiflis müsəlman əmirliyini aradan qaldırmaq cəhdinin qarşısının alınması. Ölkənin paytaxtı Gəncənin möhkəmləndirilməsi. Gəncənin qala qapıları.

Kiçik asiyanın şərqində Bizans və erməni hərbi qüvvələrinə qarşı Şəddadilərin mübarizəsi. Oğuz türkləri Şəddadi qoşunlarının zərbə qüvvəsi kimi. Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında islam-türk birliyinin rolu.

**Təkrar - ümumiləşdirici dərs: Azərbaycan dövlətçiliyinin dirçəlişi - 0(1) saat.**

**12. Slavyanların Azərbaycana basqınları - 2(2) saat.**

**Slavyanların Azərbaycana ilk hücumları - 1(1) saat.**

Azərbaycanda vahid dövlətin olmamasının yadelli hasqınlara qarşı mübarizəni çətinləşdirməsi. Erməni və gürcü feodallarının Azərbaycanın qərb torpaqlarını ələ keçirmək cəhdləri. Qədim Rus dövlətində Azərbaycana marağın artması. Slavyan tacirlərinin Azərbaycanda və Azərbaycandan gedən karvanlar vasitəsilə Şərqdə ticarət etməsi.

Slavyanların Xəzərsahili Azərbaycan torpaqlarına basqınları. Slavyanların Bakı sahillərinə yaxın adalarda düşərgə salması. Sahil məntəqələrinin

qarət edilməsi. Dinc əhaliyə divan tutulması. Qarətdən qayıdan slavyan drujinaları ilə müsəlman türk qoşunu arasında vuruşma. Vuruşmanın nəticəsi.

**Slavyanların Azərbaycana 944-cü il yürüşü - 1(1) saat.**

Slavyanların 944-cü ildə Bərdəyə yürüşü və onun səbəbləri. Bərdəyə hücum zamanı hərbi qüvvələrin nisbəti. Slavyanların Bərdəni alması və qarət etməsi. Bərdəni əldə saxlamaq üçün slavyanların cəhdləri və bunların nəticəsi.

Salari hökmdarı Mərzban ibn Məhəmmədin Bərdənin köməyinə gəlməsi. Slavyanlarla döyüş, Mərzban ibn Məhəmmədin hərbi fənd işlətməsi. Bərdənin mühasirəsi. Mühasirənin uzanması. Slavyanlar arasında yoluxucu xəstəliklər və tələfat. Slavyanların mühasirəsini yararaq şəhəri tərk etməsi və öz ölkələrinə qayıtması. Bu yürüşün nəticələri. Bərdənin zəifləməsi və süqutu.

N.Gəncəvi slavyanların Bərdəyə yürüşü haqqında.

Slavyanların Azərbaycana basqınlarının sonralar da davam etməsi. Azərbaycan hakimlərinin öz aralarındakı ixtilafları həll etmək üçün slavyan drujinalarının köməyə çağırılması. Xəzər dənizindən təcavüz təhlükəsinin aradan qaldırılması üçün tədbirlərin görülməməsi.

Yadelli qəsbkarlara qarşı mübarizədə islam dininin birləşdirici rolu.

**13. IX əsrin II yarısı - XI əsrin ortalarında Azərbaycanda iqtisadi tərəqqi - 3(5) saat.**

**Əkinçilik - 1(1) saat.**

Azərbaycan təsərrüfatının inkişafına kömək edən amillər.

IX əsrin II yarısı XI əsrin ortalarında Azərbaycan bütün Yaxın və Orta Şərqin, İslam dünyasının ən inkişaf etmiş ölkəsi kimi.

Kənd təsərrüfatı əhalinin əsas məşğuliyyət sahəsi kimi. Taxılçılığın inkişafı. Dənli bitkilərin bütün növlərinin becərilməsi. Texniki bitkilər əkininin genişləndirilməsi. Əkinçilik mədəniyyətinin inkişafı. Əmək alətlərinin təkmilləşməsi. Şumlamanın ölkənin təbii şəraitinə uyğunlaşdırılması.

**Maldarlıq - 0,5(1) saat.**

Maldarlıq. Azərbaycanda maldarlığın inkişafı üçün əlverişli şəraitin olması. Mal-qara növləri. Yaylaq-qışlaq maldarlığı.

**Bağçılıq. Bostançılıq. Tərəvəzçilik - 0,5(1) saat.**

Bağçılıq. Bostançılıq. Tərəvəzçilik. Toxmacarlıqların salınması, baramaçılıq. Balıqçılıq. Arıçılıq. Meşə örtüyü. Ərəb səyyahları Azərbaycanda bağçılığın inkişafı haqqında.

**Torpaq mülkiyyəti və vergilər - 1(2) saat.**

Feodal münasibətlərinin inkişafı. Kəndli zümrələri. Uluclar və azad kəndlilər. Torpaq (bəzən də su) üzərində xüsusi mülkiyyətin mövcudluğu.

Feodal-torpaq mülkiyyətinin növləri. İcma-camaat torpaqları. Camaat torpaqları üzərində dövlət mülkiyyəti. Mülk, xassə, divan və vəqf torpaqları. Şərti torpaq mülkləri - iqta sistemi. İqta torpaqlarının icarəyə - müqatiəyə verilməsi. İqtaların xüsusi mülkiyyətə çevirilməsi prosesi.

Torpaqlardan istifadə müqabilində alınan vergilər. Xərac. Qəbalə. amillər. Amillərin özbaşınalığı. Xəracın bir hissəsinin pulla ödənilməsi və onun əhəmiyyəti. Nəzr və cizyə.

Kənd təsərrüfatının inkişafına mane olan amillər. İri feodalların mərkəzi hakimiyyətlə münasibəti. Feodalların həyat və məişəti. İri feodalların əl-qolunu yığmaq, vergi sistemində qayda-qanun yaratmaq təşəbbüslərinin uğursuzluğu.

**14. Sənətkarlıq. Ticarət. Şəhərlər - 5 (10) saat.**

**Sənətkarlıq və ticarət - 6,5 (1) saat.**

Siyasi müstəqilliyin iqtisadi tərəqqiyə təsiri. Sənətkarlığın kənd təsərrüfatından ayrılması prosesinin daha da sürətlənməsi. Sənətkarlıq və ticarət mərkəzləri olan yeni şəhərlərin meydana gəlməsi. Azərbaycan çoxlu şəhərləri olan dünya ölkələrindən biri kimi.

Azərbaycanın zəngin bitki və heyvanlar aləminin, rəngarəng təsərrüfat sahələrinin sənətkarlığın inkişafı üçün əlverişli şərait yaratması. Sənətkarlığın inkişafına kömək edən digər səbəblər. Sənətkar qardaşlıqları. Toxuculuq. İpəkçilik. Dəmirçilik. Dulusçuluq. Boyakarlıq. Zərgərlik. Bənnalıq və b. sənət sahələrinin inkişafı.

Ticarət. Azərbaycanda ticarətin inkişafına kömək edən amillər. Daxili və xarici ticarətin inkişafı. Ticarətin inkişafının sənətkarlığın inkişafına, şəhərlərin yüksəlişi və artmasına təsiri.

Ərəb səyyahları Azərbaycanda sənətkarlıq, ticarət və şəhərlərin inkişafı haqqında.

**Bərdə - 0,5 (1) saat.**

"Arranın anası". Cənubi Qafqaz canişinliyinin mərkəzi kimi. Cənubi Qafqazın siyasi mərkəzinin sənətkarlıq və ticarət mərkəzinə çevirilməsi. Şəhərin inkişafında onun təbii şəraitinin və coğrafi mövqeyinin rolu. Şəhərlərin quruluşu. Slavyanların basqınından sonra Bərdənin əvvəlki əzəmətini itirməsi.

**Ərdəbil - 0,5 (1) saat.**

Coğrafi mövqeyi. Təbii şəraiti. Ərdəbil - Sacilər və Salarilər dövlətinin paytaxtı. Şəhərin quruluşu. Ərdəbil sənətkarlıq və ticarət mərkəzidir.

**Dərbənd - 0,5 (1) saat.**

Coğrafi mövqeyi. Təbii şəraiti və Dərbəndin hərbi-strateji mövqeyi. Dərbənd Azərbaycanın ən böyük liman şəhəri kimi. Şəhərin quruluşu. Dərbənd limanı. Dərbənd Azərbaycanın məşhur sənətkarlıq mərkəzidir. Dərbənd ba-

zarının bütün Yaxın və Orta Şərqdə məşhur olması. Dərbənd qalaları.

**Marağa və Urmiya - 0,5 (1) saat.**

Coğrafi mövqeyi. Marağanın təbii şəraiti. Marağanın qala-şəhərə çevrilməsi. Marağa paytaxt-şəhərdir. Marağa Azərbaycanın cənub rayonlarında Ərdəbildən sonra ikinci böyük şəhər idi. Ərəb səyyahları Marağa haqqında.

Urmiyanın təbii şəraiti və coğravfi mövqeyi. Təsərrüfatı. Ərəb səyyahları Urmiya haqqında.

**Təbriz - 0,5 (1) saat.**

Coğrafi mövqeyi və təbii şəraiti. Təbriz Rəvvadilər dövlətinin paytaxtıdır. Təbrizin sürətli yüksəlişi və bunun səbəbləri. Şəhərin quruluşu. Təbriz sənətkarlıq və ticarət mərkəzidir. Təbriz Azərbaycan şəhərlərinin anasıdır. Ərəb səyyahları Təbriz haqqında.

**Şamaxı və Şabran - 0,5 (1) saat.**

Şamaxının coğrafi mövqeyi və təbii şəraiti. Şəhərin quruluşu. Əhalisi. Sənətkarlıq və ticarətin inkişafı. Şamaxı Şirvanşahların paytaxtı kimi.

Şabranın coğrafi mövqeyi və təbii şəraiti. Şəhərin quruluşu. Əhalisi. Məşğuliyyəti. Şamaxı və Şabran Cənubi Qafqazın ticarət və sənətkarlıq mərkəzidir.

**Bakı 0,5 (1) saat.**

Bakının coğrafi mövqeyi və təbii şəraiti. Şəhərin quruluşu. Bakı liman şəhəri kimi. Bakının neft buruqları. Neft hasilatının şəhərin, sənətkarlıq və ticarətin inkişafına təsiri. Ərəb səyyahları Bakı və Bakı nefti haqqında.

**Azərbaycanın orta əsr şəhərlərinin ümumi cəhətləri - 0,5(1) saat.**

Şəhərin əlverişli yerlərdə salınması və müdafiə sədləri. Şəhər əhalisinin məşğuliyyəti; kənd təsərrüfatı, sənətkarlıq və ticarət. Şəhərlərin quruluşu. Şəhərsalma mədəniyyətinin inkişafı.

**Ərəb səyyahları və coğrafiyaşünasları IX əsrin II yarısı - XI əsrin ortalarında Azərbaycanın iqtisadi tərəqqisi haqqında - 0,5(1) saat.**

Ərəb səyyah və coğrafiyaşünaslarının Azərbaycana yüksək marağının səbəbləri. Ərəb səyyah və coğrafiyaşünasları Azərbaycanın təbiəti, coğrafi mövqeyi, faydalı qazıntıları, karvan yolları, əhalisi, təsərrüfat həyatı və şəhərləri haqqında.

**15. IX əsrin II yarısı - XI əsrin ortalarında Azərbaycan mədəniyyəti - 4(7) saat.**

**Mədəni oyanış - 1(2) saat.**

Siyasi oyanış, sənətkarlıq və ticarətin tərəqqi etməsinin, şəhərlərin dirçəlişinin mədəniyyətin inkişafına təsiri. Təbiət elmlərinə marağın artması. Dünyəvi biliklərin təhsil sisteminə yol açması. Coğrafi biliklərin genişlənməsi. Ədəbiyyat. Memarlıq. Azərbaycan türk dili. Azərbaycan şəhərlərinin Şərqin mühüm mədəniyyət mərkəzinə çevirilməsi. Azərbaycan mədəniyyə-

tinin daha yüksək nailiyyətlər əldə etməsi üçün tarixi şəraitin yetişməsi.

**"Kitabi-Dədə Qorqud" oğuz türklərinin tərcümeyi-halıdır - 0,5 (1) saat.**

Dastan onun yayıldığı geniş ərazidə Azərbaycan xalqının yaşadığını sübut edən möhtəşəm tarixi abidədir. Dastanın yaranması və yayılmasında oğuz-Ağqoyunlu tayfalarının rolu. Dastanın tədqiq edilməsi tarixi haqqında qısa məlumat.

**"Qara donlu kafirlərə" qarşı xalqımızın apardığı mübarizənin dastanda əks olunması - 0,5(1) saat.**

Oğuz igidlərinin erməni və gürcü feodallarına, onların havadarı Bizansa qarşı mübarizəsi. "Qara donlu kafirlər". Onların türkləri bir-birilə salışdırmaq siyasəti.

**"Kitabi-Dədə Qorqud" dastanı tarixin ibrət dərsidir - 0,5(1) saat.**

Oğuz-türk tayfaları arasında birliyin olmaması. Oğuz igidlərinin ehtiyatsızlığı, düşməni saymaması və unutqanlığı onların bəlalarının əsas səbəbidir.

Oğuzların doğma torpağa, yurd-yuvalarına bağlılığı. Vətən sevgisi oğuzları ümumi düşmənə qarşı birləşdirir. "Kitabi-Dədə Qorqud" dastanları sonrakı nəsillər üçün örnəkdir.

**Dastan xalqımızın təsərrüfat həyatı haqqında - 0,5(1) saat.**

Əkinçilik, bağçılıq, üzümçülük və b. təsərrüfat sahələrinin inkişafı. Maldarlıq oğuzların əsas təsərrüfat sahələrindən biri kimi. Oğuzlarda sənətkarlığın inkişafı.

Oğuzlarda ticarətin inkişafı. Konstantinopol, Şam, Rum (Bizans) və b. yerlərdə ticarət əlaqələri haqqında dastandan nə öyrənirik? Oğuz pulları.

**"Kitabi-Dədə Qorqud" dastanında xalqımızın adət və ənənələri - 1(1) saat.**

Oğuzların öz qonşularına qarşı mərdanə siyasəti. Oğuzlarda hərbi intizam. Oğuzlarda qadına, anaya münasibət. Oğuz qadını.

Dastan Azərbaycan türklərini islam dinini qəbul etməsi haqqında. İslamın qəbulunun vahid xalqın formalaşmasına təsiri. Tayfa adətləri və mərasimlərinin ümumxalq adətlərinə və mərasimlərinə çevirilməsi."Kitabi-Dədə Qorqud" dastanı türk dünyasını birləşdirən möhtəşəm abidədir.

**Təkrar - ümumiləşdirici dərs. Azərbaycan mədəniyyəti islam mədəniyyətinin tərkib hissəsi kimi - 0,5 (1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif) Babək. Bərdə faciəsi. Gəncə. "Dədə Qorqud" və yurdumuzun tarixi.

Azərbaycan tarixi (VI sinif) Manna, Atropaten və Alban dövlətləri. Azərbaycan ərazisinə birinci etnik axın (VII sinif) Babəkin başçılığı altında azadlıq müharibəsi. Azərbaycanda feodal dağınıqlığının başlanması. Ümumi tarix (VIII sinif) Xəzər xaqanlığı. Ərəb xilafətinin yaranması. Xilafətin parçalanması. İslam mədəniyyəti. Oğuz dövləti. Qəznəvilər dövləti. Qaraxanlılar dövləti. Qərbi avropada feodal dağınıqlığı.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:**

Feodal dağınıqlığı. Azərbaycanda feodal dağınıqlığının özünəməxsus cəhəti. Feodal təsərrüfatının inkişafı. Əyalət hakimiyyəti. Feodal hərcmərcliyi. Ara müharibələri. Qanunnamə. Mədəni oyanış. Siyasi oyanış. Azərbaycan dövlətçiliyinin dirçəlişi. Oğuz-Ağqoyunlu tayfaları. Dünyəvi biliklər. Tarixi abidə. "Qara donlu kafirlər". Hərbi donanma. Ticarət donanması. Ümumxalq adətləri və mərasimləri. Dastan. Epos. Salnamə.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Azərbaycanda feodal dağınıqlığı dövründə meydana gələn dövlətlərin ərazi və sərhədlərinin mövzu xəritəsində və müasir dövr xəritələrində göstərmək. Kontur xəritədə ərazi dəyişikliklərini nişanlamaq. Feodal dağınıqlığının səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək və mövzunun şərhində bundan istifadə etmək. Başqa bölgələrdəki feodal dağınıqlığı ilə müqayisə əsasında Azərbaycandakı feodal dağınıqlığının mənfi və müsbət cəhətlərini faktlarla göstərmək.

Ərəb xilafətinin zəifləməsi, feodal münasibətlərinin inkişafı, iri feodalların mövqeyinin qüvvətlənməsi. Əyalət hakimiyyətinin artması və Azərbaycanda yerli feodal dövlətlərin yaranması arasında səbəb - nəticə əlaqələrini müəyyənləşdirmək. Azərbaycan dövlətçiliyinin dirçəlişinin mahiyyətini aydınlaşdırmaq. Şirvanşahlar dövlətinin yaranması və ərazisinin genişlənməsi prosesini xəritə üzrə şərh etmək. Şirvanşahlar dövlətinin iqtisadi inkişaf faktları arasındakı əlaqələri açıqlamaq. Sacilər dövləti ilə Salarilər dövlətinin meydana gəlməsində oxşar cəhətləri göstərmək. Sacilərin erməni və gürcü hakimlərinə qarşı mübarizəsini xəritə üzrə izləmək. Azərbaycanın bütün torpaqlarını Sacilər dövlətinin tərkibində birləşdirilməsi prosesini xəritə üzrə şərh etmək. Bu birləşmənin əhəmiyyətini aydınlaşdırmaq. Salarilər Rəvvadilər və Şəddadilər dövlətinin əmələ gəlməsi prosesində ümumi vahid dövlət daxilində birləşməsi prosesini xəritə üzrə şərh etmək.

Salarilər dövlətində iqtisadi inkişafın səbəb-nəticə əlaqələrini aydınlaşdırmaq. Salarilər dövlətində feodal hərc-mərcliyinin genişləndirilməsinin səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək. Rəvvadilər dövlətinin ərazisinə oğuz tayfalarının yeni axınlarının əhəmiyyətini göstərmək. Şəddadilər dövləti ilə Rəvvadilər dövləti arasındakı iqtisadi, siyasi və mədəni əlaqələ-

rə dair konkret faktlar göstərmək. Bu əlaqələrin Azərbaycan xalqının formalaşdırılmasında əsas amillərdən biri olduğunu sübui etmək. Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətlərinin erməni, gürcü feodallarına qarşı mübarizəsində oxşar cəhətləri göstərmək. Feodal dağınıqlığı dövründə Azərbaycana yadelli basqınlarının güclənməsinin səbəblərini aydınlaşdırmaq. Slavyanların basqınlarının aramsız xarakter almasını faktlarla sübut etmək və bunun səbəblərini açıqlamaq. Slavyanların Azərbaycana yürüşünü və xalqın onlara qarşı mübarizəsini xəritə üzrə şərh etmək. Yadelli qəsbkarlara qarşı mübarizədə islam dininin birləşdirici rolunu faktlarla sübut etmək. IX əsrin II yarısı - XI əsrin ortalarında Azərbaycanda təsərrüfatın inkişafı ilə Qərbi avropada təsərrüfatın inkişafını müqayisə etmək. Azərbaycanda təsərrüfatın çoxşaxəli xarakterini onun təbii-iqlim şəraiti ilə əlaqələndirmək. IX əsrin II yarısı - XI əsrin ortalarında Azərbaycanda feodal münasibətlərinin daha da inkişaf etdiyini sübut etmək və öz fikrini faktlarla əsaslandırmaq. Erkən orta əsrlərdə Azərbaycanda xətərlərin meydana gəlməsi və inkişafına dair faktları ümumiləşdirmək. Bu dövrdə Azərbaycanda şəhərlərin daha da inkişaf etdiyini, xarici ticarəti əlaqələrinin genişləndiyini, bunun isə ölkənin siyasi həyatına müsbət təsirini faktlarla sübut etmək.

"Kitabi-Dədə Qorqud"un xalqımızın tarixi salnaməsi olduğunu faktlarla sübut etmək. Bizans, erməni və gürcü feodallarının türkləri bir-birilə salışdırmaq siyasətinin mahiyyətini açmaq və onu müasir dövrlə əlaqələndirmək. Oğuzların güclü və zəif cəhətlərini dastana əsasən göstərmək. Dastanda oğuzların təsərrüfat və məişəti ilə bağlı faktları seçmək və ümumiləşdirmək. Oğuzların Vətənə, anaya, qadına, böyüyə münasibətini, adət və mərasimlərini xalqımızın bu gün də yaşatdığını faktlarla sübut etmək.

**Yekunlaşdırıcı ümumiləşdirmə: Erkən orta əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafının əsas yekunları - 0(1) saat.**

**Qaynaqlar və ədəbiyyat**

**I bölməyə dair:**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
2. Azərbaycan tarixi I cild. Bakı, 1958.
3. Azərbaycan tarixi (K.Əliyev və S.Əliyarlının redaktəsi ilə) Bakı, 1996.
4. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.V.Yusifovun redaktəsi ilə), Bakı, 1994.
5. Azərbaycan tarixi üzrə qaynaqların öyrənilmə problemləri, Bakı, 1988.
6. Алиев К.Г. Кавказская Албания. Баку, 1974.

7. Бабаев И.А. Города Кавказской Албании до IV в до н. е. - III в. н.э. Баку, 1990.

8. Джафаров Ю.Р. Гунны и Азербайджан (II-VI вв) Баку, 1985.

9. Касумова С.Ю. Южный Азербайджан в III-VII вв. Баку, 1983.

10. Геюшов Р. Христианство в Кавказской Албании, Баку, 1984.

11. Гусейнов Р.А. О тюрках IV-VI вв в зоне Кавказской Албании. Баку, 1962.

12. Məmmədova F.M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası, Bakı, 1994.

13. Qeybullayev Q.Ə. Qarabağ. Etnik və siyasi tarixə dair. Bakı, 1990.

14. Гейбуллаев Г.А. Топономия Азербайджана. Баку, 1986.

15. Гейбуллаев Г.А. К этногенезу Азербайджанцев. том. I, Баку, 1991.

16. Nizammülk. Siyasətnamə, Baku, 1987.

17. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982.

**II bölməyə dair:**

1.Azərbaycan tarixi üzrə qaynaqlar Bakı, 1989.

2.Azərbaycan tarixi. I cild. Bakı, 1958.

3.Azərbaycan tarixi (K.Əliyev və S. Əliyarlının redaktəsi ilə) Bakı, 1996.

4.Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.V.Yusifovun redaktəsi ilə), Bakı, 1994.

5.Bünyadov Z. M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.

6.Бартольд В.В. Мусульманский мир. Соч.., том. VI, Москва, 1966.

7.Беляев Е.А. Арабы, ислам и арабский халифат в раннем средневековье. Москва, 1996.

8. İsmayılov M.Ə. Azərbaycan tarixi, Bakı, 1992.

9.Kalankatuklu Musa. Albaniya tarixi. Bakı, 1993.

10.Касумова С. Южный Азербайджан в III-VII вв Баку, 1983.

11.Qeybullayev Q.Ə. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı, 1990.

12.Məmmədova F.M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1994.

13.Nəfisi S. Babək, Bakı, 1990.

14.Osmanov F.A. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982.

15.Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.

16.Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas və səyyahları Azərbaycan haqqında. Bakı, 1974.

17.Zeynaloğlu S. Müxtəsər Azərbaycan tarixi, Bakı, 1992.

**III bölməyə dair**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
2. Azərbaycan tarixi, I cild. Bakı, 1958.
3. Azərbaycan tarixi (K.Əliyev və S.Əliyarlının redaktəsi ilə), Bakı, 1996.
4. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə), Bakı, 1994.
5. Ашурбейли С.Б. Государство Ширваншахов (XI-XVI вв.). Баку, 1983.
6. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
7. Джидди Г.А. Средневековый город Шемаха IX-XVIII вв. Баку, 1981.
8. Əhmədov Q. M. Orta əsr. Beyləqan şəhəri. Bakı, 1979.
9. Əhmədov Q. M. Qədim Beyləqan. Bakı, 1997.
10. Kitabi-Dədə Qorqud dastanları. Bakı, 2000.
11. Məmmədova F.M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1994.
12. Минорски Ф.В. История Ширвана и Дербента X-XI вв. Москва, 1963.
13. Nizammülk. Siyasətnamə. Bakı, 1987.
14. Şərifli M.X. IX əsrin ikinci yarısı - XI əsrdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.
15. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas və səyyahları Azərbaycan haqqında Bakı, 1974.

**Sinifdənxaric oxu üçün ədəbiyyat:**

1. Bərgüşad C. Siyrilmiş qılınc.
2. Əfqan. Bəy İnal.
3. Hüseyn M. Cavanşir.
4. Məmmədxanlı Ə. Babək.
5. Vəkilov M.Cavanşir.

**I.Xəritələr və atlaslar**

1. "Albaniya V-VIII əsrin əvvəllərində".
2. "Azərbaycan VII-IX əsrlərdə".
3. "Azərbaycan XI-XII əsrlərdə".
4. "Arran və Azərbaycan Azərbaycan Ərəb xilafətinin tərkibində".
5. "Ərəblər VII-IX əsrlərdə"
6. "Xürrəmilər hərəkatı (VIII əsrin sonu -IX əsrin birinci yarısı)".
7. "Sacilər dövləti".
8. "Salarilər dövləti".

**II. Sxemlər, cədvəllər, diaqramlar, şəkillər:**

1. "Azərbaycanda müstəqil feodal dövlətləri".
2. "Babək" portret.
3. "Cavanşir" portret.
4. "III-XI əsrlərdə Azərbaycanda torpaq mülkiyyəti formaları".
5. "İran-Bizans müharibələri".

**III Audovizual vasitələr:**

Tədris filmi: "Azərbaycanın arxitektura abidələri".
Bədii film: "Babək", "Dədə Qorqud".

# VIII SİNİF

# ORTA ƏSRLƏR

**Həftədə 1(2) saat, il boyu 34(68) saat.**

## I BÖLMƏ

## AZƏRBAYCAN XI ƏSRİN ORTALARI - XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ - 5(11) saat.

**1. Səlcuqlar və Azərbaycan - 1(2) saat.**

Azərbaycan Səlcuq imperiyasının tərkibində. Feodal münasibətlərinin daha da möhkəmlənməsi. Bizans, erməni və gürcü feodallarının Azərbaycana qarşı qəsbkarlıq planları. Onların puça çıxarılmasında səlcuq türklərinin rolu.

Azərbaycan torpaqlarının vahid türk dövləti tərkibində olmasının bütün ölkə ərazisində təsərrüfat və mədəni əlaqələrin genişlənməsinə, vahid ədəbi dilin inkişafına müsbət təsir göstərməsi. Səlcuqların Azərbaycan xalqı ilə qaynayıb qarışması. Azərbaycan xalqının Qafqazda əsas etnik amilə çevrilməsi.

**2. Azərbaycan dövlətləri XII-XIII əsrin əvvəllərində - 2(4) saat.**

XII əsrdə Böyük Səlcuq imperiyasının zəifləməsi və Azərbaycan dövlətlərinin qüvvətlənməsi.

Şirvanşahlar dövləti. Kənd təsərrüfatı və sənətkarlıq. Ticarət. Şəhərlər. Şamaxı, Bakı.

Şabran. Şamaxıda zəlzələ (1192). Sosial həyat: feodal münasibətləri, vergi sistemi. Şirvanşahların qonşu dövlətlərlə əlaqələri. Avropalı səyyahlar Şirvanşahlar sarayında. Şirvanın Gürcüstanla ittifaqı və bunun türk birliyi üçün mənfi nəticələri.

Şəmsəddin Eldəniz. Atabəylər dövlətinin yaranması. Dövlətin idarə olunması. Atabəylərin qonşu dövlətlərlə münasibətləri. Dövlətin qüvvətlənməsi. Təsərrüfat həyatı: feodal münasibətləri. Torpaq mülkiyyəti formaları. Vergilər. Kənd təsərrüfatı. XI-XII əsrlərdə Azərbaycanda əkinçilik mədəniyyətinin yüksəklişi. Əkinçilik qaydaları. Suvarma sistemlərinin genişləndirilməsi. Sənətkarlıq. Şəhərlər: Gəncə, Təbriz, Naxçıvan. Xarici ölkələrlə ticarət. Karvan yolları. İqtisadi əlaqələr. Avropalı səyyahlar Eldənizlər dövləti haqqında Atabəylər dövlətinin tənəzzülü və onun səbəbləri.

**3. Azərbaycan intibah mədəniyyəti - 2(4) saat.**

Azərbaycan intibah mədəniyyəti - dünya sivilizasiyasının mühüm mərkəzlərindən biri kimi. Məktəb və mədrəsələr. Elm. Tibb. Fəlsəfə. Eynəzqüzzat Miyanəçi. Şihabəddin Yəhya Şührəvərdi.

Ədəbiyyat. Mizami Gəncəvi intibah mədəniyyətinin zirvəsidir. Nizaminin əsərləri - Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Qətran Təbrizi, Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Fələki Şirvani, Xəqani Şirvani, İncəsənət. Memarlıq. Əcəmi. Musidi. Azərbaycan türk dili. Qız qalaları. (Oğuz qalaları). Azərbaycan mədəniyyətinin ümumdünya mədəniyyətinə təsiri.

**Təkrar - ümumiləşdirici dərs: Azərbaycan dövlətçiliyinin dirçəlişi - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif) Şəmsəddin Eldəniz. Gəncə. Şamaxı. Memar Əcəmi. Nizami dünyası və tariximiz. Azərbaycan tarixi (VII sinif) Azərbaycan ərazisinə türk tayfalarının axını. IX əsrin ikinci yarısı - XI əsrdə Azərbaycan feodal dövlətləri. Ümumi tarix (VII sinif) göytürk imperiyası. Avar xaqanlığı. Xəzər xaqanlığı. Xarəzmşahlar dövləti. (VIII sinif) Dehli sultanlığı. Böyük Səlcuq imperiyası. Azərbaycan Respublikasının fiziki coğrafiyası. (VIII sinif) Azərbaycan səyyahların gözü ilə. Azərbaycanda coğrafiya elminin inkişafında səyyah və coğrafiyaşünasların rolu.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Səlcuq axınları. Etnik amil. Vahid ədəbi dil. İqtisadi əlaqə. Xarici ticarət. Daxili ticarət. Atabəy. Xanəndə. Sultan. Şirvanşah. Əmir sipəhsalar. "Şeyxül mühəndis". Mədəni oyanış (intibah). İntibah mədəniyyəti. Əxilik. İşraqilik. "Öldürülmüş filosof".

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Ümumi tarixdən və coğrafiyadan alınmış əlaqədar bilik və bacarıqları mövzunun öyrənilməsinə tətbiq etmək. Azərbaycana səlcuqların yürüşünü xəritə üzrə izləmək. Səlcuqların Azərbaycanı asanlıqla ələ keçirə bilməsinin səbəblərini aydınlaşdırmaq. Azərbaycanın Səlcuq imperiyası tərkibinə qatılmasının müsbət nəticələrini faktlarla izah etmək. Bizans, erməni və gürcü feodallarının Azərbaycana qarşı qəsbkarlıq planlarının puça çıxmasında səlcuq türklərinin rolunu aydınlaşdırmaq. Azərbaycan torpaqlarının vahid türk dövlətinin tərkibində olmasının bütün ölkə ərazisində təsərrüfat və mədəni əlaqələrin genişlənməsinə, vahid ədəbi dilin inkişafına göstərdiyi müsbət təsiri faktlarla əsaslandırılmaq. Şirvanşahlar dövlətinin yenidən yüksəlməsinin səbəblərini, Eldə-

nizlər dövlətinin yarandığı tarixi şəraiti təhlil etmək, onların arasında oxşar və fərqli cəhətləri aydınlaşdırmaq. Azərbaycan torpaqlarında müstəqil dövlətlərin yaranmasının torpaqlarımızın bütövlüyünün qorunub saxlanmasında oynamış olduğu rolu müəyyənləşdirmək.

Müasir və mövzu xəritələrində Azərbaycan dövlətlərinin ərazisini göstərmək.

Şirvanla Gürcüstanın ittifaqının türk birliyi üçün mənfi nəticəsini aydınlaşdırmaq. Şirvanşahlar və atabəylər dövlətlərinin idarə üsuluna, torpaq mülkiyyəti formalarına əsaslanaraq onları feodal dövləti kimi səciyyələndirmək. XII-XIII əsrin əvvəllərində Azərbaycanda şəhərlər, sənətkarlıq və ticarətin inkişafı ilə onun təbii - coğrafi şəraiti, mövqeyi arasındakı əlaqəni göstərmək. XII-XIII əsrin əvvəllərində Azərbaycandakı mədəni oyanış faktları əsasında Azərbaycanın dünya sivilizasiyasının mühüm mərkəzlərindən biri olduğunu aydınlaşdırmaq. XI-XII əsrlərdə Azərbaycanın iqtisadi inkişafı ilə intibah mədəniyyəti arasındakı əlaqələri göstərmək. Azərbaycan intibah mədəniyyətinin dünya mədəniyyətinin mühüm mərkəzlərindən biri olduğunu sübut etmək, Azərbaycan intibah mədəniyyətinin onun siyasi inkişafı ilə əlaqələndirmək, intibah mədəniyyətinin arasındakı varisliyi göstərmək. Azərbaycan mədəniyyətinin ümumdünya mədəniyyətinin inkişafına təsirini faktlarla sübut etmək.

## II BÖLMƏ

## AZƏRBAYCAN XIII ƏSRİN ƏVVƏLLƏRİ - XIV ƏSRİN BİRİNCİ YARISINDa - 6(16) saat.

**4. Azərbaycanda monqol əsarəti - 6(10) saat.**

**Monqolların Azərbaycana yürüşləri - 2(3) saat.**

Monqol işğalları ərəfəsində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti. Monqolların Azərbaycana birinci yürüşü. Azərbaycan xalqının qəhrəmancasına mübarizəsi. Təbrizin müdafiəsi. Monqolların Azərbaycanı tərk etməsi.

Cəlaləddin Xarəzmşahın Azərbaycana hücumu. Eldənizlər (atabəylər) dövlətinin süqutu. Azərbaycan Cəlaləddinin hakimiyyəti altında. Xarəzmşahlara qarşı Bəndərin başçılığı ilə üsyan (1231).

Monqolların Azərbaycana ikinci yürüşü. Azərbaycanın monqol əsarəti altına düşməsi. Azərbaycanda monqol zülmü və bunun ağır nəticələri. Monqol əsarətinə qarşı çıxışlar.

**Azərbaycan Hülakülər (Elxanilər) imperiyasının tərkibində - 2(3) saat.**

Monqolların Azərbaycana üçüncü yürüşü. Azərbaycanın Hülakülər im-

periyasının tərkibinə qatılması. Şirvanşahların öz dövlət müstəqilliyini qorunub saxlaya bilməsi.

Hülakülər dövründə təsərrüfat həyatı. Torpaq mülkiyyəti. Vergi sistemi. Kənd təsərrüfatı. Təsərrüfatın geriləməsi və səbəbləri. Qazan xanın islahatının Azərbaycanda kənd təsərrüfatının canlanmasına və sənətkarlığın dirçəlməsinə təsiri. Şəhərlər. Ticarət. İmperiyanın daxili və xarici ticarət əlaqələrində Azərbaycanın iştirakı. Azərbaycanın Avropa-Asiya iqtisadi əlaqələrində fəal rolu. Monqolların tədricən Azərbaycan xalqı ilə qaynayıb qarışması. Hülakülər imperiyası sistemində Azərbaycanın yeri və rolu. Marağa, Təbriz, Sultaniyyə - Hülakülər dövlətinin paytaxt şəhəridir.

**5. Mədəniyyət - 2(3) saat.**

Maarif. Məktəb və mədrəsələr. "Rəşidiyyə" qədim Azərbaycan universitetidir. "Şəfa evi".

Elmin inkişafı. Nəsirəddin Tusi. Marağa rəsədxanası. F.Rəşidəddin. Ü.Təbrizi. M.Şəbustəri.

Ədəbiyyat. İzzəddin Həsənoğlu, Zülfüqar Şirvani, Öhvədi Marağayi.

Memarlıq. Abşeron qalaları. Təbrizdə Ərk qalası. Sultaniyyədə Olçaytu Xüdabəndə məqbərəsi. Bayıl daşları.

**Təkrar - ümumiləşdirici dərs: Monqol əsarətinin Azərbaycan üçün mənfi nəticələri - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu. (V sinif) Marağa rəsədxanası. Təbriz. "Rəşidiyyə" - qədim Azərbaycanın universiteti. Azərbaycan tarixi (VII sinif) Erkən əsrlərdə Azərbaycanda torpaq mülkiyyəti formaları və vergilər (VIII sinif). Şirvanşahlar və Eldənizlər dövlətləri. Azərbaycan intibah mədəniyyəti. Ümumi tarix (VII sinif) Xarəzmşahlar dövləti. İslam mədəniyyəti. (VIII sinif) Monqol imperiyası. Hülakilər imperiyası. Ədəbiyyat (V sinif) "Xacə Nəsrəddin Tusi və bostançı" rəvayəti.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Başka İslahat. Monqol əsarəti. Tamğa. Qopçur. Rəsədxana. Akademiya. Universitet. "Şəfa evi". Elxan. Dini siyasət. Etnik siyasət.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Dərslikdə verilən sual və tapşırıqlara əsasən materialları qruplaşdırmaq. Kursdaxili və kurslararası əlaqədar bilik və bacarıqları mövzunun öyrənilməsinə tətbiq etmək. Elxanilər (Hülakülər) imperiyası daxilində Azərbaycanın asiya və avropa ölkələri ilə ticarət yollarını kontur xəritəyə köçürmək. Monqolların Azərbaycana yürüşlərini mövzu xəri-

təsində göstərmək. Təsərrüfatın və mədəniyyətin inkişaf səviyyəsinə görə Azərbaycanın monqollardan daha yüksək olduğunu faktlarla sübut etmək. Monqol yürüşlərinin Azərbaycan və başqa şərq ölkələrinin inkişafı üçün ağır nəticələrini faktlarla şərh etmək. Azərbaycanda kənd təsərrüfatı və sənətkarlığın inkişafı ilə Qazan xanın islahatı arasındakı əlaqəni açıb göstərmək. Kənd təsərrüfatı, sənətkarlıq və şəhərlərin inkişafı, imperiyanın daxili və xarici ticarət əlaqələrində oynadığı rolu. Avropa-Asiya iqtisadi əlaqələrində fəal iştirakı və monqolların Azərbaycan xalqı ilə qaynayıb qarışması faktlarının təhlili əsasında Elxanilər (Hülakülər) imperiyası sistemində Azərbaycanın yerini müəyyənləşdirmək. Monqolların Azərbaycanda yeritdikləri etnik və dini siyasətin mahiyyətini açmaq və onların müvəffəqiyyətsizliyinə uğramasının səbəblərini göstərmək. Faktlar əsasında Azərbaycanın Elxanilər dövlətinin mərkəzi, Marağa, Təbriz və Sultaniyyənin isə paytaxt şəhərləri olduğunu əsaslandırmaq. XIII-XIV əsrlərdə Azərbaycanda fəaliyyət göstərmiş elm təhsil müəssisələrinin və elm xadimlərinin dünya mədəniyyətinə verdiyi töhfələri açıqlamaq. N.Tusinin elmi tədqiqatlarından nümunələr göstərmək. Memarlıq, şəhərsalma, qalaların tikintisində hansı dəyişikliklərin olduğunu və bunların hansı məqsədlər ilə keçirildiyini izah etmək.

## III BÖLMƏ

## AZƏRBAYCAN XIV ƏSRİN İKİNCİ YARISI - XV ƏSRDƏ - 12 (24) saat.

**6. Çobanilərin və Cəlairilərin Azərbaycanda hakimiyyəti - 1(2) saat.**
Hülakülər dövlətinin zəifləməsi. Çobanilərin "Hülakü" hökmdarlarını mühafizə siyasəti. Azərbaycanın Çobanilər sülaləsi tərəfindən idarə edilməsi. Cəlairilərin Azərbaycanı ələ keçirməsi. Cəlairilər dövlətinin Azərbaycan tarixində yeri və rolu.

**7. Şirvanşahlar dövləti - 1(2) saat.**
Şirvanşahlar dövlətinin qüvvətlənməsi. Şirvanşah I İbrahim Dərbəndi. Teymur və Toxtamışın Azərbaycana yürüşləri. Əlincə qalasının qəhrəman müdafiəsi. Şirvanşah I İbrahimin Azərbaycanı birləşdirmək siyasəti. Şirvanşahlar dövlətinin daxili siyasəti. Təsərrüfat həyatı. Şəhərlər. Sənətkarlıq. Ticarət. Karvan yolları. Şirvanşahlar dövlətinin xarici siyasəti. Teymurilər və Qızıl Orda dövlətləri ilə münasibətlər. Rusiya və avropa ölkələri ilə əlaqələr.

**8. Şəki hakimliyi - 1(2) saat.**
Şimali-qərbi Azərbaycanda Şəki hakimliyinin meydana gəlməsi.

İctimai-iqtisadi həyat. Azərbaycanın qərb sərhədlərinin qorunub möhkəmləndirilməsində Şəki hakimliyinin rolu. Yadellilərə qarşı mübarizə. Əlincə qalasının müdafiəsində Şəki döyüşçülərinin iştirakı.

**9. Qaraqoyunlu dövləti - 3(5) saat.**

Oğuz türkləri - Qaraqoyunlular. Qaraqoyunluların Təbrizi ələ keçirmələri (1410) və Azərbaycanın cənub rayonlarında yeni Azərbaycan sülaləsinin - Qaraqoyunluların hakimiyyətə gəlməsi. Qaraqoyunlu dövlətinin imperiyaya çevrilməsi, onun sərhədləri, daxili və xarici siyasəti. Şirvanşahlar, Ağqoyunlular, Osmanlılar və Teymurilərlə münasibətlər. İctimai-iqtisadi həyat.

Qaraqoyunlu dövlətinin zəifləməsi, süqutu və onun səbəbləri. Qaraqoyunluların Azərbaycan tarixində yeri.

**10. Ağqoyunlu dövləti - 4(6) saat.**

Oğuz türkləri - Ağqoyunlular. Ağqoyunlu Uzun Həsənin Təbrizi ələ keçirməsi (1468) və yeni Türk sülaləsinin - Ağqoyunluların hakimiyyətə gəlməsi. Uzun Həsənin mərkəzləşmiş Azərbaycan dövləti yaratmaq siyasəti. Ağqoyunlu imperiyasının yaranması. Daxili siyasət. Nizami ordu yaratmaq və odlu silahlar istehsalına başlamaq təşəbbüsü. Xarici siyasət. Şirvanşahlar, Teymurilər və Osmanlı imperiyası ilə münasibətlər. Rusiya və avropa ölkələri ilə diplomatik əlaqələr. Qərb dövlətlərinin ticarət siyasəti. Osmanlı-Ağqoyunlu münasibətləri. Görkəmli diplomat Sara Xatun. İctimai-iqtisadi həyat. Ağqoyunlu dövlətinin süqutu və onun səbəbləri. Ağqoyunluların Azərbaycan tarixində yeri.

**11. Səfəvilərin Ərdəbil hakimliyi - 1(3) saat.**

Səfəvilərin mənşəyi. Şeyx Səfiyyəddin və onun ardıcılları. Səfəviyyə dini təriqətinin güclənməsi. Səfəvilərin Ərdəbil hakimliyi. Şiəlik. Azərbaycanda dini parçalanma və onun zərərli nəticələri.

**12. Mədəniyyət - 1(3) saat.**

Maarif. Məktəb və mədrəsələr. İctimai-fəlsəfi fikir. Hürufilik təlimi. Nəimi.

Elm. Seyid Yəhya Bakuvi, Əbdürrəşid ibn Saleh Bakuvi.

Ədəbiyyat: Arif Ərdəbili və Əssar Təbrizi, İmadəddin Nəsimi, Cahanşah Həqiqinin "Divanı".

İncəsənət. Musiqi, Əbdülqədir Marağayi. Xəttatlığın inkişafı. Memarlıq abidələri. Təbrizdə "Göy məscid". "Həsən padşah camesi", "Qeysəriyyə", "Həşt behişt" sarayı.

**Təkrar - ümumiləşdirici dərs: XI-XV əsrlərdə Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni inkişafının ən mühüm yekunları - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya
Sual və tapşırıqlar
**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif) Uzun Həsən, Sara Xatun, Ərdəbil. Azərbaycanda monqol işğalları. Azərbaycan Hülakülər imperiyasının tərkibində. Şirvanşahlar dövləti. Ümumi tarix (VII sinif) Oğuz dövləti. Teymurilər dövləti. Osmanlı imperiyası Qızıl Orda dövləti.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Mərkəzləşdirilmiş dövlətin yaradılmasının ilkin şərtləri. Malcəhət. Soyurqal. Yarmarka. Diplomatiya. Diplomatik əlaqələr. Şəki hakimliyi. Ərdəbil hakimliyi. Hürufilik. Xəttatlıq. İctimai-fəlsəfi fikir.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Ayrı-ayrı kurslardan və başqa fənlərdən öyrənilmiş bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək.

Mövzu xəritəsində və müasir dövr xəritəsində XIV əsrin II yarısı - XV əsr Azərbaycan dövlətlərinin ərazisini və sərhədlərini göstərmək. Teymurun və Toxtamışın Azərbaycana hücumlarını xəritədə göstərmək. XV əsrdə Azərbaycan dövlətlərinin dünya dövlətləri ilə əlaqələrini mövzu xəritəsində izləmək. Müəllimin şərhi əsasında tarixi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək və əhəmiyyətini aydınlaşdırmaq. I İbrahim Əmir Teymurla müttəfiqlik münasibətlərinin dostluq münasibətləri səviyyəsinə qaldırılmasını, onun Azərbaycanın tarixində oynadığı rolun əhəmiyyətini faktlar əsasında izah etmək. Teymurun və Toxtamışın Azərbaycandakı işğalçı yürüşlərinin mənfi nəticələrini göstərmək, onun ümumtürk birliyinə ziyan vurmasını konkret faktlarla izah etmək Çobanilər sülaləsi hakimiyyətinin xüsusiyyətlərini, onların müstəqil dövlət yarada bilmələrinin səbəblərini aydınlaşdırmaq. Mənbələrə və mətnə əsaslanaraq Cəlairilər dövlətinin Azərbaycan tarixində yerini və rolunu göstərmək. Əmir Teymurun Şirvanşah I İbrahimlə münasibətini onun hərbi planları ilə əlaqələndirərək izah etmək. Şirvanşah I İbrahimin Azərbaycanı birləşdirmək planını baş tutmaması səbəblərini göstərmək. Qaraqoyunlu dövlətinin iqtisadi həyatından gətirilən faktlara əsasən onun feodal dövləti olduğunu sübut etmək. Qaraqoyunlu dövlətinin süqutunun səbəblərini izah etmək. Daxili və xarici siyasəti, Avropa və şərq ölkələri ilə münasibətləri, iqtisadi-ictimai həyat, mərkəzləşdirilmiş dövlət yaratmaq təşəbbüsü kimi faktların təhlili əsasında Ağqoyunlu dövlətinin Azərbaycan tarixində yerini müəyyənləşdirmək.

Qaraqoyunlu və Ağqoyunlu dövlətinin yaranması prosesindəki oxşar və fərqli cəhətləri müəyyənləşdirmək. Ağqoyunlu-Osmanlı münasibətlərinin düşmənçilik səviyyəsinə qaldırılmasında xristian dünyasının, Avropa diplomatiyasının məkrli rolunu aydınlaşdırmaq, bunun Azərbaycan və ümumi

türk dünyasına vurduğu zərbəni müasirliklə əlaqələndirək, konkret nəticələr çıxarmaq. Görkəmli dövlət xadimləri və siyasətçilər olan Qara Yusifin, Cahan şahın, Uzun Həsənin və Sara Xatunun həyat və fəaliyyətlərinə dair referatlar hazırlamaq.

Mətnə əsasən plan tutmaq. XI-XIII və XIV-XV əsrlərdə Azərbaycanda ədəbiyyatın inkişafına dair paraqrafları əlaqəli şəkildə şərh etmək, hürüfilik təliminin mahiyyətini izah etmək və onu Nəsiminin yaradıcılığı ilə əlaqələndirmək. Hürufilik təlimi ilə məzdəkilik, xürrəmilik, əxilik təlimlərini müqayisə etmək, onların oxşar və fərqli xüsusiyyətlərini aşkara çıxarmaq.

## IV BÖLMƏ

## MƏRKƏZLƏŞDİRİLMİŞ AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ - 11(23) saat.

**13. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövlətinin yaranması və inkişafı - 2(4) saat.**

XV əsrin sonunda Azərbaycanda mərkəzləşmiş feodal dövləti yaradılması üçün tarixi şəraitin yetişməsi: iqtisadi zəmin, ayrı-ayrı ictimai qrupların mənafeyi, beynəlxalq amil. Osmanlı imperiyasının şərq siyasəti və Azərbaycan. Səfəvilərin Ərdəbil hakimiyyətinin qüvvətlənməsi. Azərbaycanı birləşdirmək təşəbbüsünün Səfəvilərin əlinə keçməsi.

Dini amil. Azərbaycanın birləşdirilməsi və Osmanlı imrperiyasına qarşı mübarizədə ideoloji silah kimi. Azərbaycan xalqının dini əlamətə görə parçalanmağa başlanması. XV əsrin sonunda Səfəvilərin Qızılbaş hərəkatının real dini-siyasi qüvvəyə çevirilməsi. Türk - islam dünyasının dini cəhətdən parçalanması.

XV əsrin sonunda Azərbaycanda feodal hərc-mərcliyi. Mərkəzləşmiş dövlət yaradılmasının obyektiv tarixi zərurətə çevrilməsi. Səfəvilərin Şirvana yürüşləri: Şamaxının və Bakının alınması. Ağqoyunlu Əlvənd Mirzənin məğlub edilməsi. Təbrizin ələ keçirilməsi İsmayılın özünü şah elan etməsi. Mərkəzləşmiş Azərbaycan dövlətinin yaranması və onun tarixi əhəmiyyəti. Şah İsmayılın xarici siyasəti. Səfəvilər dövlətinin geniş ərazili feodal imperiyasına çevirilməsi.

**14. Səfəvi-osmanlı müharibələrinin birinci mərhələsi. Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi prosesinin başa çatması - 2 (4) saat.**

Səfəvi-osmanlı münasibətləri. Avropa dövlətləri ilə əlaqələr. Avropa diplomatları və səyyahları Səfəvi sarayında. Çaldıran döyüşü. Çaldıran döyüşündən sonrakı dövrdə Səfəvi imperiyasının daxili və xarici siyasəti.

Səfəvilər taxtını ələ keçirmək uğrunda feodal-ara müharibələrinin güclənməsi. I Təhmasib və Azərbaycan torpaqlarının birləşdirilməsinin başa çatması: Şirvanşahlar dövlətinin və Şəki hakimlərinin Səfəvi dövlətinə birləşdirilməsi.

Yaxın və Orta Şərqdə üstünlüyü ələ keçirmək uğrunda Səfəvi-Osmanlı hərbi-siyasi rəqabətin kəskinləşməsi. Azərbaycanın müharibə meydanına çevirilməsi. Osmanlı imperiyasına qarşı Səfəvilər dövlətinin siyasəti. Avropa ölkələrinin siyasəti. Avropa ölkələri ilə əlaqələr. Avropa dövlətlərinin Yaxın və Orta Şərqdə möhkəmləndirmək planları və Səfəvi-Osmanlı münasibətlərini gərginləşdirmək siyasəti. Amasiya müqaviləsi (1555).

**15. XVI əsrin birinci yarısında Səfəvi dövlətinin sosial-iqtisadi vəziyyəti - 1(3) saat.**

İdarəçilik. Azərbaycan tayfalarının dövlət idarəçiliyində rolu. Qızılbaş aristokratiyası. İctimai-iqtisadi həyat. Feodal təsərrüfat sistemi. Torpaq mülkiyyəti formaları. Vergilər və mükəlləfiyyətlər. Şəhərlər. Sənətkarlıq. Ticarət. Karvan yolları. Beynəlxalq iqtisadi əlaqələr.

**16. Azərbaycan Səfəvilər dövləti - XVII əsrin birinci yarısında. Səfəvi-osmanlı müharibələrinin ikinci mərhələsi. I Şah abbasın islahatları - 1(3) saat.**

XVI əsrin 60-70-ci illərində Səfəvi-Osmanlı münasibətlərinin yenidən kəskinləşməsi. I Təhmasibin ölümündən sonra saray çəkişmələri. I Şah abbasın hakimiyyətə gətirilməsi. 1578-1590-cı illər Səfəvi-Osmanlı müharibələri. İstanbul müqaviləsi. Azərbaycanın bəzi vilayətlərinin osmanlı imperiyasına qatılması. Şah abbasın mərkəzi hakimiyyəti gücləndirmək tədbirləri. Şah abbasın islahatları. Hərbi islahatlar. I Şah abbasın Avropa dövlətləri ilə əlaqələrində Səfəvi-Osmanlı münasibətləri. Rusiya ilə əlaqələr.

**Səfəvi-Osmanlı müharibələrinin yekunları. Azərbaycanın Səfəvi imperiyasının əyalətlərindən birinə çevirilməsi - 2(3) saat.**

1602-1612-ci illər Səfəvi - müharibələri. I Şah abbasın Azərbaycan vilayətlərini Osmanlılardan geri almaq uğrunda apardığı müharibələr. 1612 və 1618-ci il müqavilələri. Cəlalilər hərəkatı. Cəlalilər hərəkatının Azərbaycan üçün nəticəsi. Xalq qəhrəmanı Koroğlu. 1639-cu il Qəsri - Şirin sülhü. İki dövlət arasında 1555-ci il amasiya müqaviləsi şərtlərinin qəti olaraq təsdiq edilməsi. Azərbaycanın Səfəvi imperiyasının əyalətlərindən birinə çevirməyə başlaması.

**17. XVI əsrin ikinci - XVII əsrin birinci yarısında sosial-iqtisadi inkişaf - 1(2) saat.**

Feodal təsərrüfat sisteminin inkişafı. Kənd təsərrüfatı: oturaq təsərrüfatı canlandırmaq xətti, torpaq sahibliyinin möhkəmlənməsi. Vergi sistemi. Şəhərlər. Şəhər həyatı. Sosial təbəqələşmə. Sosial və etnik münasibətlər.

Sənətkarlıq. Daxili və xarici ticarət. Böyük coğrafi kəşflər. Qərb ölkələrinin müstəmləkə ticarətinin Azərbaycan üçün nəticələri. Xəzər - Volqa yolu ilə Azərbaycan-Rusiya ticarət əlaqələri.

Dövlət quruluşu və idarəçilikdə dəyişikliklər. Xalq kütlələrinin vəziyyəti. Sosial münasibətlərin kəskinləşməsi. Xalq üsyanları.

**18. Mədəniyyət - 1(2) saat.**

Səfəvi-Osmanlı müharibələrinin Azərbaycanın mədəni inkişafına təsiri. Maarif. Məktəb və mədrəsələr. Elm. Riyaziyyat. Nəsrullah Xalxalı: Tarix. Həsən bəy kumlu. İskəndər bəy Münsi. Fəlsəfə. Həsri, Rəhməti.

Ədəbiyyat. Həbibi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Şifahi xalq yaradıcılığı. "Şah İsmayıl" dastanı. Aşıq poeziyası. Qurbani.

İncəsənət. Təbriz miniatür məktəbi. Sultan Məhəmməd.

Memarlıq. Məqbərələr. Karvansaraylar. Koroğlu qalaları. Xarici ölkələrlə mədəni əlaqələr. Şərq mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolu.

**Təkrar - ümumiləşdirici dərs: "Səfəvilər dövləti - mərkəzləşdirilmiş Azərbaycan dövlətidir" - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif) Ərdəbil. Qüdrətli Azərbaycan dövləti. Dahi Füzuli. Azərbaycan tarixi (VIII sinif) Səfəvilərin Ərdəbil hakimliyi. XVI əsrin sonu - XV əsrdə Azərbaycanda feodal dövlətləri. Ümumi tarix (VII sinif) Osmanlı imperiyası XV-XVI əsrdə. Böyük Mağollar imperiyası. Fransanın birləşdirilməsi. İnciltərədə mərkəzləşmiş dövlətin yaranması. Rusiya XVI əsrin ikinci yarısı - XVII əsrin əvvəllərində. Böyük coğrafi kəşflər. Qərbi Avropa da intibah mədəniyyəti. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası (VIII sinif). Avropa bölgələri ilə mərkəzi və Şərqi asiya ölkələri arasında Azərbaycan nəqliyyat dəhlizidir. Ölkənin rayonlarının ayrı-ayrı təsərrüfat sahələri üzrə ixtisaslaşdırılması haqqında ümumi təsəvvürlər. İqtisadi əlaqələr.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Şiəlik, Sünnilik. Qızılbaşlar. Tiyul. Səfəviyyə dərviş ordeni. Şeyx. Gömrük rüsumu. Mürid. Mürşüd. Mərkəzləşdirilmiş dövlət. Çərik. Hərbi islahat Bəylərbəylik. Təzminat. Cəlalilər hərəkatı. Əyalət. Vergi sistemi. Qorqubaşı. Əmir ül-ümərə. Mövlana. Baş qazı. "Şirvan dönükləri". "Böyük sürgün". "Yandırılmış torpaq".

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Mövzu, kurs və fənlərdən alınmış bilik və bacarıqları bölmənin ayrı-ayrı mövzularının öyrənilməsinə tətbiq etmək.

Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin yaranması prosesini kontur xəritədə göstərmək. XV əsrin sonu üçün Azərbaycanda mərkəzləşmiş dövlətin yaranması üçün tarixi şəraitin yetişdiyini faktlarla sübut etmək. Mərkəzləşmiş dövlətin yaranmasında Şah İsmayılın tarixi rolunu göstərmək. "Çaldıran döyüşü Avropa diplomatiyasının qələbəsidir" fikrinin doğruluğunu faktlarla izah etmək. Azərbaycanın birləşdirilməsi və Osmanlı imperiyasına qarşı mübarizədə şiələrin ideoloji silah olduğunu aydınlaşdırmaq. Mərkəzləşdirilmiş dövlətin yaranması ilə Azərbaycanın iqtisadi inkişafı arasında səbəb-nəticə əlaqələrini izah etmək. Azərbaycanda mərkəzləşmiş dövlətin yaranmasında və Azərbaycan xalqının dini əlamətlərə görə parçalanmasında qızılbaşların mənfi rolunu göstərmək. Səfəvi dövlətinin geniş ərazili feodal imperiyasına çevirilməsini xəritə üzrə şərh etmək. Şah İsmayıl Xətaini tarixi şəxsiyyət kimi səciyyələndirmək. Səfəvi-Osmanlı müharibələrinin səbəblərini aydınlaşdırmaq və onun Azərbaycan üçün ağır nəticələrini faktlarla sübut etmək. Mərkəzləşmiş Səfəvi dövlətinin yaranmasının tarixi əhəmiyyətini faktlara əsasən aydınlaşdırmaq.

Səfəvi-Osmanlı müharibələri nəticəsində baş vermiş ərazi dəyişikliklərini xəritədə göstərmək. Osmanlı imperiyası ilə müharibələrdə Səfəvilərin məğlubiyyətini izah etmək. I Şah abbasın mərkəzi hakimiyyətini gücləndirmək tədbirlərinin mahiyyətini açmaq. Qərb ölkələri ilə münasibətdə Şah İsmayıl və Şah abbasın siyasəti arasında ümumi cəhəti tapmaq və öz fikrini dəlillərlə əsaslandırmaq. Xalq hərəkatı və üsyanlarını ölkənin İctimai-iqtisadi və siyasi vəziyyəti ilə əlaqələndirmək. Azərbaycanın Səfəvi imperiyasının əyalətlərindən birinə çevrilməyə başladığını göstərən əlamətləri təhlil etmək. Böyük coğrafi kəşflər və qərb ölkələrin müstəmləkə ticarəti ilə Azərbaycanın təsərrüfat həyatında baş verən dəyişiklikləri əlaqələndirmək. Səfəvilər dövlətinin daxili və xarici siyasətinin ölkənin təsərrüfatına mənfi və müsbət təsirlərini göstərmək. Səfəvilərin dövlət quruluşunu təhlil etmək əsasında onu feodal dövləti kimi səciyyələndirmək. Səfəvilər dövlətinin daxili və xarici siyasətinin xalq kütlələrinin vəziyyətinə təsirini aydınlaşdırmaq.

Dərslikdən, ensiklopediyadan, müxtəlif sorğu kitablarından istifadə etməklə XVI-XVII əsrin I yarısında yaşayıb-yaratmış görkəmli Azərbaycan alimləri haqqında qısa məlumat hazırlamaq. Füzulinin əsərləri ilə dövrün İctimai-iqtisadi və siyasi hadisələrini əlaqələndirmək. Memarlıq abidələrinə istinad edərək Azərbaycanın xarici ölkələrlə mədəni əlaqələrini şərh etmək.

**Yekunlaşdırıcı ümumiləşdirmə: Orta əsrlərin ikinci və üçüncü dövrlərində Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatında əsas dəyişikliklər - 1(1) saat.**

## Qaynaqlar və ədəbiyyat


**I bölməyə dair.**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
2. Azərbaycan tarixi, I cild. Bakı, 1958.
3. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə), Bakı, 1994.
4. Azərbaycan tarixi (Y.K.Əliyev və S.Əliyarlının redaktəsi ilə). Bakı, 1996.
5. Azərbaycan renesansı və Nizami Gəncəvi (məqalələr). Bakı, 1984.
6. Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI век.) Баку, 1983.
7. Ашурбейли С.Б. История города Баку периода средневековья Баку, 1992.
8. Bünyadov Z.M. Azərbaycan dövləti. Bakı, 1985.
9. Bakıxanov A.A. "Gülüstani - İrəm". Bakı, 1993.
10. Демирли Г.А. Средневековый город Шемаха IX-XVIII вв. Баку, 1981.
11. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, 1979.
12. Əliyarov S. "İsgəndərnamə" poeması tarixi baxımdan, "Azərbaycan" jurnalı. 1983, N-8.
13. Kərimov N. K. Odlar yurdunun səyyah və coğrafi nüansları. Bakı, 1986.
14. Минорский В.Ф. Истории Ширвана и Дербента. Москва, 1963.
15. Mahmudov Y. M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1987.
16. Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. Баку. 1978.
17. Səfərli M.X. IX əsrin II yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.
18. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.

**II bölməyə dair:**

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
2. Azərbaycan tarixi. I cild. Bakı, 1958.
3. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə), Bakı, 1994.
4. Azərbaycan tarixi (Y.K.Əliyev və S. Yusifovun redaktəsi ilə), Bakı,

1996.

5. Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI век) Баку, 1983.

6. Ашурбейли С.Б. История города Баку периода средневековья. Баку, 1992.

7. Bünyadov Z.M. Azərbaycan atabəyləri dövləti. Bakı, 1985.

8. Bakıxanov A.A. "Gülüstani-İrəm", Bakı, 1993.

9. Демирли Г.А. Средневековый город Шемаха IX-XVIII вв. Баку. 1981.

10. Kərimov N. K. Odlar yurdunun səyyah və coğrafi nüansları. Bakı, 1986.

11. Минорский В.Ф. Истории Ширвана и Дербента. Москва, 1963.

12. Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir, Bakı, 1977.

13. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı, 1980.

14. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985.

15. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı, 1986.

16. Məmmədova F. Azərbaycan tarixi-siyasi coğrafiyası. Bakı, 1988.

17. Гейдаров М.Х. Города и городское ремесло в Азербайджане в XII-XVII вв. Баку, 1982.

18. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzül dövründə, Bakı, 1978.

19. Петрушевский И.П. Иран и Азербайджан под властью Хулагуидов (1256-1253). Москва, 1970.

20.Рашидаддин. Переписка. Москва, 1971.

21.Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. Баку, 1978.

22. Шихаб Ад-дин Мухаммед Ан-Насави. Жизнеописание султана Джалал Ад-дина Манкбурни (перев. с арабск., предисл., коммент., прим., и указатели С.М.Буниятова). Баку, 1973.

**III-IV bölmələrə dair:**

1. Azərbaycan tarixi üzvə qaynaqlar. Bakı, 1989.

2. Azərbaycan tarixi. I cild. Bakı, 1958.

3. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə), Bakı, 1994.

4. Azərbaycan tarixi (Y.K.Əliyev və S. Yusifovun redaktəsi ilə), Bakı, 1996.

5. Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI век) Баку, 1983.

6. Ашурбейли С.Б. История города Баку периода средневековья. Ба-

ку, 1992.
7. Алиев Ф.М. Азербайджано-русские отношения XV-XVIII вв. (Первая часть). Баку, 1985.
8. Bakıxanov A.A. "Gülüstani-İrəm". Bakı, 1993.
9. Fərzəliyev Ş. F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, 1995.
11. Faruq Sumer. Qaraqoyunlular. (Başlanğıcdan Cahan şaha qədər) c. I ankara. 1967.
12. İbrahimov S. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958.
13. Минорский В.Ф. Истории Ширвана и Дербента. Москва, 1963.
14. Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir, Bakı, 1977.
15. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı, 1980.
16. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985.
17. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı, 1986.
18.Махмудов Я.М. Взаимоотношения государств аккоюнлу и Сефевидов с западно-европейскими странами (II половина XV - начало XVII века). Баку, 1991.
19. Мустафаев Ш.М. Восточная анатолия: от аккоюнлу к Османской империи. Москва, 1994.
20. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər (XVI-XVIII əsrlər). Bakı, 1977.
21. İbrahimov S. Səfəvilərin Ərdəbil hakimiyyəti. Bakı, 1960.
22. Эфендиев О.А. Образование Азербайджанского государства Сефевидов. Баку, 1961.
23. Əfəndiyev O. A. Azərbaycan Səfəvilər dövləti. Bakı, 199-.
24. Петрушевский И.П. Государства Азербайджана в XV в. Баку, 1999.
25. Смирнов Н.А. Политика России на Кавказе в XVI-XIX вв. Москва, 1958.

**Sinifdənxaric oxu üçün ədəbiyyat:**

1. Axundov M. F. Aldanmış kəvakib.
2. Cəfərzadə Ə. Bakı -1501.
3. Gəncəvi M. Rübailər.
4. Gəncəvi N. Yeddi gözəl.
5. Hüseynov İ. Məşhər.
6. Hüseyn S. Topal Teymur.
7. Xətai Ş. İ. Əsərləri.
8. İsmayılov M. İki od arasında.

9. İsmayılov M. Qara Yusif.
10. İsmayılov M. Uzun Həsən.
11. Kərimzadə F. Çaldıran döyüşü.
12. Kərimzadə F. Xüdafərin körpüsü.
13. Qabil. Nəsimi.
14. Nicat Ə. Qızılbaşlar.
15. Ordubadi M. S. Qılınc və qələm.
16. Zöhrabbəyov a. Odlu diyar.

**I Xəritələr və atlaslar:**

1. "Ağqoyunlu dövləti"
2. "Azərbaycan XI-XII əsrlərdə".
3. "Eldənizlər" dövləti (1136-1225-ci illər)".
4. "Monqolların Azərbaycanı işğal etməsi".
5. Azərbaycan XIII əsrin sonu - XIV əsrin birinci yarısında".
6. "Azərbaycan XV əsrin ikinci yarısı - XVI əsrin əvvəllərində".
7. "Azərbaycan XV əsrdə".
8. "Qaraqoyunlu dövləti".
9. "Azərbaycan XVI əsrdə".
10. "Azərbaycan Səfəvilər dövləti XVI əsrdə".
11. "Səfəvilər dövləti XV-XVII əsrlərdə".

**II. Cədvəllər, sxemlər, diaqramlar, şəkillər:**

1. I Şah İsmayılın portreti.
2. I İbrahim Dərbəndinin portreti.
3. Qara Yusifin portreti.
4. "XII-XVI əsrlərdə Azərbaycanda torpaq mülkiyyəti formaları".
5. "XV-XVI əsrlərdə Azərbaycanda vergilər".
6. Nəsiminin portreti.
7. "Səfəvilərin dövlət quruluşu.
8. "Səfəvi-Osmanlı müharibələri".
9. "Səfəvilərin dövrləşməsi".
10. Şəmsəddin Eldənizin portreti.

**III. Audovizual vasitələr:**

Bədii filmlər: "Nizami", "Nəsimi", "Koroğlu".
Tədris filmi: Nizami Gəncəvi.

# IX SİNİF

## YENİ DÖVR

**Həftədə 1(2) saat, il boyu 34 (68) saat.**

## I BÖLMƏ

## AZƏRBAYCAN XVII ƏSRİN İKİNCİ YARISI - SƏFƏVİLƏR DÖVLƏTİNİN SÜQUTU DÖVRÜNDƏ - 9(18) saat.

**1. Azərbaycan XVII əsrin ikinci yarısında - 3(5) saat.**

**XVII əsrin ikinci yarısında Azərbaycanın siyasi vəziyyəti - 1(2) saat.**

Qəsri Şirin (1639) sülə müqaviləsindən sonra Azərbaycanda vəziyyət. Dinc inkişaf prosesinin davam etdirilməsi. Azərbaycanda inzibati sistemi. İdarəçilikdə irsiliyin əsasən saxlanması.

Səfəvi-Rusiya münaqişəsi. Don kazaklarının başçısı Stepan Razinin Azərbaycana qarətçilik yürüşü. Xəzərsahili ərazilər Rusiyanın işğal planında.

**Azərbaycanda iqtisadi həyat - 2(3) saat.**

Kənd təsərrüfatı. Torpaq mülkiyyəti formaları. Kəndli kateqoriyaları. Əkinçilik (taxıl, pambıq, tütün və s. becərilməsi). Süni suvarma vasitələri. Vergi və mükəlləfiyyətlər.

Azərbaycanda şəhər həyatı və şəhər təsərrüfatı. Əhali və onun məşğuliyyəti. İqtisadi geriliyin şəhər həyatına təsiri. Səyyahlar Azərbaycan şəhərləri haqqında.

Sənətkarlıq və onun əsas sahələri. Toxuculuğun şəhərlərin iqtisadi həyatında rolu. Təbriz toxuculuq mərkəzi kimi. Xalçaçılıq. Metalişləmə. Sənətkar qrupları, onları fərqləndirən cəhətlər.

Ticarətin inkişafında şəhərlərin rolu. Ordubazlar və ordubəyi. Karvansarayların ticarətdə və xüsusən topdansatış ticarətin genişlənməsində yeri. Xarici ölkələrlə ticarət. Azərbaycanda sikkə zərbi. Pulun qiymətdən düşməsi.

XVII əsrin son rübündə Azərbaycan iqtisadiyyatında baş vermiş tənəzzül və onun səbəbləri. Vergi və mükəlləfiyyətin ağırlığı, yerli hakimlərin özbaşnalığına qarşı çevrilmiş çıxışlar, onların xarakteri. 1677-ci ildə Çuxursəddə hərbiçilərin etirazı.

**2. Azərbaycan XVIII əsrin birinci yarısında - 6(13) saat.**

**I Pyotrun Xəzəryanı bölgələrə hərbi yürüşü. Azərbaycan torpaqlarına yiyələnmək uğrunda dövlətlərarası mübarizə - 1(2) saat.**

Səfəvi dövlətinin iqtisadi geriliyi. Beynəlxalq münasibətlərin pisləşməsi. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Rusiyanın Azərbaycana aid tədbirlər planı. Dərbəndin alınması. Ruslar tərəfindən Xəzəryanı bölgələrin işğalı. Rəştin və Bakının tutulması.

İranla Rusiya arasnıda Peterburq müqaviləsi. Rusiya işğalından sonra Xəzryanı bölgələrdə qeyri-sabitlik.

Qonşu dövlətlərin Azərbaycana maraqları. Osmanlıların Azərbaycanın qərb torpaqlarına hücumu. Osmanlıların Xəzryanı bölgələrə çıxmaq cəhdi. Rus-Türk ziddiyyətlərinin kəskinləşməsi. Rusiya ilə Türkiyə arasında İstanbul müqaviləsi və onun şərtləri.

**Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı imperiyalarının tərkibində - 1(2) saat.**

Osmanlıların Azərbaycanın Qərb torpaqlarını ələ keçirməsi. İnzibati idarəetmə. Vergi və mükəlləfiyyətlərin artması. Azərbaycanda türk feodallarının özbaşınalığı. Osmanlı hakimiyyətinə qarşı narazılığın artması. Qarabağ və Şirvanda iğtişaşlar. 1728-ci il üsyanı və onun qəddarlıqla yatırılması.

Rusların Xəzəryanı bölgələrdə hökmranlığı. Azərbaycanın Rusiya tərəfindən işğal edilmiş bölgələrində idarə sistemi. Rusiyanın Azərbaycanda iqtisadi maraqları. Azərbaycanda siyasi vəziyyət. Nadirin Azərbaycan uğrunda mübarizəsi.

**Azərbaycanın Nadir Şah imperiyasının tərkibinə qatılması - 1(2) saat.**

Dövlətlərarası münasibətlərin pisləşməsi.

Nadirin mövqeyinin pisləşməsi. Onun türklər üzərində qələbəsi. Təbriz, Gəncə və Şamaxının azad edilməsi. Rus qoşunlarının Azərbaycandan çıxarılmasının birinci mərhələsi.

Rəşt müqaviləsi. Saray çevrilişi. II Təhmasibin taxtdan salınması. Xəzəryanı bölgələrin Ruslardan tamamilə azad edilməsi. Gəncə müqaviləsi. Nadirin özünü şah elan etməsi. Azərbaycanda Nadir hakimiyyətinin bərqərar olması. Nadirin şah "seçkisi"nin Azərbaycan üçün siyasi nəticələri. Vergilər və mükəlləfiyyətlərin artması. İstismarın öüclənməsi. İdarəetmədə dəyişiklik. Azərbaycanın ayrıca inzibati bölgü elan edilməsi.

**Azərbaycanın şimalında Nadir şaha qarşı üsyanlar - 1(2) saat.**

Azərbaycanda Nadir zülmünün gücləməsi. Vergi və mükəlləfiyyətlər. Nadirə qarşı narazılığın artması. Azərbaycanda aclıq və xəstəliklərin yayılması. Astara üsyanı və onun yatırılması. 1735-1738-ci illərdə İran əsarətinə qarşı Şəki, Car-Balakən və Şirvanda çıxışlar. Çıxışların qəddarlıqla yatırılması. 40-cı illərdə azadlıq hərəkatının genişlənməsi. Hacı Çələbinin Nadirə qarşı çıxması. Nadirin öldürülməsi.

**Mədəniyyət - 2(4) saat.**

Maarif. Məktəblər və mədrəsələr. Azərbaycan ədəbi dilinin Qafqazda və Şərq ölkələrində yayılması. Səfəvi-Osmanlı müharibələrinin Azərbaycanın mədəni həyatına mənfi təsiri.

Elm. Nəsrullah Xalxali. Mir Əliənnəqi Ərdəbili.

Tarix. Məhəmməd Tahir Vahid. Fəlsəfə. Yusif Məhəmmədcan oğlu Qarabaği, ağa Hüseyn Xalxali. Kitabxanaçılıq. Təbriz və Ərdəbil kitabxanaları. Ədəbiyyat. Şifahi xalq yaradıcılığı. Qoşma, bayatı və dastan jurnalı. Sarı aşıq. "Koroğlu", "Aşıq Qərib", "Əsli və Kərəm" dastanları. Poeziya. Tərzi Əfşar. Saib Təbrizi.

İncəsənət. Xəttatlıq. Mir Əbdülbaği Təbrizi, Əli Rza Təbrizi. Musiqi. "Şərq operası".

Memarlıq. Bahəddin. Nardaran məscidi. Gəncədə şah abbas məscidi. Mərdəkan (Bakı) və Şeyx İbrahim (Şamaxı) məqbərələri. Şeyx Səfiəddin kompleksi. Karvansaralar. Qonşu ölkələrlə mədəni əlaqələr. Şərq mədəniyyətinin inkişafında Azərbaycanın rolu.

**Təkrar - ümumiləşdirici dərs: XVII əsrin ikinci yarısı - XVIII əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafının yekunları - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Qüdrətli Azərbaycan dövləti. Azərbaycan tarixi (VIII sinif): Mərkəzləşmiş Azərbaycan Səfəvi dövləti. Səfəvi-Osmanlı müharibələri. Ümumi tarix (VIII sinif): Osmanlı imperiyası XVI əsrin ikinci yarısı - XVII əsrin birinci yarısında (IX sinif) Qafqaz xalqları XVII əsrin ikinci yarısı - XVIII əsrdə. Osmanlı imperiyası XVII əsrin ikinci yarısı - XVIII əsrdə. XVIII əsrin əvvəllərində Rusiyanın xarici siyasəti. Coğrafiya (VIII sinif): "Dövlət sərhədi" və "Gömrükxana" anlayışları. Azərbaycan Avropa və Asiya ölkələrini birləşdirən nəqliyyat dəhlizidir. Ədəbiyyat (IX sinif): Zaib Təbrizi. XVII-XVIII əsr Azərbaycan dastanları. "Koroğlu" eposu.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Cəlalilər hərəkatı. Vergi sistemi. Ticarət rəqabəti. Beynəlxalq münasibətlər. Nufuz dairəsi. hərbi-siyasi ittifaq. Ordu bazarı. Ordubəyi. Qolbəyi. Sultan. Sancaqlıq. Topdan-satış ticarəti.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa mövzu, kurs və fənlərdən alınan bilik və bacarıqları bölmənin öyrənilməsində tətbiq etmək. Azərbaycanın

Səfəvi imperiyasının daxilində öz dövlətçilik ənənələrinin saxladığını sübut edən faktları izah etmək. XVII əsrin ikinci yarısında iqtisadi yüksəlişin səbəblərini aydınlaşdırmaq. XVII əsr Azərbaycan şəhərlərinin iqtisadi inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək. Vergi sistemi nəticəsində xalq kütlələrinin vəziyyətinin ağırlaşması ilə kəndli üsyanları arasındakı səbəb və nəticə əlaqələrini göstərmək.

Rusiya və Qərbi Avropa dövlətlərinin Şərq siyasətinin mahiyyətini açmaq. Şərq siyasətinin Səfəvilər imperiyası ilə əlaqəsini aydınlaşdırmaq. Səfəvilər dövlətinin tənəzzülünün səbəblərini aydınlaşdırmaq.

Cənubi Qafqazda möhkəmlənmək uğrunda Rusiya-Türkiyə rəqabətinin gücləndiyini faktlarla sübut etmək. Xəzərsahili torpaqların Rusiya tərəfindən işğalının səbəb-nəticə əlaqələrini açıqlamaq.

XVIII əsrin 30-40-cı illərində Azərbaycanda İran ağalığı ilə xalq hərəkatının güclənməsi arasında səbəb və nəticə əlaqələrini müəyyənləşdirmək.

Azərbaycanda baş vermiş üsyanların İran əleyhinə çevirildiyini faktlarla sübut etmək. Şəki, Car-Balakən və Şirvandakı üsyanların ümumi cəhətlərini açmağı bacarmaq.

Təsərrüfat həyatının tənəzzülünü Avropa da manufaktura sənayesini inkişafı ilə əlaqələndirmək. Beynəlxalq ipək ticarətinin zəifləməsinin Azərbaycanın iqtisadi həyatına mənfi təsirini izah etmək. Rusiyanın Şərq ölkələri ilə ticarətində Azərbaycanın rolunu xəritə üzrə aydınlaşdırmaq. Nadir xanın qələbələri ilə Səfəvi imperiyasının süqutu arasında əlaqə yaratmaq. Azərbaycanda İran ağalığına qarşı xalq üsyanlarının yerini xəritədə göstərmək. Azərbaycanda İran ağalığını səciyyələndirən faktları təhlil etmək, İran əsarətinin mahiyyətini açmaq. Azadlıq hərəkatı anlayışının XVIII əsrin 30-40-cı illərində Azərbaycanda baş verən üsyanlara tətbiq etmək. Mövzunun əsas məsələləri arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək.

## II BÖLMƏ

## AZƏRBAYCAN XANLIQLAR VƏ ONUN RUSİYA İLƏ İRAN ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ DÖVRÜNDƏ - 25(49) saat.

**3. Azərbaycan xanlıqları - 12(21) saat.**
**Cənub xanlıqları - 1(2) saat.**

Təbriz, Qarabağ, Ərdəbil, Xoy, Urmiya xanlıqlarının yaranması.

Urmiya xanlığının birləşdirmə siyasəti. Fətəli xan Əfşar və Qacarların mərkəzi hakimiyyət uğrunda mübarizəsi. Fətəli xan Əfşar və Qarabağ xan-

lığı. Kərim xan Zəndin Urmiya xanlığını tutması. Xoy xanlığının yüksəlişi.

**Şimal xanlıqları.**

**Şəki və Şamaxı xanlıqları - 1(2) saat.**

Şəkidə üsyan. Hacı Çələbi Qurban oğlunun başçılığı ilə Şəki xanlığının yaranması. Ərazisi. Əhalinin məşğuliyyəti. Çələbi xanın Azərbaycanı birləşdirmək təşəbbüsü. Bayat döyüşü. Gürcüstanla münasibətlər.

Şamaxı xanlığı və onun Quba xanlığı ilə münasibətləri. Xanlığın Rusiya hakimiyyətini qəbul etməsi.

**Quba xanlığı - 2(4) saat.**

Ərazisi. Əhalinin məşğuliyyəti. Fətəli xanın hakimiyyəti dövründə xanlığın qüvvətlənməsi. Şimali - Şərqi Azərbaycanı birləşdirmək siyasəti. Salyan nahiyyəsi. Dərbənd, Bakı, Şamaxı, Cavad xanlıqlarının birləşdirilməsi. Qavduşan döyüşü. Azərbaycanı birləşdirmək təşəbbüsünün baş tutmaması.

**Qarabağ xanlığı - 2(4) saat.**

Ərazisi, əhalinin məşğuliyyəti. Qarabağ xanlığının yaranması. Pənahəli xan və onun xanlığı möhkəmləndirmək tədbirləri. Şuşa qalası. Xanlıqdakı separatçı qüvvələrin tabe edilməsi. Xanlığın sərhədlərinin genişləndirilməsi. Məmməd Həsən xanın Qarabağa hücumu. Qarabağ xanlığı İbrahim Xəlil xanın hakimiyyəti dövründə.

**İrəvan, Naxçıvan və Talış xanlıqları - 2(3) saat.**

İrəvan xanlığı, ərazisi, əhalisi. Xanlığın Gürcüstan, İran, Türkiyə ilə münasibətləri.

Naxçıvan xanlığı, ərazisi, əhalinin məşculiyyəti. Gürcüstan, Rusiya, İran və Türkiyə ilə münasibətlər.

Talış xanlığı, ərazisi, əhalinin məşğuliyyəti. Xanlığın möhkəmləndirilməsində Qara xanın rolu. Quba xanlığı ilə münasibətlər. Mir Mustafa xan. Xanlıqlararası münasibətlərdə Talış xanlığının mövqeyi.

**Bakı və Gəncə xanlıqları - 1(2) saat.**

Bakı xanlığı, ərazisi və əhalisi. Bakı xanlığının "nikah diplomatiyası". Nakimiyyət uğrunda mübarizələr. Bakı xanı Hüseynqulu xan və onun xarici siyasəti. Rusiya və İran dövlətləri arasında siyasi manevrlər.

Gəncə xanlığı ərazisi, əhalisinin məşğuliyyəti. Gəncə xanı Cavad xanın xanlığın rnəşğuliyyətini qorumaq uğrunda mübarizəsi.

**Azərbaycanın şimalında sultanlıqlar, məliklər, camaat - 1(2) saat.**

Car-Balakən camaatı. İlisu, Qazax, Şəmşəddil, Ərəş və Qəbələ. Məlikliklər. Xaçın, Vərəndə, Dizaq, Çiləbərd, Gülüstan onların əraziləri və əlaqələri.

**Xanlıqların sosial-iqtisadi həyatı - 1(2) saat.**

İqtisadi həyat. Kənd təsərrüfatı. Torpaq mülkiyyəti formaları. Əkinçilik

və maldarlıq. Şəhərlər. Sənətkarlıq və ticarət. Sosial zümrələr. Xanlar, bəylər, ağalar, ruhanilər, maaflar. Kəndli kateqoriyaları. İdarəetmə sistemi. İnzibati quruluş.

**Xanlıqların xarici siyasəti - 1(2) saat.**

Xarici siyasətin əsas istiqamətləri. İran. Osmanlı imperiyası və Rusiya ilə münasibətlər. 1783-cü il Georgiyevsk müqaviləsi və Azərbaycan. Azərbaycan-Gürcüstan münasibətləri. Xırda feodal dövlətlərinə parçalanmağın Azərbaycanın iqtisadi və hərbi-siyasi durumuna təsiri. Azərbaycana yadelli hücumlar.

**4. Azərbaycan torpaqlarının işğalı - 11(20) saat.**

**Ağa Məhəmməd Şah Qacarın Azərbaycanın şimal torpaqlarına yürüşü - 1(2) saat.**

İranda Ağa Məhəmməd Şah Qacarın hakimiyyətə gəlməsi. Qacarlar dövlətinin mənsubiyyəti. Qacarın hücumu ərəfəsində Azərbaycanın şimal torpaqlarında vəziyyət. Ağa Məhəmməd Şah Qacarın şimali Azərbaycana yürüşü, Şuşanın müdafiəsi. Qacarın Tiflisi tutması. Qacar Muğanda.

**Rusiyanın Azərbaycanın şimal torpaqlarını tutmaq siyasətinin iflası - 1(2) saat.**

Rusiyanın Azərbaycanın şimal torpaqlarını işğal etmək təşəbbüsü. Şimali Azərbaycan xanlıqlarının Rusiyaya qarşı ittifaqı. Ağa Məhəmməd Şahın Şimali Azərbaycana II yürüşü. Şah Qacarın qətli.

**XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti - 1(2) saat.**

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycanın siyasi durumu. Azərbaycan xanlıqları arasında ziddiyyətlər və onun nəticələri. Cənubi Qafqaz, rus-ingilis, iran-fransız və ingilis-iran planında Azərbaycan xanlarının Rusiya ilə müqavilələri.

**Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması - 1(3) saat.**

Rusiya qoşunlarının Şimali Azərbaycan torpaqlarına soxulması.

Car-Balakənin işğalı. Tiflisdə Rusiya və Car-Balakənin arasında "andlı öhdəliyin" imzalanması. Dağıstan feodallarının Car-Balakənə hücumu. Dağıstan qüvvələri ilə rus qoşunları arasında döyüş. İlisu sultanlığının rus qoşunları tərəfindən işğal edilməsi.

Cavad xan. 1803-cü ilin sonunda Gəncə uğrunda rus qoşunları ilə Cavad xanın hərbi dəstələri arasında qanlı döyüş. Gəncə qalasının rus qoşunları tərəfindən mühasirəyə alınması. 1804-cü ildə Gəncə qalasının alınması. Sacad xanın öldürülməsi. Samuğ sultanlığının zəbt olunması.

**Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi - 7(13) saat.**

**I Rusiya-İran müharibəsi. Gülüstan sülhü - 3 (6) saat.**

İran və Rusiyanın Azərbaycanın torpaqlarının işğal etmək uğrunda mübarizəsi.

1804-1813-cü illərdə Rusiya-İran müharibəsi. Müharibənin səbəbləri. Başlanması və ilk döyüşlər.

Qarabağ, Şəki və Şirvan xanlarının Rusiya ilə ağır şərtlərlə imzaladıqları müqavilələr (1805-ci il Kürəkçay müqaviləsi və s.). Bakı xanlığının tutulması uğrunda mübarizə. 1806-cı ilin hərbi kompaniyası. Bakı və Quba xanlıqlarının işğalı. İmperiya əleyhinə çıxışlar. İrəvan yaxınlığında baş vermiş döyüşlər və onların nəticəsi. Bakı şəhərinin tutulması uğrunda mübarizə. General P.Sisiyanovun öldürülməsi. Rus qoşunları ilə Azərbaycan xanlıqları arasında gərginliyin artması. Bakı və Quba xanlıqlarının işğalı. Abbas Mirzənin Şuşa qalasını zəbt etməsi. İbrahim Xəlil xanın qətlə yetirilməsi.

1806-cı ildə rus imperiyasının əleyhinə Azərbaycanda çıxışlar. Qubada Şeyx Əli xanın, Şəkidə Səlim xanın, 1806-cı ildə Car-Balakən camaatının üsyanları. Rus-Türk müharibəsinin başlanması. 1806-1812-ci illərdə Türkiyə ilə Rusiya arasında hərbi əməliyyatlar.

Rusiyanın Cənubi Qafqazda İran və Türkiyəyə qarşı apardığı müharibələrin genişlənməsi. Aslandüz döyüşü. Lənkəranın işğalı. 1812-ci il Rusiya-Türkiyə arasında imzalanmış Buxarest sülh müqaviləsi.

Gülüstan sülhü. Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsi.

**Şimali Azərbaycanda Rusiyanın işğal rejimi. İdarə sistemində dəyişiklik. Sosial-iqtisadi vəziyyət - 1(2) saat.**

Şimali Azərbaycanın işğalından sonra idarə sistemində dəyişiklik. Komendant üsul-idarəsinin yaranması. Azərbaycanda inzibati ərazi bölgüsü, sosial-iqtisadi vəziyyət. Didərgin əhalinin yenidən geri qaytarılması. Neft, duz, balıq, xam ipək və s. sənaye və ərzaq məhsullarının Rusiyaya daşınması. Azərbaycanda ali müsəlman silki səlahiyyətlilərin məhdudlaşdırılması. Xanlıqların ləğvi.

**Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin başa çatması - 3(5) saat**

Rusiyanın İran və Türkiyəyə qarşı təzyiqlərinin artması və onun bütün Qafqazı ələ keçirmək planları. Rusiyaya qarşı İran-İngiltərə münasibətləri. Tehran müqaviləsi. İranın yenidən Rusiyaya qarşı müharibəyə hazırlaşması.

Müharibənin başlanması. Azərbaycan torpaqlarının yenidən müharibə meydanına çevrilməsi. İran qoşunları tərəfindən Şuşanın mühasirəsi. Şəki və Yelizavetpol döyüşləri. Şəmkirdə İran qoşunlarının məğlubiyyəti. İşğal əleyhinə Azərbaycanda üsyanlar: 1826-cı ildə Gəncə və Talış üsyanları. Rus qoşunlarının Azərbaycanın cənub vilayətlərini zəbt etməsi. Təbrizin işğalı. Rusiya və İran arasında Türkmənçay müqaviləsi. Azərbaycanın Rusi-

ya və İran arasında bölüşdürülməsinin başa çatması.

Rus-Türk müharibəsi. Ədirnə sülhü.

Gülüstan və Türkmənçay sülh müqavilələrinin türklər tərəfindən tanınması.

Ermənilərin kütləvi surətdə Şimali Azərbaycanın Qarabağ və digər bölgələrinə köçürülməsi.

Gülüstan və Türkmənçay sülh müqavilələrinin xalqımızın tarixində törətdiyi faciələr.

**5. Mədəniyyət - 2(4) saat.**

Maarif. Məktəb və mədrəsələr. Ədəbiyyat. Şifahi xalq yaradıcılığı. Dastanlar. Poeziya. Qovsi Təbrizi, Arif Təbrizi, Arif Şirvani, Ağa Məsih Şirvani, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Şikəstə Şirin, Şakir Şirvani. Ədəbiyyatda realizmə meyl. Bədii sənətkarlıhın inkişafı. Ədəbi dil. Səfəvi dövlətində inzibati-siyasi və hərbi terminologiyanın yaranmasında Azərbaycan dilinin rolu.

Azərbaycan kitabı. Kitab evləri. Şeyx Səfi kitabxanası. İncəsənət: Dekorativ tətbiqi sənət. Memarlıq abidələri. Şəki xan sarayı. İrəvanda Göy məscid. İrəvan xanının güzgülü sarayı. Musiqi. Rəssamlıq.

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Şəki, Cavad xan, Gülüstan dağı, Türkmənçay - xalqımızın milli faciəsidir. Azərbaycan tarixi (VIII sinif): Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti (IX sinif): XVIII əsrin birinci yarısında Azərbaycan torpaqlarına yiyələnmək uğrunda dövlətlərarası mübarizə. Azərbaycan torpaqları Nadir şah imperiyasının tərkibində. Ümumi tarix (VIII sinif): Osmanlı imperiyası XVIII əsrin ikinci yarısında. XVIII əsrin ikinci yarısında İranda hakimiyyət uğrunda mübarizələr. Qafqaz xalqları XVIII əsrdə. Georgiyevsk müqaviləsi (1783): Azərbaycan Respublikasının fiziki coğrafiyası (VIII sinif): Azərbaycan səyyahların gözü ilə. Azərbaycanda coğrafiya elminin inkişafında və coğrafiyaşünasların rolu. Ədəbiyyat (IX sinif): Molla Pənah Vaqifin həyat və yaradıcılığı. Ədəbiyyatda realizm.

**Bölmə üzrə əsas anlayışlar:** Xanlıq. Sultanlıq. Məliklik. Camaat. Mülkədar. Divan-Şura. Rəncbər. Rəiyyət. Yasavul. Eşik ağası. Naib. Kəndxuda. Qazi. Cəllad. Fərraş. Dəllal. Andli öhdəlik. Manifest. Komendant idarə üsulu. Ali müsəlman silki. Mühacirət. Poeziya. Realizm.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Ümumi tarixdən, Azərbaycan tarixin-

dən, coğrafiyasından və ədəbiyyatdan alınan müvafiq bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Kontur xəritədə XVIII əsrin II yarısında Azərbaycan dövlətlərinin sərhədlərini nişanlamaq.

Xanlıqların təbii şəraiti ilə əhalinin məşğuliyyəti arasındakı əlaqələri müəyyənləşdirmək. Xanlıqlararası münasibətlərin açılması vasitəsilə Azərbaycanın hərbi-siyasi gücünün zəifləməsini sübut etmək. Rusiyanın Azərbaycana aid işğalçılıq siyasətinin daha da fəallaşmasını xanlıqların meydana gəlməsi ilə əlaqələndirmək. Xanlıqların idarəçiliyindəki fərqli və oxşar xüsusiyyətləri müəyyən etmək. Xanlıqlar dövrünün Azərbaycanda dövlətçilik ənənələrinin inkişafında yerini qiymətləndirmək. Xanlıqlarda sosial zümrələrin təhlilini vermək. Xan hakimiyyətinin tipik feodal hakimiyyəti olduğunu faktlarla sübut etmək.

Azərbaycanın XVIII əsr dövrünü Qərbi Avropa dakı feodal dağınıqlığı dövrü ilə müqayisə edərək nəticələr çıxarmaq. Feodal dağınıqlığının fərqli və oxşar səbəblərini aydınlaşdırmaq.

Xanlıqlararası müharibələrin kənd təsərrüfatı, sənətkarlıq, ticarət və şəhərlərin inkişafına göstərdiyi təsirləri ayrı-ayrı xanlıqların təsərrüfat həyatından gətirilən misallarla şərh etmək. Feodal dağınıqlığının vahid daxili bazarın yaranmasına mane olmasını, xanlıqların xarici ölkələrlə əlaqələrinə mənfi təsir göstərməsini izah etmək.

Azərbaycanı işğal etmək uğrunda Rusiya ilə İran ziddiyyətlərinin güclənməsini dəlillərlə aşkarlamaq. Azərbaycanın Rusiya ilə İran arasında hərbi əməliyyatlar meydana çevirilməsinin səbəblərini göstərmək. Xanların öz hərbi qüvvələrini birləşdirə bilmələrini bütövlükdə ölkənin taleyi üçün ağır nəticələrə gətirib çıxardığını izah etmək. Rusiyanın dövlətlərarası beynəlxalq münasibətlərdə qəbul edilmiş norma və prinsipləri pozmağın böyük ifaçısı olduğunu Azərbaycan xanlıqları ilə bağladığı müqavilələrə əməl etməməsi ilə izah etmək və faktlarla əsaslandırmaq.

Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin mərhələlərini kontur xəritədə nişanlamaq. Gülüstan müqaviləsinin qarətçi, ədalətsiz müqavilə kimi Rusiya imperiyasının işğalçılıq siyasətinin davamı kimi qiymətləndirmək və faktlarla əsaslandırmaq. Müqavilə əsasında ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin məqsədini izah etmək. Azərbaycanın xanlıqlar formasında olsa da dövlət müstəqilliyinin ləğv edilməsinin Azərbaycan xalqına qarşı ümumbəşəri cinayət olduğunu əsaslandırmaq. Dərslik, müxtəlif sorğu ədəbiyyatı və ensiklopediyadan istifadə etməklə dövrün görkəmli elm, maarif, ədəbiyyat və incəsənət xadimləri və onların əsərləri haqqında məlumat hazırlamaq. Xanlıqların meydana gəlməsi ilə XVIII əsrin ortalarına doğru Azərbaycanda və İranda yaranmış vəziyyət arasındakı əlaqəni açmaq. Azərbaycan torpaqlarını vahid dövlətdə bir-

ləşdirmək uğrunda mübarizədə Hacı Çələbi xanın, Qubalı Fətəli xanın və Fətəli xan Əfşarın fəaliyyətini qiymətləndirmək. Birləşdirmənin baş tutmamasının səbəblərini açıqlamaq.

**Yekunlaşdırıcı ümumiləşdirmə: Azərbaycanda feodal dağınıqlığı və onun nəticələri - 0 (1) saat.**

**Qaynaqlar və ədəbiyyat**

**I bölməyə dair:**


1. Azərbaycan tarixi I cild. Bakı, 1958.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
3. Azərbaycan tarixi. I cild. Bakı, 1973.
4. Azərbaycan tarixi (Y.K.Əliyev və S.Əlyarlının redaktəsi ilə). Bakı, 1996.
5. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə) Bakı, 1994.
6. Azərbaycan tarixi. III cild. Bakı, 1998.
7. Dəlili H. Ə. Azərbaycan-Rusiya münasibətləri fars və Azərbaycan dilli sənədlərdə. Bakı, 1976.
8. İsmayılov M. Ə. Azərbaycan tarixi. Bakı, 1992.
9. İsmayılov R. B. Azərbaycan tarixi. Bakı, 1993.
10. Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı, 1977.
11. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı, 1986.
12. Məmmədov S. A. Azərbaycan XV-XVII əsrin birinci yarısında. Bakı, 1981.
13. Məmmədov S., Şükürov K. Azərbaycan tarixi. Bakı, 1992.
14. Nemətova M. S. Azərbaycanın XVII-XVIII əsrlər epiqrafik abidələr.
15. Onullahi S. M. Azərbaycan XIII-XVIII əsrlərdə. Təbrizin tarixi. Bakı, 1982.
16. Рахмани А.А. Азербайджан в конце XVI и XVII веке (1590-1700 гг), Баку, 1981.


**II bölməyə dair**


1. Azərbaycan tarixi I cild. Bakı, 1958.
2. Azərbaycan tarixi II cild. Bakı, 196?
3. Azərbaycan tarixi (Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə) Bakı, 1994.
4. Azərbaycan tarixi (Y.K.Əliyev və S.Əlyarlının redaktəsi ilə). Bakı, 1996.

5. Azərbaycan tarixi III cild. Bakı, 1991.
6. Алиев С.М. Междуусобные войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха. Иран. История и культура в средние века и новое время. Москва, 1980.
7. Dəlili H. Ə. Azərbaycanın cənub xanlıqları. Bakı, 1979.
8. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı, Bakı, 1997.
9. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, 1997.
10. Mahmudov İ., Bağırova M. Şəki xanlığı. Bakı, 1997.
11. Mahmudov Y.M. Səyyahlar Bakıya gəlir. Bakı, 1977.
12. Məmmədov S., Şükürov K. Azərbaycan tarixi. Dərslik. Bakı, 1995.
13. Məmmədova H.M. Osmanlı imperiyasının xarici siyasətində Azərbaycan xanlıqları.
14. Mustafayev A. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1995.
15. Мустафаев Д.М. Северные ханства Азербайджана и России (конец XVIII век-нач. XIX в.), Баку, 1989.
16. Sadıqov H. Rusiya-Türkiyə müharibəsində Cənubi Qafqaz problemi. (1787-1829-cu illər). Bakı, 1991.
17. Şəki xanlığının tarixindən. Bakı, 1993.

**Sinifd ənxaric oxu üçün ədəbiyyat:**

1.Aqil Abbas. Batmanqılınc.
2.Çəmənli Mustafa. Xallı Gürzə.
3.Çəmənzəminli Y.V. Qan içində.
4.Haqverdiyev Ə.B. Ağa Məhəmməd Şah Qacar.
5.İsayev Ə. Gəncə və gəncəlilər.
6.İsmayılov M. Ağ yapıncı.
7.Gevr J. Xacə şah.
8.Nərimanov N. Nadir şah.
9.Şükürov S. Cavad xan.
10.Vurğun S. Gəlin qayası.

**I. Xəritələr və atlaslar:**

1."Azərbaycan XVII əsrdə".
2."Azərbaycan XVIII əsrin birinci yarısında".
3."Azərbaycan xanlıqları".
4."Azərbaycan XVIII əsrin sonu - XIX əsrin əvvəllərində".
5."Səfəvilər dövləti XV-XVII əsrlərdə".

**II. Cədvəllər, sxemlər, diaqramlar:**

1."Azərbaycan xanlıqları".

2."Azərbaycan sultanlıqları".

3."Azərbaycan torpaqlarını bölüşdürmək uğrunda müharibələr" (1801-1828-ci illər).

4."Qarabağ məliklikləri".

5."Xanlıqların idarəetmə sistemi".

6."Rusiyanın xanlıq idarə üsulunu dəyişdirməsi (1801-1826-cı illər)".

7."Səfəvi-Osmanlı müharibələri".

**III. Audovizual vasitələr:**

Bədii film: "Fətəli xan".

# X SİNİF

## YENİ DÖVR

**Həftədə 1 (4) saat, il boyu 34 (136) saat[1].**

## I BÖLMƏ

**Azərbaycan XIX əsrin 30-40-cı illərində - 10 (43) saat.**

**1. Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti - 3(13) saat.**

**İdarəetmə və köçürmə siyasəti - 1 (4) saat.**

Komendant idarə üsulu. Şimali Azərbaycanda komendant idarə üsulu və onun hərbi-feodal xarakteri. Dövlətçilik ənənələrinin ləğv edilməsi. Köçürmə Rusiyanın müstəmləkə siyasətinin tərkib hissəsidir. Türkmənçay sülh müqaviləsində ermənilərin kütləvi şəkildə Şimali Azərbaycana köçürülməsi məsələsi. Şimali Azərbaycan torpaqlarının köçürülmə məsələsində mühüm yer tutmasının səbəbləri. Ermənilərin Qarabağ, Naxçıvan, İrəvan, Göyçə, Gəncəbasar ərazilərində yerləşdirilməsi. İlk rus məskənləri və alman koloniyaları.

**Rusiyanın Şimali Azərbaycanda sosial siyasəti - 1(4) saat.**

Əhalinin sosial tərkibi. Rusiyanın Şimali Azərbaycanda sosial siyasətinin əsas istiqamətləri. Ali müsəlman silki, kəndli kateqoriyaları. "Üçüncü zümrə". Ruslaşdırma, müsəlman ruhanilərinə münasibət, şeyxülislam və müfti vəzifələrinin təsis edilməsi. Alban katolikosluğunun ləğvi. Bu siyasətin Azərbaycan üçün mənfi nəticələri. Əhalinin müxtəlif təbəqələrinin çar Rusiyasına münasibətində ümumi və fərqli cəhətlər.

**Şimali Azərbaycanda Rusiya imperiyasının iqtisadi siyasəti - 1(5) saat.**

Rusiyanın Şimali Azərbaycanda iqtisadi siyasəti. Kənd təsərrüfatı: əkinçilik, texniki bitkilər, qızıl boya hasilatı, pambıqçılıq, ipəkçilik və başqa sahələr. Maldarlıq. "Təcrübə ipəkçilik məktəbi"nin təşkili və ipəkçiliyin inkişafında onun rolu. Aqrar münasibətlər: torpaq sahibliyi və torpaqlardan istifadə.

Azərbaycanda "fabrik" tipli ilk manufaktura, dağ-mədən sənayesi. Faydalı qazıntı yataqlarından istifadə. Neft, duz və s. istehsal sahələrində ilti-

---

*1. X və XI siniflərdə bazis tədris proqramında Azərbaycan tarixinin tədrisi üçün nəzərdə tutulmuş, saatlardan əlavə, fakültativ məşğələlər hesabına həftədə 1 saat əlavə vaxt ayıra bilər.*

zam sistemi. Binəqədi və Balaxanı neft mədənlərində kəndlilərin məcburi əməyindən istifadə.

Ticarət. Rəhdar sisteminin ləğvi. Şimali Azərbaycanın Şərq və dünya ölkələri ilə müstəqil ticarət əlaqələrinin tənəzzülə uğraması. Rusiyanın Azərbaycanı özünün xammal və satış bazarına çevirməyə başlaması. Bunun qarşılıqlı təsiri və nəticəsi. Şimali Azərbaycanın Ümumrusiya bazarına cəlb edilməsinə təşəbbüs göstərilməsi.

**2. Şimali Azərbaycanda müstəmləkəçilik əleyhinə üsyanlar - 2 (9) saat.**

**Car-Balakən və Talış üsyanları 1(4) saat.**

Rusiya müstəmləkəçiliyi əleyhinə üsyanların səbəbləri. Car-Balakən camaatlığının ləğvi. 1830-cu il Car-Balakən üsyanı. Üsyanın rəhbərləri: Şeyx Şaban, Həmzət bəy. Üsyanın məğlub olması və onun səbəbləri. 1831-ci il Talış üsyanı. Komendantların özbaşnalığı. Keçmiş Talış xanı Mir Həsən xanın üsyanda rolu.

**Quba üsyanı və Şəki üsyanları - 1(5) saat.**

1837-ci il Quba üsyanı və onun səbəbləri. Hacı Məhəmməd və Yarəli üsyanın başçıları kimi. Şeyx Şamilin Quba kəndlərinə məktubu və onun doğurduğu əks-səda. Üsyanın məğlubolma səbəbləri və onun əhəmiyyəti.

1838-ci il Şəki üsyanı. Məşədi Məhəmməd üsyanın rəhbəri kimi. Dağlıların üsyançıların köməyinə gəlməsi. Şəki şəhərinin ələ keçirilməsi. Üsyanın məğlubiyyəti.

30-cu il üsyanlarının ümumi cəhətləri və xüsusiyyətləri. Üsyanların nəticələri.

**3. XIX əsrin 40-cı illərində islahatlar - 2(7) saat.**

**İslahatların hazırlanması və həyata keçirilməsi - 1(3) saat.**

İslahatların keçirilməsinin səbəbləri və müstəmləkə xarakteri. İnzibati-məhkəmə islahatı haqqında 1840-cı il 10 aprel qanunu. Komendant idarə üsulunun ləğvi və Ümumrusiya idarə sisteminə keçid. İslahatın uğursuzluğu. Qafqaz canişinliyinin yaradılması. Yeni inzibati-ərazi bölgüsü. Onun müstəmləkə xarakteri və antiAzərbaycan mahiyyəti.

**40-cı illərin aqrar islahatları - 2 (4) saat.**

Rusiyanın Azərbaycanda 40-cı illər aqrar siyasəti. Tiyul torpaqlarının irsən keçməsinin təsdiqi. Yerli bəylər, xanların tiyul torpaqlarının ləğv edilməsi cəhdi. 1841-ci il 25 aprel və 28 may qanunları, onların uğursuzluğu. Bəy və ağaların torpaq mülkiyyəti hüququnun təsdiqi. 1846-cı il 6 dekabr reskripti və 1847-ci il kəndli "Əsasnamə"lərin, onların əsas müddəaları. Dövlət və sahibkar kəndliləri. Dövlət kəndlilərin idarə olunmasında dəyişikliklər. İslahatlar Rusiyanın müstəmləkəçilik siyasətinin tərkib hissəsidir.

**Təkrar - 0 (1) saat.**

**4. Cənubi Azərbaycan İranın tabeliyində - 1(4) saat.**

**Sosial-iqtisadi və siyasi vəziyyət. Babilər hərəkatı - 1 (4) saat.**

Azərbaycan torpaqlarının iki hissəyə parçalanması nəticəsində ölkənin şimali ilə cənubu arasındakı əlaqələrin zəifləməsi. Ölkənin sosial-iqtisadi həyatı: torpaq mülkiyyətinin formaları. Əhalinin əsas məşğuliyyəti: əkinçilik, maldarlıq, sənətkarlıq. Xalçaçılıq və ipəkçilik. Ticarət.

Kəndlilərin və sənətkarların vəziyyəti. Bəzi xanlıqların daxili müstəqilliyinin saxlanması. İran dövlətinin daxili və xarici siyasətində Cənubi Azərbaycan. Azərbaycan əhalisinin həm yerli xanların, həm də hakim sülalənin zülmünə məruz qalması. Azərbaycan babilər hərəkatının mərkəzi kimi. Zəncan üsyanı. Üsyanın məğlubolma səbəbləri və əhəmiyyəti.

**5. Azərbaycanda mədəniyyət - 2 (8) saat.**

**Şimali Azərbaycanda maarif və elm - 1 (4) saat.**

Azərbaycanın hər iki hissəsində vahid mədəni ənənələrin davam etdirilməsi. Rusiya imperiyasının mədəniyyət sahəsində müstəmləkəçilik siyasəti. Maarif. İlk qəza məktəbləri. Onların açılmasında Rusiyanın məqsədləri.

Elm. Tarix. A.Bakıxanov, Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Şərqşünaslıq, M.S.Topçubaşov, Mirzə Kazımbəy. Coğrafiya. H.Z.Şirvani.

**Şimali Azərbaycanda mətbuat, ədəbiyyat və incəsənət - 0,5 (2) saat.**

Mətbuat. Azərbaycan dilində ilk qəzet nəşri. Ədəbiyyat. Aşıq yaradıcılığı. A.A.Bakıxanov, M.Ş.Vazeh, Qasım bəy Zakir, İsmayıl bəy Qutqaşınlı. M.F.Axundovun əsərlərində Rusiyanın müstəmləkəçilik siyasətinin, erməni ikiüzlüyünün ifşası.

İncəsənət. Musiqi. Məşhur xanəndə Səttar. Not musiqisi. İlk teatr tamaşaları. Rəssamlıq. Mirzə Qədim İrəvani.

**Cənubi Azərbaycanda mədəniyyət - 0,5 (2) saat..**

Cənubi Azərbaycanda mədəniyyət. Şah idarə üsulunun mədəniyyətin inkişafına mane olması. Maarif. Cənubi Azərbaycanın görkəmli ziyalıları: A.Talıbov, Z.Marağayi, Qaradağlı və başqaları.

**"Azərbaycan XIX əsrin 20-ci illərin sonu - 40-cı illərdə" mövzusunda təkrar - ümumiləşdirici dərs - 0 (1) saat.**

Nəticə

Sənəd

Xoronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V cinif): Gülüstan dağı, Türkmənçay xalqın milli faciəsidir, A.Bakıxanov, Quba üsyanı, Mirzə Kazım bəy. Azərbaycan tarixi (VII sinif): Ərəblərin Azərbaycanda dini siyasəti. Albaniyanın müstəqilliyinə son qoyulması. (IX sinif): Türk-

mənçay müqaviləsi. Naxçıvan və İrəvan xanlıqlarının ərazisində "erməni vilayəti"nin yaradılması. Cənubi Azərbaycan xanlıqları. Rusiya dövlətinin müstəmləkəçilik siyasətinə qarşı ilk çıxışlar. Ümumi tarix (IX sinif): Ədirnə sülh müqaviləsi. (X cinif): Qafqazda Rusiyanın müstəmləkəçilik siyasəti. Şeyx Şamil. Rusiya XIX əsrin 20-ci illərinin sonu 50-ci illərdə. İran XIX əsrin 20-50-ci illərində. Badilər hərəkatı. XIX əsrin birinci yarısında Şərq və türk xalqlarının mədəniyyəti. Türkiyədə tənzimat hərəkatı. Azərbaycan Respublikasının coğrafiyası (VIII sinif): Azərbaycanın faydalı qazıntıları.

**Bölmə üzrə əsas anlayışlar:** Komendantlıq sistemi, Rusiya dövlətinin Şimali Azərbaycanda müstəmləkə zülmü. İqtisadi siyasət. Sosial siyasət. Ruslaşdırma. "Üçüncü zümrə". Hərbi məskənlər. Alman koloniyaları. "Fabrik" tipli manufaktura. İltizam sistemi. Məcburi əmək. Rəhdar sistemi. Şeyxülislam. Qazi. Müfti. Car-Balakən camaatlığı. Naib. İnzibati-məhkəmə islahatları. Ümumrusiya idarəçilik sistemi. Canişinlik. İdarəçiliyin hərbi-feodal xarakteri. Bəy və ağaların kəndlilər üzərində polis və məhkəmə hüququ. Sahibkar kəndliləri. Dövlət kəndliləri. Tiyul torpaqlarının irsən keçməsi. Kəndli "Əsəsnamə"ləri. Cənubi Azərbaycanda torpaq mülkiyyəti formaları. İkili zülm. Yarımmüstəmləkə. Mədəniyyət sahəsində müstəmləkəçilik siyasəti. Vahid mədəni inkişaf ənənələri. Qəza məktəbləri. Şərqşünaslıq.

**Şagirdlərin əsas bacarıqları**: Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan əldə edilmiş bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Komendantlıq idarə sisteminin Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkə siyasətinin həyata keçirilməsi üçün vasitə olduğunu sübut etmək. Komendantlıq sisteminin yerli dövlətçilik ənənələrini məhv etmək məqsədi daşıdığını, onun hərbi-feodal xarakterini açıqlamaq. Rusiyanın köçürmə siyasətini müstəmləkəçiliyin əlaməti kimi qiymətləndirmək və öz fikrini faktlarla əsaslandırmaq. Şimali Azərbaycanda ermənilərin kütləvi şəkildə köçürülmələrini müasir dövrlə əlaqələndirmək. Rusiyanın Şimali Azərbaycandakı dini siyasəti ilə müstəmləkəçilik siyasəti arasındakı əlaqəni göstərmək və bu siyasətin mürtəce xarakterini aydınlaşdırmaq. Alban katolikosluğunun ləğvinin mahiyyətini açıqlamaq. Çarizmin Şimali Azərbaycandakı iqtisadi siyasətini müstəmləkəçiliyin əlaməti kimi qiymətləndirmək və bunu dəlillərlə əsaslandırmaq. Vətənimizin təbii sərvətlərinin qarət edilməsi ilə çarizmin müstəmləkəçilik siyasətinin əlaqəsini göstərmək. Müstəmləkə anlayışını tətbiq etməklə Şimali Azərbaycanın müstəqil ticarət hüququndan məhrum edilməsinin və nəticələrini aydınlaşdırmaq. Çarizmin Şimali Azərbaycandakı iqtisadi siyasətinin ziddiyyətli tərəflərini aydınlaşdırmaq. Şimali Azərbaycanda Rusiyanın müstəmləkəçilik əsarətinə qarşı üsyanları, onların səbəblərini, gedişini və əhəmiyyətini açıqlamaq, rabitəli şəkildə

şərh etmək. Üsyanların ümumi və fərqli cəhətlərini müəyyənləşdirmək və müqayisə cədvəli tətbiq etmək.

Bəy və ağaların huquqları haqqında çarizmin qanunlarındakı ziddiyyəti və bunun səbəblərini izah etmək. Ali müsəlman silkinin çar Rusiyasına münasibəti və torpaq mülkiyyəti hüququ arasındakı əlaqəni aydınlaşdırmaq. Feodal zülmü ilə müstəmləkə zülmü arasındakı fərqi göstərmək. Şimali Azərbaycan kəndlilərinin feodal və müstəmləkə zülmünə məruz qaldığını dəlillərlə əsaslandırman. Yerli feodallarla çar müstəmləkəçiləri arasında yaxınlaşmasının səbəblərini aydınlaşdırmaq, onu feodal zülmü ilə müstəmləkə zülmünün qovuşması kimi səciyyələndirmək. Yeni inzibati-ərazi bölgüsünün antiazərbaycan, müstəmləkə xarakterini aydınlaşdırmaq. 1846-47-ci illər kəndli "Əsasnamə"lərinin əsas müddəalarını şərh etmək, bunları kəndlilərin mənafeyi ilə əlaqələndirmək. Məhkəmə islahatının mahiyyətini aydınlaşdırmaq.

Türçmənçay müqaviləsinin bağlanmasından sonra Cənubla Şimal arasında əlaqələrin zəifləməsinin obyektiv səbəblərini izah etmək. Şimali və Cənubi Azərbaycandakı idarəçilik sistemlərini müqayisə etmək. Şimali Azərbaycanla Cənubi Azərbaycanın siyasi və sosial iqtisadi inkişafının xüsusiyyətlərini müəyyənləşdirmək. Cənubi Azərbaycanın inzibati -siyasi quruluşunu müstəmləkə siyasəti ilə əlaqələndirmək. Cənubi Azərbaycanda kəndli təsərrüfatının natural xarakteri daşıdığını sübut etmək, feodal geriliyinin kənd təsərrüfatı, sənətkarlıq və daxili ticarətə mənfi təsirini aydınlaşdırmaq. İranın ümumi geriliyinin, feodal münasibətlərinin hökmran olmasının Cənubi Azərbaycana mənfi təsirini aydınlaşdırmaq, sənətkarlıq, daxili ticarətin zəif inkişaf etməsinin səbəblərini göstərmək. İranın xarici ölkələrlə iqtisadi əlaqələrində Cənubi Azərbaycanın yerini və rolunu müəyyənləşdirmək. Feodal geriliyinin təsərrüfatına mənfi təsirini aydınlaşdırmaq. Zəncan üsyanı əsasında babilər hərəkatının Azərbaycanlı qəhrəmanların real tarixi obrazlarını səciyyələndirmək.

Rusiyanın Şimali Azərbaycanda mədəniyyət sahəsində müstəmləkəçilik siyasətinin mahiyyətini açmaq. Vahid mədəni inkişaf ənənələrinin davam etdirilməsinin əhəmiyyətini aydınlaşdırmaq. Şərq və Qərb mədəniyyətinin Azərbaycan mədəniyyətinə göstərdiyi təsiri açıqlamaq. Şimali Azərbaycanda təşkil edilmiş dövlət məktəblərini Ümumrusiya maarif sisteminin quruluşu ilə əlaqələndirmək əsasında burada rusiyanın yeritdiyi siyasəti səciyyələndirmək. Müsəlman məktəblərinə münasibətdə Rusiyanın məqsədlərini açıqlamaq. Dərslik, elmi-kütləvi ədəbiyyat, sorğu kitablarından istifadə etməklə Azərbaycanın mədəniyyət xadimlərinin həyat və yaradıcılığı haqqında referatlar hazırlamaq, konspekt və tezislər tətbiq etmək. Cənubi Azərbaycanda mədəniyyətin inkişafına mane olan səbəbləri izah etmək.

## II BÖLMƏ

## AZƏRBAYCAN XIX ƏSRİN İKİNCİ YARISINDA - 10(36) saat.

**6. 50-60-cı illərdə Şimali Azərbaycanda sosial-iqtisadi vəziyyət. Burjua islahatları - 2(7) saat.**

**İctimai-iqtisadi vəziyyət - 1 (4) saat.**

Sənayedə kapitalist münasibətlərinin yaranması. Qazma üsulu ilə dünyada ilk neft quyusunun qazılması. Balaxanı kəndində, Zəylik zəy zavodunda və Naxçıvan duz mədənlərində məcburi əməyin ləğv edilməsi. Bakıda neft emalı sənayesinin yaranması. Cədəbəy misəritmə zavodunun inşa edilməsi. Alekseyev, Simens qardaşları zavodlarının inşası.

Ticarət. Azərbaycanda Rusiyanın vahid ölçü, çəki, pul sistemlərinin tətbiqi.

Kəndlilərin vəziyyəti. Kənddə feodal-asılı münasibətlərini sarsıtmaq cəhdləri. 1865-ci il kənd cəmiyyətlərinin yaranması haqqında fərman. Müxtəlif sosial qrupların car Rusiyasına münasibətində baş vermiş dəyişikliklər.

**Burjua islahatları - 1 (3) saat.**

1870-ci il 14 may islahatı. Sahibkar kəndlilərinin feodallardan asılılığının ləğv edilməsi. İslahatın yarımçıq və müstəmləkə xarakteri. Məhkəmə. İnzibati və şəhər islahatları. Azərbaycanın inzibati-ərazi bölgüsündə dəyişikliklər. Bu islahatların məhdud cəhətləri və milli-müstəmləkə xarakteri daşıması.

**7. XIX əsrin 70-90-cı illərində kənd təsərrüfatı və sənaye - 3 (11) saat.**

**Kənd təsərrüfatı - 1 (3) saat.**

Kənd təsərrüfatı: əkinçilik və maldarlıq. Kənddə ictimai təbəqələşmənin başlanması. Rusiyanın Azərbaycanın kənd təsərrüfatını özünün xammal bazasına çevirmə siyasəti. Bunun qarşılıqlı təsiri və ziddiyyətləri.

Sənaye və nəqliyyat.

**Şəhərlər, sənətkarlıq və ticarət - 1 (6) saat.**

Azərbaycanın neft sənayesinin inkişafı. Sənaye üsulu ilə ilk neft quyusunun qazılması. İltizam sisteminin ləğvi. Neftçıxarmada sənaye çevrilişi. Yeni mütərəqqi usulların tətbiqi. Neft emalı sənayesinin inkişafı. Neft sənayesində rus kapitalı və xarici kapital. Neft ixracı. Milli burjuaziyanın neft sənayesində rolu. H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov və başqalarının sahibkarlıq fəaliyyəti. Neft istehsalı ilə bağlı sahələr. Sənayenin başqa sahələri. Nəqliyyatın inkişafı: Bakı-Tiflis və Bakı-Petrovsk (Ma-

haçkala) dəmir yollarının çəkilməsi. İlk mərkəzlzşdirilmiş telefon stansiyası. Rusiyadakı şəhər islahatlarının Azərbaycan şəhərlərinə şamil edilməsi. Bakının Cənubi Qafqazda iri sənaye və ticarət mərkəzinə çevrilməsi. Cənubi Qafqazda ticarət birjası.

**Millətin təşəkkülü - 1 (2) saat.**

Milli özünüdərk. Millətin təşəkkülündə milli ziyalıların və burjuaziyanın qabaqcıl nümayəndələrinin, milli demokratik mətbuatın rolu. (H. B.Zərdabi, M.F.Axundov, N.B.Vəzirov, N.Nərimanov, Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, H.Z.Tağıyev).

**8. XIX əsrin ikinci yarısında çarizmə qarşı üsyan və çıxışlar - 2(4) saat.**

**Zaqatala üsyanı - 1 (2) saat.**

Zaqatala dairəsində Rusiyanın qatı müstəmləkəçilik siyasətinə qarşı müdafiəsinin yetişməsi. Keşkəl sahiblərinin narazılığı. 1863-cü il Zaqatala üsyanı. Üsyanın səbəbləri, xarakteri və hərəkətverici qüvvələri. Hacı Murtuz üsyanın rəhbəridimr.

**Qaçaq hərəkatı. Fəhlə tətilləri - 1 (2) saat.**

Kəndlilərin vəziyyəti. Kənddə müstəmləkə əsarətinə qarşı mübarizənin xüsusiyyətləri. Silahlı toqquşmalar. Qaçaq hərəkatı. Qaçaq Nəbi, Qaçaq Kərəm və başqaları. Qaçaq hərəkatının tarixi əhəmiyyəti. Fəhlə tətilləri.

**9. Cənubi Azərbaycan XIX əsrin ikinci yarısında - 1(4) saat.**

Sosial-iqtisadi həyat. Təsərrüfat həyatı. Torpaq mülkiyyəti formaları, vergi sistemi, əhalinin vəziyyəti, xarici kapital və Cənubi Azərbaycan sənayesi. Şəhərlər, sənətkarlıq, ticarət. Kəsbkarlıq.

Əhalinin çıxışları. Təbriz Cənubi Azərbaycanın və bütün İranın mühüm ictimai-siyasi mübarizə mərkəzi kimi. Təbriz şəhəri qadınlarının 1898-ci il çıxışı.

**10. Azərbaycan mədəniyyəti - 2(10) saat.**

**Maarif və elm - 0,5 (3) saat.**

Şimali Azərbaycan milli mədəniyyətin inkişaf xüsusiyyətləri. Maarif. məktəb və mədrəsələr. Yeni tipli məktəblərin artması. Azərbaycan maarifçiləri: S. Ə. Şirvani, M. T. Sidqi, H. B. Zərdabi, H. Mahmudbəyov, R. Əfəndiyev və başqaları, H. Z. Tağıyevin və milli burjuaziyanın başqa nümayəndələrinin maarifin inkişafına yardımı. Azərbaycanda təhsilin inkişafında Qori müəllimlər seminariyasının və onun Azərbaycan şöbəsinin rolu. Elm. Tarix. Biologiya və kənd təsərrüfatı sahəsində elmi biliklərin yayılması. H. B. Zərdabi və N. B. Vəzirov. Azərbaycanın ilk kimyaçı alimi M. Xanlarov.

**Mətbuat və ədəbiyyat - 0,5 (2) saat.**

İlk kütləvi kitabxanalar. Milli Azərbaycan mətbuatının təşəkkülü. "Əkinçi", "Ziya", "Kəşkul". Ədəbiyyat. Xurşudbanu Natəvan, S.Ə.Şirvani, N.B.Və-

zirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, N.Nərimanov. Aşıq ədəbiyyatı. Aşıq Ələsgər.

**İncəsənət. Milli teatrın yaranması - 0,5 (3) saat.**

İncəsənət. Milli Azərbaycan teatrının təşəkkülü və inkişafı. Musiqi. Şuşa, Şamaxı və Bakı musiqi məclisləri. Sadıqcan. Memarlıq. Rəssamlıq. Mirzə Qədim İrəvani, Mir Möhsün Nəvvab, Natəvan.

**Cənubi Azərbaycan mədəniyyəti - 0,5 (3) saat.**

Cənubi Azərbaycanda maarif. Təbrizdə "Mədreseyi - Nasir" adlı məktəb. "İran maarifinin atası" Mirzə Həsən Rüşdiyyə.

Cənubi Azərbaycanda dövrü mətbuatın ilk nümunəsi: "Azərbaycan qəzeti", "Əxtər", "Şahsevən" qəzetləri.

Poeziya. Məmmədbağır Xalxali, Mirzə Baxış Nadim, Mirzə Əli Ləli.

Şimali və Cənubi Azərbaycan arasında mədəni əlaqələrin davam etməsi.

**Təkrar-ümumiləşdirici dərs. Azərbaycan XIX əsrin ikinci yarısında - 0 (1) saat.**

Nəticə

Səbəb

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif). Neft Bakısı, H.B.Zərdabi, Böyük xeyriyyəçi, Xalq intiqamçıları: Qaçaq Nəbi, Qaçaq Kərəm. Azərbaycan tarixi (VI sinif): Atropaten dövləti. Azərbaycan xalqının yaranmağa başlaması (VIII sinif): Azərbaycan xalqının formalaşması prosesinin başa çatması (X). Cənubi Azərbaycan babilər hərəkatının mərkəzi kimi. Müstəmləkə zülmünə qarşı üsyanlar, inzibati idarə və kəndli islahatları. 1846-cı il reskripti və 1847-ci il kəndli "Əsasnamə"ləri. Rusiyanın Şimali Azərbaycanda iqtisadi-siyasəti, müstəmləkə zülmü. Ümumi tarix (X sinif): XIX əsrin ikinci yarısında Rusiyada kapitalizmin inkişafı. İran XIX əsrin ikinci yarısında. Əmir Nizamın islahatları. XIX əsrin ikinci yarısında Şərq xalqlarının mədəniyyəti. XIX əsrin ikinci yarısında Rusiya mədəniyyəti. XIX əsrin ikinci yarısında dünya xalqlarının mədəniyyəti. Ədəbiyyat (X sinif): XIX əsrin ikinci yarısında Azərbaycan ədəbiyyatı.

**Bölmə üzrə əsas anlayışlar:** Kəndlilərin məcburi əməyinin ləğfi. Keşkəl sahibləri. Neft emalı sənayesi. Kənd cəmiyyətləri. Kənd idarəsi. Sahibkar kəndlilərin feodal asılılığının ləğv edilməsi. Məhkəmə islahatı. Şəhər islahatı. İnzibati-idarə islahatları. Şəhər duması. Azərbaycanda keçirilən islahatların yarımçıq, müstəmləkə xarakteri. Neftin sənaye üsulu ilə çıxarılması. Neftxudalar. Mərkəzləşdirilmiş telefon stansiyası. Şimali Azərbaycanın kənd təsərrüfatının Rusiyanın xammal əlavəsinə çevrilməsi.

Milli özünüdərk. Azərbaycan milləti. Millətin formalaşdırılması. Qaçaq hərəkatı. Kəsbkarlıq. Təbriz İranın və Cənubi Azərbaycanın mühüm ictimai-siyasi mərkəzi kimi. Çarizmin və şahlaq rejiminin Azərbaycanda mədəni inkişafı ləngitmə siyasəti. Kapitalizmin inkişafının mədəni tərəqqiyə təsiri. Azərbaycan ziyalılığı. Demokratik mətbuat. Milli teatrın təşəkkülü. Mühacir mətbuatı.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış bilik və bacarıqdarı bölmənin mövzularının öyrənilməsinə tətbiq etmək. Azərbaycanda neft hasilatının artması səbəblərini aydınlaşdırmaq. Kəndlilərin məcburi əməyinin ləğvinin Azərbaycanda kapital münasibətlərinin inkişafına göstərdiyi təsiri izah etmək. Rusiya hökumətinin kənd cəmiyyətləri haqqında fərmanını kənddə feodal-asılı münasibətləri sarsıdan cəhd kimi qiymətləndirmək. Fərmanın müstəmləkəçi xarakterini aydınlaşdırmaq, 1847-ci il kəndli "Əsasnamə"ləri ilə müqayisə etmək. Keşkəl sahiblərinin narazılığının səbəblərini aydınlaşdırmaq. Zaqatala üsyanının səbələrini, xarakterini və hərəkətverici qüvvələrini müəyyənləşdirmək, dərslərini və əhəmiyyətini göstərmək.

Rusiyanın Azərbaycanda kesirdiyi kəndli islahatlarının mahiyyətini açmaq. Azərbaycanda keçirilən islahatların Rusiyadakı islahatlardan fərqli cəhətlərini müəyyənləşdirmək, onların müstəmləkə xarakteri daşıdığı faktlarla sübut etmək. Kəndli islahatının burjua xarakterini göstərən əlamətləri ayırd etmək. Çarizmin dumalarda və Bələdiyyə imtiyazlı təbəqələrin üstünlüyünə necə nail olduğunu aydınlaşdırmaq.

Azərbaycanın kənd təsərrüfatını Rusiyanın xammal əlavəsinə çevirmək siyasətinin mahiyyətini açıqlamaq. Azərbaycanın kənd təsərrüfatının ayrı-ayrı saəhlərində kapitalizmin inkişafını göstərmək faktları seçib ayırmaq. Həmin faktları təhlil etmək və sintezləşdirmək əsasında sadə və ya geniş plan tərtib etmək. Azərbaycanda neft sənayesinin inkişafını faktlar əsasında sübut etmək. İltizam sisteminin ləğvinin əhəmiyyətini aydınlaşdırmaq. İltizam sistemi ilə icarə sisteminin arasındakı fərqi aydınlaşdırmaq və bunların neft hasilatına təsirin izah etmək. Neft sənayesinə xarici kapital axınının güclənməsinin səbəb-nəticə əlaqələrini açmaq. Neft hasilatının artmasını göstərən diaqram tətbiq etmək. Azərbaycanda neft hasilatının başda sənaye saəhlərinin yaranmasına və inkişafına təsirini göstərmək. Azərbaycanda bir çox kustar sahələrin aradan çıxmasını Rusiyada kapitalist münasibətlərinin inkişaf xüsusiyyətləri ilə əlaqələndirmək. Bakının Cənubi Qafqazda ən iri sənaye və ticarət mərkəzinə çevrilməsini faktlar əsasında sübut etmək. Azərbaycanda sənayenin inkişafında milli burjuaziyanın oynadığı rolu açıqlamaq. Nəqliyyat inkişafının səbəb və nəticələrini ay-

dınlaşdırmaq. Milli özünüdərkin yaranmasına və inkişafına təsir edən amilləri düzgün seçmək və əsaslandırmaq. Xalqla millət arasında ümumi və fərqli cəhətləri ayırmaq. Millətin formalaşmasında milli ziyalıların, burjuaziyanın və demokratik mətbuatın rolunu aydınlaşdırmaq.

70-90-cı illərdə müstəmləkə əsarətinə qarşı mübarizənin xüsusiyyətlərini fərqləndirmək. Azərbaycan xalqının çarizmə qarşı mübarizəsində qaçaq hərəkatının rolunu düzgün müəyyənləşdirmək. Tarixi mövzuda yazılmış bədii əsərlər və tarixi faktlar əsasında qaçaq hərəkatının görkəmli nümayəndələrinin tarixi portretlərini yaratmaq. Qaçaq hərəkatını Rusiyanın müstəmləkə əsarətinə qarşı xalqımızın azadlıq mübarizəsi formalarından biri kimi səciyyələndirmək. Qaçaq hərəkatının əhəmiyyətini aydınlaşdırmaq. Kəndlilərin sosial-iqtisadi vəziyyəti və çarizmin müstəmləkə zülmü ilə qaçaq hərəkatı arasındakı əlaqəni aydınlaşdırmaq.

Xarici kapitalın Cənubi Azərbaycan iqtisadiyyatına soxulmasını İranın qərb dövlətlərinin yarımmüstəmləkəsinə çevrilməsi ilə əlaqələndirmək. Xarici kapitalın Cənubi Azərbaycan iqtisadiyyatına soxulmasının nəhticələrini aydınlaşdırmaq. Yeni torpaq sahibləri ilə kəndlilər arasında münasibətlərdə baş vermiş dəyişiklikləri izah etmək. Qəsbkarlığın mahiyyəti və onu doğuran səbəbləri açıqlamaq. Təbrizin Cənubi Azərbaycanın və bütün İranın ictimai-siyasi mübarizə mərkəzi olduğunu göstərmək. Şimali və Cənubi Azərbaycanda kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafında ümumi və fərqli cəhətləri aşkara çıxarmaq. Cənubi Azərbaycan şəhərlərində əhalinin sosial tərkibində baş verən dəyişikliklərin kapitalist münasibətlərinin inkişafı ilə əlaqəsini açıb göstərmək. Şəhərlərdə sosial vəziyyətin gərginliyinin səbəblərini müəyyən etmək. Cənubi Azərbaycanda mövcud vergi sisteminin feodalların mənafeyinə uyğun olduğunu faktlar əsasında sübut etmək. Kapitalın Cənubi Azərbaycan kəndinə hansı yollarla nüfuz etdiyini aydınlaşdırmaq. Kapitalın Cənubi Azərbaycan kəndinə nüfuzunun kəndlilərin vəziyyətinə necə təsir etdiyini müəyyənləşdirmək. Cənubi Azərbaycanın iqtisadi həyatına dair məlumatları, faktları təhlil etmək və əlaqələndirməklə kasıblığın kütləvi şəkil almasının səbəblərini müəyyən etmək. Cənubi Azərbaycanın iqtisadi həyatından gətirilən misallar əsasında ölkənin daxili və xarici ticarəti ilə məhsul istehsalı arasındakı əlaqələri aydınlaşdırmaq.

Şimali və Cənubi Azərbaycan mədəniyyətinin inkişafını müqayisə etmək, ümumi və fərqli cəhətləri ayırmaq.

Milli mədəniyyətin inkişafında. Azərbaycan ziyalılarının və mütərəqqi burjuaziyanın rolunu aydınlaşdırmaq. Azərbaycan musiqisinin inkişafında musiqi təhsilinin oynadığı rolu faktlarla izah etmək. H.Z.Tağıyevin mədəniyyət sahəsində xeyriyyəçilik fəaliyyətinə dair referat hazırlamaq. Mədə-

niyyətin inkişafında milli teatrın, demokratik mətbuatın, milli kitabxanaların rolunu göstərmək. Mədəni həyat faktları əsasında Şimali Azərbaycanın ilhaq edilməsinin mənfi və müsbət sahələrini aydınlaşdırmaq. Mədəni inkişafın Şimalda, yoxsa Cənubda daha güclü olması haqqında nəticə çıxarmaq.

## III BÖLMƏ

## AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ - 14(55) saat.

### 11. Şimali Azərbaycanda sosial-iqtisadi inkişaf - 3(12) saat.

**Neft sənayesinin vəziyyəti. İnhisarlar - 1(3) saat.**

1900-1903-cü illər dünya iqtisadi böhranı və onun Azərbaycan iqtisadiyyatına təsiri. Neft sənayesinin vəziyyəti. Sənayedə yerli-milli kapitalın mövqeyi və rolu. Neft sənayesinə xarici kapital qoyuluşunun güclənməsi. Sənayenin təmərküzləşməsi və iri inhisar biliklərinin yaranması. H. Z. Tağıyevin sənayenin bəzi sahələrinin xarici kapitalın və Rusiya müstəmləkəçilərinin təzyiqindən qorumaq sahəsində mübarizəsi. Şimali Azərbaycanda müstəmləkə asılılığının xüsusiyyəti.

**Sənayenin başqa sahələri. Ticarət - 0,5 (2) saat.**

Sənayenin başqa sahələri. Sənayedə səhmdarlıq. Balıq vətəgələrinin Azərbaycanlı iş adamlarının əlinə keçməsi. Ticarət. İri səhmdar-ticarət banklarının yaranması.

**Kənd təsərrüfatı. Rusiya imperiyasının köçürmə siyasəti - 0,5 (3) saat.**

Kənd təsərrüfatı. Əkin sahələrinin genişləndirilməsi. Maldarlıq. Rusiya imperiyasının köçürmə siyasətini davam etdirməsi. Quba qəzası, Muğan və Mil bölgələri köçürmə obyektləri kimi. Köçürmə siyasətinin Azərbaycan kəndlilərinin həyatına mənfi təsiri.

**Yeni aqrar qanunlar və onların mahiyyəti - 0,5 (2) saat.**

Rusiyanın Azərbaycanda yeni aqrar siyasət yeritməsinin səbəbləri və mahiyyəti. 1912-13-cü illərin aqrar qanunları və onların nəticələri.

**Sosial vəziyyət - 0,5 (2) saat.**

Siniflərin və sosial qrupların əməkdaşlığı və qarşıdurması. Etnik münasibətlər. Milli və sosial proseslərin qarşılıqlı əlaqələri. Çarizmin Şimali Azərbaycanda müstəmləkəçilik siyasətinin xüsusiyyətləri.

### 12. Şimali Azərbaycanda fəhlə və milli - demokratik hərəkat - 4 (14) saat.

**Mövcud quruluşa qarşı çıxışlar. Bakı tətilləri - 0,5 (2) saat.**

Fəhlələrin vəziyyəti. Bakıda ilk siyasi nümayiş və tətillər. 1903-cü il iyul 1904-cü il dekabr tətilləri. "Mazut konstitusiyası".

Azərbaycan hərbçilərinin rus-yapon müharibəsində iştirakı. S. Mehmandarov, Ə. Şıxlınski.

**Azərbaycan Birinci rus inqilabı illərində - 0,5 (1) saat.**

1905-1907-ci illərdə ictimai-siyasi hərəkat. Bakı Fəhlə Deputatları Sovetinin yaranması.

**Milli-demokratik hərəkat - 1 (3) saat.**

Milli-demokratik hərəkat, onun qabaqcıl nümayəndələri: H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev, N.Nərimanov, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, F.X.Xoyski. "Müsəlman Gənclər Təşkilatı"nın yaradılması. "Hümmət" təşkilatı. M.Ə.Rəsulzadə və N.Nərimanovun "Hümmət"in yaradılmasında rolu. "Hümmət"in bolşeviklərin təsiri altına düşməsi.

**Milli qırğın siyasəti - 1 (3) saat.**

Rusiya imperiyasının 1905-1907-ci illərdə milli qırğın siyasəti. Ermənilər bu siyasətin icraçıları kimi. Bakı, Naxçıvan, İrəvan, Tiflis, Gəncə və Zəngəzurda ermənilərin vəhşilikləri. Daşnakların 1905-ci il avqust məğlubiyyəti. Qarabağda erməni-rus quldur dəstələrinin iflası. Azərbaycanlıları ermənilərin təcavüzündən xilas etmək uğrunda mübarizənin rəhbərliyi. Sultan bəy Sultanov, Əhməd bəy ağayev.

**Milli partiyaların yaradılması - 0,5 (3) saat.**

"Difai" ("Müdafiə") partiyasının yaranması və onun fəaliyyəti. "Müdafiə" təşkilatı. İsmayıl xan Ziyadxanov. "İttifad" təşkilatı. "Müsəlman ittifaqı" partiyası. Ə.Topçubaşov. Milli-azadlıq hərəkatının güclənməsində "Nəşrimaarif" və "Nicat" cəmiyyətlərinin, "Həyat" və "Səda" qəzetlərinin rolu. Azərbaycanlı nümayəndələr Ümumrusiya müsəlmanlar qurultaylarında "Müsavat" partiyası. Abbasqulu Kazımzadə, Tağı Nağıyev, Məmmədəli Rəsulzadə.

**Rusiyanın Dövlət dumaları və Azərbaycanlı deputatlar - 0,5 (2) saat.**

Azərbaycanlı deputatlar Rusiyanın dövlət dumalarında. Ə.Topçubaşov, İ.Ziyadxanov, X.Xasməmmədov, M.Y.Cəfərov və başqaları. 1910-1914-cü illərdə fəhlə və kəndli çıxışları.

**13. Cənubi Azərbaycan XX əsrin əvvəllərində - 2(6) saat.**

**Cənubi Azərbaycan İran inqilabı ərəfəsində. İnqilabın başlanması. Təbriz üsyanı - 1 (3) saat.**

1905-1911-ci illər İran inqilabı ərəfəsində Cənubi Azərbaycanda sosial-siyasi və iqtisadi vəziyyət. İlk çıxışlar. 1906-cı il sentyabr qələbəsi. Azərbaycan əyalət əncüməninin (şurasının) yaranması. Təbrizdə silahlı üsyan.

**Cənubi Azərbaycan İran inqilabının mərkəzi kimi - 1 (3) saat.**

Cənubi Azərbaycan İran inqilabının mərkəzi kimi. Səttarxan. Bağırxan. H.Z.Tağıyev və milli burjuaziyanın digər nümayəndələrinin Təbriz üsyançılarına köməyi. Əksinqilabın hücumu, xarici müdaxilə. Təbriz üsyanının milli-azadlıq hərəkatı tarixində yeri və rolu.

**14. Azərbaycan Birinci dünya müharibəsi illərində - 1 (6) saat.**

**Müharibənin başlanması - 0,5 (3) saat.**

Müharibə ərəfəsində Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət. Azərbaycan müharibə edən dövlətlərin işğalçılıq planlarında. Azərbaycan hərbçiləri I Dünya müharibəsi cəbhələrində. S. Mehmandarov, H. Naxçıvanski, Ə. Şıxlinski, İ. Vəkilov, İ. Usubov, F. Qayıbov, T. Novruzov.

**Müharibələrin iqtisadiyyata və əhalinin güzəranına təsiri - 0,5 (3) saat.**

Müharibənin Şimali Azərbaycanın iqtisadiyyatına və əhalinin güzəranına təsiri. sosial-iqtisadi vəziyyət. Cənubi Azərbaycanın işğalı. Erməni quldurlarının Azərbaycanlılara qarşı vəhşilikləri. Türk qoşunlarının köməyi. Müharibə illərində Cənubi Azərbaycanda təsərrüfatın tənəzzülü.

**15. Şimali Azərbaycan Rusiyada Fevral inqilabı və Oktyabr çevrilişindən sonrakı dövrdə - 1(5) saat.**

**ictimai-siyasi vəziyyət və milli-azadlıq hərəkatı - 1 (5) saat.**

Fevral inqilabından sonra Azərbaycanda ictimai-siyasi vəziyyət. Müvəqqəti Hökumətin yerli orqanlarının yaradılması. Bakı Sovetinin təşkili.

Müsəlman Milli şuraları. Müsəlman qurultayları. Bakıda və qəzalarda Sovetlərin meydana gəlməsi. "Hümmət" təşkilatının fəaliyyəti. Milli - ərazi muxtariyyəti uğrunda mübarizə. Oktyabr çevrilişindən sonra Azərbaycanda vəziyyət, Bakıda Sovet hakimiyyətinin elan edilməsi.

**16. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti - 3(12) saat.**

**Şimali Azərbaycanda mədəniyyət. Maarif, mədəniyyət və elmin inkişafı: uğurlar, ziddiyyətlər - 1 (5) saat.**

Şimali və Cənubi Azərbaycan arasında mədəni inkişaf ənənələrinin davam etməsi. Milli şüurun oyanmasında mədəniyyətin rolu. Maarifin inkişafı. Demokratik ruhlu məktəblərin yaranması. Azərbaycan maarifinin fədailəri H. B. Zərdabi, N. Nərimanov, M. Ə. Sabir, S. M. Qənizadə, H. Mahmudbəyov, R. Əfəndiyev, U. Hacıbəyli, M. Şahtaxtınski, a. Şaiq, C. Məmmədlquluzadə, S. S. Axundov, F. Köçərli və başqalarının maarifçilik fəaliyyəti. Dərsliklər. Azərbaycan müəllimlərinin I qurultayı. Maarif sahəsində H.Z.Tağıyev və başqalarının xeyriyyəçilik fəaliyyəti. Mədəni-maarif cəmiyyətləri. Kitabxanalar. Səhiyyə xidməti.

Elm. Texniki elmlər. Humanitar elmlərin inkişafı. Tarix. H. Mollazadənin "Tarixlərin ən yaxşısı", R. İsmayılovun "Müxtəsər Qafqaz tarixi", Mirzə Rə-

himin "Qarabağın yeni tarixi" əsərləri. Coğrafiya. Görkəmli topoqraflar: Məmməd Qasım Əliyev və general İbrahim ağa Vəkilov. Qafur Rəşad Mirzəzadənin "Qafqaz coğrafiyası haqqında" əsəri.

**Mətbuat, ədəbiyyat və incəsənət - 1 (3) saat.**

Dövri mətbuat. "Şərqi-rus", "Həyat", "Yeni fikir" qəzetləri. "Molla Nəsrəddin" və "Füyuzat" jurnalları. Nəşriyyat işi. "Qeyrət" mətbəəsi. Ömər Faiq Nemanzadə.

Ədəbiyyat. C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Hadi, N.Nərimanov, Ə. Haqverdiyev, N. Vəzirov, H. Cavid, a. Səhhət, a. Şaiq, M. S. Ordubadi.

İncəsənət. Teatr. H. Ərəblinski, H. Sarabski, M. Əliyev, S. Zeynalov. Musiqi. U. Hacıbəyov, M. Maqomayev. İlk Azərbaycan operası. İlk Azərbaycan kinosu. İfaçılıq sənəti: S. Qaryağdıoğlu, Q. Pirimov, Hacı Hüsü, Keçəçi Məhəmməd, Ələskər abdullayev, Seyid Şuşinski və başqaları. Təsviri incəsənət: Ə.Əzimzadə, V.Kəngərli. Memarlıq: M.N.Hacınski, Z.Əhmədov, İ.V.Qoslavski, İ.Plosko. Şəhərsalma mədəniyyətinin inkişafı.

**Cənubi Azərbaycanda mədəniyyət - 1 (3) saat.**

Cənubi Azərbaycanda mədəniyyət. Maarif. Kitabxanalar. Kitab çapı. Mətbuat: M.Tərbiyət, S.H.Ədalət, S.Tağızadə. Ədəbiyyat: Əbdülrəhman Talıbov, Təbrizi və başqaları. İncəsənət. Teatr. Memarlıq.

**Təkrar - ümumiləşdirici dərs. "Azərbaycan XX əsrin əvvəllərində" - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kurslararası, kursdaxili və fənlərarası əlaqələr:** Ata yurdu (V cinif): Neft Bakısı, Böyük Xeyriyyəçi, Səttarxan, General S.Mehmandarov, General Ə.Şıxlınski, Böyük Sabir, Molla Nəsrəddin. Azərbaycan tarixi (X sinif): XIX əsrin 30-50-ci illərində Azərbaycana kütləvi köçürmələr. XIX əsrin ikinci yarısında Azərbaycan burjuaziyasının sahibkarlıq fəaliyyəti. XIX əsrin 20-50-ci illərində Cənubi Azərbaycanda ictimai-siyasi hərəkat. Zəncan üsyanı. Təbriz qadınlarının çıxışları, XIX əsr Azərbaycan mədəniyyəti. Ümumi tarix (X sinif): Rusiya XX əsrin əvvəllərində. Birinci rus inqilabı. Stolıpinin aqrar islahatı. Başlıca kapitalist ölkələrinin iqtisadi inkişafının qeyri-bərabərliyi. 1900-1903-cü illərin dünya iqtisadi böhranı. Rusiya dövlət dumaları. Ümumrusiya müsəlmanlar qurultayları. İran XX əsrin əvvəllərində. 1905-1911-ci illərin İran inqilabı. İran I Dünya müharibəsi illərində. XX əsrin əvvəllərində Rusiya xalqlarının mədəniyyəti. Ədəbiyyat (X sinif): XX əsrin əvvəllərində Azərbaycanda bədii ədəbiyyatın inkişafı.

**Bölmə üzrə əsas anlayışlar:** Neft sənayesinin təmərküzləşməsi. İnhi-

sar birlikləri. Xarici kapitala qarşı milli burjuaziyanın mübarizəsi. Aqrar qanunlar. "Mazut konstitusiyası" (müştərək müqavilə), Bakı Fəhlə Deputatları Soveti. Milli demokratik hərəkat. Milli siyasi təşkilatlar və partiyalar. Milli qırğın siyasəti. Dövlət dumaları. Azərbaycan əyalət ənücməni. Xarici müdaxilə və daxili irtica. Cıdırdaşlar. Mücahidlər. Fədailər. Bəstə oturmaq. Xüsusi Zaqafqaziya Komitəsi. İctimai Təşkilatların İcraiyyə Komitəsi. Müsəlman Milli şuraları. Milli ərazi muxtariyyəti. Mədəni-maarif cəmiyyətləri. Mollanəsrəddinçilər. Satirik qrafika.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Sənayenin ayrı-ayrı sahələrinin inkişafını göstərən faktlar arasında səbəb-nəticə əlaqələrini aydınlaşdırmaq və izah etmək, ümumiləşdirmə aparmaq. İqtisadi böhranla neft sənayesində istehsalın təmərküzləşməsi arasında əlaqələri aydınlaşdırmaq. Neft və digər sənaye sahələrinin inkişaf və ya tənəzzülünü, şirkətlərin, inhisarların və onların mənfəətinin artmasını göstərən cədvəl və diaqramlar tərtib etmək. Rusiyanın Azərbaycanda yeritdiyi aqrar siyasətin mahiyyətini aydınlaşdırmaq və onların nəticələrini təhlil etmək. Rusiyanın köçürmə siyasətinin davam etməsinin Azərbaycan kəndlilərinin vəziyyətinə təsirini faktlar əsasında aydınlaşdırmaq.

Siyasi nümayiş və ümumi tətilin ümumi və fərdi cəhətlərini aydınlaşdırmaq. İlk müştərək müqavilənin mahiyyətini və əhəmiyyətini açıqlamaq. Milli şüurun oyanmasında milli hərəkatın qabaqcıl nümayəndələrinin rolunu düzgün izah etmək.

Azərbaycanda milli-azadlıq hərəkatının başlanğıc mərhələsinin xüsusiyyətini aydınlaşdırmaq. Rusiyanın milli qırğın siyasəti ilə milli azadlıq hərəkatının səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək. Azərbaycandakı milli-azadlıq hərəkatının başqa ölkələrdəki milli azadlıq hərəkatı ilə ümumi və fərqli cəhətləri göstərmək. Azərbaycanlı deputatların dövlət dumalarındakı fəaliyyəti haqqında qısa məlumat hazırlamaq. Rusiya hökumətinin ermənilərin xəyanətkarlığın qarşısını almağa nail olmasını faktlarla sübut etmək.

Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının səbəblərini, xarakterini, ziddiyyətli və zəif cəhətlərini açıqlamaq. Siyasi və sosial-iqtisadi vəziyyəti təhlil etmək əsasında XX əsrin əvvəllərində Cənubi Azərbaycanda feodal geriliyinin davam etdiyini sübut etmək. 1905-1911-ci illər inqilabında Cənubi Azərbaycanın yeri və rolunu müəyyən etmək. Cənubi Azərbaycanda əsas dövlətlərin mənafelərinin toqquşması səbəblərini izah etmək, xarici kapitalın Cənubi Azərbaycanda möhkəmlənməsini faktlarla aydınlaşdırmaq. Cənubi Azərbaycanda siyasi və sosial-iqtisadi vəziyyətin təhlili əsasında inqilabi hərəkatın səbəblərini, xarakterini və hərəkətverici qüvvələri-

ni müəyyənləşdirmək. 1907-ci ilin dekabrında əksinqilabi çevriliş planının həyata keçirməsinin qarşısının alınmasında Cənubi Azərbaycanın rolunu aydınlaşdırmaq.

Coğrafi mövqeyi, təbii sərvətləri, iqtisadiyyatı və başqa amilləri nəzərə almaqla Azərbaycanın hər iki hissəsində müharibə edən dövlətlərin işğalçılıq planlarında tutduğu yeri müəyyənləşdirmək. Azərbaycanlı hərbçilərin görkəmli nailiyyətlərini açıqlamaq. Erməni quldurlarının Cənubi Azərbaycanda törətdikləri vəhşiliklərin qarşısının qardaş türk xalqı tərəfindən alınması faktına qiymət vermək. Cənubi Azərbaycanda gedən əməliyyatları xəritə üzrə izləmək və kontur xəritədə nişanlamaq.

Fevral burjua-demokratik inqilabından sonra Azərbaycanda yaranmış ictima-siyasi vəziyyəti səciyyələndirmək faktları təhlil etmək. Müvəqqəti hökumətin Rusiya imperiyasının müstəmləkəçilik siyasətin davam etdirilməsinin mahiyyətini açıqlamaq. Milli-ərazi muxtariyyəti uğrunda aparılan mübarizələrin davam etdirilməsinin xüsusiyyətlərini aydınlaşdırmaq.

Azərbaycanda milli şüurun oyanmasında mədəniyyətin rolunu aydınlaşdırmaq. Maarifin inkişafına dair faktları təhlil edib, nəticə çıxartmaq. Maarif sahəsində Azərbaycan milli burjuaziyasının xeyriyyəçilik tədbirlərinin mahiyyətini açmaq və əhəmiyyətini göstərmək. milli-azadlıq və inqilabi-demokratik ideyaların yayılmasında milli-demokratik mətbuatın və bədii ədəbiyyatın rolunu düzgün müəyyənləşdirmək. Şimali və Cənubi Azərbaycan arasında vahid mədəni inkişaf ənənələrini müəyyənləşdirmək.

Cənubi Azərbaycanda mədəniyyətin inkişafını göstərən faktlardan istifadə etməklə Şimali Azərbaycanın Cənuba mədəni təsirini açıqlamaq.

Müstəqil surətdə ədəbiyyat seçməklə ayrı-ayrı mədəniyyət xadimlərinin əsərlərini tarixilik baxımından təhlil etmək, icmal və tezislər tərtib etmək, referat və məruzələr hazırlamaq.

**İllik təkrar - 0 (2)**

**Qaynaqlar və ədəbiyyat**

**I bölməyə dair:**

1.Axundov İ. Qarabağ salnamələri.
2.Azərbaycan tarixi II cild. Bakı, 1964.
3.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
4.Azərbaycan tarixi sənəd və nəşrlər üzrə. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı, 1990.
5.Bakıxanov a.A. Gülüstan-İrəm. Bakı, 1993.
6.Bodenştedt F. Mirzə Şəfi Vazeh haqqında xatirələr. Bakı, 1984.
7.Cənubi Azərbaycan tarixinin oçerkləri. Bakı, 1999.

8.Həbibov V. Abbasqulu Ağa Bakıxanov. Bakı, 1985.
9.Kərimov N. Odlar yurdunun səyyah və geoloqları. Bakı, 1986.
10.Грибоедов А.С. Записки о переселении армян из Персии и наши области. Горе от ума. Письма и записки. Баку, 1988.
11.Rzayev A.K. Dərbənddən başlanan əzablı yol. Bakı, 1989.
12.Рзаев А.К. Азербайджанские востоковеды XIX века. Баку, 1986.
13.Сумбатзаде С.А. Кубинское восстание 1837 года. Баку, 1961.

**II bölməyə dair:**

1.Azərbaycan tarixi. II cild. Bakı, 1964.
2.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
3.Документы по истории Баку (1870-1917 гг.). Баку, 1971.
4.Əhmədov N. XIX əsr Azərbaycan məktəbi. Bakı, 1985.
5.İsmayılov A.M. İbrahimov M. El atası. Bakı, 1994.
6.Musayev M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti. Bakı, 1972.
7.Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958.
8.Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, 1964.

**III bölməyə dair:**

1.Azərbaycan tarixi. II cild. Bakı, 1964.
2.Azərbaycan tarixi sənəd və nəşrlər üzrə. Z.M.Bünyatovun redaktəsi ilə. Bakı, 1990.
3."Армянский геноцид". Миф и реальность. Баку, 1992.
4.Агаев И.К. Из истории национально-политической мысли Азербайджана. Баку, 1992.
5. I Dünya müharibəsi illərində İranın cənub və qərb rayonlarında milli-azadlıq hərəkatı. Bakı, 1992.
6.Cənubi Azərbaycan tarixinin oçerkləri. Bakı, 1985.
7.Həsənov N.Ə. Oyanmış Təbriz və Səttərxan. Bakı, 1986.
8.Ибрагимов З.И. Революция 1905-1907 гг. Азербайджана. Баку, 1955.
9.Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, 1982.
10.İsmayılov M., İbrahimov M. Azərbaycanın neft sənayesi. Bakı, 1991.
11.Жорж де Малевил. Армянская трагедия 1915 г. Баку, 1990.
12.Nəvvab M.M 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993.

13.Rəsulzadə D.V. Azərbaycan Cümhuriyyəti. Bakı, 1996.

14.Rusiyanın Van və Ərzurumdakı daş konsulu Mayevskinin xatirələri. Bakı, 1993.

15.Сейидзаде Д.Б. Азербайджанские депутаты в Государственных Думах России. Баку, 1978.

16.Сейидзаде Д.В. Из истории азербайджанской буржуазии в начале XX века. Баку, 1978.

17.Sərvət və səxavətdə məşhur cənab H.Z.Tağıyevin tərcümeyi-halı. Bakı, 1993.

18.Tağıyeva Ş. XIX əsrin sonu - XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti. Bakı, 1969.

19.Vəliyev T.T. XX əsrin əvvəllərində azərbaycan fəhlələrinin vəziyyəti və tətil mübarizəsi. Bakı, 1998.

20.Həliyev T.T. İmperializm dövründə Azərbaycanın shnafesi və proletariatı. Bakı, 1987.

**Sinifdənxaric oxu üçün ədəbiyyat:**

1.Abbasov O.Ə. “Zəngəzur”.

2.Axundov Ə.Ə. “Qaçaq Nəbi”.

3.Axundov M.F. “Hacı Qara”.

4.Bərgüşad C. “Boz atın belində”.

5.Eloğlu S. Zəngəzur hadisələri.

6.Hüseynov Ə. Mustafa xanın xəzinəsi.

7.Makulu P. Səttarxan.

8.Ordubadi M.S. “Qanlı sənələr”.

9.Sarabski H. Köhnə Bakı.

10.Süleymanov M. Ağa Musa Nağıyev.

11.Süleymanov M. “Eşitdiklərim, oxuduqlarım, gördüklərim”.

12.Vəzirov N. “Pəhləvani-zəmanə”.

**I. Xəritələr və atlaslar**

1.“XIX əsrdə Azərbaycanda müstəmləkəçilik əleyhinə xalq üsyanları”.

2.“XIX əsrin II yarısı - XX əsrin əvvəllərində Azərbaycanın inzibati-ərazi bölgüsü”.

3.“Şimali Azərbaycan Rusiya imperiyasının tərkibində (XIX əsrin 20-ci illərinin sonu - 1917-ci il)” .

**II. Cədvəllər.**

1.“Azərbaycan deputatları Rusiya Dövlət dumalarında” (1906-1917-ci illər).

2."Cənubi Azərbaycanın İran dövləti tərkibində inzibati-ərazi bölgüsü" (XIX əsrin sonu - XX əsrin əvəllərində).

3.XIX əsrin 60-70-ci illərində Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərkibində inzibati bölgüsündə baş vermiş dəyişikliklər.

4."1840-cı il 10 aprel tarixli qanuna müvafiq olaraq Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən inzibati bölgüsü".

5."Şimali Azərbaycanda fəaliyyət göstərən başlıca partiya və təşkilatlar" (XIX əsrin sonları - 1917-ci ilin ortalarınadək ).

6."Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərkibində inzibati bölgüsü" (XIX əsrin əvvəlləri - 1830-cu illər).

7.Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərkibində inzibati bölgüsü" (1846-ci il 14 dekabr fərmanı ilə).

**III. Audiovizual vasitələr.**

Tədris filmi: "Nərimanov Nərimanov".

Bədii filmlər: "Səbuhi", "Səhər", "Ulduzlar sönmür", "Bakılılar", "Kəndlilər", "Qaçaq Nəbi", "arşın mal alan", "O olmasın, bu olsun", "Yenilməz batalyon", "Uzun ömrün akkordları".

# XI SİNİF

# ƏN YENİ DÖVR

**Həftədə 1(4,5) saat, il boyu 34(153) saat**[1]

## I BÖLMƏ

**Azərbaycan Xalq Cümhuriyyəti 7(29) saat**

**1. Şimali Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsində. 1918-ci il mart soyqırımı - 2 (8) saat.**

**ictimai-siyasi vəziyyət - 1 (4) saat.**

Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrinin birləşmiş Cənubi Qafqaz dövləti yaratmaq planı. Azərbaycan nümayəndələri Zaqafqaziya Komissarlığının tərkibində. Qafqazdakı Türkiyə ordusunun komandanlığı ilə danışıqlar. Ərzincan barışığı. Zaqafqaziya seymi. Seymdə müsəlman fraksiyasının fəaliyyəti. Zaqafqaziya Komissarlığı ilə Türkiyə arasında Trabzon danışığı. Bakıda bolşeviklərin möhkəmlənməsi.

**1918-ci ilin mart soyqırımı - 0,5 (2) saat.**

Mart qırğını Bakı Sovetinin düşünülmüş siyasətidir. Silahlı daşnak-bolşevik dəstələrinin Bakıda və qəzalarda Azərbaycanın dinc əhalisinə qarşı vəhşilikləri. "31 mart 1918-ci il - azərbaycanlıların soyqırımı günü" haqqında Azərbaycan Respublikası Prezidenti H. Əliyevin fərmanı.

**Daşnak - bolşevik rejiminin antiazərbaycan siyasəti 0,5 (2) saat.**

Soyqırımın qəzalarda davam etdirilməsi. Bakı Xalq Komissarları Sovetinin yaradılması, onun tədbirləri. Sovet Rusiyasında yanacaq problemi və Bakı nefti. Bakı Xalq Komissarları Sovetinin Azərbaycana zidd siyasəti.

**2. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyəti - 5 (20) saat.**

**Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması və onun fəaliyyətinin Gəncə dövrü - 1 (3) saat.**

Zaqafqaziya Seyminin buraxılması. Müvəqqəti Milli Şura M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi. "İstiqlal Bəyannaməsi". Hökumət kabinetinin təşkili. F.Xoyski. Hökumətin daxili və xarici siyasəti. İlk diplomatik addımlar. Batum müqaviləsi və onun Azərbaycan üçün əhəmiyyəti. Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə köçməsi.

---

[1] ***Mötərizədə verilmiş saatlar ictimai fənlərin təhsil sahəsi seçildiyi siniflər üçün nəzərdə tutulmuşdur.***

Xalq Cümhuriyyətini devirmək planları. Daşnak-bolşevik qoşunlarının Gəncə istiqamətində hücuma başlaması. Göyçay döyüşləri. Azərbaycan-osmanlı hərbi qüvvələrinin düşməni darmadağın etməsi.

**Bakının azad edilməsi - 1 (2) saat.**

Bakı istiqamətində hücum əməliyyatlarının başlanması. Bakının azad edilməsinin çətinlikləri.

Rusiyanın BXKS qoruyub saxlamaq cəhdləri. İngilislərin Bakıya dəvət olunması. BXKS süqutu. "Sentrokaspi" diktaturasının yaradılması. İngilislərin Bakıya gəlməsi. Bakını azad etmək uğrunda mübarizənin davam etməsi.

Bakı üzərinə həlledici hücum. İngilislərin Bakını tərk etməsi. "Sentrokaspi diktaturası"nın süqutu. Bakının düşmənlərdən azad edilməsi və onun hərbi-siyasi əhəmiyyəti. Xalq Cümhuriyyəti hökumətinin Gəncədən Bakıya köçməsi.

**Dövlət quruculuğu. Azərbaycan parlamenti - 0,5 (2) saat.**

İstiqlalı möhkəmləndirmək tədbirləri. Dövlət aparatının təşkili və dövlət rəmzlərinin qəbulu. Azərbaycanın qanuni hökumətinə qarşı erməni-daşnak fitnəkarlığı. Azərbaycan Milli Şurasının yenidən fəaliyyətə başlaması. Milli Şuranın azərbaycan parlamentinə çevrilməsi. Ə. M. Topçubaşov parlamentin fəaliyyəti. Azərbaycan vətəndaşlığı, ordu quruculuğu haqqında qanunlar.

**Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasəti - 1 (4) saat.**

Azərbaycan dövlətçiliyini möhkəmləndirmək tədbirləri. İqtisadi çətinlikləri aradan qaldırmaq uğrunda mübarizə. Hökumətin aqrar siyasəti. Sosial siyasət. Ordu quruculuğu. azərbaycan Milli Ordusunun və Donanmasının yaradılması. Azərbaycan ordusunun ölkənin istiqlaliyyəti və ərazi bütövlüyünü qorumaq uğrunda mübarizəsi.

Mədəni quruculuq. Cümhuriyyət dövründə mədəniyyət. Təhsilin inkişafı. İlk universitet. Türk (Azərbaycan) dilinin dövlət dili elan edilməsi. Təhsilin inkişafına H.Z.Tağıyevin xeyriyyəçilik yardımı.

Azərbaycanda yeni milli cəmiyyətlər. Azərbaycanda ilk böyük kitabxana. İlk milli muzey. Mətbuat.

Ədəbiyyat. H.Cavid, M.Hadi, C. Məmmədquluzadə, Ə.Cavad, C.Cabbarlı, U. Hacıbəyli, Y. V. Çəmənzəminli, A. Şaiq, Ə. Müznib, S. Mümtaz.

Teatr, H. Ərəblinski, H. Sarabski, M. Əliyev. Kinematoqrafiya. Rəssamlıq. V.Kəngərli. İlk rəssamlıq studiyası.

**Erməni təcavüzünə qarşı mübarizə - 1 (2) saat.**

Azərbaycan torpaqlarının toxunulmazlığı və ərazi bütövlüyünü qorumaq uğrunda mübarizə. Xalq cümhuriyyətinin, dövlət xadimlərinin İrəvanı ermənilərə güzəştə getməyi ümummilli mənafeyə vurulan zərbə kimi. Ermənistanın ərazi iddiaları. Qərbi Azərbaycanda, Naxçıvanda və Zəngəzurda erməni vəhşilikləri. Qarabağ general-qubernatorluğunun yaradılması.

Azərbaycan hökumətinin müdafiə tədbirləri. Qarabağda daşnak qiyamı. Ermənistanın azərbaycana təcavüzü və onun iflası.

**Beynəlxalq vəziyyət və xarici siyasət - 1 (3) saat.**

Azərbaycanın dövlət müstəqilliyinin tanınmasına qarşı erməni fitnəkarlığı və digər maneələr. Murdos barışığının azərbaycan üçün mənfi nəticələri. Ermənistanın Naxçıvana iddialarının güclənməsi. Araz-Türk respublikası. Antanta qüvvələrinin Bakıya daxil olması. Denikinin Şimali azərbaycana hücum təhlükəsi. Qonşu dövlətlərlə münasibətlər. Qərb dövlətləri ilə əməkdaşlıq. Versal Ali Şurasının Şimali Azərbaycanın dövlət müstəqilliyini "de-fakto" tanıması.

**Aprel təcavüzü və azərbaycan Xalq cümhuriyyətinin süqutu - 1 (4) saat.**

1920-ci ilin əvvəllərində Azərbaycanda daxili-siyasi şəraiti. Sovet Rusiyasının azərbaycana qarşı təcavüzkar siyasətinin açıq xarakter alması.

Azərbaycan K(b)P-nin yaradılması. "Müstəqil Sovet Azərbaycanı" şurası, onun mahiyyəti və siyasi məqsədi. AK(b)P-nin Azərbaycanda silahlı dövlət çevrilişi xəttini qəbul etməsi. Azərbaycan bolşeviklərinin xarici düşmənlərlə birləşməsi. Aprel işğalı ərəfəsində Azərbaycanda siyasi böhranın güclənməsi. Parlamentdaxili və partiyalararası çəkişmələr. Diplomatik qarşıdurmanın güclənməsi. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi qüvvələrinin erməni-daşnak qoşunlarına qarşı mübarizəyə cəlb edilməsi. XI Qırmızı Ordunun Azərbaycana soxulması. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun səbəbləri. Azərbaycan Xalq Cümhuriyyətinin tarixdə yeri.

**Təkrar - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu(V cinif): Mart soyqırımı. Bir kərə yüksələn bayraq, bir daha enməz, Azərbaycan tarixi (X sinif): Oktyabr çevrilişi və Bakıda bolşeviklərin hakimiyyəti ələ keçirməsi. Rusiyanın və Qərb dövlətlərinin Azərbaycana dair işğalçılıq planları. Ümumi tarix (X sinif): I dünya müharibəsinin yekunları. Türkiyə I dünya müharibəsi illərində. Rusiyada Fevral inqilabı. İki hakimiyyətlilik. Oktyabr çevrilişi və sovet diktaturasının qurulması. Azərbaycan Respublikasının Konstitusiyası. (IX sinif): dövlət rəmzləri, dövlətçiliyin atributları.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Müxtariyyət. Milliləşdirmə. Müdafiə paktı. De-fakto. De-yure. Fraksiya. Daşnak. Fövqəladə vəziyyət.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış

əlaqədar bilik və bacarıqları müvafiq mövzuların öyrənilməsinə tətbiq etmək. Kontur xəritədə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini işarə etmək və indliki ərazimizlə müqayisə etmək.

1920-ci il 28 aprel və 1990-cı il 20 yanvar hadisələrinin oxşar cəhətlərini açıqlamaq. "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının dövlətçilik ənənələrinin bərpası kimi", "Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusu", "Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusu", "Azərbaycan Xalq ücmhuriyyətinin süqutunun səbəbləri" mövzularında məruzə, yaxud referat hazırlamaq. Azərbaycan Xalq Cümhuriyyətinin ayrı-ayrı rəhbər xadimlərinin fəaliyyəti haqqında əlaqə materiallara istinad edilməklə qısa məlumat hazırlamaq.

Bolşevik və daşnak partiyalarının Azərbaycanla əlaqədar siyasətinin ümumi cəhətlərini göstərmək. Milli Şuranın qəbul etdiyi istiqlal bəyannaməsi "İstiqlaliyyət Bəyannaməsi" (ABŞ) və "İnsan və vətəndaşın hüquq bəyannaməsi" (Fransa) ilə müqayisə etmək, ümumi və fərqli cəhətləri aşkara çıxarmaq. BXKS-nın süqutunu onun antiazərbaycan siyasəti ilə əlaqələndirmək. Bakının azad edilməsinin və azərbaycan hökumətinin Bakı əhalisinə müraciətinin əhəmiyyətini açıqlamaq.

Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmək. Azərbaycan Xalq Cümhuriyyətində milli ordu və donanmanın yaradılmasının çətinliklərini izah etmək. Versal ali Şurasının Azərbaycanın müstəqilliyini de-fakto tanımasının əhəmiyyətini göstərmək. Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasi vəziyyətini dəqiqləşdirən amillərlə aprel işğalı arasındakı əlaqəni aydcnlaşdırmaq. Aprel işğalında ermənilərin xəyanətinin rolunu açıqlamaq.

## II BÖLMƏ

### Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı - 2(10) saat

### 3. Milli-azadlıq hərəkatının başlanması - 1(5) saat

Hərəkatın səbəbləri. Bakıdakı hadisələrin Cənubi Azərbaycana təsiri. Ş.M.Xiyabani. İngiltərə mövqeyinin İranda güclənməsi və Cənubi azərbaycanın qarət olunması. 9 avqust 1919-cu il ingiltərə - İran sazişi və onun mahiyyəti. Mürtəce İran rejimi və İngiltərə irticası Cənubi Azərbaycanda milli azadlıq hərəkatının jandarmı kimi. aBŞ-ın Cənubi Azərbaycanda möhkəmlənmək cəhdi.

Hərəkatın genişlənməsi. Demokratik qüvvələrin İran irticasına və işcalçılara qarşı mübarizəsi. Təbriz, Urmiya və Ərdəbildə xalq həyəcanları. Xalq hərəkatının yenidən güclənməsi. Azərbaycan Demokratik Firqəsi. Onun xadim-

lərinin təqib olunması. Firqənin gizli fəaliyyətə keçməsi. Təbrizdə 1919-cu il oktyabr üsyanı. Milli-azadlıq hərəkatının daha da genişlənməsi. Təbrizdə İngiltərə siyasətinə qarşı 1920-ci ilin mart nümayişi.

**4. Milli hökumətin yaradılması - 1(5) saat.**

Təbriz üsyanı. Təbriz üsyanının başlanması (7 aprel 1920). Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə "İctimai komissiya" yaradılması. Təbrizdə hakimiyyətin üsyançılıran əlinə keçməsi (9 aprel 1920). 1920-ci ilin iyununda Zəngan üsyanı. Marağa, Əhər, Xoy, Yrdəbil və başqa yerlərdə hakimiyyətin xalqın əlinə keçməsi. Təbriz üsyanının təsiri ilə bütün İranda milli-azadlıq və demokratik hərəkatın alovlanması. Cənubi Azərbaycanın "Azadistan" elan olunması.

Milli hökumətin fəaliyyəti və süqutu. Milli hökumətin inqilabı dəyişikliklər və islahatlar proqramı. İran irticası və İngiltərə Milli hökumətə qarşı mübarizədə. Milli hökumətin süqutu, hərəkatın məğlubiyyəti, səbəbləri və tarixi əhəmiyyəti.

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Şeyx Məhəmməd Xiyabani, Azərbaycan tarixi (X sinif): Cənubi Azərbaycan İran əsarəti altında, Cənubi Azərbaycan XX əsrin əvvəllərində. Ümumi tarix (X sinif): İran XIX əsrin ikinci yarısında, İran I dünya müharibəsi illərində. İnsan və cəmiyyət (X sinif): İnkişaf etmiş kapitalıst ölkələri və "üçüncü dünya".

**Bölmə üzrə əsas anlayışları:** Passiv mübarizə mövqeyi. Konfederasiya dövləti, milli hökumət, "Azadistan".

**Şagirdlərin əsas bacarıqları:** bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Cənubi Azərbaycanda 1905-1911 və 1917-1920-ci illərdəki Milli azadlıq hərəkatının oxşar və fərqli cəhətlərini aydınlaşdırmaq.Müəllimin şərhindən, dərsliyin mətnindən, ensiklopediyadan, sorğu ədəbiyyatından və elmi-kütləvi ədədiyyatdan istifadə etməklə "Səttar və Bağır xan 1905-1911-ci illər İran inqilabının rəhbərləridir", "Şeyx Məhəmməd Xayabani", "Mürtəce İran rejimi və İngiltərə Cənubi Azərbaycanda Milli-azadlıq hərəkatının jandarmı kimi" və başqa mövzularda referat və məlumatlar hazırlamaq.

Cənubi Azərbaycandakı Milli-azadlıq hərəkatı tarixində 1920-ci il Təbriz üsyanının yerini və rolunu müəyyənləşdirmək. Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi hərəkatın əhatə etdiyi əraziləri kontur xəritədə nişanla-

maq. Bu hərəkat ərəfəsində Cənubi Azərbaycandakı sosial-siyasi vəziyyətlə milli hökumətin tədbirlərini əlaqələndirmək, bu hökumətin demokratik xarakterini sübut etmək.

## III BÖLMƏ

## AZƏRBAYCAN 20-30-CU İLLƏRDƏ - 6(28) saat.

**5. Azərbaycan Sovet Respublikası (1920-1922-ci illərdə) - 2(8) saat.**
**Azərbaycanda Sovet rejiminin qurulması - 2 (8) saat.**

Azərbaycan SSRİ-nin təşkil və bolşevik rejiminin qurulması.

Azərbaycan Sovet Sosialist Respublikasının təşkili. Azərbaycan ərazisinin XI Qırmızı Ordu tərəfindən işğalının davam etdirilməsi. Yerlərdə sovet rejiminin yaranması. Partiya diktaturası. Sovet hakimiyyətinin ilk tədbirləri. Milli ordunun və donanmanın ləğvi, yenisinin yaradılması. Sovet idarə aparatının formalaşması. Fövqəladə komissiya. İlk Azərbaycan konstitusiyası. Moskvanın Azərbaycan rəhbərliyində qarşıdurma yaratma siyasəti. Zorakı milliləşdirmə. Azərbaycanın sərvətlərinin Rusiyaya daşınması.

Sovet rejiminə qarşı müqavimət hərəkatı və üsyanlar. Terrorun güclənməsi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərinə divan tutulması. Siyasi partiyaların qadağan edilməsi. "Şübhəli ünsürlər" adı altında mütərəqqi fikirli adamların və müxalifət qüvvələrinin məhv edilməsi. Azərbaycan burjuaziyasına və din xadimlərinə qarşı repressiyaların başlanması.

İşğala qarşı narazılıqları. Milli müqavimət hərəkatının yaradılması. Gəncə üsyanı. Qarabağ, Zaqatala, Şəmkir, Lənkəran və başqa yerlərdə üsyanlar. Onların məğlubolma səbəbləri və tarixi əhəmiyyəti.

Azərbaycan SSR-in ərazi bütövlüyünə yeni qəsdlər. Ermənilərin Azərbaycana qarşı təcavüzünün davam etdirilməsi. Azərbaycan torpaqlarının işğalı. Azərbaycan SSR-in ərazi bütövlüyünün pozulması və torpaqlarının bir hissəsinin Ermənistana verilməsi. Moskva və Qars müqavilələri.

Rəsmi müstəqilliyi ləğv etmək tədbirləri. Azərbaycan Respublikasının ZSFSR və SSRİ-yə qatılması. Formal müstəqilliyin ləğvi.

**6. Şimali Azərbaycan 1922-1939-cu illərdə - 2(11) saat.**

Azərbaycan yeni iqtisadi siyasət şəraitində. Hərbi kommunizm siyasətindən yeni iqtisadi siyasətə keçid. Ərzaq sapalağının ləğvi. "Çanad" siyasəti. Azərbaycanda yeni iqtisadi siyasətin həyata keçirilməsi və onun xüsusiyyətləri. Bu siyasətin iqtisadiyyat və ticarətin inkişafına təsiri. Sosial təbəqələşmə. Azərbaycanda Sovet milli siyasəti. Dövlət quruculuğunda əyintilər. DQMV: təşkilinin məqsədi və ağır nəticələri. Naxçıvan MSR-nin yara-

dılması və onun tarixi əhəmiyyəti.

Sosialistcəsinə yenidənqurmalar, onların sosial-iqtisadi və siyasi nəticələri.

Birtərəfli sənayeləşdirmə siyasəti. Azərbaycan SSR-də sənayeləşdirmə siyasətinin mahiyyəti və həyata keçirilməsi. Sənayeləşdirmədə meydana çıxan çətinliklər, yeni sənaye sahələrinin yaradılması. Sənayeləşdirmənin nəticələri. Zorakı kollektivləşdirmə və onun nəticələri. Kollektivləşdirmə ərəfəsində Azərbaycan kəndində vəziyyət. Zorakı kollektivləşmə və onun sosial-iqtisadi nəticələri. "Qolçomaq" və "ortabablar"ın məhv edilməsi.

İnzibati-amirlik sisteminin bərqərar olması və onun daha da güclənməsi. 1937-ci il Konstitusiyası. Azərbaycanın dövlət xadimlərinə və ziyalılarına qarşı repressiyanın başlanması. Kütləvi repressiyalar. Şimali Azərbaycanda yaşayan cənubi soydaşlarımızın zorla İrana qaytarılması. Repressiyaların nəticələri. Siyasi mühacirət.

**7. Cənubi Azərbaycan 20-30-cu illərdə - 1(3) saat.**

Sosial-siyasi vəziyyət. 1922-ci ilin fevralında Təbriz üsyanı. Üsyançıların tələbləri. Üsyanın yatırılması və nəticələri. Şahın milli zülm və ayrıseçilik siyasəti. Fəhlə çıxışları.

Təsərrüfat həyatı. İqtisadiyyatda durğunluq. Sənayedə gerilik.Kənd təsərrüfatı. Əhalinin ağır vəziyyəti. Sovet və şah rejiminin siyasəti nəticəsində Şimali və Cənubi Azərbaycan arasında əlaqələrin zəifləməsi.

**8. 20-30-cu illərdə Azərbaycan mədəniyyəti - 1(5) saat.**

Şimali Azərbaycanda mədəni quruculuq. Mədəniyyətin Sovet imperiyasının tələblərinə uyğun yenidən qurulması - "mədəni inqilab". Xalq təhsili. Savadsızlığın ləğvi. İcbari ibtidai təhsil. Müəllim kadrlarının hazırlanması. Ali məktəblər. Mədəni-maarif müəssisələri. Əlifba islahatları və onların nəticələri. Dini-mənəvi təqiblər.

Elm. Elmi mərkəzlərin yaradılması.

Ədəbiyyat. H.Cavid, Ə.Cavad, M.Müşfiq, S.Rüstəm, S.Vurğun və başqaları.

İncəsənət. Mətbuat. Azərbaycan radiosunun fəaliyyətə başlaması. Tariximizin saxtalaşdırılması. Xalqın adının dəyişdirilməsi, soy-kökündən uzaqlaşdırılması siyasəti.

Cənubi Azərbaycan mədəniyyəti. 20-ci ilin ortalarında Cənubi Azərbaycan məktəblərində Azərbaycan dili tədrisinin dayandırılması. Məktəblərdə Azərbaycan dilində tədrisin qadağan edilməsi.

Demokratik ədəbiyyatın inkişafı. Təbrizdə "Xeyriyyə teatrı".

Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında mədəni əlaqələr.

**Üumiləşdirici dərs: "XX əsrin 20-30-cu illərində Azərbaycanın inkişafının əsas istiqamətləri və nəticələri" - 0(1) saat.**

**Təkrar - 0(1) saat.**
Nəticə
Sənəd
Xronologiya
Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Otuz yeddinci il, Ümumi tarix (X sinif): Rusiyada Oktyabr çevrilişi və Sovet diktaturasının qurulması. Hərbi kommunizm siyasəti. Ərzaq sapalağı. Sovet Rusiyasının imperiyanı bərpa etmək planları (XI sinif): Yeni iqtisadi siyasətə keçid. SSRİ-nin təşkili. SSRİ-də sənayeləşdirmə və kollektivləşdirmə, 20-30-cu illərdə SSRİ-də mədəni quruculuq.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Müvəqqəti inqilab komitəsi. Azərbaycan Sovet Respublikası. Şərq xalqlarının təbliğat və fəaliyyət şurası. İqtisadi özül. Çanaq. Repressiya. Federasiya. Muxtar vilayət. Muxtar respublika. İnzibati amirlik sistemi. Milli müqavimət hərəkatı. Mədəni inqilab. Əlifba islahatı.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları mövzuların öyrənilməsinə tətbiq etmək. Keçilmiş mövzuların materiallarının əlaqələndirilməsi əsasında (vasitəsilə) Azərbaycan Sovet hökumətinin siyasətinin xalqa zidd xarakterini açıb göstərmək. Yeni iqtisadi siyasətin Azərbaycanda həyata keçirilməsi xüsusiyyətlərini müəyyənləşdirmək və bunları Azərbaycanın 20-ci illərdəki sosial, iqtisadi-siyasi və mədəni vəziyyəti ilə əlaqələndirmək. Bir neçə mövzuda öyrənilmiş tarixi faktlar arasında əlaqə yaratmaq, müəyyən problem məsələ ilə əlaqədar onları qruplaşdıracaq ümumiləşdirmə aparmaq və qiymətləndirmək. Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulmasının imperiyanın yenidən bərpa edilməsi prosesinin tərkib hissəsi olduğunu sübut etmək. SSRİ-nin iqtisadi və müdafiə gücünün artırılmasında Azərbaycan SSRİ-in rolunu konkret faktlarla şərh etmək. Müxtar vilayət, muxtar respublika, Azərbaycan SSR, ZSFSR və SSRİ arasında mühüm fərqləri göstərmək. Azərbaycan SSR-də kənd təsərrüfatının kollektivləşdirilməsinin sosial nəticələrini aydınlaşdırmaq. Respublikada "sosialist iqtisadiyyatının", "sosializmin iqtisadi özülünün qurulması", inzibati-amirlik sisteminin yaranması, 30-cu illərin represiyaları arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək və onları məntiqi sxem şəklində ifadə etmək.

Çarizmin Azərbaycanda milli qırğın siyasəti, 1920-ci ildə Sovet hökumətinin kütləvi qırğınları, DQMV-nın yaranması və hazırkı uydurma Qarabağ problemi arasında əlaqəni müəyyənləşdirmək. DQMV-nın yaranmasını Azərbaycana qarşı "parçala və hökm sür" imperiya siyasətinin davamı kimi

səciyyələndirmək.

Azərbaycan SSR-də sosialist təsərrüfat sisteminin formalaşdırılmasının xüsusiyyətlərini və doğurduğu nəticələri şərh etmək. Yeni sənaye sahələrinin və obyektlərin işə salınmasını Azərbaycan xalqının yox, SSRİ-nin mənafeyinə uyğun olduğunu faktlarla sübut etmək. Zorakı kollektivləşdirmənin Azərbaycan kəndlisinə yad bir siyasət olduğunu izah etmək, bunu təhkimçilik hüququ ilə əlaqələndirmək. Görkəmli ziyalılara, partiya və dövlət xadimlərinə qarşı represiyaların məqsədlərini və mahiyyətini izah etmək. Azərbaycan xalqının adının süni şəkildə dəyişdirilməsinin Sovet dövlətinin milli ayrı-sekçilik siyasətinin tərkib hissəsi olduğunu faktlarla sübut etmək.

Azərbaycanda sovet mədəniyyətinin kommunist ideologiyası tələbləri əsasında qurulduğunu, bununla yanaşı Azərbaycan mədəniyyətinin öz milli xüsusiyyətlərini qoruyub saxladığını sübut etmək. Sovet rejimi şəraitində Azərbaycanda elmin inkişafının əsas mahiyyət, məqsəd və nəticələrini aydınlaşdırmaq. Proletar mədəniyyəti adi altında Azərbaycan xalqının milli mənəvi dəyərlərinə: xalq musiqisinə, musiqi alətlərinə, ərəb əlifbası ilə yazılmış nadir əsərlərə qarşı hücumlarda azərbaycan xalqının özünüdərkinə, öz milli-mənəvi dəyərlərinə olan məhəbbət hissini öldürmək məqsədi güdüldüyünü izah etmək.

"Cənubi Azərbaycan 20-30-cu illərdə" mövzusunun əsas məsələlərini Şimali Azərbaycanın eyni dövrü ilə müqayisəli şərh etmək. Cənubi Azərbaycanda şah zülmünün xarakterik cəhətlərini göstərmək. Üsyançıların tələbləri əsasında hərəkatın xarakterini müəyyənləşdirmək. Cənubi Azərbaycanın sənaye cəhətdən geridə qalmasını müstəmləkəçilik siyasəti ilə əlaqələndirmək. Sovet-İran münasibətlərinin Şimali və Cənubi Azərbaycan üçün mənfi cəhətlərini açıqlamaq. Şah rejiminin Cənubi Azərbaycanda apardığı mürtəce siyasətin mahiyyətini açıqlamaq.

Sovet və İran dövlətlərinin Şimal və Cənubi Azərbaycanın yaxınlaşmasına imkan vermədiklərinin səbəblərini aydınlaşdırmaq.

## IV BÖLMƏ

**Azərbaycan ikinci Dünya Müharibəsi dövründə 4 (17) saat**

**9. Şimali Azərbaycan ikinci dünya müharibəsi illərində - 2(9) saat.**

Şimali Azərbaycan müharibə edən dövlətlərin planlarında. azərbaycan almaniyanın işğalçılıq planlarında Azərbaycan SSR-in Sovet İttifaqının Böyük Vətən Müharibəsinə cəlb olunması.

Azərbaycan döyüşçüləri ön cəbhədə. Azərbaycan döyüşçülərinin qəhrəmanlığı. Milli Azərbaycan diviziyaları. Azərbaycanlılar partizan və antifaşist

Müqavimət hərəkatında.

Arxa cəbhə müharibə illərində. Respublika iqtisadiyyatının müharibənin tələblərinə uyğun qurulması. Bakı Qırmızı Ordunun cəbbəxanalarından biri kimi. Azərbaycanın neft sənayesi müharibə illərində. Düşmənin məğlub edilməsində Bakı neftinin rolu. Cəbhəyə ümumxalq köməyi.

Azərbaycan mühacirəti müharibə illərində. M.Ə.Rəsulzadə və başqalarının azərbaycanlı hərbi əsirlərin xilas edilməsində fəaliyyəti.

**10. Cənubi Azərbaycan II Dünya müharibəsi illərində - 1(4) saat.**

Cənubi Azərbaycan müharibə edən tərəflərin planlarında. Cənubi Azərbaycan almaniyanın hərbi strateji maraq dairəsində. ABŞ və Böyük Britaniyanın şərq siyasəti və Cənubi Azərbaycan. SSRİ-İran münasibətləri və Cənubi Azərbaycan.

Cənubi Azərbaycan müharibə dövründə. İkinci dünya müharibəsi dövründə Cənubi Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət. Sovet və ingilis qoşunlarının İrana müdaxiləsi. Mütərəqqi partiya və cəmiyyətlərin yaradılması. Almaniyanın müharibədə məğlub olmasının milli-azadlıq hərəkatına təsiri. Cənubi Azərbaycanda 21 Azər hərəkatının şərtləri.

**11. Azərbaycan mədəniyyəti ikinci dünya müharibəsi illərində - 1(4) saat.**

Şimali Azərbaycan mədəniyyəti müharibə dövründə. Müharibə dövründə Azərbaycan SSR-in mədəniyyəti. Xalqın mənəvi səfərbərliyə alınmasında, faşizm üzərində qələbədə mədəniyyətin rolu. Yusif Məmmədəliyev, M.Topçubaşov, S.Vurğun, R.Rza, S.Rüstəm və başqaları.

Cənubi Azərbaycan mədəniyyəti müharibə illərində. Şimali Azərbaycanla mədəni əlaqələr. Şimali Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələri Cənubi Azərbaycanda. Milli dirçəliş.

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Həzi Aslanov, Mehdi Hüseynzadə, Qara qızılımız faşizmə qarşı mübarizədə. Azərbaycan tarixi (X sinif): Azərbaycan Birinci Dünya müharibəsi illərində (XI sinif): Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı. 20-30-cu illərdə Azərbaycan mədəniyyəti. Ümumi tarix (XI sinif): İkinci dünya müharibəsinin başlanması, SSRİ ikinci dünyja müharibəsi illərində. İran ikinci dünya müharibəsi illərində. Ədəbiyyat (X sinif): Azərbaycan ədəbiyyatı II Dünya müharibəsi illərində.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Xalq təsərrüfatının hərbi qaydada qurulması, arxa cəbhə, Bakı Qırmızı Ordunun cəbbəxanası kimi,

milli diviziya.

**Şagirdlərin əsas bacarıqları.** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Azərbaycanın coğrafi mövqeyi, strateji əhəmiyyəti, iqtisadi imkanları ilə müharibə aparan dövlətlərin maraqlarını əlaqələndirmək. Faşizm üzərində qələbədə Azərbaycan mədəniyyətinin rolunu açıqlamaq. Müharibə illərində Azərbaycanda xalq təsərrüfatının hərbi qaydada qurulması ilə əlaqədar faktları xalqımızın milli mənafeyi ilə əlaqələndirərək qiymətləndirmək. Cəbhəyə ümumxalq köməyini milli dövlətçilik baxımından açıqlamaq. Müharibə illərində Bakının Qırmızı Ordu üçün cəbbəxana rolu oynadığını sübut etmək. Müharibə cəbhələrində, partizan dəstələrində və antifaşist hərəkatında Azərbaycan oğul və qızlarının göstərdikləri qəhrəmanlıqlar haqqında referat və məruzələr hazırlamaq, bu qəhrəmanlıqları faşizm üzərindəki qələbə ilə əlaqələndirmək. Milli azərbaycan diviziyalarının yaradılmasının səbəblərini Aydınlaşdırmaq. Ziyalılarımızın müharibə illərindəki fəaliyyəti haqqında qısa məlumatlar hazırlamaq. Faşizm üzərində qələbədə xalqımızın fədakar əməyinin rolunu göstərmək və öz fikrini faktlarla əsaslandırmaq.

Cənubi Azərbaycanda gedən milli-azadlıq hərəkatının dövrlərini göstərmək, bunların ümumi və fərqli cəhətlərini aşkara çıxarmaq, "Müharibə dövründə Cənubi Azərbaycanın Şimali Azərbaycanla mədəni əlaqələri" mövzusunda məlumat, məruzə və referat hazırlamaq.

## V BÖLMƏ

**Azərbaycan İkinci dünya müharibəsindən sonrakı dövrdə (1945-1991) - 11 (46) saat.**

**12. Azərbaycan SSR 40-cı illərin ikinci yarısı - 60-cı illərdə - 3(12) saat.**

**Siyasi həyat. Respublikada totalitar rejimin daha da güclənməsi. Siyasi sistemi təkmilləşdirmək cəhdləri - 1(4) saat.**

Mərkəzi hökumətin antiazərbaycan siyasəti. Ermənistan SSR-in yeni ərazi iddiaları. Qərbi Azərbaycan torpaqlarından (Ermənistan SSR ərazisindən) azərbaycanlıların növbəti deportasiyası. Azərbaycanlıların Ermənistandakı dədə-baba torpaqlarından Azərbaycana köçürülməsi haqqında SSRİ hökumətinin qərarları. 1948-1952-ci illərdə kütləvi sürgünlərin həyata keçirilməsi və onun ağır nəticələri. 1948-1952-ci illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən - tarixi-etnik torpqalarından kütləvi surətdə deportasiyası haqqında 1997-ci il 17 dekabr fərmanı. Qərbi azərbaycanda və Qarabağda azərbaycanlılara qarşı erməni zorakılıqlarının sonrakı illərdə davam etdirilməsi.

**İqtisadi və sosial həyat - 1 (4) saat.**

Xalq təsərrüfatına vurulan zərərin aradan qaldırılması istiqamətində tədbirlər. Respublikada yeni sənaye sahələri və mərkəzlərinin yaradılması. Neft Daşları. Azərbaycan SSR-in sənaye potensialının güclənməsi. Kənd təsərrüfatı, onun inkişafında çətinliklər. SSRİ-də 50-60-cı illərdə iqtisadi islahatlar və Azərbaycan. Əhalinin vəziyyəti. İqtisadi və sosial həyatdakı dəyişikliklərin nəticələri.

**Mədəniyyət - 1 (4) saat.**

Müharibədən sonra təsilin inkişafı. Yeddillik, səkkizillik və onillik icbari təhsilə keçid. Texniki-peşə təhsili. Ali təhsil. Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması. Elmin inkişafı. Ədəbiyyat.

Azərbaycan televiziyasının fəaliyyətə başlaması. Mətbuat. İncəsənət. Mədəni-maarif müəssisələri. Dinə münasibət. Səhiyyə və idman.

**13. Azərbaycan SSR 60-cı illərin sonu - 80-cı illərin ortalarında - 2(9) saat.**

**Respublikada idarəçiliyin möhkəmləndirilməsi və dirçəliş siyasəti - 1 (4) saat.**

H.Ə.Əliyevin respublika rəhbərliyinə gəlməsi. Respublikada idarəçilik sisteminin gücləndirilməsi. SSRİ məkanında və dünyada azərbaycanın nüfuzunun qaldırılması. Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistana verilməsi planlarının iflasa uğraması.

Milli dirçəliş siyasəti. Azərbaycan SSR-in yeni Konstitusiyasının (1978) qəbul edilməsi. Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması.

**İqtisadi və sosial yüksəliş - 1 (5) saat.**

Respublikanın sənaye kompleksi. Mütərəqqi texnologiyaya əsaslanan yeni sənaye sahələrinin yaradılması. Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlığa cəlb olunması. Kənd təsərrüfatının inkişafı üçün görülən tədbirlər. Şəhər və kəndlərdə abadlıq işləri, sosial və ekoloji problemlər. Xəlvəti iqtisadiyyata qarşı mübarizə.

Milli-mədəni oyanış. Mədəniyyətin inkişafına qayğı. Milli təhsilin dirçəlişi. Yeni tipli məktəblər. Müasir cəmiyyətin tələbatına uyğun olan milli kadrların hazırlanması: SSRİ-nin iri təhsil ocaqlarına tələbələrin göndərilməsi, hərbi məktəblər. Mədəniyyət xadimlərinin əməyinin qiymətləndirilməsi. Milli oyanışa, vətənpərvərlik və milli iftixar hisslərinin gücləndirilməsinə kömək edən tədbirlər. Səhiyyə və idman.

Milli-mədəni oyanış istiqlal mübarizəsinin tarixi zəmini kimi. ayrıfikirlilik.

**14. Azərbaycan SSR 80-cı illərin ikinci yarısı - 90-cı illərin əvvəlində - 3(12) saat.**

**"Yenidənqurma" və Azərbaycan - 1 (4) saat.**

Sovet imperiyasının iflasdan qurtarmaq cəhdləri və Azərbaycanda "yenidənqurma". Onun ictimai, siyasi və iqtisadi nəticələri.

SSRİ rəhbərliyinin antiazərbaycan siyasəti. Erməni təcavüzü. H.Əliyevin Sovet dövlətinin antitürk siyasətinə qarşı mübarizəsi və onun hakimiyyətdən uzaqlaşdırılması. Ermənistanda antiazərbaycan hərəkatının yenidən güclənməsi. Azərbaycanlıların Qərbi Azərbaycandan (Ermənistan SSR ərazisindən) qovulmasının başa çatdırılması. Dağlıq Qarabağda milli münaqişə ocağının alovlandırılması. Əsgəran hadisəsi. Sumqayıt fitnəkarlığı.

Azərbaycanın suveren hüquqlarının pozulması. Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi idarə Komitəsinin yaradılması və onun ermənipərəst siyasəti.

**Xalq hərəkatı - 1(5) saat.**

İmperiyanın Antiazərbaycan siyasətindən və Azərbaycan rəhbərliyinin təslimçilik mövqeyindən narazılığın artması. Etiraz hərəkatı. Meydan. Demokratik hərəkat. Xalqın Heydər Əliyevin ətrafında birləşməsinə maneələr törətmək cəhdləri. AXC-nin yaradılması və onun hakimyyət uğrunda mübarizəsi. Qanlı Yanvar və onun dərsləri.

İqtidar-AXC sövdələşmələri. AXC-nin ictimai bazasının zəifləməsi. H.Əliyev xalqın müstəqil Azərbaycan uğrunda mübarizəsinin lideri kimi. Onun siyasi fəaliyyətinin Naxçıvan dövrü: milli dövlətçilik ənənələrinin bərpası.

SSRİ-ni qoruyub saxlamaq cəhdləri. Dövlət Fövqəladə Vəziyyət Komitəsinin yaradılması. Onun Azərbaycan iqtidarı tərəvindən tanınması. İrticaya qarşı demokratik qüvvələrin mübarizəsi.

**Mədəniyyət - 1(3) saat.**

Cəmiyyətdəki sosial ziddiyyətlərin ədəbiyyatda əksi. Azadlıq ideyalarının xalqa aşılanmasının vasitə və formaları. Xəlil Rza azadlığın carçısıdır. Mədəniyyətimizə qarşı erməni vandalizmi. Cənubi Azərbaycan və xarici dövlətlərlə mədəni əlaqələrin genişlənməsi.

**15. Cənubi Azərbaycan 40-cı illərin II yarısı - 70-ci illərdə - 2(6) saat.**

**Milli hökumət - 1(3) saat.**

Milli-azadlıq hərəkatının qələbəsi. Cənubi Azərbaycanda milli hökumətin yaranması, onun tədbirləri. S.C.Pişəvəri. Sovet rəhbərliyinin şah rejimi ilə antiazərbaycan sövdələşməsi və SSRİ qoşunlarının Cənubi Azərbaycandan çıxarılması. Milli-azadlıq hərəkatının boğulması və bunun Cənubi Azərbaycanın sonrakı tarixi üçün nəticələri.

**Cənubi Azərbaycan Milli hökumətin süqutundan sonra - 1(3) saat.**

Milli hökumətin tədbirlərinin ləğvi. Təqiblər. İqtisadi durğunluq. 1952-1953-cü illərdə Təbrizdə fəhlə və tələbələrin tətilləri. Xalqın həyat səviyyəsinin getdikcə aşağı düşməsi. Şah hökumətinin hakim millətçilik siyasəti-

nin davam etməsi. 1960-1970-ci illərdə İranda islahatların Cənubi Azərbaycana təsiri. Kənd təsərrüfatında ağır vəziyyət. Kənd əhalisinin şəhərə axını. Ölkədə sosial ziddiyyətlərin daha da kəskinləşməsi.

**16. Cənubi Azərbaycan 70-ci illərin sonu - 90-cı illərdə 1(6) saat.**

İran İslam inqilabı və Cənubi Azərbaycan. Şahlıq rejiminin milli ayrı-seçkilik siyasəti. Sosial gərginliyin artması. 70-ci illərin sonlarında şah rejiminə qarşı çıxışlar və onun səbəbləri. Təbrizdə şəhər əhalisi və tələbələrin nümayişi. 1978-ci il 29 bəhmən (18 fevral) Təbriz üsyanı. Üsyanın İran İslam inqilabının müjdəçisi olması. İnqilabi hərəkatın yeni mərhələsi. Cənubi Azərbaycanın İran İslam inqilabının qələbəsində rolu.

Cənubi Azərbaycan İran İslam inqilabından sonrakı dövrdə. İnqilabdan sonra Cənubi Azərbaycanda vəziyyət. İctimai-iqtisadi həyat. Müasir İranın sosial-iqtisadi və siyasi həyatında Cənubi Azərbaycanın yeri və rolu. Mütərəqqi dəyişikliklər.

Cənubi Azərbaycanda azərbaycanlıların hüquqlarının pozulması. İrandakı mövcud rejimin antiazərbaycan siyasəti.

Cənubi Azərbaycanın Azərbaycan Respublikası ilə əlaqələrinin genişləndirilməsi.

Mədəniyyət. İnqilabdan sonra Cənubi Azərbaycanda mədəni oyanış. Milli mədəniyyətə təzyiqlər. Şimali Azərbaycanla mədəni əlaqələrin genişlənməsi. Məhəmməd Hüseyn Şəhriyar.

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Təkrar ümumiləşdirici dərs: Azərbaycan müharibədən sonrakı dövrdə (1945-1990-cı ildə) - 0(1) saat.**

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu. (V sinif): Oyanış, Dirçəliş, Şəhriyar. Azərbaycan tarixi (X sinif): Cənubi Azərbaycan 1905-1911-ci illər İran inqilabı dövründə (XI sinif): Cənubi Azərbaycanda 1917-1920-ci illərdə milli-azadlıq hərəkatı. Cənubi Azərbaycanda 21 azəri hərəkatı. Azərbaycan tarixi (XI sinif): Azərbaycan SSR II Dünya müharibəsi dövründə. Ümumi tarix (XI sinif): CCRİ 1945- 1960-cı illərin sonlarında. Qarabağ dünya mədəniyyətində hümanizm ideyaları. (XI sinif): İran II Dünya müharibəsindən sonra İran 1970-1990-cı illərdə. Ədəbiyyat (XI sinif): 1945-1960-cı illər Azərbaycan ədəbiyyatı. İnsan və cəmiyyət (X sinif): Məhsuldar qüvvələr və istehsal münasibətləri. (XI sinif): Ekoloji problem. İqtisadi münasibətlərin həlledici olması. Din və onun ictimai həyatda rolu. Texniki tərəqqidə elm və təhsilin rolu.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** "Yenidənqurma" Siyasi

plüralizm. Qaçqınlar problemi. Aşkarlıq. Xüsusi idarə Komitəsi. Totalitar rejim. Deportasiya. "Ölü zonalar", "Ağ inqilab". İslam inqilabı. Teokratik dövlət.

Azərbaycan SSR-in beynəlxalq iqtisadi əməkdaşlığa cəlb olunması. İcbari təhsil. Texniki-peşə təhsili. Sənaye kompleksi. "Xəlvəti iqtisadiyyat". "Ayrıfikirlilik". Ekoloji böhran. Sosial problemlər. Sovet dövlətinin ikili siyasəti. İqtisadi müstəqillik. Suverenlik. Milli qarşıdurma.

**Şayirdlərin əsas bacarıqları.** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan əldə edilmiş bilik və bacarıqları bölmənin mövzularının öyrənilməsinə tətbiq etmək. Azərbaycanın 1960-cı-1980-cı illərə aid sosial-iqtisadi həyat faktlarını "İslam və cəmiyyət" fənnindən alınmış bilikləri tətbiq etmək yolu ilə təhlil etmək və buna əsasən Sovet imperiyasının iflasının qanunauyğunluğunu sübut etmək. 1960-80-cı illəzrdə sosial-iqtisadi həyat və sosial problemlərlə "ayrıfikirlilik" arasında əlaqəni müyəəynləşdirmək. SSRİ-nin xarici ölkələrlə iqtisadi əməkdaşlığına azərbaycan SSR-in iştirakının, ölkəmizdə yeni müasir sənaye sahələrinin yaradılmasının, kənd təsərrüfatının inkişafı üçün görülən tədbirlərin ödkəmizdən ötrü mənfi və müsbət cəhətlərini açıqlamaq. Respublikanın sənaye və kənd təsərrüfatının inkişafı faktlarını ekoloji böhranla əlaqələndirmək, buna əsasən Sovet imperiyasının xalqımıza zidd siyasət yeritdiyini sübut etmək.

Yenidənqurma, cəmiyyətin demokratikləşdirilməsi, sovet milli siyasətinin iflası, kütlələrin siyasi fəaliyyətinin yüksəlməsi, istiqlaliyyət uğrunda mübarizə və Sovet imperiyasının iflası faktları arasında səbəb-nəticə əlaqələrini məntiqi sxem şəklində ifadə etmək. "Qondarma Qarabağ düyünü Sovet dövlətinin Azərbaycan xalqına qarşı yeritdiyi milli siyasətin davamı idi" müddəasını kursun digər bölmə və mövzularının ikili materialları ilə əlaqədə izah etmək. Sovet imperiyasının ikili siyasəti, milli münasibətlərin kəskinləşməsi, Qarabağ düyünü, demokratik hərəkatın yüksəlməsi və Qanlı Yanvar faciəsi arasındakı səbəb-nəticə əlaqələrini açıqlamaq. Azərbaycanda yenidənqurmanın sosial-iqtisadi və siyasi problemləri əsasında Sovet imperiyasında milli münasibətlərin kəskinləşməsinin səbəblərini izah etmək. Əsgəran və Sumqayıt hadisələrini, Qərbi Azərbaycan (indiki Ermənistan) torpaqlarından azərbaycanlıların kütləvi qovulmasını, Dağlıq Qarabağda baş verən hadisələri ermənilərin 1905-1906, 1918-1920, 1948-1952, 1966-1967-ci illərdə törətdikləri cinayətlərlə əlaqələndirmək. Mövzunun ayrı-ayrı məsələləri haqqında məlumat, məruzə və referatlar hazırlamaq. Azərbaycanın müasir dövr tarixi məsələlərini təhlil edib nəticə çıxarmağı bacarmaq. Sovet dövlətinin mədəniyyət sahəsindəki siyasətinin ictimai-iqtisadi inkişaf sahəsindki problemlərlə əlaqəsini aydınlaşdırmaq,

xalqımız üçün mənfi və müsbət sahələrini müəyyənləşdirmək.

Güney Azərbaycanda milli hökumətin tədbirlərinin ləğvi ilə şahlıq rejiminin milli siyasətini əlaqələndirmək. İqtisadi durğunluğun səbəblərini açıqlamaq. İqtisadi durğunluq, tətil hərəkatı və hərbi xərclərin artırılması arasındakı əlaqələri müəyyənləşdirmək. 60-70-ci illərin islahatlarının mahiyyətini aydınlaşdırmaq. Ölkədə sosial ziddiyyətlərin daha da kəskinləşməsinin səbəblərini izah etmək və öz fikrini faktlarla əsaslandırmaq.

Cənubi Azərbaycan həyatından gətirilən faktlar əsasında İran İslam inqilabının Azərbaycan üçün müsbət və mənfi cəhətlərini göstərmək. İslam inqilabı dövründə Azərbaycanda gedən inqilabi hərəkatın xarakterini və hərəkətverici qüvvələrini müəyyənləşdirmək. İslam inqilabının Cənubi Azərbaycan üçün nəticələrinə qiymət vermək və onu tezis şəklində ifadə etmək.

Cənubi Azərbaycanın müasir dövrdəki ictimai-siyasi məsələlərini təhlil edib nəticə çıxarmaq. Tarixi bilikləri tətbiq etmək əsasında Cənubi Azərbaycan tarixindən öyrənilmiş faktları milli-azadlıq hərəkatının inkişafı xətti üzrə təhlil etmək və ümumiləşdirmək. İctimai-siyasi ədəbiyyat və dövri mətbuatdan istifadə etməklə hazırkı dövrdə Azərbaycan Respublikasının Cənubi Azərbaycanla iqtisadi və mədəni əlaqələri haqqında referat və ya məruzə hazırlamaq, məktəb diskussiyasında iştirak etmək. Ədəbiyyat dərslərində və dərsdənkənar öyrənilən bu dövrə aid ədəbi əsərləri həmin zamanın ictimai-siyasi məsələləri baxımından təhlil etmək. İncəsənət əsərlərinə həsr edilmiş məktəb diskussiyasında öz mülahizələri ilə çıxış etmək və onların əsaslandırılmaq.

## VI BÖLMƏ

**Azərbaycan Respublikası - 3(20) saat.**

**17. Azərbaycan Respublikası 1991-1993-cü illərdə - 1(7) saat.**

**Siyasi vəziyyət. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması - 1(3) saat.**

Sovet imperiyasının böhranının dərinləşməsi. Onu qoruyub saxlamaq cəhdlərinin boşa çıxması. Azərbaycanda müstəqillik uğrunda mübarizənin genişlənməsi. "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyanat"ın (1991-ci il 30 avqust) və "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı" (1991-ci il oktyabr) qəbul edilməsi.

Yerli nümayəndəli hakimiyyət orqanlarının ləğvi, icra hakimiyyəti başçısı vəzifəsinin təsis edilməsi, deputatların böyük əksəriyyətinin ali Sovetin

işindən uzaqlaşdırılması. Milli Şuranın yaradılması.

Kommunist partiyasının iflasından və SSRİ-nin dağılmasından sonra, 1991-ci il dekabrın 29-da Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında referendum keçirilməsi və onun nəticələri.

**Qarabağ müharibəsi. Siyasi böhranın dərinləşməsi - 1 (4) saat.**

Erməni silahlı birləşmələrinin irimiqyaslı hərbi əməliyyatdları. Milli Ordunun yaradılması cəhdləri və buna qarşı maneələr. İlk könüllü hərbi və özünümüdafiə dəstələrinin təşkili, onların müxtəlif siyasi qüvvələrin təsiri altına düşməsi. Hakimiyyət uğrunda mübarizə naminə torpaqların qurban verilməsi. Xocalı faciəsi. Şuşa və Laçının düşmənə verilməsi. Hərbi-siyasi böhran. AXC-Musavat cütlüyünün hakimiyyəti silahlı yolla ələ keçirməsi.

Dövlətçiliyin bərpasına maneələr. Uğursuz kadr siyasəti. Hərbi hissələrin, daxili işlər orqanlarının nəzarətdən çıxması və siyasiləşməsi. Hərbi uğursuzluqlar. Xarici siyasətdə uğursuzluqlar. Azərbaycanın türk-islam dünyası ilə ənənəvi əlaqələrinin zəifləməsi.

**18. Müstəqilliyin möhkəmləndirilməsi uğrunda mübarizə - 1(13) saat.**

**Qurtuluş hərəkatı - 1(3) saat.**

AXC-Musavat iqtidarından narazılığın artması. Xalqın və ziyalıların Heydər Əliyev ətrafında sıx birləşməsi. Naxçıvanda dövlət çevrilişi cəhdi və onun dəf olunması.

Gəncə hadisələri. Vətəndaş müharibələrinin reallaşması, Separatçılıq meyllərinin güclənməsi. Talış-Muğan Respublikası yaratmaq cəhdi. Xalqın tələbi ilə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışı. Milli Qurtuluş.

Siyasi sabitlik və milli dövlətçiliyin möhkəmləndirilməsi uğrunda mübarizə. H.Əliyevin prezident seçilməsi. Onun daxili və xarici siyasəti. Ordunun yaradılması. Atəşkəs rejimi.

Azərbaycanda ictimai hərəkatlar və siyasi partiyalar. Çoxpartiyalılığın təşəkkülü. Müstəqil Azərbaycan Konstitusiyasının qəbulu. Parlament seçkiləri. Çoxpartiyalı parlamentin təşkili.

1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişi cəhdləri. Xalq-prezident birliyinin sarsılmazlığı.

Azərbaycanda demokratik inkişafın yeni mərhələsi. Bələdiyyə və yeni parlament seçkiləri.

Bazar iqtisadiyyatına doğrü. Özəlləşdirmə. Torpaq islahatı, sahibkarlığın inkişafı üçün şərait yaradılması.

**İqtisadi dirçəlişin başlanması. Xarici kapital axını. Beynəlxalq iqtisadi əlaqələr - 1(7) saat.**

Dünya birliyinə iqtisadi inteqrasiyanın güclənməsi. Əhalinin maddi rifa-

hının yaxşılaşdırılması üçün görülən tədbirlər. Xarici siyasətdə uğurlar. Prezident H.Əliyevin xarici siyasət strategiyası. Azərbaycan Respublikasının MDB-yə daxil olması. Türk-islam birliyinin yaradılması. "Əsrin müqaviləsi". Tarixi "İpək yolu"nın bərpası proqramı. Torpaqlarımızın sülh yolu ilə azad edilməsi uğrunda mübarizə.

ATƏT-in Budapeşt, Lissabon sammitləri.

QÖUAM-in yaradılması. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun daha da artması. İstanbul sammiti. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi.

Milli-mədəni dirçəliş. Mədəniyyətə qayğı. Təhsil islahatı proqramının qəbul olunması. Təhsildə islahatlar.

Mənəvi dirçəliş. Xaricdə yaşayan həmvətənlərimizlə elmi-mədəni əməkdaşlığın genişlənməsi. Dünya azərbaycanlılarının həmrəyliyi günü. Cənubi Azərbaycanla mədəni əlaqələrin yeni mərhələsi.

Soy-kökümüzə qayıdış. H.Əliyevin "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyinin qeyd edilməsi haqqında fərmanı və onun təntənəli şəkildə qeyd olunması.

Dünya dövlətləri, o cümlədən türk dünyası ölkələri ilə mədəni əməkdaşlıq.

Azərbaycan XX - XXI əsrlərin qovşağında: problemlər, perspektivlər.

**Təkrar-ümumiləşdirici dərs: Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsinin ibrət dərsləri" - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kurslardaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Xocalı faciəsi, Yeni Azərbaycan quruculuğu. Azərbaycan tarixi (XI sinif): Azərbaycan Xalq Cümhuriyyəti. Ümumi tarix (XI sinif): SSRİ - nin dağılması. MDV-nin yaradılması. İnsan və cəmiyyət (XI sinif): azadlıq və demokratiya. Dövlətin tarixi tipləri. Hüquqi dövlət. Azərbaycan Respublikanın Konstitusiyası (IX sinif): Dövlətin əsasları.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Dövlət müstəqilliyi. Prezident idarə üsulu. İcra hakimiyyəti başçısı. azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Qanunu. atəşkəs. Özəlləşdirmə. İnvestisiya. "Əsrin müqaviləsi". Bələdiyyə. Sərbəst bazar iqtisadiyyatı. Azad sahibkarlıq. Türk-islam birliyi. Sammit. Dünyəvi dövlət.

**Şagirdlərin əsas bacarıqlarf:** Dövlət üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan əldə edilmiş bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Sovet im-

periyasının süqutu, azərbaycan Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı, dövlətin daxili və xarici siyasətindəki ilk addımlar arasındakı əlaqəni açıb göstərmək.

SSRİ-nin dağılmasının və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin tarixi şərtlərini şərh etməyi bacarmalı. Atəşkəs rejiminin mahiyyətini açıqlamaq.

Torpaqlarımızın 20 faizinin işğal edilməsinin səbəblərini müəyyənləşdirmək.

Ölkədəki daxili çəkişmələri, vətəndaş müharibəsi təhlükəsinin, çevriliş cəhdlərinin xalqımıza arxadan endirilən zərbə olduğunu açıqlamaq. Xalq ilə hakimiyyətin birliyini faktlarla sübut etmək. Vətənimizin dövlət müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunmasını özünün həyatı mənafeyi ilə əlaqələndirməyi bacarmaq.

Azərbaycan Respublikasının xarici siyasətindəki uğurları ölkədəki daxili sabitliklə əlaqələndirmək.

Mövzunun ayrı-ayrı faktları və məsələləri haqqında məlumat, məruzə və referat hazırlamaq. azərbaycanın müasir dövrdəki ictimai-siyasi məsələlərini təhlil edib nəticə çıxarmaq. Tarixi proseslərin, hadisə və təzahürlərin qiymətləndirilməsində H.Ə.Əliyevin əsərlərindən istifadə etmək.

**İllik təkrar - 0(2) saat.**

**Qaynaqlar və ədəbiyyat**

**I bölməyə dair:**


1. Azərbaycan Demokratik Respublikasının nümayəndə heyəti Versal sülh konfransında "Xəzər", 1989, N1.
2. Azərbaycan tarixi sənədlər və nəticələr üzrə. Bakı, 1990.
3. Azərbaycan xarici müdaxilə tarixindən (1918-1920-ci illər). "Azərbaycan arxivi" 1988, N 1-2.
4. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998.
5. Балаев А. Азербайджанская Демократическая Республика Баку, 1990.
6. Bakı Dövlət Darulfununun təsisi (sənədlər toplusu). Bakı, 1989.
7. Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir. I, II, III, IV kitablar. Bakı, 1997.
8. İbrahimli X. Azərbaycan xarici mühacirəti. Bakı, 1993.
9. Гусейнов М.Д. Тюркская федералистическая партия "Мусават"а в прошлом и настоящем. Баку, 1927.
10. Musayev B. 1917-1920-ci illərdə Azərbaycan-Türkiyə münasibətləri. Bakı, 1998.
11. Muradzadə M. Mart hadiseyi-əliməsi. Bakı, 1996.

12. Nəbizadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
13. Nəzirli Ş.Ə. Cümhuriyyət generalı. Bakı, 1995.
14. Программа тюркской партии федералистов (Мусават). "Хазар". 1989, N1.
15. Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
16. Rəsulzadə M. Ə. Əsrimizin Səyavuşu. Bakı, 1992.
17. Şıxlınski Ə. Xatirələrim. Bakı, 1995.
18. Süleymanov M. F. Eşitdiklərim, oxuduqlarım, gördüklərim... Bakı, 1989.
19. Svyatoxovski T. Rusiya Azərbaycanı. 1905-1920-ci illər. "Azərbycan" jurnalı, 1989, N1.
20. Yaqublu T. "Musavat partiyasının tarixi". Bakı, 1997.

**II bölməyə dair:**

1. Həbibov Ə. Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı, 1988.
2. Qaffarov T. Azərbaycan tarixi (1920-1991). Bakı, 1999.
3. Məmmədova Ş. 1920-ci il Təbriz üsyanı. Bakı, 1991.
4. Məmmədzadə M. Milli Azərbaycan hərəkatı, Bakı, 1956.
5. Milov P. İran M., 1963.
6. Pişəvəri S. C. Seçilmiş əsərləri. Bakı, 1984.
7. Тагиева Ш. Национально-освободительное движение в иранском Азербайджане в 1917-1920 гг. Баку, 1956.

**III bölməyə dair:**

1.Azərbaycanın xarici müdaxilə tarixindən (1918-1920-ci illər). "Azərbaycan tarixi", 1988, N1-2.
2. Azərbaycan tarixi. III s. Bakı, 1973.
3. Декреты Азревкома. Баку, 1988.
4. Hüseynov İ. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi. Bakı, 1960.
5. İbişov F. Azərbaycan kəndlində sosial-siyasi proseslər. 1920-1930-cu illər. Bakı, 1996.
6. İbrahimov İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, 1957.
7. Интернациональная помощь XI армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 гг. Баку, 1989.
8. К истории образования Карабахской Автономной области Азербайджанской ССР. Документы и материалы. Баку, 1989.
9. Qaffarov T. Azərbaycan tarixi (1920-1991). Bakı, 1999.

10. Məmmədov E. İ. Kənd iəsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929). Bakı, 1961.

11. Нəриманов Н. Избранные произведения. т.2, 1918-1921. Баку, 1989.

12. Народное хояйство Азербайджанской ССР за 60 лет. Статистический сборник. Баку, 1980.

13. Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. (İ. V. Stalinə məktub). Bakı, 1992.

14. Промышленность Азербайджана за 40 лет. Баку, 1960.

15. Полонский Л. НЕП в Азербайджане. "Литературный Азербайджан". 1990. N1.

16. Сосиалистическая индустриализация Азербайджана (1926-1932 гг.) Документы и материалы. Баку, 1957.

17. Sovet Azərbaycanın iqtisadiyyatı sosializminin əsaslarının qurulması dövründə. Bakı, 1983.

**IV bölməyə dair:**

1. Абасов М. Баку в годы Великой Отечественной войны. Баку, 1967.

2. Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.) Сборник документов. т. 1. Баку, 1976. т.2. Баку, 1977.

3. Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1985.

4. Azərbaycan tarixi, III c. Bakı, 1973.

5. Geşmazər M. M. Azərbaycan demokratik partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan, 1945-46-cı illər). Bakı, 1985.

6. İbrahimli X. Azərbaycan xarici mühacirəti. Bakı, 1993.

7. Qaffarov T. Azərbaycan tarixi (1920-1991). Bakı, 1999.

8. Гречко А.А. Битва за Кавказ. М., 1969.

9. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, 1976.

10. Очерки истории рабочего класса Азербайджанской ССР, т.I, II (1941-1970 гг.). Баку, 1977.

11. Pişəvəri S. C. Seçilmiş əsərləri.Bakı, 1984.

**V bölməyə dair:**

1. Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. Bakı, 1990.

2. Azərbaycan tarixi, III c. Bakı, 1973.

3.Ахмедшина Ф.А. Экономическое сотрудничество Азербайджанской ССР с союзными республиками. (1946-1980). Баку, 1987.

4.Atakişiyev A.M. Geniş kommunizm quruculuğu dövründə Azərbaycan SSR-in mədəniyyəti. Bakı, 1971.

5. Черный январь. Баку, 1990.
6. Dağlıq Qarabağ. Zəka qalib gələcək. Sənədlər və materiallar. Bakı, 1997.
7. Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I, II, III, IV kitablar. Bakı, 1997.
8. Əsədov. Didərginlər. Bakı, 1990.
9. Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı, 1988.
10.Ибрагимов М. О демократическом движении в Южном Азербайджане в 1945-1946 гг. Баку, 1948.
11. Qaffarov T. Azərbaycan tarixi (1920-1991). Bakı, 1999.
12. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992.
13. M.S.Bağırovun məhkəməsi (arxiv materialları). Bakı, 1989.
14. Народное хозяйство Азербайджанской ССР за 60 лет. Статистический сборник. Баку, 1980.
15. Промышленность Азербайджана за 40 лет. Баку, 1960.
16. Səməndər R. Şəhidlər. Bakı, 1990.
17. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Баку, 1989.
18. Sultanov O. V. 80-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.
19.Шамиде А.М. Рабочее и профсоюзное движение в Иране в 1946-1953 гг. Баку, 1955.
20. Шмелев Г. Перед поворотом - Суровая драма народа. М., 1989.

**VI bölməyə dair:**

1. Azərbaycan milli dövlət quruculuğu. Bakı, 1996.
2. Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I-IV cild. Bakı, 1997-1998.
3.Qaffarov T. Azərbaycan tarixi. XX əsrin 80-90-cı illəri. Bakı, 1997.
4. Qayıdış. 1990-1993. Bakı, 1996.
5. Qəsd. Bakı, 1996.
6. Qətiyyətin təntənəsi (sənədin xronikası). Bakı, 1995.
7. Siyasi tarix. (S.Musyevin redaktəsi ilə). Bakı, 1998.
8. Süleymanov M. Hərbi quruculuğun yeni mərhələsi. Bakı, 1994.

**I. Xəritələr və atlaslar.**

1. "Azərbaycan Demokratik Respublikası (1918-1920-ci illər)".
2. Azərbaycan Respublikası (siyasi xəritə).
3. Dünyanın siyasi xəritəsi.
4. Gəncə üsyanı. (xəritə - sxem).
5. XI ordunun Bakı əməliyyatı (xəritə - plan).

6. “SSRİ-nin Böyük Vətən müharibəsi (1941-1945-ci illər)”.
7. SSRİ-nin siyasi xəritəsi.

**II. Cədvəllər, sxemlər, diaqramlar, plakatlar və s.**
1. “Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq əlaqələri”.
2. Azərbaycan Respublikasının islahatlar proqramı.
3. Azərbaycan Respublikasının neft kontraktı.
4. Cənubi Azərbaycanda Milli hökumətin (1920-ci il) islahatlar proqramı.
5. “H.Ə. Əliyev kənd zəhmətkeşləri arasında”.
6. “Əsrin müqaviləsi”nin imzalanması.
7. “Prezident-xalq birliyi”
8. “Zorakı kollektivləşmənin iqtisadi-sosial nəticələri”.
9. “İkinci Dünya müharibəsi illərində Azərbaycan SSR-də neft hasilatı”.

**III. Audiovizual vasitələr**
**Tədris filmi: “Nəriman Nərimanov”.**
Bədii filmlər: “Axırıncı aşırım”, “Uzaq sahillərdə”, “Mən sizi dünyalar qədər sevirəm”, “Qara daşlar”, “Böyük dayaq”, “Sevinc buxtası”, “İnsan məskən salır”, “Yeddi oğul istərəm”, “Bizim kücə”, “Tütək səsi”, “Onun böyük ürəyi”, “Mən ki gözəl deyildim”, “Fəryad”, “Bizim Cəbiş müəllim”, “Arxadan vurulan zərbə“, “Şərikli çörək”, “İstintaq”, “Lətifə”.

# ÜMUMİ TARİX

## VI SİNİF

## QƏDİM DÜNYA TARİXİ

**Həftədə 1(2) saat, il boyu 34(68) saat**
**Giriş - 1(1) saat.**
Tarix bəşər cəmiyyətinin inkişaf mərhələlərini öyrənən elm kimi. Ümumi tarix. Qədim dünya tarixi ümumi tarixin bir hissəsidir. Tarixi nə üçün öyrənirik? Qədim dünya tarixində biz nəyi öyrənirik? Biz qədimdə insanların necə yaşadığını haradan bilirik?

## I BÖLMƏ

**İbtidai dövr - 4(9) saat.**
**1.İbtidai icma quruluşu - 4(8) saat.**
**İbtidai yığımla məşğul olanlar və ovçular - 1(2) saat.**
Uşaq keçmişdə insanların xarici görkəmi. Ən qədim insanların məşğuliyyəti. Ən qədim insanlar necə ov edirdilər? Ən qədim əmək alətləri. Odun əldə edilməsi. İbtidai insan dəstəsi. Ovçuluğun başlıca məşğuliyyətə çevrilməsi. Əmək alətlərinin təkmilləşdirilməsi. "Dərrakəli adam". Ox və kaman. Nəsil icması. İncəsənətin meydana gəlməsi. İbtidai insanların dini təsəvvürləri.
**İbtidai əkinçilik və maldarlıq. İctimai əmək bölgüsü - 1(3) saat.**
Toxa əkinçiliyi. Heyvanların əhliləşdirilməsi. Maldarlıq. Oturaq həyat. İlk sənətlər, sənətkarlıq. Tayfa. İctimai əmək bölgüləri və onların əhəmiyyəti. Metal emalı. Kotanın ixtirası. Nəsil icmasının dağılması. Qonşuluq icması. İcmaçı kəndlilər. Maldar tayfalar. Köçəri həyat. Bərabərsizlik. Tayfa başçısı - ağsaqqal. Əyanlar.
Dinin meydana gəlməsi. İbtidai icma quruluşunun dağılması.
**3.İbtidai icmadan mədəniyyətə - 1(1) saat**
İlk dövlətlərin meydana gəlməsi. Padşah. Onun tayfa başçıları və ağsaqqallardan fərqi. Dövlətin əlamətləri, ərazisi, şəhər, ordu. Xəzinə. Azad adamlar. Varlılar və məzlumlar. Yazının ixtirası.
Nə üçün ilk dövlətlərin əksəriyyəti böyük çay vadilərində və sahillərində yaranmışdır?
**İl hesabı - 1(2) saat.**
Qədimdə insanlar vaxtı necə hesablayırdılar? Bizim eradan əvvəlki il

hesabı. Bizim era. Miladi və hicri tarix. Əsr və ya yüzillik. Minillik.

**Təkrar-ümumiləşdirici dərs: "Ən qədim insanlar necə idilər və necə yaşayırdılar?" - 0(1) saat**

Nəticə.

Sənəd

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Vətənimiz Azərbaycandır. Azərbaycan abidələr diyarıdır. Azıx mağarasının sirri. Azərbaycan tarixi (VI sinif): Azərbaycan tarixini öyrənmək nə üçün lazımdır? Azərbaycan tarixini öyrənmək üçün mənbələr. Azərbaycan ərazisində ibtidai icma quruluşu. Təbiətşünaslıq (V sinif): Yerin Günəş ətrafında fırlanması. İl, fəsil, ay, gün, gecə, gündüz haqqında təsəvvürlər. Ədəbiyyat (V sinif): "Oğuz xan" əsatiri.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Tarix. Ümumi tarix. Tarixi mərhələ (dövr). Bəşəriyyət. Kainat. Tarixi mənbələr. Maddi tarixi mənbələr. Yazılı mənbələr (işarələr). Arxeologiya. Arxeoloq. Etnoqrafiya. Paleoqrafiya. Xronologiya. Epiqrafika. Numizmatika. Heraldika. Ulu icma. "Bacarıqlı insan". Neandertal adam. "Dərrakəli adam". Əmək alətləri: sivri daş, yer qazan çubuq, dəyənək. Yemtoplama (yığıcılıq). Ovçuluq. Daş dövrü. Paleolit. Alt Paleoloit. Orta Paleolit. Üst Paleolit. Mezolit. Neolit. Eneolit. Tunc dövrü. Dəmir dövrü. Əl çapacaqları. Qaşov. Qarpun. Nizə. Nəsil icması (qəbilə icması). Ana xaqanlığı (ana nəsli). Qonşuluq icması. Tayfa. Toxa əkinçiliyi. İbtidai heyvandarlıq. Oturaq və köçəri həyat. Ataxaqanlığı (ata nəsli). Ağsaqqallar. Ağsaqqallar şurası. Birinci ictimai əmək bölgüsü. İkinci ictimai əmək bölgüsü. Mənimsəmə təsərrüfatı. İstehsal təsərrüfatı. Əmək məhsuldarlığı. Xış. Kotan. Araba. Metal emalı. Adlı-sanlı adamlar. İbtidai incəsənət. Ruh. Din. Dua. Büt. Rəvayət. Əfsanə. Axirət dünyası. Vaxt xətti. Bizim era. Bizim eradan əvvəl. Minillik. Əsr. Miladi təqvimi. Hicri təqvimi. Onomastika. Toponomika.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa mövzu və fənlərdən alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Keçmişin öyrənilməsində tarixi mənbələrin əhəmiyyəti aydınlaşdırmaq. Tarixin öyrənilməsinin əhəmiyyətini müəyyən etmək. Ümumdünya tarixinin inkişaf mərhələlərini və onların səciyyəvi cəhətlərini sadalamaq. Dünya və Azərbaycanın mövzu xəritələrində arxeoloji tədqiqatlar aparılmış əraziləri göstərmək.

Ən qədim insanların meydana gəldiyi əraziləri müvafiq mövzu xəritələrində göstərmək, ən qədim insanlarıntəbii - iqlim şəraiti ilə əlaqəsini aydın-

laşdırmaq. Qədim insanların heyvanlar aləmindən ayrılmasının səbəblərini müəyyən etmək. "Bacarıqlı insan", peandertal və müasir tipli insanın fərqli cəhətlərini göstərmək. Odun ən qədim insanların həyatında oynadığı rolu açmaq. Mənimsəmə və istehsal təsərrüfatlarının fərqli cəhətlərini faktlar əsasında aydınlaşdırmaq. Müasir tipli insanın meydana gəlməsini və inkişafını faktlar əsasında izah etmək. Ulu icma, nəsil icması (qəbilə) və qonşuluq icmasının oxşar və fərqli cəhətlərini göstərmək. Əmək alətlərini düzəldilməsi və təkmilləşməsində təbii şəraitin nə kimi rol oynadığını aydınlaşdırmaq.

Buzlaşma dövründə qədim insanların həyatında baş verən dəyişiklikləri faktlar əsasında göstərmək. Neolitin əlamətləri və onun cəmiyyəti inkişafında oynadığı rolu aydınlaşdırmaq. Ana nəslinin cəmiyyətin ilkin inkişaf dövründə əhəmiyyətini açıqlamaq. Daş dövrünün mərhələlərini, tunc və dəmir dövrlərinin xronoloji çərçivəsini və bu dövrlərin əlamətlərini əks etdirən cədvəl tərtib etmək.

Dinin meydana gəlmə səbəblərini aydınlaşdırmaq. İbtidai insanların dini təsəvvürləri ilə incəsənətin meydana gəlməsi arasındakı əlaqəni izah etmək.

Əmək alətlərinin təkmilləşməsinin, metalın kəşfinin təsərrüfatın inkişafında oynadığı rolu aydınlaşdırmaq. Əmlak bərabərsizliyinin meydana gəlməsinin səbəbini və ibtidai icma quruluşunun dağılmasında oynadığı rolu aydınlaşdırmaq. Əmlak bərabərsizliyinin meydana gəlməsinin səbəbini və ibtidai icma quruluşunun dağılmasında oynadığı rolu açıqlamaq.

Birinci və ikinci ictimai əmək bölgülərinin yaranması səbəblərini, onların arasındakı əlaqələri və fərqləri, cəmiyyətin inkişafında oynadığı rolu açıb göstərmək.

Qəbilə başçısı, ağsaqqallar şurası və padşahın vəzifələrini müqayisə edib, oxşar və fərqli cəhətlərini izah etmək. Dövlətin meydana gəlməsinin ölkənin inkişafında əhəmiyyətini açıqlamaq. Öyrənilən dövlətlərin atributları və rəmzlərini göstərmək.

Mövzu xəritələrində dünyada, o cümlədən Azərbaycanda yaranan dövlətlərin ərazilərini göstərmək. Ən qədim dövlətlərin əlamətlərini aydınlaşdırmaq. İlk dövlətlərin böyük çay vadilərində və sahillərində əmələ gəlməsi səbəblərini açıqlamaq.

Qədim şəhərlər ilə müasir şəhərləri müqayisə edib oxşar və fərqli cəhətlərini müəyyən etmək. Yazının ixtirasının mədəniyyətin inkişafında oynadığı rolu aydınlaşdırmaq.

Bizim eradan əvvəlki il hesabı ilə müasir il hesabı arasındakı fərqi aydınlaşdırmaq. Bizim era, miladi və hicri tarix, əsr və ya yüzillik, minillik arasındakı əlaqələri göstərmək. Miladi tarixi hicri tarixə çevirmək mexanizmi-

ni öyrənmək. Bizim eradan əvvəldə baş vermiş tarixi hadisənin müasir dövrümüzdən zaman fərqini müəyyənləşdirmək. Hadisələri xronoloji ardıcıllıqla düzmək.

## II BÖLMƏ

## QƏDİM DÖVR

**2.Qədim Şərq 17(39) saat.**

**Qədim Misir dövlətinin yaranması - 1(2) saat.**

Misirin coğrafi mövqeyi. Mil çayının daşması. Əkinçilik -misirlilərin əsas məşğuliyyətidir. Əkinçilər necə yaşayırdılar? Ən qədim dövlətlərin meydana gəlməsi. Misirin birləşdirilməsi. Fironlar.

**Qədim Misir dövlətinin yüksəlişi və tənəzzülü -1(3) saat.**

Sənətkarlıq və mübadilə. Sənətkarlar necə yaşayırdılar? Vergilər. Əyanlar və onların həyatı. Hakimlər, məmurlar, sıravi döyüşçülər. Fironların hərbi yürüşləri. III Titmos. Əsirlərin qula çevrilməsi.

**Qədim Misir mədəniyyəti - 1(3) saat.**

Qədim misirlilərin dini. Allahlar və kahinlər. Məbəd. Mərasim. Allahlar haqqında əfsanələr. Osiriş əfsanəsi. Firon canlı allah kimi. Qədim Misirin incəsənəti. Piramidalar. Böyük sfinks. Misir heroqlifləri. Papiruslar. Elmi biliklər. Günəş və su saatları.

**Qədim şumerlər - 1(2) saat.**

Mesopotamiyanın təbiəti və əhalisi. Şumerlər. Onların məşğuliyyəti. Şəhər-dövlətlər. Cənubi Mesopotamiyanın təsərrüfatı. Mixi yazı. Dini görüşlər. Memarlıq. Ziqquratlar.

**Babil padşahlığı - 1(2) saat.**

Babil şəhəri. Babil padşahlığının meydana gəlməsi. Hammurapi və onun qanunları. Qədim Babil mədəniyyəti.

Qanunlardan azad adamlar və qullar, varlı və yoxsullar haqqında nə öyrənirik?

**Finikiya. Aşşur - 1(2) saat.**

Finikiya dəniz səyyahları. Tacirlər və dəniz quldurları. Finikiyalıların şəhərləri və məskənləri. Ən qədim əlifba. Aşşur. "Dəmir dövrü". Aşşur qoşunu. Aşşur işğalları. Mədəniyyət. Gil kitablar kitabxanası. Aşşur dövlətinin süqutu.

**Urartu - 1(1) saat.**

Aşşur hücumlarına qarşı tayfa ittifaqlarının yaranması. Urartu dövlətinin öz ərazisini genişləndirməsi. Urartuların təsərrüfatı: əkinçilik, maldarlıq, sənətkarlıq. Şəhərlər. Aşşur və Manna ilə müharibələr. Urartunun Midiyadan

asılı vəziyyətə düşməsi və siyasi varlığını itirməsi. Mədəniyyət. Dini görüşlər.

**İskitlər (skiflər) - 1(3) saat.**

İskitlərin (skiflərin) yaşadığı və yayıldıqları ərazi. Məşğuliyyətləri. Şəhərləri. İskit (skif) dövlətinin yaranması. İskitlər (skiflər) Azərbaycanda. İranla müharibə. Makedoniya ilə müharibələr. Samrat başqınları. İskit (skif) dövləti və taxıl ticarəti. Bosfor dövləti ilə müharibələr. İskitlərin (skiflərin) mədəniyyəti. Skif kurqanları.

**Midiya - 1(3) saat.**

Midiyalıların yaşadığı ərazi. Məşğuliyyətləri. Midiya dövlətinin yaranması. Kiaksar. Nizami ordu. Midiyanın işğalları. İmperiyanın yaranması. Azərbaycanın cənub vilayətlərinin Midiya imperiyasının tərkibinə qatılması. Midiya imperiyasının sərhədləri. Əhali: aristokratlar, kahinlər, azad adamlar, icma üzvləri, qullar. Təsərrüfat həyatı: maldarlıq, əkinçilik, sənətkarlıq, "Midayi yağı".

Astiaq dövründə Midiyanın İran tərəfindən işğalı. Midiyalıların mədəniyyəti. Midiya mədəniyyətinə Azərbaycanın təsiri: Zərdüştlik və "Avesta". Midiya əfsanələri: "Astiaq" və "Tomiris" əfsanələri. Midiyalıların məişəti, dini görüşləri.

**İran - 1(3) saat.**

Tayfa ittifaqlarının yaranması. Kirin başçılığı ilə farsların üsyanı. Fars Əhəminilər dövlətinin yaranması. II Kirin işğalları. Babil padşahlığının süqutu. Azərbaycana yürüşlər. Tomirisin II Kirin qoşunlarını məğlub etməsi. II Kambizin Misiri işğal etməsi. I Dara İran dövlətinin ən qüdrətli hökmdarıdır.

**Qədim türklər - 1(2) saat.**

Türk xalqlarının qədim tarixinin maddi mənbələr və arxeoloji abidələrdə əks olunması. Daş dövrü və tunc dövrü abidələri. Deşikdaş mağarası.

Orta Asiya, Sibir, Qazaxıstan, Volqaboyu və Xəzər sahillərində ilkin əkinçi, maldar tayfaları. Tayfa birləşmələri. Azərbaycan qədim türklərin ilk məskənlərindən biridir.

**Qədim hunlar - 1(2) saat.**

Ən qədim hunlar və onların ərazisi. Məşğuliyyətləri. İlk Hun dövlətlərinin meydana gəlməsi. Böyük Hun imperiyasının yaranması. Mete xan. Hun yürüşləri. Hun imperiyasının parçalanması. Dini inanc və mədəniyyət.

**Mərkəzi Asiya - Qədim Türkistan dövlətləri - 1(2) saat.**

Təbiəti. Əhalisi. Məşğuliyyəti. Şəhərləri. Soqda və Xarəzm dövlətləri. Onlar haqqında ilkin məlumatlar Əhəmənin zülmünə qarşı üsyanlar. Siraq. Makedoniyalı İskəndərin yürüşləri. Spitamen. Mədəniyyət. Dini təsəvvürlər. Zərdüştlüyün Mərkəzi Asiyada yayılması.

**Qədim Çin - 2(3) saat.**

Təbiəti və əhalisi. Dövlətlərin yaranması. Təsərrüfatın xüsusiyyətləri və inkişafı. Çinin birləşdirilməsi. İşğalçılıq müharibələri. Qədim türklər və Çin. Böyük Çin səddi. Böyük İpək yolu və Türk dünyası. Böyük ipək yolu və Azərbaycan. Qullar və kəndlilər. Varlıların həyatı. "Qırmızıqaşlılar" və "Sarısarıqlılar" üsyanları.

Mədəniyyət. Yazı, kağız, ipək parça, elmi biliklər, kompas. Tarix elmi. İncəsənət. Başqa ölkələrlə əlaqə. Konfutsi və Türk dünyası.

**Parfiya - 1(2) saat.**

Parfiyalıların yaşadığı ərazi. Əhalisinin məşğuliyyətləri. Parfiya dövlətinin yaranması. Parfiya dövləti və Azərbaycan. Arşakilər sülaləsi. I Mitridat və onun işğalları. Roma iləz müharibələr.

**Qədim Hindistan - 1(3) saat.**

Təbiəti, əhalisi. Ari tayfalarının Hindistana axını. Hindistanın ən qədim şəhərləri. E.ə. I minillikdə hindlilərin təsərrüfatı. Qədim Hindistanda dövləitlər. Hindistanın birləşdirilməsi. Kastalar. Qədim Hind ədəbiyyatı. Budda haqqında əfsanə. Mədəniyyət. Hind rəqəmləri. Şahmat. Pambıq parçalar. Qənd.

**Təkrar - ümumiləşdirici dərs: "Qədim Şərqin ilk quldar dövlətləri" - 0(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ümumi tarix (VI sinif): İbtidai əkinçilər və maldarlar. İctimai əmək bölgüsü. İbtidai icmadan mədəniyyətə. Ata yurdu (V sinif): Azərbaycan abidələr diyarıdır. Azərbaycan dövləti Manna. Azərbaycan tarixi (VI sinif): Azərbaycan ərazisində ilk tayfa bilikləri və erkən dövlətlərin yaranması. Manna. İskit (skif). Atropaten. Albaniya. Ədəbiyyat (V sinif): "Dəniz səyyahı Sindibad".

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Firon. Damba. Dövlət. Siniflər. Kəndli. Sənətkar. Qullar - "Canlı ölülər" Mübadilə. Vergi. Mükələfiyyət. Qoşun. İstila. Heroqlif. Din. Kahin. Məbəd. Əbədiyyət evi - sərdabələr. İkiçayarası. Mixi yazı. Gil lövhə. "Həyat ağacı". "Böyük adam". Quldar. Əfsanə. Üsyan. Şaduf. Asfalt. Ehram. Sfinks - "dəhşətlər atası". "Çubuqlu adam". Təqvim. Həndəsə. Astronomiya. "Asma bağlar". Əlifba. Koloniya. Relyef. "Aslanlar yuvası". Daş abidə. Süvari. Döyüş üsulu. Nizami ordu. İmperiya. Aristokratlar. Azad icma üzvləri. Ordu. Zərdüştülük. "Avesta". "Maq" "Midiya yağı". İri suvarma sistemi. Vahə dövlətləri. Vahə. "Xalqların böyük köçü". Hun tayfa birliyi. Kastalar. Brahmanlar. Şudralar. Toxunulmazlar. "Azan çay". "Ürəkləri kədərləndirən çay". "Çinin bəlası". "Sarısarıqlılar".

"Qırmızıqaşlılar". Böyük Çin səddi. Böyük İpək yolu. İcarə haqqı. Kompas. Çay. Münfəridlik. Şahmat. Onluq çay sistemi.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Misir dövlətinin coğrafi mövqeyini, ərazisini xəritədə göstərmək. Misirdə üsyanların səbəbini açıqlamaq. İcmaçı kəndlinin quldan fərqini, quldarların yoxsullar və qullar üzərində hökmranlığını necə saxladığını, fironların niyə müharibə apardığını və bu müharibələrin Misir tarixində nə kimi rol oynadığını izah etmək.

Din və elmin inkişafı haqqında hansı nəticələr çıxarıldığını söyləmək, əfsanələrdə təbiət, əhalinin məşğuliyyəti və dövlətin mövcudluğunun necə əks olduğunu aydınlaşdırmaq. Mesopotamiyanın təbmm şəraitini Misirlə oxşar və fərqli cəhətlərini söyləmək. Misir və Cənubi Mesopotamiyanın təsərrüfatının ümumi cəhətlərini göstərmək. Cənubi Mosopotamiyada quldarlıq quruluşunun yaranması xüsusiyyətlərini izah etmək.

Babil padşahlığının qüdrətini, Hammurapinin vahid qanunlarının əhəmiyyətini açmaq. Dəmirin kəşfi ilə əməyin daha da məhsuldar olmasını, təsərrüfatın inkişafını göstərmək. Siniflərin yaranmasının dövlətin meydana gəlməsində oynadığı rolu aydınlaşdırmaq.

Finikiya, Aşşur və Urartu ərazisini, coğrafi mövqeyini xəritədə göstərmək. Ön Asiyada dövlətlərin yaranması və onun səbəblərini izah etmək. E.əv. II-I minilliklərdə Finikiya şəhərlərinin varlanması səbəbini açmaq. Finikiya mədəniyyətinin dünya elminə verdiyi töhfəni göstərmək. Ninevyanın qüdrətlənməsi və onun dağılması səbəbini göstərmək. Heykəltəraşlıq, rəssamlıq, həkkaklıq, Aşşur saraylarının siyasi həyatın güzgüsü olduğunu izah etmək, onların Aşşur incəsənəti tarixində nə söylədiyini izah etmək.

İskit tayfalarının yaşadığı ərazini, iskitlərin Azərbaycana gəldiyi yolu və İskit padşahlığının ərazisini xəritədə göstərmək.

İskit - Azərbaycan əlaqələrinin Azərbaycan torpaqlarının xarici müdaxilə və işğallardan qorunmasında oynadığı rolu faktlarla əsaslandırmaq. Tarixdə il hesabını düzgün tətbiq etməklə İskit padşahlığının müasir dövrdən neçə əsr əvvəl yarandığını müəyyən etmək. İskitlərin Midiya padşahlığını məğlub etməsini, Makedoniya çarı Filiplə döyüşdə uduzmalarının səbəblərini açıqlamaq.

İskit kurqanlarının iskit mədəniyyəti, təsərrüfat həyatı haqqında qiymətli mənbə olduğunu sübut etmək. Midiyanın coğrafi mövqeyini xəritədə göstərmək. Kiaksarın Midiya tarixində "Şahlar şahı" rütbəsini qazanması səbəbini açmaq. Midiyada əhalinin təsərrüfat həyatı, təbəqələşmə, dini etiqadları, odun, suyun və torpağın müqəddəsliyi barədə geniş izahat vermək.

Mərkəzi Asiyanın coğrafi mövqeyini, Baktriya, Markiana, Soqdiana, Xarəzm və Parfiya kimi vahə dövlətlərini xəritədə göstərmək. Torpağa məhəb-

bətli, vətən qeyrətli əhalinin Əhəmənilərə, Makedoniyalı İskəndərin hücumlarına qarşı mərdliklə vuruşduğunu faktlarla göstərmək. Görkəmli qəhrəmanlar olan Siraq və Spitamen haqqında məlumatlar hazırlamaq. Xarəzmin təsərrüfat həyatında əsas rol oynayan əkinçiliyi, maldarlığı və mədəniyyəti barədə məlumat vermək. Zərdüşt dininin əhalinin dünyagörüşündə oynadığı rolu şərh etmək.

Hunların yaşadığı ərazini xəritədə göstərmək. Hun tayfa birliyinin yaranmasını izah etmək. Hunların yeni torpaq sahələrini ələ keçirməsini göstərməklə bərabər yaranmış imperiyanın parçalanması səbəbini izah etmək. Metenin Böyük Hun imperiyasının yaranmasında və möhkəmləndirilməsində rolunu aydınlaşdırmaq. "Torpaq dövlətin təməlidir" siyasətinin türklər tərəfindən necə müvəffəqiyyətlə yerinə yetrildiyini faktlarla əsaslandırmaq.

Hindistanın coğrafi mövqeyini, ərazisini xəritədə göstərmək. Ən qədim dövlətlərin nə üçün Hind çayı vadisində meydana gəldiyini aydınlaşdırmaq. İnsanların kastalara bölünməsini, dinin istismar olunanlar üzərində hökmranlığı necə müdaftə etdiyini göstərmək. Hakim siniflərin mövqeyinin Hindistanın mədəniyyətində necə əks olunduğunu, Hindistan xalqının qədimdə yaratdığı mədəni töhfənin ərəblər və Avropa xalqları tərəfindən mənimsənildiyini açıqlamaq.

Çinin ərazisini xəritədə göstərmək. Çin xalqının qədimdə təbiətlə mübarizədə nə kimi çətinliklərə üstün gəldiyini söyləmək. Dəmir emalının başlanması ilə quldarlıq quruluşunun sürətlə inkişaf etdiyini izah etmək. Böyük Çin səddinin memarlıq və müdafiə əhəmiyyətini göstərmək. Torpaqların icarəyə götürülməsinin kəndlinin vəziyyətinə necə təsmir etdiyini, qul və kəndlilər arasında oxşar və fərqli cəhətləri açıqlamaq.

Üsyanların Çin tarixində oynadığı rolun əhəmiyyətini açmaq. Çində yazı və elmi biliklərin başqa ölkələrlə oxşar və fərqli cəhətlərini göstərmək. Çində dini görüşlərin rolunu izah etmək.

İranın coğrafi mövqeyini, ərazisini xəritədə göstərmək. Nəsli zadəganların hüquqlarının məhdudlaşdırılmasının nə ilə nəticələndiyini izah etmək. Əhəmənilərin işğalçılıq siyasətinin, I Daranın işğal edilmiş ölkələr barəsində siyasətinin mahiyyətini açıqlamaq.

Parfiyanın ərazisini xəritədə göstərmək. Parfiyalıların təsərrüfat həyatının yerli təbii şəraitlə əlaqəli olduğunu izah etmək. Parfiya dövlətinin Ön Asiyada Roma ilə mənafeyinin toqquşması səbəbini faktlarla izah etmək. Parfiya Azərbaycan əlaqələrinə dair faktlar, misallar göstərməklə dövlət müstəqilliyini qorumaq sahəsində Roma-Parfiya münaqişələrindən Azərbaycanın necə faydalandığını açıqlamaq.

## III BÖLMƏ

**Qədim Yunanıstan və Roma - 12(20) saat.**

**3.Qədim Yunanıstan - 6(10) saat.**

**İlk yunan dövlətləri - 1(1) saat.**

Yunanıstanın təbiəti və əhalisi. Avropada ən qədim dövlət. Krit-Miken mədəniyyəti.

**Yunan şəhər-dövlətləri - 1(2) saat.**

B.e.ə. VIII-VI-əsrlərdə Yunan şəhər-dövlətlərinin yaranması. Afina dövləti. Attikada təsərrüfatın inkişafı. Borc daşı. Köləlik. Demos ilə əyanlar arasında mübarizə. Solonun islahatları. Borc köləliyinin ləğvi.

Sparta dövləti. Spartalılar. İlotlar. Sparta hərbi düşərgədir. Sparta tərbiyəsi.

**Yunan-İran müharibələri - 1(1) saat.**

Aralıq və Qara dəniz sahillərində yunan şəhər-dövlətlərinin yaranması. Yunan-İran müharibələri. Fermopil keçidində döyüş. Plateya döyüşü.

**Yunanıstanda quldarlığın inkişafı - 1(1) saat.**

Afina quldarlıq demokratiyası. Perikl.

**Yunanıstan mədəniyyəti - 1(2) saat.**

Homerin "İliada" və "Odisseya" poemaları. Qədim Yunanıstanda din. Əfsanələr. Məktəb və gimnaziyalar. Teatr. Memarlıq, heykəltəraşlıq və rəssamlıq. Elm. Tarix. Olimpiya oyunları. Qədim Yunanıstanda mədəniyyətin inkişafının əsas səbəbləri.

**Yunanıstanın tənəzzülü və Makedoniyalı İskəndər dövləti -1(2) saat.**

E.əv.IV əsrdə yunan şəhər-dövlətlərinin şərqə yürüşü. İran padşahlığının süqutu. Makedoniyalı İskəndər və Atropat. Makedoniyalı İskəndərin imperiyası, onun parçalanıb dağılması. E.əv. III-II əsrlərdə Aralıq dənizinin Şərq sahillərində təsərrüfat və mədəniyyət.

**4.Qədim Roma - 5(8) saat.**

**Qədim Roma İmperiyasının qurulması - 1(2) saat.**

Qədim İtaliyanın təbiəti və əhalisi. Roma Respublikasının qurulması. Roma Respublikası necə idarə olunurdu? Patrisilər və plebeylər. İtaliyanın Roma tərəfindən istila edilməsi.

**Roma işğalları və Romada quldarlığın inkişafı - 1(2) saat.**

Roma-Karfagen müharibələri. Roma Aralıq dənizi sahillərində ən güclü dövlətdir. Qədim Romada quldarlıq. Roma təsərrüfatında qul əməyi. Qrakx qardaşları. Qladiatorlar. Spartakın başçılığı ilə qulların üsyanı. Üsyanın məğlubiyyət səbəbləri və əhəmiyyəti.

**Roma imperiyası - 1(1) saat.**

Y.Sezar və onun Romada hakimiyyəti zəbt etməsi. Oktavian Avqust. İmperiyanın qurulması. Roma imperiyası və Albaniya.

**Roma mədəniyyəti - 1(2) saat.**

Respublikanın axırları - imperiyanın əvvəllərində Roma mədəniyyəti və məişəti. "Əbədi şəhər". Sirk. Qədim Romada incəsənət və elm. Roma mədəniyyətinin əhəmiyyəti.

**Roma imperiyasının tənəzzülü və Qərbi Roma imperiyasının süqutu - 1(2) saat.**

II əsrin axırları - III əsrdə quldarlıq təsərrüfatının tənəzzülə başlaması. Köləlik təsərrüfatın inkişafı üçün başlıca maneədir. "Daxmali qullar" və kolonlar. Xristianlığın meydana gəlməsinin səbəbləri. Xristanlığın hakim dinə çevrilməsi. Roma imperiyasının iki dövlətə bölünməsi. Romanın qotlar tərəfindən işğalı. Qərbi Roma imperiyasının süqutu - qədim dünya tarixinin sonu.

**Təkrar ümumiləşdirici dərs: "Qədim Yunanıstan və Qədim Roma" - 1(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Azərbaycan abidələr diyarıdır. Ən qədim Azərbaycan dövləti Manna. Azəzrbaycan dövləti Atropaten. Albaniya. Azərbaycan tarixi (VI sinif): Azərbaycan ərazisində ilk tayfa birlikləri və erkən qonşu dövlətlərin yaranması. Atropaten və Albaniyanın qonşu dövlətlərlə münasibətləri. Ümumi tarix (VI sinif): İctimai əmək bölgüsü. İbtidai icmadan mədəniyyətəz. Qədim Misir dövləti. Ön Asiya qədim zamanlarda. İran padşahlığı. Ədəbiyyat (V sinif): Heraklin qoçaqlığı.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Freska. Akropol. "Aslanlar darvazası". Krit mədəniyyəti. Mikena mədəniyyəti. Yunan əfsanələri. Axeylər. Dorilər. Arqonavtlar. "Axiles dabanı". "Troya atı". Ağsaqqallar şurası. Aristokratlar. Aristokratiya. Demos. Aqora. Amfora. Drakon qanunları. Borc daşı. Xalq yığıncağı. Strateq. Hakim. Vətəndaş. Triyera "Uzun divarlar". Afina Dəniz İttifaqı. Qul bazarı. Koloniyalar. İlotlar. Falanqa "Qalxanla və ya qalxan üstündə". Ellada. Demokratiya. "Tarixin atası". Stil Tragediya. Komediya. "Lokonik danışıq". Portik. "Böyüklər üçün məktəb". Dorik sütunlar. İonik sütunlar. Korinf sütunları. Qara fiqurlu vaza rəssamlığı. Qırmızı fiqurlu vaza rəssamlığı. İstiqlaliyyət müharibəsi. Muzalar. Mayak. Perqament. Monarxiya. Relyef. Məbəd. Ellinlər. Ellada mədəniyyəti. Familiya. Patrisi. Plebey. Respublika. Forum. Senat. Tribun. Leqsion. "Pirr qələbəsi".

Pun müharibələri. Əyalət. Canişin. Triumf. "Danışan alət". Qladiator. Amfiteatr. "Rubikonu keçmək". Aristokratik respublika. İmperator. Vətəndaş müharibəsi. Zəfər tağları. Term. Beton. "Daxmalı qullar". Kolonlar. "Əsgər imperatorlar". Baqaudlar. "Barbarlar", "Hər şeylə maraqlananlar". Xristian dini. Vahid allah. "Qazlar Romanı xilas etdi". Pretorian. Limfa. Maska. Orkestra. Olimpiya. Çoxtorpaqlılar. Musey. Keşiş. Yepiskop. Antik mədəniyyət.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Yunanıstanın coğrafi mövqeyini, ərazisini xəritədə göstərmək. Yunanıstanda olan qədim dövlətlər və onların ərazisinin müəyyən etmək, demosun aristokratlarla mübarizədə qazandığı müvəfəqiyyəti, yunan koloniyalarının yaranma səbəbini və onun əhəmiyyətini göstərmək. Yunanıstanda olan qədim dövlətlər və onların ərazisini müəyyən etmək, demosun aristokratlarla mübarizədə qazandığı müvəffəqiyyəti, yunan koloniyalarının yaranma səbəbini və onun əhəmiyyətini göstərmək. Yunanıstanda quldarlıq qruluşunun inkişafı, qulların quldarlara qarşı necə mübarizə apardığını, Yunan-İran müharibələrinin Yunanıstanın mövqeyinə necə təsir etdiyini izah etmək. Yunan-İran müharibələrində yunanların qələbə çalmasını səbəblərini müəyyənləşdirmək. Qədim Misir dövlətinin idarə olunması ilə Afina dövlətinin idarə olunmasındakı əsas fərqi göstərmək. Ellin mədəniyyətinin qədim dünyanın idarə olunmasındakı əsas fərqi göstərmək. Ellin mədəniyyətinin qədim dünyanın mədəni inkişafında oynadığı rolu aydınlaşdırmaq. Quldar demokratiyasının inkişafının Ellin mədəniyyətinin tərəqqisinə göstərdiyi təsiri izah etmək.

Romanın coğrafi mövqeyini və təbii şəraitini müəyyənləşdirmək, ərazisini xəritədə göstərmək. Roma əhalisinin patrisilər və plebeylərə bölünməsinin səbəblərini aydınlaşdırmaq, bu bölünmənin Afina dövlətində vətəndaşların aristokratlara və demosa bölünməsi ilə oxşar xüsusiyyətlərini izah etmək. Plebeylərin və demosun vəziyyətlərini müqayisə etmək, öz vəziyyətlərini yaxşılaşdırmaq üçün onların yeritdikləri üsulların oxşar və fərqli cəhətlərini aydınlaşdırmaq. Romanın İtaliya xalqları üzərində öz hakimiyyətini saxlamasının səbəblərini müəyyənləşdirmək.

Romanın apardığı işğalçı müharibələr əsasında dövlətin daxili xarakterini təhlil etmək, onun quldar respublika olduğunu faktlarla əsaslandırmaq.

İstiqlaliyyət müharibəsi ilə vətəndaş müharibəsi anlayışları arasındakı fərqləri aydınlaşdırmaq. Romada quldarlıq quruluşunun xüsusiyyətlərini müəyyənləşdirmək. Dünyanın heç bir yerində qulların Romadakı qədər amansız istismar edilmədiyini faktlar əsasında sübut etmək. Roma dövlətlərinin zəifləməsinin və süqutunun səbəblərini aydınlaşdırmaq. Qərbi Roma imperiyasının süqutu ilə qədim dünya tarixinin başa çatması arasındakı əlaqələri izah etmək.

**Yekunlaşdırıcı dərs: İbtidai icma və quldarlıq quruluşunun əsas xüsusiyyətləri - 1(1) saat.**

İbtidai icmadan mədəniyyətə keçdi. İlk dövlətlər, şəhərlər, yazı, qanunlar. Qədim Şərq mədəniyyətinin ümumdünya mədəniyyətinə təsiri. Qədim dövrün nailiyyətləri və kəşfləri bizim həyatımızda: təqdim, əlifba, rəqəmlər, kompas, kağız və s. Buddizm və xristianlıq. Demokratiya.

## Qaynaqlar və ədəbiyyat.

### I bölməyə dair:


1.Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.

2.Чизхолм Д. Мировая история в датах. Москва, 1999.

3.Göyüşov R.Azərbaycan arxeologiyası. Bakı, 1983.

4.Редер Д.Г, Черкасова Е.А. История древнего мира в 2-х томах. Том I. Москва, 1979.

5.Семенов С.А. Происхождение земледелия. Ленинград, 1974.

6.Семенев С.А. Развитие техники в каменном веке. Ленинград. 1968.

7.Семенов Ю.И. Происхождение брака и семьи. Москва, 1974.

8.Вигасин А.А, Годер Г.И, Свенцицкая И.С. История древнего мира. Учебник. Москва, 1999.

9.Всемирная история в 24-х томах. Том I. Москва, 1996.


### II bölməyə dair:


1.Арриан Ф. Поход Александра. Москва, 1962.

2.Алиев И. История Мидии. Баку, 1960.

3.Allahverdiyev S, Haqverdiyev Ə. Türk dünyası xalqlarının tarixi. Bakı, 1996.

4.Бартольд В.А. Очерк истории Туркмении. Ашхабад, 1971.

5.Белявский В.А. Вавилон легендарный и Вавилон исторический. Москва, 1971.

6.Бонгард - Левин Г, Ильин Г. Индия в древности. Москва, 1985.

7.Чизхолм Д. Мировая история в датах. Москва, 1999.

8.Дяконов И. Очерк истории Древнего Ирана. Москва, 1961.

9.История Древного Востока. Москва, 1979.

10.Искусство. В 3-х частях. Часть I. Москва, 1965.

12.Крюков М. Древние китайцы в эпоху централизованных монархий. Москва, 1993.

13.Qeybullaev Q. Qədim türklər və Ermənistan. Bakı, 1992.

14.Qüdrətov D. Türk xalqlarının tarixi. Bakı, 2000.

15.Qumilyov L. Qədim türklər. Bakı,1981.
16.Гулиев Л.Н. Тысячилетие вокруг Каспия. Баку, 1990.
17.Магидович И.П, Магидович В.И. Очерки по истории географических открытий. В пяти томах. Том I. Москва, 1982.
18.Мифы народов мира. Энциклопедия. В 2-х томах. Москва, 1980; 1982.
19.Mustafazadə T. Ümumi tarix. I hissə. Bakı, 1995.
20.Özdək Rafiq. Türkün qızıl kitabı. I hissə. Bakı, 1991.
21.Рубинштейн Р. Загадки пирамид. Москва, 1966.
22.Садаев Д. История Древней Ассирии. Москва, 1979.
23.Süleymanov O. Aziya. Bakı, 1993.
24.Вигасин А.А, Годер Г.И, Свенцицкая И.С. История Древнего мира. Москва, 1999.
25.Всемирная история в 24-х тома. Том I. Москва, 1996.

**III bölməyə dair:**
1.Арриан Ф. Поход Александра. Москва, 1962.
2.Чизхолм Д. Мировая история в датах. Москва, 1999.
3.Чубова А.П, Касперавчюс М.М и др. Искусство Восточного Средиземноморья I-IV веков. Москва, 1985.
4.Həsənov Y. Qədim Roma tarixi. Bakı, 1968.
5.История древного мира: в художественно-исторических образах (Сост. А.Шестаков, О.Волубуев). Москва, 1968.
6.Колобова К, Глускина Л. Очерки истории Древней Греции. Денинград, 1958.
7.Мифы народов мира. Энциклопедия в II томах. Москва, 1980; 1982.
8.Nehru S. Ümumdünya tarixinə bir nəzər. Bakı, 1990.
9.Окладников А. Утро искусства. Ленинград, 1967.
10.Парандовский Я. Верования и легенды греков и римлян. Москва, 1958.
11.Plutarx. İskəndər Zülqərneyn. Bakı, 1989.
12.Сергеенко М. Ремесленники Древного Рима. Москва, 1968.
13.Вигасин А.А, Годер Г.И, Свенцицкая И.С. История древнего мира. Учебник. Москва, 1999.
14.Всемирная история в 24-х томах. Том I. Москва, 1996.

**Sinifdənxaric oxu**
1."Bilqamis haqqında dastan"
2.Covanyoli R. "Spartak"
3.Elladanın qəhrəmanları

4.Homer "İliada"
5.Homer "Odisseya"
6.Prus V. "Firon"
7.Yan V. "Finikiya gəmisi"
8.Yan V. "Kurqanlardan gələn işıq"

**I.Xəritələr və atlaslar**
1."Assuriya dövləti"
2."Ellin dövlətləri"
3."Əhəmənilər imperiyası"
4."Qədim Misir"
5."Qədim Roma"
6."Qədim Yunanıstan"
7."Makedoniyalı İskəndərin yürüşləri"
8."Ön Asiya ölkələri qədim zamanlarda"
9."Parfiya dövləti"
10."Spartakın başçılığı altında qul üsyanı"

**II.Sxemlər, cədvəllər, diaqramlar, şəkillər**
1."Qədim dünya tarixi şəkillərdə" komplekti
2."İbtidai icma quruluşunun dövrləri" sxemi
3."Firon Tutmosun yürüşləri" sxem- xəritə
4."Qranik döyüşü" sxemi
5."İss döyüşü" sxemi
6."Qavqamela döyüşü" sxemi
7."Marafon döyüşü" sxemi
8."Fermopil döyüşü" sxemi
9."Salamın döyüşü" sxemi
10."Plateya döyüşü" sxemi
11."Xeroneya döyüşü" sxemi
12."Kanna döyüşü" sxemi
13."Zama döyüşü" sxemi
14."Mete xan" portret
15."Spitamen" portret
16."Siraq" portret

**III.Audiovizual vasitələr.**
1."Bizim eradan milyon il əvvəl" bədii filmi
2."Spartak" bədii filmi
3."Antonio və Kleopatra" bədii filmi

# VII SİNİF

# ORTA ƏSRLƏR TARİXİ

**Həftədə 1,5 (1)(3) saat, il boyu 51 (34) (102) saat**[1]

## GİRİŞ

**Orta əsrlər tarixi nədən bəhs edir? - 1(1)(1) saat.**
Orta əsrlər tarixi ümumi tarixin bir hissəsidir. Onun bəşər tarixində yeri və əhəmiyyəti. "Orta əsrlər tarixi" anlayışı. Orta əsrlər tarixini öyrənmək üçün mənbələr. Dünya orta əsrlərin başlanğıcında - erkən feodalizm dövründə.

## ERKƏN ORTA ƏSRLƏR

## I BÖLMƏ

**Feodal münasibətlərinin meydana gəlməsi - 26(16) (45) saat.**
**Şərq, Türk dünyası və Qafqaz xalqları - 15(11)(27) saat.**
**Çində feodalizm - 1(1)(2) saat.**
Feodal münasibətlərinin yaranması və inkişafı. Suy sülaləsinin hakimiyyətə gəlməsi. Çin torpaqlarının vahid bir dövlətdə birləşdirilməsi. Tan sülaləsi. Ölkənin yeni inkişaf mərhələsinə daxil olması. Qədim türklər və Çin.
**İranda feodal münasibətlərinin meydana gəlməsi və inkişafı - 1(1)(2) saat.**
İranda feodal münasibətlərinin yaranması. Patriklər, azadlar və dehqanlar. Sasanilər sülaləsinin hakimiyyətə gəlməsi. Sasani işğalları. Sasani-Bizans müharibələri, onların xarakteri. Qafqazda Sasani ağalığı. Zərdüştlüyün dövlət dininə çevrilməsi. Məzdək hərəkatı və Sasani imperiyasının dağılmasında onun rolu.
**Qafqaz. Feodal münasibətlərinin meydana gəlməsi və inkişafı - 1(1)(2) saat.**

---

***[1]Mötərizədən xaricdə verilmiş saatlar 1994/1995-ci dərs ili üçün təsdiq edilmiş tədris planı ilə, birinci mötərizədə verilmiş saatlar 2002/2003-cü dərs ili üçün təsdiq edilmiş tədris planı ilə, ikinci mötərizədə verilmiş saatlar işə ictimai fənlərin təhsil sahəsi seçildiyi siniflər üçün nəzərə tutulmuşdur.***

Qafqaz orta əsrlərin başlanğıcında. Şəhərlərin siyasi və mədəni mərkəzlərə çevrilməsi. Feodal münasibətlərinə keçid. Feodal və asılı kəndlilər. Aznaurlar. Uaznolar. Qafqazın Bizans və İran arasında bölüşdürülməsi. Qafqazda ilk feodal dövlətlərinin meydana gəlməsi. Qafqaz Albaniyası. Qafqaz xalqlarının xarici işğalçılara qarşı mübarizəsi. Romalılar Qafqazda. Xristianlığın yayılması.

**Ağ Hun imperiyası - 1(1)(2) saat.**

Ağ Hun dövlətinin yaranması, onun imperiyaya çevrilməsi. İmperiyanın sərhədləri. Onun ən qüdrətli dövrü. Sasanilərlə mübarizə. Ağsuvar xan. Şimal-Şərqi Hindistanın fəthi. Ağ hun imperiyasının tənəzzülü və süqutu.

**Qərbi Hun imperiyası - 2(1)(2) saat.**

"Xalqların böyük köçü"nün başlanması. Qərbi Hun dövlətinin meydana gəlməsi. Ərazisi. Attila. Attila dövründə islahatlar. Ordunun yenidən təşkili. Avropada işğallar. Katalaun döyüşü. Attilanın Balkan səfərləri. Romanın fəthi. Hunların Qərbi Avropada sosial-mədəni həyata və hərbi işə təsiri. Şərqi Avropada Hun dövlətinin yaranması. Hunların Cənubi Qafqaza yayılması. Azərbaycan ərazisinə Hun axınları.

**Göytürk imperiyası - 2(1)(3) saat.**

Türklər haqqında ilk əfsanələr. "Türk" adını daşıyan ilk dövlət. Bumin Xaqan. Qərbə yürüşlər. Bizans və Sasanilərlə mübarizə. Göytürklər Cənubi Qafqazda. Göytürklər və Azərbaycan.

Türklər Çin əsarətində. Kur Şad üsyanı. Göytürk imperatorluğunun ən qüdrətli dövrü. Bilgə Xaqan. Gül Təkin. İmperiyanın zəifləməsi. Göytürk-Çin münasibətlərinin kəskinləşməsi. İmperiyanın süqutu.

**Uyğur xaqanlığı - 1(1)(2) saat.**

Uyğurların ərazisi və əhalisi. Uyğur xaqanlığının yaranması. Kutluq Bilgə Gün. Uyğur xaqanlığında daxili çəkişmələr. Mancurlar və ərəblərlə mübarizə. Uyğur-Çin münasibətləri. Dini baxışlar və onların Uyğur xaqanlığının zəifləməsində rolu. Uyğur xaqanlığının süqutu. Təsərrüfat. Şəhərlər. Sənətkarlıq. Ticarət əlaqələri.

**Avar xaqanlığı - 1(1)(3) saat.**

Avarların Şərqi Avropaya yürüşü, Qafqazda yayılması. Avarların Şərqi Avropada türk etnosları ilə dayanıb-qarışması. Avar xaqanlığının yaranması. Ərazisi. Əhalinin məşğuliyyəti. İmperiyanın zəifləməsi və süqutu.

**Xəzər xaqanlığı - 2(1)(3) saat.**

Xəzərlərin ərazisi və məşğuliyyəti. Xəzər xaqanlığı Şərqi Avropanın ilk feodal dövlətlərindən biridir. Onun torpaqlarının Dnepr çayına qədər genişlənməsi. Təsərrüfat. Şəhərlər. Ticarət əlaqələri. Bizansla münasibətlər. Kiyev dövlətinin təşkilində Xəzər xaqanlığının rolu. Xəzər-ərəb müharibələrini Xəzərlərin Cənubi Qafqazda yayılması. Xəzərlər və Azərbaycan.

**Hindistanda feodal münasibətləri - 1(1)(2) saat.**

Feodalizm quruluşunun yaranması. Xarşa dövləti. Xarşa dövlətinin parçalanması. Ərəblərin Hind çayı vadisini işğal etməsi. Xırda knyazlıqların meydana gəlməsi. Kənd icmalarının knyazlara tabe edilməsi. İndiuzm. Şəhərlər və ticarətin inkişafı.

**Ərəblər V-VII əsrlərin əvvəllərində - 2(1)(4) saat.**

Ərəblərin yaşadığı ərazi. Ərəbistanın təbiəti. İctimai quruluşu. Əhalinin məşğuliyyəti. Köçəri bədəvilər və onların adətləri.

Ərəblərdə əyanların meydana gəlməsi. Əyanlar ərəb tayfalarını birləşdirməyə çalışırlar. Ərəb tayfalarının birləşməsi prosesi və onun səbəbləri.

İslam dininin meydana gəlməsi. Məhəmməd Peyğəmbər. Ərəb tayfalarının birləşməsi. İslam dövlətinin yaradılması. İlk ərəb xəlifələri. "Qurani-Kərim" islam dininin müqəddəs kitabıdır.

**2.Qərbi Avropa, Bizans və slavyan xalqları - 11(5)(17) saat.**

**Qərbi Avropada feodalizmin yaranması - 5(1)(9) saat.**

Qədim alman tayfaları. Onların məzşğuliyyəti. Nəsli icmadan qonşuluq icmasına keçid. Bərabərsizliyin artması. Almanların Roma imperiyası ərazisində məskunlaşması.

Frankların Qalliyanı işğal etməsi. Frank dövlətinin yaradılması. Xlodviq kraldır. Dövlətin idarə edilməsi. Kralın kilsə ilə ittifaqı. Qanunlar toplusu.

Franklarda iri torpaq mülklərinin artması. İcma üzvlərinin asılı kəndlilərə çevrilməsi. Asılı və təhkimli kəndlilər. Kilsə mülklərinin artması. Böyük Kral. İtaliya və İspaniyada müharibələr. Saksların əsarət altına alınması. Böyük Karlın imperiyası.

Feod. Feodal mülkü. Ağa torpağı və kəndlilərin pay torpaqları. Asılı kəndlilərin mükəlləfiyyətləri. Biyar, töycü. Feodalların kəndlilər üzərində hakimiyyətinin möhkəmlənməsi.

Kəndlilərin yaşayışı və əməyi. Natural təsərrüfat. Feodallar necə yaşayırdılar? Feodalların əxlaq və adətləri. Turnir. Cəngavər şərəfi. Gerb və deviz. Feodal qəsri.

**Bizansda feodal münasibətlərinin yaranması və inkişafı - 2(1)(3) saat.**

Bizansın inkişaf xüsusiyyətləri. Konstantinopol Şərqlə Qərb arasında "qızıl körpü"dür. İmperator hakimiyyəti. Yustinanın dövründə işğallar. İmperiyanın genişləndirilməsi və onun nəticələri. Slavyanların Avropadakı Bizans torpaqlarında məskunlaşması və bunun nəticələri. Feodalizmin yaranması. Azad kəndlilərin yoxsullaşması. Bizansda feodal mülklərinin yaranması. Bizansın zəifləməsi. Bizans imperiyasında feodalizmin inkişaf xüsusiyyətləri.

**Slavyanlarda feodalizm quruluşu - 1(1)(1) saat.**

Slavyanların yayıldığı ərazi. Məşğuliyyəti. Slavyanlar haqqında ilk məlumatları haradan öyrənirik? İcmadan feodal qaydalarına keçid. Slavyan dövlətlərinin yaranması. Slavyanların qonşuları. Slavyanlar və macarlar. Macarların Avropa tarixində oynadığı rol.

**Cənub-Şərqi Avropada Bulqar dövləti - 2(1)(2) saat.**

Böyük Bulqar dövlətinin yaranması və parçalanması. Bulqar türklərinin Balkanlara köç etməsi. Cənub-Şərqi Avropada Bulqar-Türk dövlətinin yaranması və qüvvətlənməsi. Bizansla münasibətlər. Xristianlığın qəbul edilməsi. Bulqar-slavyan əlaqələri və onun nəticələri.

**Kiyev dövləti - 1(1)(2) caat.**

Kiyev dövlətinin yaranması barədə mülahizələr. Kiyev dövlətinin yaranmasında çöllülərin, (qıpçaqlar, xəzərlər, kumanlar, biçənəklər) vikinqlərin (varyaqların) və urqo-finlərin rolu. Kiyev dövləti erkən feodal dövləti kimi. Kiyev dövlətində töycü. Knyazların yürüşləri. Xristianlığın qəbulu. Peçeneqlərə münasibətlər.

**Təkrar ümumiləşdirici dərs: "Feodal münasibətlərinin yaranması"- 0(0)(1) saat.**

Nəticə

Sənəd

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Qədim Albaniya. Qəbələ. Cavanşir. Dəmirqapı - Dərbənd. Bərdə. "Kitabi-Dədə Qorqud" - yurdumuzun tarix salnaməsi. Azərbaycan tarixi (VII sinif): Azərbaycanda feodal münasibətləri. Azərbaycan Sasani imperiyasının tərkibində. Zərdüştlük. Albaniyada xristianlığın yaranması. Sasani əsarətinə qarşı üsyanlar. Məzdək hərəkatı. Girdiman dövləti. Alban mədəniyyəti. Ümumi tarix (VI sinif): Böyük Hun imperiyası, Mete Xaqan. Qədim Hindistan. Qədim Çin. Qədim Roma imperiyası. Ədəbiyyat (V sinif): "Oğuz xan" əsatiri:

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Orta əsrlər tarixi. Feodalizm quruluşu. Xalqların böyük köçü. Xronikalar. Alman tayfaları. İkitarlalı əkin. Əyanlar. Drujinalar. Azad kəndlilər. İri torpaq sahibləri. Qraflar. Qanun toplusu. Asılı kəndlilər. Təhkimli kəndlilər. Rahib. Monax. Monastr. Abbat. Ruhanilər. Papa. Yepiskop. Arxiyepiskop. Feod. İlkin (erkən) feodal dövləti. Feodal mülkü. Feodal malikanəsi. Ticarət əlaqələri. Mükəlləfiyyətlər. Zolaqaşırı bölgü. Biyar. Töycü. Kilsə onda biri. Natural təsərrüfat. Ara müharibələri. Senyor. Vassal. Cəngavər. Feodal qəsri. Mülklər haqqında fərman. Turnir. Gerb. Deviz. Cəngəvar şərəfi. Veçe. Knyaz. Kömrük. Atanarix sənədləri. Göytürk. Xaqan. Kənd icmaları. Bədəvi. Sarban. İslam dini. Hicrət. Quran. Xəlifə. Xilafət. Etnos.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Qafqazda, Şərq ölkələrində, slavyanlarda və Qərbi Avropa ölkələrində feodalizmə keçidin fərqli və oxşar cəhətlərini aydınlaşdırmaq. Ayrı-ayrı türk dövlətlərində siyasi, sosial-iqtisadi həyat faktlarını təhlil etmək əsasında onların ictimai quruluşlarını müəyyən etmək. Hərb sənətinin inkişafında türklərin rolunu açıqlamaq. Qərbi Avropa ölkələrində feodal dövlətlərinin yaranmasının səbəblərini izah etmək. Feodal dövləti ilə quldarlıq dövlətini müqayisə etmək. Asılı kəndli ilə təhkimli kəndli arasındakı fərqi göstərmək. Qul ilə kəndlini müqayisə etmək. Qərbdə feodal hakimiyyətinin möhkəmləndirilməsində xristian dininin rolunu aydınlaşdırmaq. Kilsənin ən iri torpaq sahibi olduğunu faktlarla sübut etmək. Kilsənin öz mülklərini genişləndirməsi üsullarını müəyyənləşdirmək. "Xalqların böyük köçü"nün başlanmasının Avropaya təsirini aydınlaşdırmaq. "Xalqların böyük köçü"nün başa çatmasının nəticələrini izah etmək. Xəzər xaqanlığının, Qərbi Hun imperiyasının, Avar xaqanlığının, Kiyev Rus dövlətinin, Frank imperiyasının erkən feodal dövlətləri olduğunu faktlarla əsaslandırmaq. Xəritədə ayrı-ayrı xalqların axınlarının istiqamətlərini müəyyənləşdirmək. Ərəblərdə vahid dövlətin meydana gəlməsi səbəblərini izah etmək, islam dininin ərəb tayfalarının birləşdirilməsində oynadığı rolu açıqlamaq. Qədim almanlarda, slavyanlarda və ərəblərdə feodalizm quruluşuna keçilməsinin ümumi cəhətlərini müəyyənləşdirmək. Türk xalqlarının və dövlətlərinin Avropa tarixinə təsirin izah etmək, türk hərb sənətinin və dövlətçilik ənənələrinin mənimsənilməsinin Avropa üçün əhəmiyyətini aydınlaşdırmaq. Müxtəlif ölkələrdə feodalizmin meydana gəlməsi və inkişafına dair əsas əlamətləri fərqləndirmək, müqayisəli və sinxron cədvəllər tərtib etmək. Erkən orta əsrlərdə yaradılmış türk dövlətləri ilə Azərbaycan arasındakı əlaqələri aydınlaşdırmaq. Türk etnoslarının Azərbaycana ikinci axınlarının Azərbaycan xalqının formalaşmasına, bütün Cənubi Qafqazda türk-müsəlman amilinin möhkəmlənməsinə göstərdiyi təsiri izah etmək.

## II BÖLMƏ

## FEODAL DAĞINIQLIĞI - 13(11)(13) saat.

**3.Türklərdə, Qafqazda və Şərqdə feodal dövlətləri - 11(10)(28) saat.**
**Qafqazda feodal dövlətləri - 1(1)(2) saat.**

Albaniya dövləti. Kaxetiya. Abxaziya çarlığı. Tiflis müsəlman əmirliyi. Kəndlilərin təhkim edilməsi. Qafqazda xristianlıq. Ərəblərin Qafqaza yürüş-

ləri. Ərəblər və Dağıstan. Qafqazda islam dininin yayılması. Qafqazda Hun tayfa birliyi. Alban feodal dövlətinin yaranması. Türklər və Qafqaz.

**Oğuz dövləti - 1(1)(3) saat.**

"Oğuz" anlayışı. Oğuz tayfa ittifaqları. Oğuz dövlətinin meydana gəlməsi. Oğuzlar və Ərəb xilafəti. IX-X əsrlərdə oğuzların ərazisi, təsərrüfat həyatı. Ticarət əlaqələri: Oğuz dövlətinin daxili və xarici siyasəti.

Oğuz axınları. İslamın qəbul edilməsi. Oğuz axınlarının güclənməsi. Oğuzların Mərkəzi Asiya, Ön Asiya və Şərqi Avropada məskunlaşması. Slavyanlaşma və onun səbəbləri.

**Samanilər dövləti -1(1)(3) saat.**

Samanilər. Ərəb işğallarına qarşı mübarizə. Mərkəzi Asiya və İran torpaqlarının Buxara ətrafında birləşdirilməsi. Samanilər dövləti. Dövlətin ərazisi. Samanilərin daxili və xarici siyasəti. Ərazisinin genişləndirilməsi. Dövlətin idarə sistemi. Şəhərləri. Sənətkarlıq və ticarət. Feodal münasibətləri. Vergilər. Torpaq mülkiyyəti. Suvarma sistemi. Feodal dağınıqlığı. Türklərin hücumu. Samanilər dövlətinin süqutu. Samanı Azərbaycan əlaqələri.

**Qaraxanilər dövləti - 1(1)(3) saat.**

Qaraxanilər. Qaraxanilər dövlətinin yaranması. Yüksəlişi. İslam dininin qəbulu. Qaraxanilər dövlətində feodal münasibətlərinin inkişafı. Torpaq sahibliyinin əsas formaları. İdarəetmə. Vergi sistemi. Şəhərlər. Sənətkarlıq. Ticarət. Qaraxanilər dövlətində feodal dağınıqlığının başlanması. Mərkəzi hakimiyyətin zəifləməsi. Səlcuqlarla toqquşmalar. Qaraxanilər dövlətinin süqutu.

**Qəznəvilər dövləti - 1(1)(3) saat.**

Qəznəvilər dövlətinin yaranması. Ərazisi. Əhalisi. İdarəetmə. Sultan Mahmud Qəznəvi. Daxili siyasəti. Qonşu ərazilərə yürüşləri. Dövlətin möhkəmlənməsi və ərazisinin genişlənməsi. Hindlistana yürüşlər. Səlcuq-Qəznəvi münasibətləri. Qəznəvilərin Şimali Hindistaqna sıxışdırılıması.

**Xarəzm dövləti - 1(1)(2) saat.**

Xarəzm dövlətinin yaranması. Ərazisi. Əhalisi. Feodal münasibətlərinin inkişafı. Xarəzmin ərəblər tərəfindən işğal edilməsi. Qonşu torpaqlara yürüşlər. X əsrdə Ürgəncin yüksəlişi. Xarəzm torpaqlarının birləşdirilməsi. Şəhərlər. Sənətkarlıq. Ticarət. Qonşu dövlətlərlə iqtisadi-ticarət əlaqələri. Birinci Xarəzmşahlar sülaləsinin süqutu.

**Bulqar dövləti - 1(1)(2) saat**

Dövlətin yaranması. Ərazisi. Əhalisi. Feodal münasibətləri. Təsərrüfatı. Ticarət. Sənətkarlıq. Şəhərlər. İslam dininin qəbulu və onun əhəmiyyəti. Hərb sənəti. Rus knyazlarının işğalçılıq yürüşlərinə qarşı mübarizə.

**Təkrar ümumiləşdirici dərs: Türk dövlətləri: ümumi və fərqli cəhətlər - 0(0)(1) saat.**

**Ərəb xilafəti. Ərəb işğalları - 2(1)(5) saat.**

VII-VIII əsrlərdə ərəb işğalları. Avropaya yürüş. Ərəb xilafəti. Ərazisi. Sərhədləri. İdarə olunması. Paytaxt şəhərləri. Xilafət ərazisində feodalizm quruluşu. İqtisadi inkişaf. Torpaq mülkiyyəti formaları. Vergi sistemi. Köçürmə siyasəti. Şəhərlər. Sənətkarlıq. Ticarət.

Xalq üsyanları. Mərv üsyanı. Müqəmma üsyanı. Xilafətin dağılmasında Xürrəmilər hərəkatının rolu. Babək. Türk xalqları Ərəb xilafətinin tərkibində. Xilafətin idarə olunmasında türklərin iştirakı. Ərəb xidlafətinin parçalanması. Bağdad xilafəti. Xilafətin zəifləməsinin səbəbləri. Xilafətdə feodalizm cəmiyyətinin xarakterik cəhətləri.

Kordova xilafəti. Kordova əmirliyi Qərbi Avropada müsəlman dövlətidir.

**Çində feodal dağınıqlığı - 1(1)(2) saat.**

Feodalların dövlət torpaqlarını özbaşına ələ keçirməsi. Feodal mülklərinin yaranması. Feodal dağınıqlığının meydana gəlməsi. Kəndlilərin torpaqsızlaşması və asılı vəziyyətə düşməsi.

Kəndlilərin vəziyyətinin ağırlaşması. Kəndli müharibəsinin başlanması. Xuan Çao. Üsyançıların müvəffəqiyyətləri. Üsyanın məğlub olması və nəticələri. Sun sülaləsinin hakimiyyətə gəlməsi.

**Hindistanda feodal dağınıqlığı - 1(1)(2) saat.**

Feodal dağınıqlığının səbəbləri. Feodal pərakəndəliyinin uzun müddət davam etməsi (VI-XII əsrlər). Feodal-ata müharibələri. Bu müharibələrin ölkənin təsərrüfatına təsiri. Ölkənin müdafiə qabiliyyəztinin ərəblər tərəfindən zəbt edilməsi. İslam dininin Hindistana geniş yayıla bilməməsinin səbəbləri. Şimaldan türk hökmdarının yürüşləri.

**4.Qərbi Avropa feodal dağınıqlığı dövründə - 2(1)(4) saat.**

**Frank imperiyasının süqutu. Yeni dövlətlərin yparanması - 2(1)(4) saat.**

Verden müqaviləsi. Böyük Kral imperiyasının dağılması və onun səbəbləri. Karl hakimiyyətinin zəifləməsi, feodalların müstəqilliyi. Hersoqlar və qraflar. Müqəddəs Roma imperiyası. Ara müharibələri. Senyor və vassal. Feodal nərdivanı.

**Təkrar-ümumiləşdirici dərs: Feodal dağınıqlığının səbəbləri və nəticələri. Ayrı-ayrı ölkələrdə bu prosesin xüsusiyyətləri - 0(0)(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fəşnlərarası əlaqələr:** Ata yurdu (V sinif): Qəbələ. Cavanşir. Dəmirqapı - Dərbənd. Bərdə. "Kitabi-Dədə Qorqud" - yurdumuzun tarix salnaməsi. Babək. Gəncə. Azərbaycan tarixi (VII sinif):

Azərbaycan Ərəb xilafətinin tərkibində. Azərbaycanda feodal dövlətlərinin meydana gəlməsi. Ümumi tarix (VI sinif): Qafqazda feodal münasibətlərinin meydana gəlməsi. Sasanilər dövləti. Qərbi Avropada erkən feodal dövlətlərinin meydana gəlməsi. Feodalizm quruluşunun əsas xüsusiyyətləri. Hindistanda və Çində feodalizm quruluşunun meydana gəlməsi. Ədəbiyyat (V sinif): "Dəniz səyyahı Sindibad".

**Bolmə üzrə formalaşdırılan əsas anlayışlar:** Ərəb xilafəti. Zimmilər. Çizyə. Xərac. Mövlalar. Mülk. İlekxanlar. Kəndli müharibəsi. Feodal dağınıqlığı. Hersoq. Qraf. Müqəddəs Roma imperiyası. Feodalların müstəqilliyi. Feodal nərpdivanı. Hun tayfa birliyi. Oğuz tayfa ittifaqları. Oğuz axınları.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Ayrı-ayrı ölkələrdə feodal dağınıqlığının səbəblərini, onun oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək. Feodal münasibətlərinin inkişafı ilə feodal dağınıqlığı arasındakı səbəb-nəticə əlaqələrini açmaq. Ayrı-ayrı türk dövlətlərinin siyasi, sosial-iqtisadi həyat faktlarını təhlil etmək. Oğuz axınlarının Mərkəzi Asiya, Ön Asiya və Şərqi Avropa xalqlarının tarixində mühüm rol oynadığını faktlar əsasında sübut etmək. IX-X əsrlərdə yaranmış türk dövlətlərində islam dininin qəbul edilməsinin türk-müsəlman birliyinin möhkəmləndirilməsində mühüm rol oynadığını sübut etmək.

Feodal dağınıqlığı dövrünə aid olan anlayışları, ifadələri ayırmaq. Öyrənilən dövlətlərin ərazilərini xəritədə göstərmək, onların meydana gəlməsində fərqli və oxşar cəhətləri müəyyənləşdirmək. Öyrənilən dövlətlərin iqtisadi vəziyyətini təhlil etmək, torpaq mülkiyyəti formalarını müəyyənləşdirmək, vergi sistemlərində baş vermiş dəyişikliklərin mahiyyətini izah etmək. Tarixi şəxsiyyətləri qiymətləndirmək. Müxtəlif mənbələrdən alınmış faktlar və biliklər əsasında tarixi şəxsiyyətlər haqqında məlumatlar hazırlamaq və onlara münasibət bildirmək. Feodalların yaşayış, məişət tərzini təhkimli və asılı kəndlilərin yaşayış və məişəti ilə müqayisə etmək, nəticə çıxarmaq. Feodal mülkünün meydana gəlməsi səbəblərini izah etmək. Dərsliyin mətni üzrə sadə və mürəkkəb planlar tərtib etmək.

## III BÖLMƏ

## ERKƏN ORTA ƏSRLƏRDƏ MƏDƏNİYYƏT - 12(7)(21) saat.

### 5.Türk, Qafqaz və Şərq xalqlarının mədəniyyəti - 9(4,5)(17) saat.

**Türk xalqlarının mədəniyyəti - 3(1)(5) saat.**

Maarif və elm. V-XI əsrlərdə maarif. Məktəb və mədrəsələr. Yazı. İlk türk əzlifbası. Orxan-Yenisey abidələri. Gültəkin yazıları. Soqd əlifbası. Ərəb

qrafikalı əlifbaya keçid. Elmi biliklərin inkişafı. Rəsədxana və kitabxanalar. İbn Sina və onun "Tibb elminin qanunu" əsəri. Biruni. Yerin günəş ətrafında fırlanması fikrinin ilk dəfə irəli sürülməsi. İlk qlobus. Əbu Abdulla Məhəmməd ibn Musa, Fərabi ibn Kəsirə.

Ədəbiyyat. Xalq dastanları. "Oğuz xaqan" dastanı. "Boz qurd", "Satuk Buğra xan" dastanları. Y.Balaşaqunlu. "Kutadqu Bilik" əsəri. Əhməd Yasəvi "Divani-Hikmət". Aşıq yaradıcılığı.

İncəsənət. Memarlıq. Qədim türk kurqanları. Bəngüdaşlar. Türk sərhəd qalaları. Şəhərsalma mədəniyyəti. Urumçi, Yarkənd. Rəssamlıq. Uyğur freskaları. Teatr. Qədim türk məişət mərasimləri. Musiqi. Ozanlar. Qopuz. Uyğur mahnıları, rəqs.

Din. Türklərin dini inancları və mifik görüşləri. "Göy tanrı" dini. İslam dininin qəbul edilməsi. Azərbaycan mədəniyyəti ümumtürk mədəniyyətinin tərkib hissəsidir.

**Qafqaz xalqlarının mədəniyyəti - 1(1)(2) saat.**

Kilsə və monastır məktəbləri. Salnamələr. Tətbiqi sənət. Rəssamlıq. İkonalar. Memarlıq. Eposlar. Müsəlman-türk mədəniyyəti. "Kitabi-Dədə Qorqud" dastanları.

**İslam mədəniyyəti - 2(1)(5) saat.**

İslam mədəniyyəti anlayışı. İslam mədəniyyətinin meydana gəldiyi tarixi şərait və onun xüsusiyyətləri. Xilafət ölkələrində mədəniyyəitin inkişaf səbəbləri. Təsərrüfat və mədəniyyətin yaradılmasında və inkişafında Azərbaycanın yeri.

Xilafətdə təhsil və elm. Məktəb və mədrəsələr. Yeni təhsil sisteminin formalaşdırılması. Elmin inkişafı. Təbiətşünaslıq, riyaziyyat, astronomiya. Ərəb dilində hesaba dair ilk əsər. Ərəb səyyahları. İbn Xordadbeh, Yəqubi. Tarix. Tibb. İlahiyyat elminin inkişafı. "Qurani-Kərim".

Ədəbiyyat. Ərəb ədəbiyyatının "qızıl dövrü". "Min bir gecə" nağılları. Ərəbdilli ədəbiyyatın inkişafında Azərbaycan şairlərinin rolu. İsmayıl Yasər.

İncəsənət. Memarlıq. Əlhambra sarayı. Məscidlər. Bədii sənət. Musiqi. Xilafət ölkələrində rəssamlığın zəif inkişaf etməsinin səbəbləri. İslam mədəniyyətinin əhəmiyyəti.

**İran mədəniyyəti - 1(0,5)(1) saat.**

Təhsil. Elm. Riyaziyyat-astronomiya sahəsində nailiyyətlər. Tibb, coğrafiya və tarix elmlərinin inkişafı. Ədəbiyyat. Ömər Xəyyam, Ə.Firdovsi. "Şahnamə" əsəri.

Memarlıq. Ornament və xəttatlıq. Ümumiran mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolu.

**Çin mədəniyyəti - 1(0,5)(2) saat.**

Elm. Tibb. Riyaziyyat. Kitab çapı. "Paytaxt xəbərləri" qəzeti. Barıt. Ma-

ğara-məbədlər. Çini qablar. İpək parçalar. Musiqi. Not. Balet sənəti. Erkən orta əsrlərdə türk mədəniyyəti və Çin.

**Hindistan mədəniyyəti 1(0,5)(2) saat.**

Buddizm. Buddanın həyatından təsvirlər, divar rəsmləri. Çarvaklar məktəbi. Heykəltəraşlıq. Tunc heykəllər. Teatr. İslam mədəniyyəti və Hindistan.

**6.Avropa və Bizans mədəniyyəti - 2 (1,5)(3) saat.**

**Avropa mədəniyyəti - 1(1)(2) saat.**

Təhsil. Kilsə məktəbləri. Kiril əlifbası. Ruhani məktəbləri. Elm. Astronomiya. Riyaziyyat. Əlyazma sənəti. Kitab emalatxanaları. Salnamələr. Xalq yaradıcılığı. "Roland haqqında nəğmə". İslam mədəniyyəti və Avropa. Avropa mədəniyyətinin inkişafında xristian dininin rolu.

**Bizans mədəniyyəti - 1(0,5)(1) saat.**

Təhsil. Elmi biliklər. Memarlıq. Müqəddəs Sofiya məbədi. Rəssamlıq. Mozaikalar. İkonalar. Bizansın mədəni əlaqələri. Bizans mədəniyyətinin əhəmiyyəti.

**Təkrar-ümumiləşdirici dərs: "Türk-islam mədəniyyətinin Avropa mədəniyyətinə təsiri" - 0(0)(1) saat.**

**Yekunlaşdırıcı ümumiləşdirmə: Feodalizm quruluşunun əsas xususiyyətləri - 0(0) 2 saat.**

**Yekunlaşdırıcı ümumiləşdirmə: İslam və xristian mədəniyyətlərində ümumbəşəri dəyərlər -0(0)(2) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V cinif): Qədim Albaniya. Qəbələ. Cavanşir. Dəmirqapı-Dərbənd. Bərdə. Azərbaycan tarixi (VI sinif). Manna mədəniyyəti. Atropaten və Albaniya mədəniyyəti. (VII sinif): Sasanilərin hakimiyyəti dövründə Azərbaycanda mədəniyyət. Xilafət dövründə Azərbaycan mədəniyyəti. Azərbaycanın orta əsr şəhərləri. "Kitabi-Dədə Qorqud" dastanı. IX əsrin II yarısı - XI əsrin ortalarında Azərbaycan mədəniyyəti. Ümumi tarix (VI sinif): Qədim Şərq ölkələrinin mədəniyyəti. Qədim Yunan və Roma mədəniyyəti. (VII sinif): Qədim Türklər və Çin. Məhəmməd Peyğəmbər. Ərəblərin yürüşləri.

**Bölmə üzprə formalaşdırılan əsas anlayışlar:** İslam mədəniyyəti. Mədrəsə. Ərəb ədəbiyyatının "qızıl dövrü". Əlhambra sarayı. Soqd əlifbası. Ərəb qrafikalı əlifba. Rəsədxana. Türk kurqanları. Bəngüdaşlar. Sərhədqalalar. Ozan-Qopuz. "Göy Tanrı" dini. İkona. Monastr məktəbləri. Ornament.

Xəttatlıq. Buddizm. Çarvaklar məktəbi. Tunc heykəlllər. Kitab çapı. Mağara-məbədlər. Çoxyaruslu qüllələr. Not. Balet. Kilsə məktəbi. Kiril əlifbası. Mozaika.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqələr bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Mədəniyyətin inkişafının cəmiyyətin inkişafına göstərdiyi təsiri izah etmək. İslam mədəniyyətinin mahiyyətini aydınlaşdırmaq, onun yaradılması və inkişaf etdirilməsində türk mədəniyyətinin, o cümlədən Azərbaycan mədəniyyətinin rolunu müəyyənləşdirmək. İslam mədəniyyəti ilə həmin dövr Avropa mədəniyyətini müqayisə etmək, islam mədəniyyətinin coşğun inkişafının səbəblərini aydınlaşdırmaq. Faktlar əsasında türk-islam mədəniyyətinin Avropa mədəniyyətinə təsirini izah etmək. Türk-islam mədəniyyətinin ümumbəşər mədəniyyətinə verdiyi töhfələri konkret faktlarla əsaslandırmaq. Bir çox ölkələrdə və xalqlarda yazı sisteminin formalaşdırılmasına ilk türk əlifbasının göstərdiyi təsiri aydınlaşdırmaq. Müxtəlif mənbələr əsasında görkəmli elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılığına dair məlumatlar tərtib etmək. Roma və Çin poeziyasının "qızıl dövrü", ilə ərəb ədəbiyyatının "qızıl dövrü" arasındakı oxşar və fərqli cəhətləri müqayisə aparmaqla aydınlaşdırmaq. Mədəni həyatın ayrı-ayrı faktlarını təhlil etmək əsasında ümumiləşdirmələr aparmaq və nəticələr çıxarmaq. Mədəniyyətin inkişafına aid faktların sosial-iqtisadi və siyasi həyat faktları ilə əlaqəsini müəyyənləşdirmək və izah etmək, öz fikrini əsaslandırmaq.

**Qaynaqlar və ədəbiyyat**

**I bölməyə dair:**


1.Azərbaycan tarixi, I cild. Bakı, 1994.

2.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

3.Azərbaycan tarixi sənəd və nəşrlər üzr. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı, 1990.

4.Aslanov R., Axundova N., Məmmədova A. Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi. Bakı, 1999.

5.Агибалова Е.В, Донской Г.М. История средних веков. Учебник Москва. 1996.

6.Azərbaycan Sovet Ensiklopediyası. I-X cildlər. Bakı, 1976-1987.

7.Артыманов М.И. История Хазар. Москва, 1962.

8.Бабаев А.И. Города Кавказской Албании. Баку, 1996.

9.Bakıxanov A.A. Hind əfsanələri. Bakı, 1991.

10.Чизхолм Д. Мировая история в датах. Москва, 1999.

11.Детская энциклопедия. Том 8 (Из истории человеческого общества). Москва. 1975-1977.
12.Faruq Şumer. Oğuzlar. Bakı, 1992.
13.Heyət S. Türklərin tarixi və mədəniyyətinə bir baxış. Bakı, 1993.
14.Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları. Bakı, 1995.
15.İbrahimov Z.İ. Babək, 1944.
16.История Северного Кавказа с древнейших времен до. XVII века. Москва, 1988.
17.Кацва Л.А. Юрганов А.А. История России VIII-XV вв. Москва, 1997.
18.Kəlilə və Dimnə. Bakı, 1985.
19.Книга для чтения по истории средних веков. Под редакцией Сказкина С.Д. част I.Москва, 1960.
20.Qüdrətov D.N. Türk xalqlarının tarixi. Bakı, 2000.
21.Гвоздинский Н.А. Кавказ. Москва. 1963.
22.Геюшов Р.Б. Христианство в Кавказской Албании. Баку. 1984.
23.Qumilyov L.N. Qədim türklər. Bakı.
24.Гумилев Л.Н. Тысячлетие вокруг Каспия. Баку, 1990.
25.Гумилев Л.Н. Куркчи А.И. Черная легенда. Баку, 1991.
26.Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı, 1980.
27.Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985.
28.Mustafazadə T. Ümumi tarix II cild. Bakı, 1995.
29.Mahmudov Y.M. Orta əsrlər tarixi (Erkən orta əsrlər dövrü). Bakı, 1989.
30.Özdək Rafiq. Türkün qızıl kitabı. I cild. Bakı, 1992.

**II bölməyə dair:**

1.Azərbaycan tarixi, I cild. Bakı, 1994.
2.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
3.Azərbaycan tarixi sənəd və nəşrlər üzr. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı, 1990.
4.Aslanov R. Axundova N. Məmmədova A. Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi. Bakı, 1999.
5.Агибалова Е.В, Донской Г.М. История средних веков. Учебник Москва. 1996.
6.Azərbaycan Sovet Ensiklopediyası. I-X cildlər. Bakı, 1976-1987.
7.Бартольд. Очерк истории Туркмении. Ашхабад, 1971.
8.Большаков. История халифата. Том I-II.Москва, 1992.
9.Чизхолм Д. Мировая история в датах. Москва, 1999.
10.Faruq Şumer. Oğuzlar. Bakı, 1992.
11.Фахруддинов Р.Г. Очерк по истории Волжской Булгарии. Москва.

1984.
12.Heyət S. Türklərin tarixi və mədəniyyətinə bir baxış. Bakı, 1993.
13.Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları. Bakı, 1995.
14.İbrahimov Z.İ. Babək, 1944.
15.История Северного Кавказа с древнейших времен до. XVII века. Москва, 1988.
16.Кацва Л.А. Юрганов А.А. История России VIII-XV вв. Москва, 1997.
17.Qüdrətov D.N. Türk xalqlarının tarixi. Bakı, 2000.
18.Гвоздинский Н.А. Кавказ. Москва. 1963.
19.Qumilyov L.N. Qədim türklər. Bakı.
20.Гумилев Л.Н. Курчка А.И. Черная легенда. Баку, 1991.
21.Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı, 1980.
22.Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985.
23.Mahmudov Y.M. Orta əsrlər tarixi (Erkən orta əsrlər dövrü). Bakı, 1989.
24.Mehdiyeva N.S. Türk xalqlarının tarixinə dair materiallar. Bakı, 1994.
25.Özdək Rafiq. Türkün qızıl kitabı. I cild. Bakı, 1992, II cild, 1993.
26.Смирнов А.П. Волжские булгары. Москва, 1951.
27.Сахаров А.Н, Буганов В.И. История России с древнейших времен до конца XVII века. Москва, 1999.
28.Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.

**III bölməyə dair:**

1.Azərbaycan tarixi, I cild. Bakı, 1994.
2.Azərbaycan Sovet Ensiklopediyası. I-X cildlər. Bakı, 1976-1987.
3.Агибалова Е.В, Донской Г.М. История средних веков. Учебник Москва. 1996.
4.Бартолд В.В. Очерк истории Туркмении. Ашхабад, 1971.
5.Бартолд В.В. Культура мусулманства. Москва, 1981.
6.Большаков О.Г. История халифата. Том I и II. Москва, 1992.
7.Детская энциклопедия. Том 11 (Язык и литература), том 12 (искуство). Москва. 1975-1977.
8.Farux Şumer. Oğuzlar. Bakı, 1992.
9.Heyət Cavad. Türklərin tarixi və mədəniyyətinə bir baxış. Bakı, 1993.
10.Моисеева К. Звезды мудрого Бируни. Москва, 1973.
11.Oğuznamələr. Bakı, 1995.
12.Rəşidəddin F. Oğuznamə. Bakı, 1996.
13.Токарев С.А. Религия в истории народов мира. Москва, 1964.

**Sinifdənxaric oxu üçün ədəbiyyat:**

1.Adsız H.N. Bozqurdlar
2.Ələddin V. Məhəmməd Peyğəmbərin hekayəti
3.Əfqan. Bəy İnal
4.Həzrəti İ.M. Əbu Bəkr
5.Xəzri N. Peyğəmbər
6.Firdovsi Ə. Şahnamə
7.Məmmədxanlı Ə. Babək
8.Talıbov M.Ə. Səma elçisi
9.Voskoboynikov V.M. Böyük loğman
10.Yıldız V. Kərbəla
11.Zeydan S. Həzrəti Əli - Xilafətin dayağıdır

**I.Xəritələr və atlaslar:**

1."Böyük ipək yolu"
2."Ərəblər VII-IX əsrlərdə"
3."Frank imperiyası"
4."Frank imperiyasının parçalanması"
5."Frank krallığının yaranması"
6."Göytürk imperiyası"
7."Qaraxanilər dövləti"
8."Qərbi Hun imperiyası"
9."Qəznəvilər dövləti"
10."Roma imperiyası və xalqların böyük köçü"
11."Slavyanların üç qolu"
12."Şərqi Avropa IX əsrdə"

**II.Sxemlər, cədvəllər, diaqramlar, şəkillər:**

1."VI əsrdə franklarda dövlət quruluşu" sxemi
2."Atilla" portret
3."Feodal nərdivanı" sxemi
4."Xristian kilsəsinin təşkili" sxemi
5."Mahmud Qəznəvi" portret
6."Katalaun döyüşü" sxemi
7."Suaion döyüşçü" sxemi
8."Vaxt lenti"

# VIII SİNİF

# ORTA ƏSRLƏR TARİXİ

**Həftədə 2(1,5)(2,5) saat, il boyu 68(51)(85) saat[1]**

## I BÖLMƏ

**Feodalizm quruluşunun inkişafı (inkişaf etmiş orta əsrlər) - 35(23)(40) saat.**

**1.Türk dünyası, Qafqaz xalqları, monqollar - 20(15)(25) saat.**

**Böyük Səlcuq imperiyası - 2(2)(4) saat.**

Səlcuq tayfaları. Onların yayıldığı ərazi. Səlcuq dövlətinin yaranması. Dəndənəkan döyüşü. Səlcuqların Cənubi Qafqaza yürüşləri. Bu yürüşlərin Azərbaycan üçün nəticələri. Sultan Alp Arslan və I Məlikşah dövründə Səlcuq dövlətinin siyasi qüdrətinin daha da artması. Görkəmli siyasətçi və dövlət xadimi Nizamülmülk. Malazqırd döyüşü. Anadolunun həmişəlik türk torpağına çevrilməsi. Səlcuq imperiyasının yaranması.

Səlcuqların həyata keçirdiyi sosia-iqtisadi tədbirlər. Kənd təsərrüfatı. Torpaq və vergi siyasəti. Şəhərlər. Sənətkarlıq. Ticarət. Hərb sənətinin inkişafı. Səlcuq axınları nəticəsində oğuz-türk tayfalarının bütün Yaxın və Orta Şərqdə başlıca etnik-siyasi amilə çevrilməsi və bu amilin Yaxın və Orta Şərqin bütün sonrakı tarixində oynadığı mühüm rol. Səlcuq imperiyasının zəifləməsi və parçalanması.

**Dehli sultanlığı - 1(1)(1) saat.**

Türk tayfalarının Hindistana axınının güclənməsi. Müstəqil Dehli sultanlığının yaranması. Dehli sultanlığının idarə edilməsində türk mənşəli sülalələr. Dehli sultanlığında feodalizm quruluşu və onun xüsusiyyətləri. Torpaq mülkiyyət formaları. Dehli sultanlığı Hindistan tarixində ilk feodal monarxiya dövləti kimi. Hindistan tarixində Dehli sultanlığının rolu. Dehli sultanlığının tənəzzülü və onun səbəbləri.

**Monqol dövlətinin yaranması. Monqol işğalları. Monqol imperiyası - 2(2)(3) saat.**

---

*[1]Mötərizədən xaricdə verilmiş saatlar 1994/1995-ci dərs ili üçün təsdiq edilmiş tədris planı ilə, birinci mötərizədə verilmiş saatlar 2002/2003-cü dərs ili üçün təsdiq edilmiş tədris planı ilə, ikinci mötərizədə verilmiş saatlar işə ictimai fənlərin təhsil sahəsi seçildiyi siniflər üçün nəzərə tutulmuşdur.*

Monqolların yaşadıqları ərazi. Məşğuliyyət. Sosial-iqtisadi vəziyyət, ictimai quruluş. Əhalinin sosial tərkibi. İbtidai icmadan feodolizmə keçid. Onon qurultayı. Çingiz xanın xaqan elan edilməsi. Vahid Monqol dövlətinin yaranması. "Böyük Yasa". Monqolların hərbi üstünlüklərinin səbəbləri. Monqol hərbi birləşmələrinin quruluşu. Çinin, Mərkəzi Asiyanın, İranın və Cənubi Qafqazın işğalı. Kalka çayı sahilində döyüş. Çingiz xanın Monqol dövlətinin tərkibinə daxil edilmiş torpaqları uluslara bölməsi və bunun nəticəsi. Ugedenin Böyük xaqan seçilməsi. Monqol yürüşlərinin davam etdirilməsi. Batı xan. Volqa bulqarlarının tabe edilməsi. Rus torpaqlarının işğalı. Monqollar Şərqi Avropada. Polşa, Çexiya və Macarıstana yürüşlər. Monqolların Avropaya yürüşlərinin dayandırılmasının səbəbləri.

Nəhəng Monqol imperiyasının yaradılması. İmperiyanın zəifləməsi və süqutu.

**Qızıl Orda dövləti - 1(1)(2) saat.**

Qızıl Orda dövlətinin yaranması. Onun ərazisi. İdarə olunması. Sosial-iqtisadi münasibətlər. Kənd təsərrüfatı. Sənətkarlıq. Şəhərlər. Ticarət. Vassal sistemi. İslam dininin rəsmi din kimi qəbul edilməsi. Özbək xan. Toxtamış xanın dövründə Qızıl Orda dövlətinin zəifləməsi və ayrı-ayrı dövlətlərə parçalanması. Azərbaycan-Qızıl Orda münasibətləri.

**Hülakülər dövləti - 2(1)(3) saat.**

Monqol yürüşlərinin davam etməsi. Monqolların Cənubi Qafqaza üçüncü yürüşü. Bağdadın işğalı. Abbasilər xilafətinin süqutu. Hülakülər (Elxanilər) dövlətinin yaranması. Dövlətin idarə olunması. İnzibati bölgü. Azərbaycanın Hülakülər dövlətinin inzibati-siyasi mərkəzinə çevrilməsi. İlk elxanların iqtisadi siyasəti. Kağız pul buraxılması və onun nəticələri. Qazan xanın islahatları. Kəndlilərin bir yerdən başqa yerə axınının qarşısının alınması və təsərrüfatı dirçəltmək tədbirləri. Torpaq mülkiyyəti formaları. Karxanalar. Vergi siyasəti. Pul islahatı. Vahid ölçü və çəki sisteminin yaradılması. İlk elxanların dini siyasəti. Qazan xanın dini islahatı. İslam dininin rəsmi dövlət dininə çevrilməsi. Qazan xanın islahatlarının əhəmiyyəti. Hülakülar dövlətinin zəifləməsi və süqutu.

**Qafqaz xalqları - 2(1)(2) saat.**

Qafqaz XI əsrdə. Tao-Klarceti və Abxaz çarlıqları. Feodal münasibətlərinin inkişafı. Şəhərlər - sənət və ticarət mərkəzi kimi. Dağıstan ərazisinin çox hissəsinin səlcuqlar tərəfindən tutulması. Səlcuqlar Gürcüstanda. Gürcüstanda türk etnosunun mövqeyinin güclənməsində səlcuq türklərinin rolu.

Qafqaz XII əsr - XIII əsrin əvvəllərində. III Georgi və Tamaranın dövründə Gürcüstanın birləşdirilməsi və qüvvətlənməsi. Monqolların Qafqaza yürüşləri. Gürcüstanın Monqol imperiyasının tərkibinə qatılması və onun müs-

təqilliyinə son qoyulması. Dağıstanda kiçik feodal dövlətlərinin yaranması. Qafqaz XIV-XV əsrlərdə. Qızıl Ordanın hücumları. Teymurun Qafqaza yürüşü. Qafqaz uğrunda Toxtamışla Teymur arasında mübarizə və onun nəticələri.

**Osmanlı dövləti - 3(2)(4) saat.**

Böyük Səlcuq imperiyasının süqutundan sonra Kiçik Asiyada türk tayfa birliklərinin yaranması. Osmanlı türkləri. Onların yaşadıqları ərazi. Osmanlı dövlətinin yaradılması. Bizansın hərbi yardım üçün osmanlılara müraciəti. Bizansın fəthi Osmanlı tarixində böyük dönüş nöqtəsidir. Osmanlı hərb sənətinin üstünlükləri. Osmanlı türklərinin Balkanlarda işğalları. Bolqarıstanın Osmanlı dövlətinin tərkibinə qatılması. Kosovo döyüşü və onun əhəmiyyəti. Niqbolu döyüşüü. Sultan I Bəyazid. Ankara döyüşü və onun türk dünyası üçün mənfi nəticələri. Fateh II Məhəmməd. Türklərin Konstantinopolu tutması. Bizans imperiyasının süqutu. Osmanlı fəthlərinin Balkan xalqları üçün nəticələri. Osmanlı imperiyasının yaranması. Onun idarə olunması. Osmanlı ordusunun quruluşu. Yeniçərilər. Vergi və mükəlləfiyyətlər. Başqa dinlərə münasibət.

**Teymurilər dövləti - 2(1)(2) saat.**

Teymurun Məvərünnəhri müstəqil idarə etməsi. Teymurilər dövlətinin yaranması. Teymurun hərbi yürüşləri. Terek çayı sahilində döyüş. Toxtamışın məğlub edilməsi. Teymurun Hindistana yürüşü. Dehlinin tutulması. Teymurun Cənubu Qafqaz və Azərbaycan uğrunda cəlairilər və qaraqoyunlularla mübarizəsi. Bağdadın işğalı. Teymurilər imperiyasının yaradılması. Çinə yürüşün baş tutmaması. Teymurilər imperiyasının idarə edilməsi. Sənətkarlıq. Şəhərlər. Ticarət. İslam dinin möhkəmləndirilməsi. Əmir Teymurun şəxsiyyəti.

Teymurilər imperiyasının zəifləməsi. Şeybanilərin Teymuriləri sıxışdırması. İmperiyanın parçalanması və süqutu.

**Qazan xanlığı - 1(1)(1) saat.**

Qazan xanlığının yaranması. Ulu Məhəmməd. Xanlığın ərazisi və əhalisi. Təsərrüfat həyatı. Şəhərlər. Ticarət. Vergilər. Dövlət quruluşu. Moskva knyazlığı ilə münasibətlər. Ruslar tərəfindən Səfa Gərayın hakimiyyətdən kənarlaşdırılması. Şah Əlinin hakimiyyətə gətirilməsi. Qazan xanlığına Moskavanın təsirinin artması.

**Həştərxan xanlığı - 1(1)(1) saat.**

Həştərxan xanlığının yaranması. Ərazisi. Əhalinin sosial tərkibi. Ev quldarlığı. Ordu. Qonşu dövlətlərə münasibətlər.

**Krım xanlığı - 1(1)(1) saat.**

Krım xanlığının yaranması. Hacı Gəray xan. Ərazisi. Əhalisi. Xanlıq Məngli Gərayın hakimiyyəti dövründə. Krimin Osmanlı dövlətinin vassallı-

ğını qəbul etməsi. Krım xanlığının güclənməsi. Onun Şərqi və Cənub-Şərqi Avropada rolu. Təsərrüfat və ictimai quruluşu. Boy aristokratiyası.

**Sibir xanlığı - 1(1)(1) saat.**

Sibir xanlığı müstəqil bir dövlət kimi. Ərazisi. Əhalisi. Təsərrüfat həyatı. Şəhərləri. Dövlət quruluşu. İslam dininin yayılması və rəsmi dövlət dininə çevrilməsi.

**2.Şərqi Avropa xalqları XI-XV əsrlərdə. - 3(3)(3) saat.**

**Rus torpaqlarında feodal dağınıqlığı - 1(1)(1) saat.**

Feodal dağınıqlığının ilkin şərtləri. Kiyev dövləti ərazisində müstəqil feodal dövlətlərinin yaranması. Feodallıqlara parçalanmanın nəticələri. Monqol yürüşləri və onun rus torpaqları üçün nəticələri. Rus torpaqlarını birləşdirmək cəhdləri və onların salnamələrdə əksi.

**Baltikyanı xalqlar XII əsrdə - XIII əsrin əvvəllərində - 1(1)(1) saat.**

İctimai quruluş. Əhalinin məşğuliyyəti. Litva knyazlığının yaranması. Alman cəngavərlərinin və isveçlərin Şərqə hücumu. Baltikyanı və rus xalqlarının onlara qarşı birgə mübarizəsi, Neva çayı sahilində və Çud gölü üzərində döyüşlər. İsveç və alman feodallarının darmadağın edilməsi.

**Rus torpaqlarının birləşdiririlməsinin başlanması - 1(1)(1) saat.**

Rus torpaqlarının birləşdirilməsi uğrunda mübarizə. Birləşdirilmə üçün ilkin şəraitin yaranması. Moskva knyazlığının qüvvətlənməsi. Kulikovo döyüşü. "Uqra görüşü". Rus torpaqlarının Qızıl Ordanın vassal asılılığından çıxması. Rus torpaqlarının genişləndirilməsi. Şelon döyüşü. Novqorod feodal respublikasının müstəqilliyinin ləğvi. Mərkəzləşdirilmiş rus dövlətinin yaradılması və idarə olunması. Təhkimçilik hüququnun rəsmiləşdirilməsinə başlanması.

**3.Qərbi Avropa ölkələri XI-XV əsrlərdə - 11(5)(11) saat.**

**Şəhərlər və ticarət. Qərbi Avropada şəhərlərin artması - 2(1)(2) saat.**

Əmək alətlərinin təkmilləşdirilməsi, kənd təsərrüfatının və kənddə sənətin inkişafı. Sənətkarlığın kənd təsərrüfatından ayrılması. Orta əsr şəhərlərinin meydana gəlməsi. Orta əsr şəhərlərində sənətkarlıq. Sənətkar emalatxanası. Şəhər sənətkarlığının xüsusiyyəti. Sənətkar birlikləri - sexlər. Sex nizamnaməsi. Şəhər və senyor. Şəhərlilərin senyorlara qarşı mübarizəsi. Şəhər həyatı. Əmtəə istehsalı. Ticarət əlaqələrinin genişlənməsi. Şərqlə ticarət. Tacir ittifaqları. Gildiyalar. Hanza. Yarmarkalar və banklar.

**Xristian kilsəsi XI-XIII əsrlərdə. Xaç yürüşləri - 1(1)(1) saat.**

Kilsə ən böyük feodal torpaq sahibi kimi. Onun sərvətinin mənbələri. Xristian kilsəsinin bölünməsi. Papaların siyasi hakimiyyət uğrunda mübarizəsi. Xristian kilsəsinin qüdrətinin artması və onun səbəbləri. Papa III İnnokenti.

Bidətçilər və onların kilsə tərəfindən təqib olunması. Kilsə məhkəməsi. Xaç yürüşləri (birinci və dördüncü), onların səbəbləri və xarakteri. Səlibçi dövlətlər. Qüds krallığı. Xaç yürüşlərinə qarşı Səlcuq hökmdarlarının mübarizəsi. Xaç yürüşlərinin nəticələri.

**Fransanın birləşdirilməsi - 3(1)(3) saat.**

Birləşdirilmənin ilkin şərtləri. Birləşdirmə uğrunda mübarizə. Kral hakimiyyəti bu mübarizədə kimlərə istinad edirdi? Silklər. Baş məclis. IV Gözəl Filippin Roma papasına qarşı mübarizəsi. Kral hakimiyyətinin möhkəmləndirilməsi. Silki monarxiya.

Yüzillik müharibə. Səbələri və başlanması üçün bəhanə. Fransa feodallarının məğlubiyyəti. Xalqın vəziyyəti. "Jaklar" üsyanı. İngilislərin Fransada işğalları. Xalqın mübarizəyə qalxması. Xalq qəhrəmanı Janna DArk. Orleanın mühasirədən azad edilməsi. Müharibənin başa çatması. Yüzillik müharibənin yekunları.

Fransanın birləşdirilməsi uğrunda mübarizənin davam etməsi. XI Lüdovik və Burqundiya hersoqu Cürətli Karl. Ağqoyunlu-Burqundiya münasibətləri. Fransanın siyasi cəhətdən birləşdirilməsinin başa çatdırılması. Mərkəzləşdirilmiş dövlətin yaranması və onun nəticələri.

**İngiltərə XI-XV əsrlərdə - 3(1)(3) saat.**

Normand işğalı və onun nəticələri. Kralın iri feodallara qarşı mübarizəsi. XIII əsrdə İngiltərədə mərkəzləşdirilmiş dövlətin yaranması. Parlament və onun Fransadakı Baş Məclisdən fərqi. Uot Taylerin başçılığı ilə kəndli üsyanı, onun səbəbləri, gedişi və nəticələri. "Al qızılgül" və "Ağ qızılgül" müharibələri. Tüdorların hakimiyyətə gəlməsi. VII Henrix Tüdor.

**Çexiyada qusçular hərəkatı - 2(1)(2) saat.**

Çexiya Müqəddəs Roma imperiyasının tərkibində ən qüvvətli dövlətdir. Çexiyada təsərrüfatın yüksəlişi. Əhalinin vəziyyəti. Katolik kilsəsinin zorakılığı. Çexiyada alman ağalığı. Yan Qus. Konstans kilsə mühakiməsi. Qusçular hərəkatı. Yan Jiyka. Qusçu müharibələri. Taborçular və mötədillər. Qusçular hərəkatının əhəmiyyəti.

**Təkrar ümumiləşdirici dərs: İnkişaf etmiş orta əsrlər cəmiyyətin sosial-iqtisadi və siyasi həyatında əsas dəyişikliklər - 1(0)(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kuraslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif); Bərdə faciəsi. Nizami və tariximiz. Memar Əcəmi. Atabəy Şəmsəddin Eldəniz. Təbriz Rəşidiyyə - qədim Azərbaycan universiteti. Azərbaycan tarixi (VIII sinif): Azərbaycan Böyük Səlcuq imperiyasının tərkibində. Azərbay-

can xalqının formalaşması prosesinin başa çatması. Monqolların Azərbaycana yürüşləri. Azərbaycan torpaqları monqol əsarətində. Azərbaycan Elxanilər dövlətinin tərkibində. Şirvanşahlar dövlətinin Gürcüstanla münasibətləri. Didqori döyüşü. Tiflis müsəlman əmirliyinin ləğvi. Osmanlı-Ağqoyunlu müharibələri. Teymurun Azərbaycana yürüşləri. Azərbaycan Teymurilər dövlətinin tərkibində. Ümumi tarix (VII sinif): Feodal istehsalat münasibətlərinin meydana gəlməsi. Feodalizm quruluşu. Erkən feodal dövlətləri. Feodal dlağınıqlığı. Oğuz dövləti. Xarəzmşahlar dövləti. Bulqar dövləti. Hindistanda feodal dağınıqlığı.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Səlcuq axınları. Oğuz-türk tayfalarının Yaxın və Orta Şərqdə başlıca etnik-siyasi amilə çevrilməsi. Türk mənşəli sülalələr. Böyük Yasa. Qurultay. Monqol ulusları. Tarxan. Noyon. Bahadur. Unaqan-boqol. Baskak. Tümən. Elxan. Tamğa. Yarlıq. Şamançılıq. Divan sistemi. Çao. Bayrat torpaqlar. Yeniçəri. Oğuz boyları. Yasaq. Qlexlər. Üçtarlalı əkin. Sənətin kənd təsərrüfatından ayrılması. Şəhərlə kənd arasında əmək bölgüsü. Sənətkar emalatxanası. Usta şagirdi. Xırda sənaye istehsalı. Sənətkar birlikləri (sexlər). Sex qaydaları. Qardaşlıqlar. Şəhər özünüidarəsi. Ratuşa. Mer.Sobor. Şəhər yoxsulları. Kommuna. Gildiya. "Hanza ittifaqı". Yarmarka. Sərraf. Sələmçi. Bank. Bankir. Konstantinopol patriarxı. Pravoslav kilsəsi. Katolik kilsəsi. Roma papası. Papa vilayəti. "Kanossaya getmək". İndulgensiya. Xristian əxlaqı. Bidətçi. Kilsə məhkəməsi - inkivizisiya. Xaç yürüşləri. Səlibçilər. Pul töycüsü. Mərkəzləşdirilmiş feodal dövləti. Silklər. Baş məclis. Silki monarxiya. Jaklar, Reyms yürüşü. Artilleriya. Parlament. Rekongista. Qusçu müharibələri. Taborçular. Mötədillər. Orden.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqələr bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Səlcuq dövlətinin yarandığı tarixi şəraiti xarakterizə etmək. Səlcuq dövlətinin yaranmasında və qüdrətli imperiyaya çevrilməsində I Toğrulun, Alp Arslanın və I Məlikşahın rolunu müəyyənləşdirmək. Böyük Səlcuq imperiyayasının vahid iqtisadi və siypasi mərkəz ətrafında sıx birləşmiş mərkəzləşdirilmiş dövlətə çevrilməsinin səbəblərini açıqlamaq. Səlcuq imperiyasının vahid iqtisadi və siyasi mərkəz ətrafında sıx birləşmiş mərkəzləşdirilmiş dövlətə sevrilməsinin səbəblərini açıqlamaq. Səlcuq imperiyasının ümumtürk tarixində rolunu müəyyənləşdirmək, səlcuq axınları nəticəsində oğuz-türk tayfalarının Xaxın və Orta Şərqdə başlıca etnik-siyasi amilə çevrildiyini faktlarla əsaslandırmaq. Dehli sultanlığının yaranması və inkişafında türk tayfalarının oynadığı rolu müəyyənləşdirmək. Dehli sultanlığının Hindistan tarixində oynadığı rolu açıqlamaq. Dehli sultanlığının Hindistan tarixində ilk feo-

dal monarxiyası olduğunu faktlarla əsaslandırmaq. Monqollarda feodalizmə keçid prosesinin əsas xüsusiyyətlərini göstərmək, monqolların hərbi üstünlüklərinin səbəblərini müəyyənləşdirmək. Monqolların sosial-iqtisadi və siyasi quruluşu ilə işğalları arasındakı əlaqəni aydınlaşdırmaq. Monqolların Mərkəzi və Şərqi Avropa ölkələrini işğal edə bilməməsinin səbəblərini izah etmək. Monqol işğallarının Rus torpaqlarının gələcək sosial-iqtisadi və siyasi quruluşu ilə işğalları arasındakı əlaqəni aydınlaşdırmaq. Monqolların Mərkəzi və Şərqni Avropa ölkələrini işğal edə bilməməsinin səbəblərini izah etmək. Monqol işğallarının Rus torpaqlarının gələcək sosial-iqtisadi və siyasi inkişafında müsbət rol oynadığını faktlarla sübut etmək.

Monqol işğallarının Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrində əkinçiliyin inkişafına mənfi təsirini açıqlamaq. Qızıl Orda dövlətinin yarandığı tarixi-siyasi şəraiti təhlil etmək əsasında onun bir türk dövləti kimi əhəmiyyətini göstərmək. İlk elxanların Hülakülər dövlətində yeritdiyi dini siyasətlə Qazan xanın dini siyasəti arasındakı fərqləri müəyyənləşdirmək. Onların mahiyyətini açıqlamaq. Osmanlı dlövlətinin meydana gəlməsinin, onun Kiçik Asiyada və Balkanlarda yeni torpaqlar ələ keçirilməsinin ümumtürk dünyası üçün əhəmiyyətini müəyyənləşdirmək. Şərq ölkələrində xristianların yeni xaç yürüşlərinin qarşısının alınmasında, xüsusilə Cənubi Qafqazda türk-müsəlman amilinin qorunub sa-xlanmasında Osmanlı fəthlərinin oynadığı rolu açıqlamaq. Xəritə üzərində Əmir Teymurun yürüşlərinin istiqamətlərini müəyyənləşdirmək, qüdrətli türk cahangirləri arasındakı toqquşmaların türk dünyasına vurduğu zərbəni ümumtürk faciəsi kimi qiymətləndirmək və öz fikrini faktlarla sübut etmək. Teymurilər dövlətinin zəifləməsi və süqut etməsi səbəblərini aydınlaşdırmaq. Müxtəlif mənbələrdən alınmış tarixi faktlar və biliklər əsasında Çingiz xan, Əmir Teymur, İldırım Bəyazid, Fateh II Məhəmməd, Babur şah və başqa şəxsiyyətlərin haqqında məlumatlar hazırlamaq və onlara xarakteristika vermək. XI-XV əsrlərdə mövcud olmuş türk dövlətlərinin yarandığı tarixi şəraiti, iqtisadi, siyasi münasibətləri təhlil etmək əsasında onlar arasında ümumi və fərqli cəhətləri aşkara çıxarmaq. Qızıl Orda dövlətinin zəifləməsinin, Moskva knyazlığının güclənməsinin, Volqaboyu, Sibir və Krım ərazilərində mövcud olmuş türk dövlətloərinə qarşı rusların təcavüzü təhlükəsinin yaranmasının səşbəb-nəticə əlaqələrini müəyyənləşdirmək.

Şəhərlərin meydana gəlməsinin əmək alətlərinin və əmək şəraitinin, əmək bölgüsünün inkişafının nəticəsi olduğunu sübut etmək. XI-XV əsrlərdə Avropada baş vermiş ən mühüm dəyişiklikləri şəhərlərin yaranması və artması ilə əlaqələndirmək. Əmtəə təsərrüfatının inkişafı, şəhər sənətkarlığının başlıca xüsusiyyətləri, sexlərin yaranması səbəbləri, şəhərlərin senyorlara qarşı mübarizəsi arasındakı səbəb-nəticə əlaqələrini aydınlaşdır-

maq. XI-XIII əsrlərdə Avropada kilsənin qüdrətli olması ilə feodal dağınıqlığı araasında üzvi əlaqə olduğunu açıqlamaq. Xristian əxlaqının mahiyyətini izah etmək. Xaç yürüşlərinin məqsəd və mahiyyəti, onun Avropa və Şərq blkələri üçün nəticələrini müəyyənləşdirmək. Qərbi Avropada mərkəzləşdirilmiş dövlətlərin meydana gəlməsi səbəblərini aydınlaşdırmaq. Fransadakı mərkəzləşdirilmiş dövlətlərin ilk mərhələsində silki monarxiyanın yaranmasının səbəblərini izah etmək. Baş Məclis ilə İngiltərədəki parlamentin fəaliyyətini müqayisə etmək, parlamentin Baş Məclisə nisbətən dövlət işlərinə müdaxilə etməsinin səbəblərini müəyyənləşdirmək. XI-XV əsrlərdə Avropada mərkəzləşdirilmiş dövlətlərin yaranmasının əhəmiyyətini aydınlaşdırmaq. Orta əsrlərdə baş vermişq kəndli üsyanlarının səbəblərini, xarakterini və nəticələrini aydınlaşdırmaqla onları müqayisə etmək, ümumi və fərqli cəhətləri əks etdirən sinxron cədvəl tətbiq etmək.

Feodal dağınıqlığı, silki monarxiya və mütləq monarxiya arasındakı ümumi və fərqli cəhətlərini aydınlaşdırmaq. Feodal sülalələri arasında baş vermiş ara müharibələri ilə vətəndaş müharibəsi arasında oxşar və fərqli cəhətləri aşkara çıxarmaq. Qusçular hərəkatının mahiyyəti və xristian kilsəsinin qüdrətinin sarsılmasında onun oynadığı rolu açıqlamaq. Qusçu müharibələrini kəndli hərəkatları ilə müqayisə etmək, onların ümumi və fərqli cəhətlərini aydınlaşdırmaq. Qusçu müharibələri ilə Xürrəmilər hərəkatının oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək.

## II BÖLMƏ

## SON ORTA ƏSRLƏR

**XVI əsr - XVII əsrin birinci yarısı - 21(17)(36) saat.**

**Qərbi Avropa və Amerika ölkələri XVI-XVII əsrin birinci yarısında - 10(7)(17) saat.**

**Texniki kəşflər və ixtiralar - 1(1)(1) saat.**

Su mühərriklərinin təkmilləşdirilməsi. Metallurgiyanın, hərbi texnikanın və gəmiqayırmanın inkişafı. Kitab çapının ixtirası və onun əhəmiyyəti. Daş kömür istehsalı.

**Böyük coğrafi kəşflər. Müstəmləkə işğalları -1(1)(2) saat.**

Böyük coğrafı kəşflərin səbəbləri. Afrikanın qərb sahili boyunca gəmi səfərləri: Dias, Vasko da Qama. Hindistana gedən dəniz yolunun kəşf edilməsi. Amerika xalqları. Mayyalılar, asteklər və inklər. Əhalinin məşğuliyyəti. Mayyalılar necə yaşayırdılar? Mayyada şəhər-dövlətlərin yaranması. Asteklərdə döv-

ləti hökmdarlar idarə edir. Asteklərdə hərb sənəti. İnklərdə dövlətin yaranması. İctimai münasibətlər. Torpaq sahibliyi formaları. Yollar və tunellər. Poçt rabitəsi. Kolumbun Amerikanı kəşf etməsi. Amerikanın kəşfində Azərbaycan elminin nailiyyətlərindən istifadə edilməsi. Magellanın dünya səyahəti və onun əhəmiyyəti. Avropalıların Asiya, Afrika və Amerikada işğalları. Portuqaliyalıların Asiyada ağalığı. Meksikanın və Perunun işğalı. Qul alveri.

Böyük coğrafi kəşflərin ümumidünya miqyasında ictimai-iqtisadi və siyasi nəticələri. Dünya ticarətinin yaranması.

**İngiltərədə kapitalist münasibətlərinin yaranması -2(1) 3 saat.**

Qoyunçuluq və mahud istehsalı. Manufakturanın meydana gəlməsi. Çəpərləmələr. Kəndlilərin torpaqdan məhrum edilməsi. Yeni zadəganlar. İşçi qanunları. Robert Ketin başçılığı ilə üsyan.

Dəniz ticarəti. Müstəmləkəçilik siyasəti. Dənizdə ağalıq uğrunda İspaniya ilə mübarizə. "Məğlubedilməz Armada"nın məhvi. Dəniz hökmranlığının İngiltərənin əlinə keçməsi. İngiltərənin ilk müstəmləkələri.

**Fransada mərkəzi hakimiyyətin güclənməsi - 1(1)(4) saat.**

XVI-XVII əsrin birinci yarısında sənayenin və ticarətin inkişafı. Buryaziyanın sərvətinin artması. Buryaziya və kral. Kral və zadəganlar.

Fransada reformasiya. Quqenotlar. Dini müharibələrin başlanması. Varfolomey gecəsi. Nant edikti. Dini düşmənçiliyin sonu. Rişelyönün fəaliyyəti və onun mərkəzi hakimiyyəti möhkəmləndirməsi.

**Almaniyada reformasiya və kəndli müharibəsi - 2(1) 3 saat.**

Reformasiya və kəndli müharibəsinin səbəbləri. Manufaktura istehsalı və ticarət. Təhkimçilik asılılığı. Ölkə dağınıqlığının sənaye və ticarətin inkişafına mane olması. Feodal zülmünün güclənməsi. Almaniyada xalqın katolik kilsəsindən narazılığı.

Reformasiyanın başlanması. Lüterin müharibəsi. Tomas Münser.

Kəndli müharibəsinin başlanması. Üsyançıların tələbləri. Kəndli müharibəsinin məğlubiyyəti və nəticələri. Reformasiyanın yayılması. Kalvinist kilsəsi. "Cenevrə papası" və onun təlimi. Kalvinin elmə qarşı mübarizəsi. Yezuitlər. İqnati Loyola. Roma papasının reformasiyaya qarşı mübarizəsi. II Filipp reformasiya əleyhinədir.

**Niderland burjua inqilabı - 2(1)2 saat.**

Kapitalist münasibətlərinin inkişafı. İspaniya əsarətinin Niderlandda kapitalist münasibətlərinin inkişafına əngəl olması. Əhalinin narazılığının artması. İnqilabın başlanması. Hersoq Alba. Partizan müharibəsi. Gözlər. Hollandiya dövləti dünyada ilk burjua respublikasıdır. Hollandiya-İspaniya müharibəsi. Burjua inqilabının nəticələri.

**5.Şərqi Avropa xalqları XVI əsr - XVII əsrin birinci yarısında - 3(3)(3) saat.**

**Mərkəzləşdirilmiş Rus dövlətinin yaradılması - 2(2)(2) saat.**

Moskva knyazlığının daha da qüvvətlənməsi. Ətraf ərazilərin Moskva knyazlığında birləşdirilməsinin başa çatması. Pskov feodal respublikasının süqutu. IV İvan. Zadəganlar. 50-ci illərin islahatları. Opriçnina, onun nəticələri. Təhkimçiliyin güclənməsi.

Rusiyanın Kazan və Həştərxan xanlıqlarını işğal etməsi. Rus dövlətinin xarici siyasətində təcavüzkarlıq meylinin güclənməsi. Baltiksahili torpaqlar və onlara yiyələnmək uğrunda mübarizə. Livoniya müharibəsi və onun nəticələri. Yermakın Qərbi Sibirə yürüüşü. Qərbi Sibirin Rusiya tərəfindən işğal olunması.

İ.Bolotnikovun başçılığı altında kəndli müharibəsi. Rusiyaya polyak və isveç müdaxiləsi. Xalq münavimət hərəkatı. Rusiyada Romanovlar sülaləsinin hakimiyyətə gəlməsi. Stolbovo sülhü. Deulino barışığı. 1649-cu il Qanunnaməəsi. Təhkimçilik hüququnun rəsmiləşdirilməsi prosesinin başa çatdırılması.

**Reç Pospolita - 1(1)(1) saat.**

Reç Pospolitanın yaranması, ərazisi və əhalisi. Dövlətin idarə olunması. Ukrayna və Belorus torpaqlarının bir hissəsi Reç Pospolitanın hakimiyyəti altında. Reç Pospolitanın müharibələri və onun zəifləməsi.

**Türk dünyası. Hindistan, Çin və Qafqaz xalqları - 7(6)(7) saat.**

**Osmanlı imperiyası XVI əsr- XVII əsrin I yarısında - 2(2)(3)saat.**

XVI əsrin ortalarında Osmanlı imperiyasının ərazisi. Osmanlıların yeni fəthləri. Qərbdən-Şərqə gedən böyük ticarət yolunun osmanlıların əlinə keçməsi. 1526-cı ildə çex-macar qoşunları üzərində qələbə. Süleyman Qanuni. Vyananın mühasirəsinin uğursuzluğu. Anadoluda geniş miqyaslı üsyanlar. 1511-ci il qızılbaş üsyanı. Cəlalilər hərəkatı. Dəli Həsənin üsyanı. Osmanlı-Səfəvi münasibətlərinin türk dünyası üçün nəticələri.

**Böyük Moğol imperiyası - 2(2)(2) saat.**

Hindistanda feodal dağınıqlığı. Zəhmətkeşlərin vəziyyəti. Kəndli qiyamları. Baburun Əfqanıstanvı tutması. Papirat döyüşü. Şimali Hindistanın işğalı. Dehli Sultanlığının süqutu. Böyük Moğol dövlətinin əsasının qoyulması. Böyük Moğol imperiyası. XVII əsrin birinci yarısında. Sikxlər hərəkatı.

Moğol-Səfəvi əlaqələrinin türk dünyası üçün əhəmiyyəti. Avropalılar Hindistanda.

**Çin XVI-XVII əsrin I yarısında - 2(1)(2) saat.**

Mancurların Çinə basqınları. Kəndli üsyanı. Min sülaləsinin devrilməsi. Hakimiyyətin Sin-Mancur sülaləsinin əlinə keçməsi. Mancur işğallarının nəticələri. Avropa müstəmləkəçilərinin Çinə soxulmaq cəhdləri.

**Qafqaz xalqları XVI-XVII əsrin birinci yarısında - 1(1)(2) saat.**

Türkiyə və Səfəvi dövlətlərinin Qafqaz uğrunda mübarizəsi. G.Saakad-

zenin başçılığı altında üsyan. Şimali Qafqazın türkdilli xalqlarının ictimai-iqtisadi vəziyyəti. Qumuq xanlığı. Bir çox çərkəz və kabardin knyazlıqlarının Rus dövlətinin vassalına çevrilməsi. Qafqaz xalqlarının təsərrüfat həyatı: kənd təsərrüfatı, sənətkarlıq, ticarət, şəhərlər.

**Təkrar ümumiləşdirici dərs: Mərkəzləşdirilmiş dövlətlər - 1(1)(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası, fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Uzun Həsən. Qüdrətli Azərbaycan dövləti. Azərbaycan tarixi (VII sinif): Azərbaycan Ərəb xilafətinin tərkibində. Xürrəmilər hərəkatı. (VIII sinif): Səfəvi-Osmanlı müharibələri. Cəlalilər hərəkatı. Koroğlu. Ümumi tarix (VII sinif): Çində və Hindistanda feodal münasibətlərinin meydana gəlməsi. Qərbi Avropada feodal dağınıqlığı. (VIII sinif): Dehli sultanlığı. Osmanlı dövlətinin meydana gəlməsi. Qərbi Avropada şəhərlərin yaranması, təsərrüfatın inkişafı. Qafqaz xalqları XI-XV əsrlərdə. Rus torpaqlarının genişləndirilməsi.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Kaputilyasiya. Cəlalilər. Zəmindarlar. Gəlmələr. Mancur əsarəti. Səkkiz bayraqlı qoşun. Aşağıdan və yuxarıdan fırladılan çarxlar. Domna peçi. Muşketlər. Karavella. Üsturlab. Kitab çapı. Böyük coğrafi kəşflər. Qul alveri. Müstəmləkələr. İlk dünya səyahəti. Dəniz ticarəti. Dünya ticarəti. Dünya ticarət mərkəzi. Manufaktura. Burjuaziya. Muzdlu fəhlə. Çəpərləmələr. İşçi qüvvəsi. Kapital. Yeni zadəganlar. Qanlı qanunlar. Ticarət şirkətləri. Daxili bazar. Dəniz hökmranlığı. İnqilab. Reformasiya. Siyasi dağınıqlıq. Vorms qurultayı. Məramnamə. Tezis. Protestant kilsəsi. Lüteran kilsəsi. Anqlikan kilsəsi. Kalvin kilsəsi. Cenevrə papası. Yezuitlər ordeni. Autodafe. Quqenotlar. Varfolomey gecəsi. Dini müharibələr. Muşketyor. Qvardiya. "Qanlı Şura". "Krokanlar üsyanı". Meşə gözləri. Dəniz gözləri. Burjua inqilabı. Burjua respublikası. İltizam hüququ. Zadəgan diktaturası. Opriçnina. Feodal respublikası. Mütləqiyyət. Mütləq monarxiya. Kardinal. "Torpağı dənizin əlindən almaq". Yeni Dünya. Patent. Birja. Makler. Zadəgan feodallar. Fermerlər.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək.

Texnikanın inkişafındakı irəliləyişlərə sənətkar emalatxanasından manufakturaya keçid arasındakı əlaqələri aydınlaşdırmaq. İlk kapitalist müəssisəsi olan manufaktura ilə sənətkar emalatxanasını müqayisə etmək. Qər-

bi Avropa ölkələrində feodalizm quruluşunun dağılmasını və yeni kapitalist münasibətlərinin meydana gəlməsini zəruri edən səbəbləri aydınlaşdırmaq. Avropanın bir sıra ölkələrində kapitalist münasibətlərinin daha tez meydana gələrək sürətlə inkişaf etməsinin səbəblərini aydınlaşdırmaq. Muzdlu fəhlə ilə təhkimli kəndlinin, burjuaziya ilzə feodalın, feodal malikanəsi ilə kapitalist sənayesinin fərqli cəhətlərini göstərmək. Böyük coğrafi kəşflərin və müstəmləkə işğallarının səbəblərini, mahiyyətini açmaq, nəticələr çıxarmaq. Msütəmləkə işğallarının başlanmasının Asiya, Afrika və Amerika xalqları üçün saysız fəlakətlər gətirdiyinə, onların qədim mədəniyyətlərinin amansızcasına məhv edilməsinə, təbii sərvətlərinin talan edilməsinə dair faktlar gətirmək. Müstəmləkə işğalları ilə kapitalist istehsalının inkişafı arasındakı əlaqələri açmaq. Dünya ticarətinin yaranmasının əhəmiyyətini açıqlamaq. Öyrənilən Avropa ölkələrində kapitalist münasibətlərinin inkişafına mane olan səbəbləri göstərmək.

Avropanın bir sıra ölkələrində mərkəzləşmiş dövlətlərin mütləqiyyətə çevrilməsi prosesini izah etmək. Kapitalist münasibətləri ilə feodal qaydaları arasındakı ziddiyyətlərin əhalinin müxtəlif təbəqələri arasındakı münasibətlərə təsirini aydınlaşdırmaq, onların nəticələrini ümumiləşdirmək. Reformasiya hərəkatında burjuaziya və xalqın katolik kilsəsinə qarşı mübarizəsinin fərqli cəhətlərini aydınlaşdırmaq, müxtəlif məqsədlərin güdülməsinin səbəblərini müəyyənələşdirmək. Almaniyada baş vermiş kəndli müharibələrinin feodalizm quruluşunu ləğv etmək üçün göstərilən ilk cəhd kimi qiymətləndirmək və öz fikrini faktlarla sübut etmək. Reformasiya hərəkatı ilə Qusçu müharibələri arasındakı əlaqələri açmaq. Almaniyadakı kəndli müharibəsinin səbəblərini, xarakterini və hərəkətverici qüvvələrini müəyyənləşdirmək əsasında onu orta əsrlərdə baş vermiş digər kəndli üsyanları və çıxışları ilə müqayisə etmək, oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək. Tarixdəz ilk burjua inqilabının səbəblərini aydınlaşdırmaq. Burjua inqilabı ilə kəndli müharibəsinin fərqli cəhətlərini müəyyənləşdirmək. İlk burjua inqilabının əhəmiyyətinə dair nəticəşlər çıxarmaq.

Xaricdə Rus dövlətinin xarici siyasətində təcavüzkarlıq meyllərinin gücləndiyini faktlar əsasında sübut etmək, onun müstəqil dövlətlərin və xalqların həyatına fəal müdaxiləsinə. ərazilərinin işğal edilməsinə yönəldilmiş hərəkətlərini xəritə əsasında təhlil etmək.

Osmanlı fəthlərinin nəticələrini müəyyənləşdirmək, xəritədə göstərmək. Hindistanda feodal dağınıqlığı ilə Böyük Moğol imperiyasının yaranması arasındakı əlaqəni izah etmək. Faktlar əsasında Hindistanın şimalında Böyük Moğollar imperiyasının yaradılmasının əhəmiyyətini açıqlamaq. Moğol-Səfəvi münasibətlərinin türk dünyası üçün əhəmiyyətini göstərmək. Mancur işğalının mahiyyətini aydınlaşdırmaq, onun Çinin siyasi, iqtisadi və mə-

nəvi geriliyində oynadığı rolu müəyyənləşdirmək. Qafqaz uğrunda Türkiyə-Səfəvi müharibələrinin xarakterini müəyyənləşdirmək, həmin müharibələrin qızışdırılmasında Avropa dövlətinin maraqlarını izah etmək.

## III BÖLMƏ

**XI-XVII əsrin birinci yarısında mədəniyyət - 11(11)(15) saat.**

**7.Qafqaz, türk və Şərq xalqlarının mədəniyyəti - 6(6)(9) saat.**

**Qafqaz xalqlarının mədəniyyəti - 1(1)(2) saat.**

Maarif. Celati monastrı və onun yanında ali məktəb, akademiya yaradılması. Elmi biliklərin inkişafı. Tarixi xronikalar.

Bədii ədəbiyyat. N.Gəncəvinin əsərlərində Qafqazın təsviri. Ş.Rustaveli. "Pələng dərisi geymiş pəhləvan" əsəri.

XIII-XIV əsrlərdə gürcü mədəniyyətinin tənəzzülü. XVI-XVII əsrin əvvəllərində gürcü mədəniyyətinin canlanmağa başlaması. Dağıstanda ərəb qrafikası əsasında əlifbanın (əcəm əlifbası) formalaşması. Dağıstan dillərində ilk əsərlərin meydana gəlməsi. Qafqaz xalqlarının mədəni inkişafında Azərbaycan intibahının rolu.

**Türk xalqlarının mədəniyyəti - 2(2)(3) saat.**

Maarif. Məktəb və mədrəsələr. Əlişir Nəvai. Bağdadda "Nizamiyyə" universiteti. Elm. Astronomiya. Riyaziyyat. Tibb. Uluqbəy. "Cəlali təqvimi"nin tərtibi.

Ədəbiyyat. Mahmud Kaşğari. "Divani-lüğət it türk" əsəri. Türkdilli xalqların yaşadıqları ərazinin ilk xəritəsi. Cəmaləddin Rumi. Yunis Əmrə. Əlişir Nəvai. Baburşah. "Baburnamə" əsəri. Aşıq yaradıcılığı, dastanlar, lətifələr. Xoca Nəsirəddin. Memarlıq. Səmərqənd, Buxara, Xivə şəhərlərinin dünya memarlıq mərkəzinə çevrilməsi. Türk memarı Sinan Xoca.

**İran mədəniyyəti - 1(1)(2) saat.**

İranda lüğətçiliyin inkişafı. Hinduşah Naxçivani. Tarix elmi. Fəzlullah Rəşidəddin. Həmdullah Qəzvini. "İsfahan intibahı".

Ədəbiyyat. İran poeziyası. "Qabusnamə". Sədi, Hafiz Şirazi, Əbdürrəhman Cami. Memarlıq. Məscid və minarələr, karvansaralar. Olcaytu Xudabəndə məqbərəsi. Rəssamlıq. Miniatür sənəti. Herat aə İsfahan miniatür məktəbləri.

**Hindistan və Çin mədəniyyəti - 2(2)(2) saat.**

Feodal dağınıqlığının Hindistanda mədəniyyətin inkişafına mənfi təsiri.

Hind-müsəlman mədəniyyətinin təşəkkülü. Elmi biliklər. Dehli və Canpur şəhərlərində rəsədxanalar. Fars dilində tarixi xronikalar. Ədəbiyyat. Əmir Xosrov Dəhləvi. "Kəlilə və Dimnə".

Memarlıq. Hindistanda memarlığın inkişafında türk müsəlman dövlətlərinin rolu. "Tac-mahal" - Hindistanın incisi. Rəssamlıq. Böyük Moğolların rəssamlığa qayğısı. Moğol miniatür məktəbi. Heykəltəraşqlıq. Çində ixtira və kəşflər. Şriftlərin ixtirası. Tüfəngin ixtirası. Metal top. Maarif və elm. Çin təbabətinin nailiyyəti. Coğrafiya. Dəniz ekspedisiyalarının təşkili. Məşhur dəniz səyyahı Gjenq Xe.

İncəsənət. Musiqi. Opera sənətinin formalaşması və inkişafı.

Xalq teatrı. Dramaturgiya və roman janrlarının inkişafı.

**8.Qərbi Avropa, Rusiya və Amerika xalqlarının mədəniyyəti 4(4)(5) saat.**

**XI-XIV əsrlərdə Qərbi Avropa mədəniyyəti - 1(1)(1) saat.**

Maarifin inkişafı. Dünyəvi məktəblər. Universitetilər. Dinin məktəb üzərindəki təsirinin sarsılması. Elmi biliklər. Dünya haqqında təsəvvürlərin genişlənməsi. Marko Polo. Münəccimlik. Əlkimya. Rocer Bekon. İncəsənət. Memarlıq. Roma və qot üsluqblu tikililər. Heykəltəraşlıq. Madonna təsvirləri. Rəssamlıq. Vitraj.

**XV-XVII əsrlərdə Qərbi Avropa mədəniyyəti - 1(1)(1) saat.**

Mədəniyyətin inkişafının səbəbləri. Təbiətə və insana maraq. Qədim mədəniyyətə maraq. Florensiya humanizmin vətənidir. Almaniya, Niderland və İspaniyanın dahi sənətkarları. Qərbi Avropanın höyük humanist yazıçıları. Elmlə kilsə arasında mübarizə. Kopernik, Bruno, Qaliley və onların kəşflərinin şərq təbiətşünaslarının kəşfləri ilə müqayisəsi.

**Rus mədəniyyəti - 1(1)(1) saat.**

Kiyevdə qızlar məktəbi. Müqəddəs Sofiya məbədi. Kilsə və məbədlər. Uspenski kilsəsi. Vasili Blajennı məbədi. Top ustası Andrey Çoxov. Kitab çapı. Salnamələr. Xalq yaradıcılığı.

**Amerika xalqlarının mədəniyyəti - 1(1)(2) saat.**

Mayya mədəniyyəti. Pilləli ehramlar. Mayya yazısı. Mayya təqvimi. Sıfır rəqəmindən istifadə. Astronomik biliklər. Astek məbədləri. Riyaziyyat. Metal və daş emalı. Asma körpülər, tunellər, poçt rabitəsi. İnk mədəniyyəti.

**Təkrar ümumiləşdirici dərs: Son əsrllərdə mədəniyyətin inkişaf xüsusiyyətləri. Türk-müsəlman mədəniyyətinin Avropa mədəniyyətinin inkişafında rolu - 1(1)(1) saat.**

**Yekun ümumiləşdirmə: Feodalizmin əsas dövrləri və yekunları - 1(0)(0) saat.**

Türk xalqları və dövlətlərinin dünya inkişafının gedişinə böyük təsiri: Avropanın qabaqcıl ölkələrində kapitalist münasibətlərinin meydana gəlməsi. Dünya orta əsrlərin axırlarında. Xalqların tarixi inkişafının qeyri-bərabərliyi. Müstəmləkə işğalları.

Orta əsrlər dövründə dünya xalqlarının mədəniyyətin inkişafına töhfələ-

ri. Müasir dövr üçün orta əsrlər tarixinin əhəmiyyəti.

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ata yurdu (V sinif): Memar Əcəmi. Marağa rəsədxanası. Təbriz. Rəşidiyyə-qədim Azərbaycan universiteti. Azərbaycan tarixi (VII sinif): "Kitabi-Dədə Qorqud" dastanı (VIII sinif): Azərbaycan intibah mədəniyyəti (XI-XII əsrlər). XIII-XVII əsrin birinci yarısı Azərbaycan mədəniyyəti. Ümumi tarix (VII sinif): İslam mədəniyyəti (VIII sinif): Böyük Səlcuq imperiyası. Dehli sultanlığı. Qızıl Orda dövləti. Hülakülər dövləti, Osmanlı dövləti. Qafqaz xalqları XI-XV əsrlərdə. Qazan, Sibir, Həştərxan, Krım xanlıqları. Avropada mərkəzləşmiş dövlətin yaranması. Böyük Moğollar imperiyası. Çində təsərrüfatın inkişafı. Ədəbiyyat (VII sinif): Ə.Nəvai. "Yeddi səyyarə" əsəri. Migel de Servantes "Don Kixot" əsəri. Ə.Firdovsi. "Nüzərin padşahlığı" hekayəsi.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Cəlali təqvimi. Ali məktəb. Akademiya. Miniatür məktəbləri. Tarixi xronikalar. Türk müsəlman mədəniyyəti. Dünyəvi məktəblər. Universitet. Fakültə. Dekan. Disput. Əlkimya. Münəccimlik. İntibah mədəniyyəti. Humanistlər. İspaniya incəsənətinin "qızıl əsri". Utopiya. Roman üslubu. Qotik üslub. Vitraj. Peyzaj. Qravyüra. Teleskop. Qlobus.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. Mədəniyyətin bir çox nailiyyətlərinin insan həyatına daxil olmasının əhəmiyyətini açıqlamaq. Türk-islam mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələri konkret faktlarla sübut etmək. Müxtəlif ölkələrdə memarlığın inkişafına türk-müsəlman memarlığının göstərdiyi təsiri sübut etmək. Elmin inkişafına təsir edən amilləri müəyyənləşdirmək.

İntibah mədəniyyətinin yaranmasının səbəblərini və mahiyyətini izah etmək. Kainat haqqındakı baxışlarda baş vermiş çevrilişlə dinin elm üzərində hökmranlığının sarsılması arasındakı əlaqəni aydınlaşdırmaq və öz fikrini faktlarla sübut etmək. Orta əsrlərin bütün dövrlərində mədəniyyətdə baş vermiş dəyişiklikləri əks etdirən cədvəl tərtib etmək. Müxtəlif mənbələr əsasında görkəmli elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılıqlarına dair qısa xülasələr, məlumatlar tərtib etmək. Türk islam mədəniyyətinin inkişafında Azərbaycan intibah mədəniyyətinin rolunu aydınlaşdırmaq. "Çin poeziyasının qızıl dövrü", "Ərəb ədəbiyyatının qızıl dövrü" ilə İspaniya incəsənətində "qızıl əsr"i müqayisə etmək əsasında onların oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirmək.

## Qaynaqlar və ədəbiyyat

**I bölməyə dair:**

1.Azərbaycan tarixi, I cild. Bakı, 1994.

2.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

3.Azərbaycan tarixi sənəd və nəşrlər üzrə. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı, 1990.

4.Aslanov R., Axundova N., Məmmədov A. Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi. Bakı, 1999.

5.Агибалова Е.В, Донской Г.М. История средних веков. Учебник Москва. 1996.

6.Əmir Teymurun vəsiyyətləri. Bakı, 1991.

7.Heyət S. Türklərin tarixi və mədəniyyətinə bir baxış. Bakı, 1993.

8.Коцва Л.А., Юрганов А.А. История России VIII-XV вв. Москва, 1997.

9.Гейбуллаев Г.К. Этногенез у азербайджанцев. Баку. 1989.

10.Qüdrətov D.N. Türk xalqlarının tarixi. Bakı, 2000.

11.Греков Б.Д. Золотая Орда и ее падение. Москва, 1950.

12.Гвоздинский Н.А. Кавказ. Москва, 1963.

13.Mustafazadə T. Ümumi tarix II cild. Bakı, 1995.

14.Mahmudov Y.M. Səyyahlar. Kəşflər, Azərbaycan. Bakı, 1996.

15.Mahmudlu Y., Conq S., Məhərrəmli N, Məmmədli K. Altay xalqları, Bakı, 1996.

16.Mahmudlu Y. Azərbaycan diplomatiyası. Bakı, 1996.

17.Nizammülk Ə.N.Siyasətnamə. Bakı, 1987.

18.Özdək Rafiq. Türkün qızıl kitabı. I cild. Bakı, 1992. II cild. Bakı, 1993.

19.Vamberi G. Əmir Teymur. Bakı, 1993.

20.Süleymenov O. Az-Ya. Bakı, 1993.

21.Сахаров А.Н, Буганов В.И. История России с древнейших времен до конца XVII века. Москва, 1999.

22.Yüz böyük türk. Bakı, 1991.

**II bölməyə dair:**

1.Azərbaycan tarixi, I cild. Bakı, 1994.

2.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

3.Azərbaycan tarixi sənəd və nəşrlər üzrə. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı, 1990.

4.Aslanov R., Axundova N., Məmmədova A. Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi. Bakı, 1999.

5.Агибалова Е.В, Донской Г.М. История средних веков. Учебник

Москва. 1996.
6.Heyət S. Türklərin tarixi və mədəniyyətinə bir baxış. Bakı, 1993.
7.Халиков А. История Казани. Казан, 1988.
8.История стран Азии и Африки в средине века, част I. Москва, 1987.
9.Гвоздинский Н.А. Кавказ. Москва, 1963.
10.Mahmudov Y.M. Səyyahlar. Kəşflər, Azərbaycan. Bakı, 1996.
11.Mahmudlu Y, Conq S, Məhərrəmli N, Məmmədli K. Altay xalqları, Bakı, 1996.
12.Mahmudlu Y. Azərbaycan diplomatiyası. Bakı, 1996.
13.Mustafazadə T. Ümumi tarix II cild. Bakı, 1995.
14.Nizammülk Ə.N.Siyasətnamə. Bakı, 1987.
15.Özdək Rafiq. Türkün qızıl kitabı. I cild. Bakı, 1992. II cild. Bakı, 1993.
16.Süleymenov O. Az-Ya. Bakı, 1993.
17.Сахаров А.Н, Буганов В.И. История России с древнейших времен до конца XVII века. Москва, 1999.
18.Tarih-2. Ders kitabı. Ankara, 1994.
19.Yüz böyük türk. Bakı, 1991.
20.Юрганов А.Л., Коцва Л.А. История России VIII-XV вв. Москва, 1997.

**III bölməyə dair:**

1.Azərbaycan tarixi, I cild. Bakı, 1994.
2.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
3.Azərbaycan tarixi sənəd və nəşrlər üzrə. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı, 1990.
4.Агибалова Е.В, Донской Г.М. История средних веков. Учебник Москва. 1996.
5.Бертельс. История литературы и культуры Ирана. Баку, 1989.
6.Большаков. История халифата. Том I-II.Москва, 1992.
7."Kəlilə və Dimnə". Bakı, 1963.
8.Mustafazadə T. Ümumi tarix II cild. Bakı, 1995.
9.Nizammülk Ə.N.Siyasətnamə. Bakı, 1987.
10.Özdək Rafiq. Türkün qızıl kitabı. I cild. Bakı, 1992. II cild. Bakı, 1993.
11.Süleymenov O. Az-Ya. Bakı, 1993.
12.Tarih-2. Ders kitabı. Ankara, 1994.
13.Tusi N. Əxlaqi Nasiri. Bakı, 1989.
14.Yüz böyük türk. Bakı, 1991.
15.Юрганов А.Л., Коцва Л.А. История России VIII-XV вв. Москва, 1997.

**Sinifdənxaric oxu üçün ədəbiyyat:**

1.Aytmatov Ç. Çingiz xanın ağ buludu.
2.Böyükağa A.Y. Qan və gül.
3.Borodin S. Səmərqəndin ulduzları.
4.Borodin S. İldırım Bəyazid.
5.Düma A. Üç muşketyor.
6.Hüseynov İ. Məşhər.
7.Koster Ş. Ulanşpigel əfsanəsi.
8.Levandovski A.P. Janna Dark.
9.Molla Nəsirəddin lətifələri.
10.Pable F. Qarqantua və Pantaqrel.
11.Sultanov Ş., Sultanov K. Ömər Xəyyam.
12.Sabatini R. Xristofor Kolumb.
13.Tahir K. Dövlət ana.
14.Yan V. Çingiz xan.
15.Yan V. Batı.
16.Yan V. Sonuncu dənizə doğru.

**I.Xəritələr və atlaslar:**

1."Avropada reformasiya".
2."Birinci xaç yürüşü".
3."Böyük Səlcuq imperiyası".
4."Böyük Moğallar imperiyası".
5."Böyük Metva knyazlığı".
6."Böyük Monqol imperiyası".
7."Quşçu müharibələri".
8."Yüzillik müharibə".
9."Şərqi Avropa XIII əsrdə".
10."Monqol istilaları. XIII əsr".
11."Teymurilər dövləti".
12."Dördüncü xaç yürüşü".
13."Osmanlı imperiyası 1683-cü illərdə".
14."Hindistan və Çin XI-XVI əsrlərdə".
15."Böyük coğrafi kəşflər".
16."Niderland burjua inqilabı".

**II.Cədvəllər, sxemlər, şəkillər:**

1.Alp Arslan - portret.
2."Azenkur döyüşü" sxem.

3."Buz döyüşü" sxem
4.Çingiz xan
5.Cakonda - portret
6."Dəndənkan döyüşü" sxem.
7.Şmir Teymur - portret.
8.Fateh Məhəmməd - portret.
9.İldırım Bəyazid - portret.
10."Kalka döyüşü" sxem.
11."Kotoloik kilsəsinin sərvət mənbələri" sxem.
12."Kosovo döyüşü" sxem.
13."Kressi döyüşü" sxem.
14."Kulikovo döyüşü" sxem.
15."Qrunvald döyüşü" sxem.
16."Malazgird döyüşü" sxem.
17."Manufaktura - kapitalist müəssisəsidir" sxem.
18."Oğuz boyları" sxem.
19."XV əsrdə Fransada mərkəzləşdirilmiş dövlət" sxem.
20.Osman Qazi - portret.
21.Süleyman Qanuni - portret.

**III.Audiovizual vasitələr.**
Bədii filmlər: "Məhəmməd Peyğəmbər", "Janna Dark", "Nəsimi".

# IX SİNİF

# YENİ TARİX

**Həftədə - 2(4) caat, ilboyu - 68(136) saat.**

## GİRİŞ

Cəmiyyətin inkişaf mərhələləri. Kapitalizmə keçid, onun ilkin şərtləri. Kapitalizm cəmiyyətin inkişafında yeni mərhələdir. Yeni tarixi dövrün başlanması.

## I BÖLMƏ

**Qərbi Avropa ölkələri və Rusiya XVII əsrin ikinci yarısı - XVIII əsrdə - 21(38) saat.**

**1.İngiltərə burjua inqilabı - 5(10) saat.**

**İnqilabın səbəbləri. Vətəndaş müharibəsi - 2(4) saat.**

İnqilab ərəfəsində İngiltərədə sosial-iqtisadi vəziyyət. Vergi və töycülərin artırılması. Kral xəzinəsində israfçılıq. Anqlikan kilsəsi kral hakimiyyətinin dayağı kimi. Yeni zadəganlar və burjuaziyanın, kəndli və sənətkarların narazılığının artması. Kapitalizmin inkişafı üçün buxov olan qeyri-məhdud kral hakimiyyətinin və feodal qaydalarının zorla ləzğv edilməsi zərurətinin xalq kütilələri tərəfindən dərk edilməsi. İnqilabi şəraitin yetişməsi. İnqilabın başlanması və onun xarakteri. Vətəndaş müharibəsinin səbəbləri. İnqilabi qüvvələrin nisbəti. O.Kromvelin başçılığı ilə parlament ordusunun qələbələri. Neyzbi vuruşması.

**İnqilabın qələbəsi və tarixi əhəmiyyəti - 2(4) saat.**

İnqilabın qələbəsi. Yeni zadəganlar və burjuaziya hakimiyyət başında. Uzunmüddətli parlament, onun sosial tərkibi və siyasəti. Levellerlər (bərabərçilər). Kəndlilərin feodal asılılığının saxlanması. İnqilabın davam etdirilməsi. I Karlın edam edilməsi. Respublika elan olunması. İrlandiya və Şotlandiyanın "yeni tipli" ordu tərəfindən işğal olunması. Kromvelin protektoratının hərbi diktaturasının yaradılması. Stuartlar sülaləsinin bərpası.

1688-ci il çevrilişi. İngiltərədə konstitusiyalı monarxiya rejiminin təsbit edilməsi.

Ölkədə real hakimiyyətin kraldan parlamentə keçməsi. Parlament qanunlarının icbari xarakteri.

Kapitalizmin bərabər olması və inkişafında İngiltərə burjua inqilabının

əhəmiyyəti.

**İngiltərədə sənaye çevrilişi və onun nəticələri - 1(2) saat.**

Aqrar çevrilişin başlanması. XVIII əsrin sonunda ingilis kəndlilərinin cəmiyyətin əsas təbəqəsi kimi ləğv edilməsi. Kənd təsərrüfatında kapitalizmin qələbəsi. Ucuz işçi qüvvəsi artımı. Manufaktura istehsalının yüksəlməsi. Əl əməyini yüngülləşdirmək zərurəti. Maşınların ixtirası və istehsalda tətbiqi. Buxar mühərriki. Manufakturadan fabrikə keçid. Yeni sosial təbəqələrin meydana gəlməsi.

**2.Fransa burjua inqilabi - 7(14) saat.**

İnqilabın başlanması. Monarxiyanın devrilməsi - 2(3) saat.

İnqilabın ilkin şərtləri. Siyasi vəziyyət. Mütləqiyyətin böhranı. İqtisadi-sosial şərait. Kənd təsərrüfatı və kəndlilərin vəziyyəti. Sənaye və ticarət. Silki quruluş. Burjuaziya və xalq kütlələri.

Maarifçilik və onun görkəmli nümayəndələri. Onların ideyaları. İnqilabi şərait. İnqilabın başlanması. 1789-cu il 14 iyul xalq üsyanı. Bastiliyanın alınması. İnqilabvın qələbəsi.

**İri burjuaziya hakimiyyət başında - 1(3) saat.**

"İnsan və vətəndaş hüquqları bəyənnaməsi". Mart Gülləbaranı. 1791-ci il Konstitusiyası. İnqilabi müharibələrin başlanması.

Monarxiyanın devrilməsi. Milli konvent. Xarici hərbi müdaxilə. Valmi qələbəsi. Fransada birinci respublikanın elan edilməsi. "Dağlar" və jirondistlər arasında mübarizə.

**Yakobinlərin demokratik diktaturası - 1(3) saat.**

1793-cü il 31 may - 2 iyunda xalq üsyanı və onun süqutu. Yakobin diktaturası. İnqilabın üçüncü mərhələsi. Yakobin Konstitusiyası. Yakobinlərin həyata keçirdiyi tədbirlər. Kütləvi inqilabi ordu. Müdaxiləçilər üzərində qələbə. 1794-cü il 9 termidor (27 iyul) çevrilişi. Yakobin diktaturasının süqutu. Fransa burjua inqilabının nəticələri və onun əhəmiyyəti.

**Fransa Direktoriya və Konsulluq dövründə - 2(5) saat.**

1795-ci il Konstitusiyası və Direktoriya. "Bərabərlik müdafiəçiləri". Babof. Direktoriyanın müharibələri. Ceneral Bonapart. 1799-cu il noyabrın 9-da (brünerin 18-də) dövlət çevrilişi. İri burjuaziyanın hərbi diktaturasının yaradılması. Konsulluq. Konsulluğun daxili siyasəti.

**3.Rusiya - 5(9) saat.**

**Rusiyada kapitalist münasibətlərinin meydana gəlməsi - 2(3) saat.**

XVII əsrin 60-cı illərində kəndli müharibəsi və onun məğlubiyyəti. İqtisadi vəziyyət. Biyar təsərrüfatı və onun xüsusiyyətləri. Rusiyanın iqtisadi inkişafda yenilik. Xırda əmtəə istehsalı. Manufakturaların yaranması. Şəhərlər və ticarət. Ümumrusiya bazarının yaranmağa başlanması.

Mütləqiyyətin və təhkimçilik quruluşunun möhkəmləndirilməsi. Zemstvo

yığıncaqları və onların mahiyyəti.

**Rusiya XVIII əsrin birinci yarısında - 1(2) saat.**

Rusiyanın qabaqcıl Avropa ölkələrindən geriliyi. I Pyotr Şimal müharibəsi. Rusiyanın imperiyaya çevrilməsi. I Pyotrun Xəzər sahili vilayətlərə hərbi yürüşü.

I Pyotrun islahatları. XVIII əsrin birinci rübündə Rusiyanın iqtisadi inkişafı. Saray çevrilişləri.

**Puqaçovun başçılığı ilə kəndli müharibəsi - 1(2) saat.**

Təhkimçilik sistemində böhranın başlanması və kapitalist manufakturalarının inkişafı.

Y.Puqaçovun başçılağı ilə kəndli müharibəsi, səbəbləri və nəticələri.

**XVIII əsrin ikinci yarısında Rusiyanın xarici siyasəti - 1(2) saat.**

Rusiya - Türkiyə müharibələri. (1768-1774, 1787-1791) və onun Rusiya üçün nəticələri. Krımın Rusiyaya qatılması. Reç Pospolitanın bölüşdürülməsində Rusiyanın iştirakı.

**4.Qərbi Avropa və Rusiya mədəniyyəti - 2(4) saat.**

**Qərbi Avropa ölkələrinin mədəniyyəti - 1(2) saat.**

Texniki nailiyyətlər. A.Levenduk. Mikroskop. İlk hava şarı.

Təbiət elminin inkişafı. İ.Nyuton, G.Leybnits, İ.Kant, P.Laplas, E.Henner. Çiçək xəstəliyinə qarşı peyvənd üsulunun hazırlanması.

Ədəbiyyat: D.Defo, C.Svift, J.Molyer, F.Şiller, İ.Höte və b. Musiqi, rəssamlıq, memarlıq: İ.Bax, V.Motsart, F.Qoyya və b.

**Rusiya mədəniyyəti - 1(2) saat.**

Qərbi Avropa ölkələri ilə mədəni əlaqələrin genişlənməsi.

I Pyotrun mədəniyyət sahəsində islahatları və onların nəticələri. Rusiya Elmlər Akademiyasının yaradılması. Moskva Universiteti. M.V.Lomonosov, İ.İ.Polzunov, İ.P.Kilibin.

Ədəbiyyat və incəsənət. A.N.Radişşev.

**Təkrar-ümumiləşdirici dərs: İngiltərə və Fransa burjua inqilablarının ümumi və fərqli cəhətləri - 1(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Azərbaycan tarixi (VII sinif): Rusların Azərbaycana qarətçi yürüşləri. Ümumi tarix (VIII sinif): İngiltərədə mərkəzləşmiş dövlətin yaranması. İngiltərənin kapitalistcəsinə inkişafı. Fransanın birləşdirilməsi. Yüzillik müharibə. Fransada Mərkəzi hakimiyyətin güclənməsi. Rus torpaqlarında feodal dağınıqlığı. Rus və Baltikyani xalqlarının isveç və alman feodallarına qarşı müharibəsi. Rus torpaqları-

nın birləşdirilməsi uğrunda mübarizə. Mərkəzləşdirilmiş Rus dövlətinin yaradılması və möhkəmləndirilməsi. Kazan və Həştərxan xanlıqlarının işğalı. Livoniya müharibəsi.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Cəmiyyətin mütərəqqi inkişafı. Metropoliyalar. Məhsuldar qüvvələr. Protektor. Konstitusiyalı monarxiya. Natamam burjua inqilabı. Sənaye çevrilişi. Aqrar çevriliş. Konsulluq. Konvent. Kapital. Termidor. Fabrik. Zavod. Azad işçi qüvvəsi. Milli qvardiya. Qiymətlər maksimumu. İnqilabi terror. Qanunverici məclis. Hüquqlar haqqında bill. Biyar təsərrüfatı. Mütləq monarxiya. İmperiya. Zemstvo məclisləri. Elmlər Akademiyası. Elmi ekpedisiya. Hərbi diktatura. Direktoriya. İnqilabi mübarizə. Kütləvi inqilabi ordu. Jirondist. Konstitusiya. Yakobinlər. Diggerlər. Levellerlər. Sankyul. Gilyotin.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə foromalaşdırılan anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan əldə edilmiş bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək.

Cəmiyyətin inkişaf pillələrinin - ibtidai icma, quldarlıq və feodalizm cəmiyyətlərinin fərqli cəhətlərini aydınlaşdırmaq.

Kapitalizmin yaranmasının yeni dövrün başlanğıcı olmasını əsaslandırmaq. İngiltərə burjua inqilabının səbəblərini izah etmək. İnqilabın burjua mahiyyətini açmaq, onun natamam olmasını faktlarla əsaslandırmaq.

Sənaye çevrilişinin texniki və ictimai cəhətlərini səciyyələndirməyi bacarmaq. İngiltərə burjua inqilabi ilə sənaye çevrilişi arasındakı əlaqəni açıb göstərmək. Öyrənilmiş materialların əsasında inqilaba qiymət vermək. Fransa burjua inqilabının səbəblərini açmaq. Onun burjua-demokratik xarakterini aydınlaşdırmaq. XVIII əsrdə Fransada kapitalizmin inkişafına mane olan amilləri sadalamaq. Əksinqilabi müdaxiləyə son qoyulmasında inqilabi ordunun rolunu göstərmək. Yakobinlər arasında təfriqənin, daxili ixtilafların baş verməsinin və xalqın içində dayaqlarını itirməsinin səbəblərini izah etmək.

XVII əsr İngiltərə burjua inqilabi ilə Böyük Fransa burjua inqilabının nəticələri və əhəmiyyətini müqayisə etmək, onların fərqli və oxşar cəhətlərini göstərmək. Yakobin diktaturası dövrünün inqilabın yüksək pilləsi olduğunu faktlarla sübut etmək. O.Kromvelin və Napoleonun fəaliyyətində oxşar cəhətləri göstərmək. Direktoriya və Konsulluq dövründə Fransanın daxili və xarici siyasətində qiymət vermək. XVII-XVIII əsrlərdə Rusiyanın iqtisadi və siyası inkişaf xüsusiyyətini aydınlaşdırmaq. Biyar təsərrüfatının xüsusiyyətləri izah etmək. Qara metallurgiya sahəsində ilk manufakturanın meydana gəlməsinin səbəblərini aşkarlamaq. Umumrusiya bazarının yaranmağa başlanmasını faktlarla göstərmək. Şimal müharibəsinin səbəblərini, nəticələrini ümumiləşdirmək və qiymətləndirmək. Rusiya imperiyasının işğalçılıq

planlarını təhlil etmək. Rusiya-Türkiyə rəqabətinin güclənməsi, I Pyotrun Xəzər sahili vilayətlərə hərbi yürüşünün Rusiyanın müstəmləkə siyasətinin tərkib hissəsi olduğunu şərh etmək və bunu faktlarla əsaslandırmaq. XVIII əsrdə Rusiyada ictimai-iqtisadi və siyasi vəziyyətlə Puqaçovun kəndli müharibəsi arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək. Sağsahil Ukraynasının, Belarusun, Litvanın və Cənubi Latviyanın Rusiya tərəfindən işğal edilməsinin nəticələrini müəyyənləşdirmək. XVII əsrin II yarısı - XVIII əsrdə Qərbi Avropada və Rusiyada mədəniyyətin inkişafına təsir edən amilləri açıqlamaq. Müstəqil surətdə ədəbiyyatda seçməklə ayrı-ayrı mədəniyyat xadimləri haqqında icmal və tezislər tərtib etmək. Qərbi Avropada mədəniyyətin dünya mədəniyyətinə təsirini açıqlamaq.

XVII-XVIII əsrlərdə Rusiyanın iqtisadi inkişafı və mədəniyyəti arasında əlaqələri göstərmək. Rusiya mədəniyyətinin nailiyyətlərini, onun siyasi və iqtisadi inkişafında oynadığı rolu aydınlaşdırmaq.

## II BÖLMƏ

**Amerika xalqları XVII-XVIII əsrlərdə - 5(9) saat.**

**5.Latın Amerikası və ABŞ - 5(9) saat.**

**Latın Amerikasında İspaniya və Portuqaliya müstəmləkələri - 2(3) saat.**

Latın Amerikasında İspaniya və Portuqaliya müstəmləkələri. İspaniya müstəmləkələrinin vəziyyəti. Hinduların zorla xristianlaşdırılması. Afrikadan zənci qulların gətirilməsi. Metislər və mulatlar. Onların məşğuliyyəti. İrqi imtiyazlar. Müstəmləkəçiliyin kənd təsərrüfatının və ticarətin inkişafı yolunda başlıca əngələ çevrilməsi. İspaniyanın müstəmləkə zülmünə qarşı azadlıq hərəkatının güclənməsi.

Fransa müstəmləkələrində quldarplığın ləğvi. Haiti Respublikasının yaradılması.

**Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə - 2(3) saat.**

Şimali Amerikada ingilis müstəmləkələri. Cənub və Şimal müstəmləkələri arasındakı fərqlər. İstiqlaliyyət uğrunda müharibənin səbəbləri. Müharibənin başlanması. "İstiqlaliyyət bəyannaməsi".

**ABŞ-ın yaranması - 1(3) saat.**

ABŞ-ın yaranması. İngiltərə tərəfindən ABŞ-ın istiqlaliyyətinin tanınması. ABŞ Konstitusiyasının qəbul edilməsi. ABŞ-da birinci burjua inqilabının əhəmiyyəti.

**Təkrar - 1(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.
Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ümumi tarix (VIII sinif): Böyük coğrafi kəşflər. Amerika xalqları XV əsrdə. Kolumbun Amerikanı kəşf etməsi. Dəniz ticarəti və müstəmləkələr uğrunda mübarizə. Ümumi tarix (IX sinif): İngiltərə burjua inqilabı. Böyük Fransa burjua inqilabı.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar.** Müstəmləkəçilik. İstiqlaliyyət müharibələri. Skvatterlər. Mayorat hüququ. Plantatorlar. Kömrük rüsumu. Konqres. Senat. Prezident. İstiqlaliyyət bəyannamasi. Metis. Mulat. Sambo. Kreol. Demokrat. Yeni İngiltərə. Rüsum. Fermer. "Gerb rüsumu". "Boston çay qonaqlığı". Ali məhkəmə. Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə burjua inqilabıdır.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Ümumi tarixdən və digər fənlərdən alınmış bilik və bacarıqları bölmənin mövzularının öyrənilməsinə tətbiq etmək. Kreollarla İspaniyadan köçüb gələnlər arasındakı ziddiyyətlərin səbəblərini aydınlaşdırmaq. Xəritədə Latın Amerikası ölkələrini və istiqlaliyyət uğrunda müharibə aparan Şimali Amerikanı göstərmək. Əraziləri kontur xəritədə nişaenlamağı bacarmaq. İspaniya və Portuqaliyanın müstəmləkəçilik siyasətini faktdlarla açıqlamaq. Cənub və Şimal müstəmləkələrində fərqlərin səbəblərini aydınlaşdırmaq. ABŞ-ın qələbəsində T.Cefersonun və C.Vaşinqtonun xidmətlərini göstərmək. ABŞ_da burjua inqilabının nəticələrini və onun beynəlxalq əhəmiyyətini izah etmək. Fransanın "İnsan və vətəndaşın Hüquq Bəyannaməsi" ilə ABŞ-ın "İstiqlaliyyət bəyannaməsi"ni müqayisə etmək, ümumi və fərqli cəhətləri aydınlaşdırmaq. Niderland burjua inqilabı ilə Şimali Amerikadakı istiqlaliyyət müharibəsinin ümumi cəhətlərini müəyyənləşdirmək. İstiqlaliyyət müharibəsinin xarakter etibarilə burjua inqilabı olduğunu faktlarla əsaslandırmaq.

## III BÖLMƏ

**Türk dünyası və Qafqaz xalqları XVII əsrin ikinci yarısı - XVIII əsrdə - 21(42) saat.**

**6.Türkiyə - 8(12) saat.**

**Osmanlı imperiyasının sosial-iqtisadi və siyasi vəziyyəti -2(3) saat.**

XVII əsrin II yarısında Türkiyənin sosial-iqtisadi və hərbi inkişaf cəhətdən Avropa ölkələrinə nisbətən geri qalmasının səbəbləri. Hərbi-len sistemi. Xristian əhalinin mərkəzi hakimiyyətə qarşı çıxışları. Avropa dövlətlərinin Türkiyəni Avropadakı torpaqlarından çıxartmaq planları. Türkiyəyə qarşı koalisiyanın yaranması. Xalq kütlələrinin vəziyyəti. 1730-1731-ci illərdə

İstanbulda patron Xəlilin başçılığı ilə üsyan. Üsyanın nəticələri.

**Osmanlı imperiyasının Avstriya ilə müharibələri - 2(3) saat.**

Müharibələrin səbəbləri. Fransanın təhriki ilə Osmanlı dövlətinin Avstriya və Polşaya qarşı müharibələrinin başlanması. Türkdlərin Sen-Qotart qələbəsi (1664). Vyananın işğalı (1683). Polşa kralı Yan Sobeskinin avstraliyalılara köməyə gəlməsi. Türklərin Avropada ilk məğlubiyyəti. Osmanlı dövlətinə qarşı "Müqəddəs birliyi"n (1684) yaradılması. XVII əsrin sonlarında Osmanlı ordusunun məğlubiyyətləri. Karlovitsa sülh müqaviləsi (1698). Osmanlı dövlətinin Macarıstan, Xorvatiya və Sloveniyanı itirməsi. Osmanlı imperiyasının tənəzzülünün başlanması. Avstriya ilə Osmanlı imperiyası arasında yeni müharibə (1716-1718). Osmanlı ordusunun məğlubiyyəti. Pojarevatsk sülhü (1718). Osmanlı dövlətinini Kiçik Valaxiyanı, Bosniyanın bir hissəsini və Serbiyanı itirməsi. 1735-39-ci illərdə Osmanlı-Avstriya müharibəsi. Türk ordularının məğlubiyyəti. Belqrad sülh müqaviləsi (1739). Osmanlı imperiyasının tənəzzülünün daha da dərinləşməsi.

**Rusiya-Osmanlı müharibələri - 2(3) saat.**

Rusiyanın Osmanlı dövləti ilə müharibələrdə məqsədi. 1735-1738 və 1768-1774-cü illər hərbi əməliyyyatları. Osmanlıların döyüşlərdə məğlub olmasının səbəbləri. Kiçik Qaynarça sülhü. Onun şərtləri. Rusiyanın Qara dənizə çıxış əldə etməsi. Osmanlı dövlətinin Qara dəniz sahillərində və Krımda mövqeyini itirməsi.

Rusiyanın Qara dənizin şimalında Osmanlı imperiyasının əlində qalan torpaqları işğal etmək üçün yeni müharibəyə başlaması. 1789-1791-ci illərdəki döyüşlər. Osmanlıların növbəti məğlubiyyəti. Yassı sülhü (1791). Müharibənin Osmanlı dövləti üçün ağır nəticələri. XVIII əsrin sonunda Rusiya-Osmanlı müharibələri nəticəsində Türkiyənin Qafqazda mövqeyinin tədricən zəifləməsi.

**Qərb dövlətlərindən asılılığın güclənməsi. "Şərq məsələsi". III Sultan Səlimin islahatları - 2(3) saat.**

Osmanlı imperiyasında geriləmə dövrü. Müharibələrdə məğlubiyyətlər. Hərbi feodal idarə üsulunun böhranı. Maliyyə ehtiyatlarının getdikcə azalması. İngiltərə, Fransa, Avstriya və Rusiyanın Osmanlı dövlətini özlərindən asılı vəziyyətə salmaq üçün birgə fəaliyyətləri. "Şərq məsələsi" və onun mahiyyəti. İngiltərə-Osmanlı və Osmanlı-Rusiya sazişləri. Osmanlı dövləti Fransa əleyhinə koalisiyada.

III Sultan Səlimin islahatları. Onun məzmunu. Mühafizəkar qüvvələrin islahata mane olmaları. İslahatın uğursuzluğu və onun səbəbləri.

**7.Mərkəzi Asiya, Qazaxıstan, Krım, Volqaboyu və Sibir türkləri - 7(14) saat.**

**Mərkəzi Asiya və Qazaxıstanın sosial-iqtisadi və siyasi vəziyyəti -**

**2(4) saat.**

Mərkəzi Asiyanın əhalisinin etnik tərkibi. Suvarma sistemi. Əhalinin həyat tərzi və məşğuliyyəti: maldarlıq, əkinçilik, sənətkarlıq, ticarət. Sexlər. Ticarət əlaqələri. Torpaq mülkiyyət formaları. Vergi və mükəlləfiyyətlər. Təsərrüfatın natural xarakteri. Feodal zülmü və ona qarşı üsyanlar.

**İranın Mərkəzi Asiyaya və Rusiyanın Qazaxıstana müdaxiləsi - 1(3) saat.**

Mərkəzi Asiya xanlıqlarında feodal çəkişmələri və ara müharibələri. Hakimiyyətin zəifliyi. Nadir şahın Xivə xanlığına yürüşü. Xivənin və Buxaranın işğal edilməsi.

İran işğalına qarşı türkmənlərin üsyanı. Yerli feodallara qarşı Buxara və Səmərqənddə üsyanlar.

Rusiyanın Qazaxıstanın işğalına başlaması. Kiçik Jüzün işğalı (1746). Çarizmin müstəmləkəçilik siyasəti. 1783-1797-ci illərdə Kiçik Jüzdə Batır Srımın başçılığı ilə üsyan. Qazax xalqının 1783-1797-ci illər üsyanının əhəmiyyəti.

**Krım və Volqaboyunun türk xalqları - 2(3) saat.**

Krım xanlığının Türkiyədən asılılığı. Türkiyə ilə iqtisadi və mədəni əlaqələri. Osmanlı imperiyasının tənəzzülünün Krım xanlığına mənfi təsiri, XVIII əsr Rusiya-Türkiyə müharibələri nəticəsində Krım xanlığının Rusiya təsirinə düşməsi. 1783-cü ioldə Krım xanlığının işğalının başa çatdırılması.

Volqaboyu xalqların məşğuliyyəti. Rusiyanın müstəmləkəçilik siyasətinin güclənməsi. Volqaboyu əhalisinin zorakı və şirnikdirmə yolu ilə xristianlaşdırılması. Milli və dini zülm. Müsəlman abidələrinin dağıdılması.

Tatar, çuvaş və başqırdlarda sosial-iqtisadi həyat. Əhalinin ağır vəziyyəti. Kəndli üsyanları. Başqırdların 1705, 1735 və 1755-ci il üsyanları. Molla Batırma Aleyev. Y.Puqaçov müharibəsinin başqırd qəhrəmanları Salavat Yulayev və Kinza Arslanov.

Rusiyanı xristianlaşdırmaq üçün tətbiq etdiyi qəddar metodlardan qismən imtina etməsi. Müsəlmanların dini idarəsi olan müftiliyin yaradılması. Kazan quberniyasının yaradılması (1708).

**Sibirin türk xalqları - 2(3) saat.**

Sibirdə əhalinin məskunlaşması və məşğuliyyəti. Sibir türklərinin (yakutlar, xakaslar və s.) sosial-iqtisadi və siyasi həyatı. Rusiyanın müstəmləkəçilik siyasəti. Sibir sərvətinin Rucsiyaya daşınması. Vergi sistemi. Yasaq və digər mükəlləfiyyətlər. Müstəmləkə zülmünün getdikcə güclənməsi. Müstəmləkə zülmünə qarşı üsyanlar. Sibirdə rusların məskunlaşdırılması və onun nəticələri. Sibirdə ilk sənaye ocaqları.

**8.Qafqaz xalqları - 3(9) saat.**

**Gürcüstanda sosial-iqtisadi və siyasi vəziyyət - 1(3) saat.**

Gürcüstanın İran və Türkiyənin nüfuz dairələrinə bölünməsi. İran nüfuz dairəsində yerli feodallar arasında çəkişmələr. Əhalinin ağır vəziyyəti. Saray qəsdləri.

Rusiya ilə yaxınlaşmaq meylləri. Ölkədəki feodal dağınıqlığının müstəqillik cəhdlərinə mənfi təsiri. İran zülmünə qarşı üsyanlar. Gürcüstanın Rusiya tərəfindən işğalının başlanması. Gergyevski traktatı.

**Rus-erməni əlaqələri - 1(3) saat.**

Rusiyanın ermənilərlə əlaqələrinin möhkəmlənməsi. Rusiyanın ermənilərin siyasi-ideoloji dayağına çevrilməsi. Birinci Pyotr və ermənilər. XVIII əsrin II yarısında rus-erməni ittifaqının yaranması. Onların türk xalqları əleyhinə birgə mübarizəsi.

**Rusiyanın Şimali Qafqazı işğal etməyə başlaması - 1(3) saat.**

Dağlı xalqların sosial-iqtisadi və siyasi vəziyyəti.

Kabardin, balkar, osetin, adıgey, çeçen, inquş, avar, ləzgi və b. xaldların həyat tərzi. Onların özünəməxsus xüsusiyjyətləri. Rusiyanın işğalçılıq planları. Kabarda və Şimali Osetiyanın Rusiya tərəfindən işğal edilməsi. Hərbi Gürcüstan yolunun çəkilişi.

Rusiyanın işğalçılıq planlarını həyata keçirilməsində Vladiqafqaz qalası vasitə kimi.

Müstəmləkəçilik əleyhinə dağlıların milli-azadlıq hərəkatının başlanması. Müridizm. Onun dağlı xalqların azadlıq mübarizəsində rolu. Şeyx Mənsur.

**9.Türk dünyası və Qafqaz xalqlarının mədəniyyəti - 3(6) saat.**

**Türkiyə mədəniyyəti - 1(2) saat.**

Maarif və elm. Coğrafiyaşünas Katib Çələbi və Övliyə Çələbinin əsərlərinin dünya şöhrəti qazanması. İlk mətbəənin yaradılması (1727). Türk dilində elmi ədəbiyyatın, həmçinin riyaziyyat və kartoqrafiyaya dair əsərlərin nəşri. Dəqiq elmlərin tədrisi. Artilleriya mühəndisliyi məktəbinin (1737), İstanbulda mühəndislər məktəbinin açılması (1795). Faydalı qazıntı axtarışları.

Ədəbiyyat. Lirika. Əhməd Paşa, Nicati, Mahmud Bağı və Mehdi Xatun lirikanın görkəmli nümayəndələri kimi. Satira. Ömər Nəfi, Yusif Nabi, Ə.Sabit.

Memarlıq və təsviri sənət: miniatür sənəti - Əhməd Mustafa, Nəkşi, Levni və b. Dekorativ tətbiqi sənət. Xalçaçılıq.

Musiqi. Mustafa İtri Əfəndi, Zəkəriyyə Əfəndi, Mahmud Cəlaləddin, Paşa Rəhmi və başqalarının milli musiqinin inkişafında rolu.

**Mərkəzi Asiya, Qazaxıstan, Krım, Volqaboyu və Sibirin türk xalqlarının mədəniyyəti - 1(3) saat.**

Mərkəzi Asiya xalqlarında maarif və elm. Özbəklərdə riyaziyyat, astro-

nomiya və təbabətin inkişafı.

Şifahi ədəbiyyatın inkişafı. Aşıq (akın) yaradıcılığı. Dastanlar. Ədəbiyyat. Turdi və Maşrab kimi şairlərin yaradıcılığında feodal zülmünə və özbaşınalığına qarşı etiraz. Memarlığın inkişafı. Məscidlər və minarəli mədrəsələrin tikilməsi. Şəhərsalma. Saraylar. Miniatür rəssamlar. Əvəz Məhəmməd, Milli Behzad, Mukiş və b.

Dekorativ-tətbiqi sənət. Naxışsalma. Özbək xalq musiqisi. Musiqidə Xarəzm, Buxara, Daşkənd və Qaşqadərya üslubları. Küçə teatrları. Masqarabazlar. Kukla teatrı.

Türkmənlərdə mədəni dirçəliş. Şifahi xalq ədəbiyyatı. Ədəbiyyat. Poeziya. D.Azadinin yaradıcılığında humanizm, vətənpərvərlik və maarifçilik ideyalarının tərənnümü. Maxdumqulu-klassik türkmən ədəbiyyatının və ədəbi dilinin banisi kimi.

Dekorativ-tətbiqi sənət. Bədii toxuculuq. Xalçaçılıq. Zərgərlik. Xalq musiqisi.

Qırğızlarda maarif. Ədəbiyyatın inkişafı. T.Sınçı, Asan Kayğı və Sancının yaradıcılığı. Qazaxıstanda akın (aşıq) yaradıcılığı. Tatırka, Umbetey və Jankisinin yaradıcılığında xarici işğalçılara qarşı mübarizənin tərənnümü. Buxar Jırau, M.Otemis-ulu və Ş.Janlqayevin şerlərində mübarizə motivləri. Xalqın birliyinə çağırış.

Krım, Volqaboyu və Sibirin türk xalqlarında maarif və elm. Rus işğalından sonra milli mədəniyyətin inkişafının zəifləməsi. Şifahi xalq yaradıcılığı və musiqi. Tatar ədəbiyyatı. Ş.Məracani və X.Faizxanovun əsərlərində maarifçilik ideyaları.

İslam mədəniyyətinin sıxışdırılması.

**Qafqaz xalqlarının mədəniyyəti - 1(2) saat.**

Gürcüstanda maarif və elm.İlk mətbəənin yaradılması. Kitab çapı. Əsilzadə uşaqlarının xarici ölkələrə təhsil almağa göndərilməsi. Şahzadə Vaxuşti gürcü tarixşünaslığının banisi kimi. Coğrafiyaşünas V.Baqratuni. Ədəbiyyat. D.Quramaşvili və S.Orbeliani.

Şimali Qafqaz xalqlarının mədəniyyəti. Maarif və elm. İslam mədəniyyətinin təsiri.

Şifahi xalq yaradıcılığı.Şifahi ədəbiyyatda azadlıq ideyalarının tərənnümü. Dağıstanda aşıqlar və dalayçılar. Xalq musiqisi. Dekorativ-tətbiqi sənət. Xalçaçılıq və s.

**Təkrar-ümumiləşdjirici dərs: Türk dünyası və Qafqaz xalqları yeni dövrün birinci mərhələsində - 1(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ümumi tarix (VI sinif): Qədim Türklər. Qədim Hunlar. Mərkəzi Asiya - Qədim Türküstan dövlətləri. İskitlər. (VII sinif): Ağ Hun imperiyası. Qərbi Hun imperiyası. Göytürk imperiyası. Uyğur xaqanlığı. Avar imperiyası. Oğuz dövləti. Qaraxanilər dövləti. Qəznəvilər dövləti. Xarəzm dövləti. Bulqar dövləti. Türk və Qafqaz xalqlarının mədəniyyəti. (VIII sinif): Böyük Səlcuq imperiyası. Qızıl Orda dövləti. Teymurilər dövləti. Osmanlı imperiyası. Sibir, Kazan, Həştərxan və Krım xanlıqları. Türkiyə XVI-XVII əsrin birinci yarısında. Qafqaz xalqları XI-XVII əsrin birinci yarısında. Azərbaycan tarixi (VIII sinif): Səfəvilər dövlətinin beynəlxalq əlaqələri. (IX sinif): Səfəvi-Osmanlı müharibələri. Nadir şah dövlətinin yaradılması.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Nüfuz dairəsi. Müridizm. Çihad. "Şərq məsələsi". Siyasi çəkişmələr. Koalisiya. "Müqəddəs birlik". Geriləmə dövrü. Torpaşq rentası. Qazax jurnalı. Yasaq. Müfti. Masqarabazlar. Kaştan. Piyan. Bay. Baritma.

Bölmə üzrə formalaşdırılan anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan əldə edilmiş bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək.

**Şagirdlərin əsas bacarıqları:** Öyrənilmiş materiallar əsasında Türkiyənin iqtisadi və hərbi cəhətdən Avropa ölkələrindən geri qalmasının səbəblərini izah etmək. Avropa dövlətlərinin və Rusiyanın Türkiyəyə qarşı apardıqları məkrli siyasətin mahiyyətini açıqlamaq. Türkiyənin tənəzzülünün səbəblərini aydınlaşdırmaq. Onun Qafqazda mövqeyini getdikcə itirməsinin səbəblərini izah etmək. Qərb dövlətlərindən asılılığın artmasının səbəblərini aydınlaşdırmaq. "Şərq məsələsi"nin məğzini təhlil etməyi bacarmaq. "Nizam Cədid" isahatının uğursuzluğunun səbəblərini aydınlaşdırmaq.

Mərkəzi Asiya və Qazaxıstanda sosial-iqtisadi inkişafın oxşar cəhətlərini faktlarla sübut etmək. Krım xanlığının süqutunu Osmanlı imperiyasının zəifləməsi ilə əlaqələndirmək. Volqaboyunda və Sibirdə Rusiyanın müstəmləkəçilik siyasətinin mahiyyətini açmaq. Baş verən üsyanların müstəmləkə zülmünə qarşı yönəldiyini misallarla əsaslandırmaq. Türk xalqlarının mədəniyyətində ümumi cəhətləri göstərmək, onların arasındakı qarşılıqlı əlaqə və təsiri aydınlaşdırmaq. Öyrənilmiş materiallara əsaslanaraq XVII-XVIII əsrlərdə Qafqazda ictimai-siyasi durumun qeyri-sabit olmasının səbəblərini açıqlamaq mübarizəsinin məqsədini izah etmək. Ermənilərin qonşularına ərazi iddialarını Dağlıq Qarabağ münaqişəsi ilə əlaqələndirmək. Rusiyanın Qafqazdakı işğalçılıq siyasətinin mürtəce xarakterini açmaq və onu müasirliklə əlaqələndirmək. Erməni-rus ittifaqının bilavasitə Türkiyə və Azərbaycana qarşı çevrilməsinin səbəblərini aydınlaşdırmaq.

Xalqın arzu və istəklərinin ifadə edilməsində, apardığı azadlıq mübarizəsində mədəniyyətin rolunu qiymətləndirmək.

## IV BÖLMƏ

**Asiya və Afrika xalqları XVII əsrin ikinci yarısı - XVIII əsrdə - 17(43) saat.**

**10.Şərq ölkələri - 10(24) saat.**

**İranda sosial-iqtisadi vəziyyət -1(3) saat.**

Feodal münasibətləri. Torpaq mülkiyyəti formaları. Əhali zümrələri və onların vəziyyəti. Kəndlilərin ərbablardan asılılığı. Təsərrüfatın natural xarakteri. Vergi sistemi.

Feodal çəkişmələrinin əhalinin güzəranına və ölkə iqtisadiyyatına mənfi təsiri. Sənətkarlıq. Sadə manufakturalar, parça istehsalı. Xalçaçılıq. Daxili və xarici ticarət.

**Səfəvilər dövlətinin süqutu. Nadir şah dövlətinin yaranması - 2(3) saat.**

İranda feodal zülmünün güclənməsi. Əfqanların, azərbaycanlıların və türkmənlərin antifeodal üsyanları. Üsyanların yatırılmasında Nadir Qulu xan Əfşarın rolu. II Təhmasibin hakimiyyətdən salınması. Nadir Qulu xanın III Abbasın qəyyumu kimi Səfəvilər dövlətini idarə etməsi.

İran-Osmanlı münasibətləri. Torpaqların qaytarılması. Nadir xanın özünü şah elan etməsi. Hərbi yürüşlər və istilalar. Dövlət idarəçiliyi. Şaha qarşı üsyanlar. Nadir şahın öldürülməsi.

**Hakimiyyət uğrunda sülalələrarası çəkişmələr - 1(3) saat.**

Nadir şahın öldürülməsindən sonra İranda vəziyyət. Qacarlar. Əfsarlar və zəndlər arasında hakimiyyət uğrunda mübarizə.

Kərim xan Zəndin hakimiyyəti. Qacarlarla zəndlər arasında mübarizənin davam etməsi. Ağa Məhəmməd Şah Qacar və onun Səfəvi imperiyasının sərhədlərini bərpa etmək cəhdləri. Fətəli şah Qacar.

**İran Qərb dövlətlərinin planlarında - 2(3) saat.**

Sosial-iqtisadi və siyasi gerilik. İngiltərə, Fransa və Rusiyanın İranı əsarət altına almaq planları. Ölkənin daxili işlərinə müdaxilə. Qeyri-bərabər ticarət müqavilələrinin imzalanması. Fransızlara qarşı İngiltərə-İran sazişi. İran ordusuqnun ingilis silahları ilə təmin edilməsi. İngilis və hind tacirlərinin ölkə limanlarında gömrük rüsumu vermədən ticarət etmək hüququ. İranın İngiltərədən asılılığının başlanması.

**Hindistanda feodal dağınıqlığı. İqtisadi tənəzzülün dərinləşməsi - 1(2) saat.**

Böyük Moğol dövlətinin böhranı. Hindistanda feodal dövdlətlər. Ara mü-

haribələri. Kənd təsərrüfatında böhran. Kütləvi antifeodal hərəkat. Müstəqil Maratx (moqol) dövlətinin yaranması. İqtisadi tənəzzülün dərinləşməsi. Moqol dövlətinin XVIII əsrin ikinci rübündə əsas siyasi qüvvəyə çevrilməsi. Nadir şah Əfşarın Şimali Hindistana yürüşü. Əhməd şah Dürraninin Hindistana yürüşü. Hindistan uğrunda əfqan-moqol müharibəsi. Panipat vuruşması. Moqolların məğlubiyyəti.

**Hindistanda ağalıq uğrunda mübarizə -1(3) saat.**

Böyük Moqol imperiyasının dağılması. Hindistanı ələ keçirmək uğrunda İngiltərə-Fransa müharibəsi. İngilislərin qələbəsi. Benqaliyanın istilası. XVIII əsrin ortalarında Cənubi Hindistanda Maysor dövlətinin siyasi xadimi Heydərlinin Maysor dövlətinin istiqlaliyyətini qorurmaq cəhdi. İngiltərə-Maysor müharibəsi. Maysorun qələbəsi. Sonrakı İngilis-Maysor müharibələri. İngilislərin Hindistanın cənub hissəsində ağalığı.

**Çin Sin sülaləsinin hakimiyyəti dövründə - 1(3) saat.**

Sin sülaləsinin hakimiyyəti dövründə mancur zülmünə qarşı mübarizə. Əhalinin vəziyyəti. Mancur ağalığına qarşı mübarizə aparan gizli cəmiyyətlərin yaranması. Avropa müstəmləkəçilərinin Çinə soxulmasına qarşı Sin sülaləsinin mübarizəsi.

**Sin imperiyasının tənəzzülü - 1(3) saat.**

Sin sülaləsinin işğalçılıq siyasəti. 1757-ci il fərmanı. Çinin özünütəcrid siyasəti. Xarici ticarətin Sin hakimiyyət orqanlarının nəzarəti altında yalnız Quançjou (Kanton) vasitəsi ilə aparılmasına icazə verilməsi. Sin imperiyasının tənəzzülə başlaması. Feodal zülmünə və Mancuriya hökmranlığına qarşı üsyanlar.

**11.Afrika və ərəb ölkələri - 3(9) saat.**

**Misir - 1(3) saat.**

Misir Türkiyənin hakimiyyəti altında. XVIII əsrin birinci yarısında Misirdə Türkiyə hakimiyyətinin zəifləməsi. Misir məmlüklərinin siyasi hökmranlığının bərpa edilməsi. Əbu Dəhabin Misirdə hakimiyyəti ələ alması. Misirin daxili müstəqilliyi. Misir iqtisadiyyatı.

Napoleonun başçılığı altında fransız ordusunun Misir yürüşü.

Misirdə 1798-1801-ci illər hadisələri. İslahat zərurətinin meydana çıxması.

**İraq və Suriya Osmanlı imperiyasının tərkibində - 1 (3) saat.**

Vəhabilər hərəkatı. İraq Türkiyə və İran arasında nifaq mənbəyi kimi. İraqda Osmanlı canişinlərin hakimiyyətinin möhkəmlənməsi. "Külemən" qvardiyasının İraqda ağalığı. İraqda Böyük Süleymanın hökmranlığı.

Suriyanın türklər tərəfindən işğalı. Dahir Ömərin üsyanı və onun nəticələri.

**Afrika dövlətləri - 1(3) saat.**

Afrikanın əhalisi. Kölə ticarəti və feodal pərakəndəliyi nəticəsində kiçik dövlətlərin meydana gəlməsi.

Efiopiya. Avropalıların istilaları. Müstəmləkə işğallarına qarşı müqavimət.

**12.Şərq xalqlarının mədəniyyəti - 3(9) saat.**

**İran mədəniyyəti - 1(3) saat.**

Maarif və elm. Ədəbiyyat. Hatifi-Zülali, Şeybani, Y.Çənrəqini.

Memarlıq: məscid, məqbərə, künbəz və karvansaralar. Dekorativ - tətbiqi sənət. Xalçaçılıq. Rəssamlıqda Avropa təsiri. Sahi əl Mülk və Mahmud Məlikin rəssamlığın inkişafında rolu. Meydan tamaşaları.

**Hindistan mədəniyyəti - 1(3) saat.**

İngilis müstəmləkəçiliyi dövrundə Hindistanda Avropa mədəniyyəti təsirinin güclənməsi. Hind rəsədxanaları. Hindistanda şifahi xalq ədəbiyyatının inkişafı. Milli incəsənətdəki gerilik. XVIII əsrin sonlarında avropasayağı teatrın təşkili. Memarlıq.

**Çin mədəniyyəti - 1(3) saat.**

Çində elm. Fəlsəfə. Tarix. Ədəbiyyat və incəsənət. Yerli teatr janrları. Mancur sülaləsi dövründə Çin incəsənətinin vəziyyəti. Xalq sənətkarlığı. Memarlıq və dekorativ-tətbiqi sənət.

**Təkrar-ümumiləşdirici dərs: XVII əsrin ikinci yarısı - XVIII əsrdə Asiya və Afrika ölkələrinin sosial-iqtisadi inkişafının əsas yekunları - 1(1) saat.**

**Yekunlaşdırıcı təkrar: XVIII əsrdə dünyanın sosial-iqtisadi inkişafının əsas yekunları - 1(2) saat.**

**Təkrar - 2(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kurslararası, kursdaxili və fəndaxili əlaqələr:** Ümumi tarix (VI sinif): Qədim İran. Qədim Hindistan. Qədim Çin (VII sinif): Çində, İranda və Hindistanda feodal münasibətlərinin meydana gəlməsi. İslam dini. Ərəblərin birləşməsi və işğalları. Ümumi tarix (VIII sinif): İran, Hindistan və Çin orta əsrlərdə. Şərq xalqlarının mədəniyyəti. İnsan və cəmiyyət (VIII sinif): Dünya dinləri. Din insanları birləşdirir.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Qəyyumluq. Şərti len sahibliyi. Fəllah. Məmlüklər. Vəhabilik. Küləmən qvardiyası.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış müvafiq bilik və bacarıqları mövzuların öyrənilməsinə tətbiq etmək. Dərslik

və başqa ədəbiyyatdan alınan tarixi biliklərin tətbiqi əsasında mövzuya aid olan tarixi faktları müəyyən məsələlər üzrə qruplaşdırmaq, təhlil və müqayisə etmək, qiymətləndirmək. Dərslik, ensiklopediya, sorğu və elmi-kütləvi ədəbiyyatdan istifadə etməklə mövzunun ayrı-ayrı məsələləri haqqında məlumatlar hazırlamaq. Öyrənilən dövrdə İranın sosial-iqtisadi və siyasi vəziyyətini faktlar əsasında təhlil etmək. Feodal zülmünün güclənməsinin səbəblərini aydınlaşdırmaq. Baş verən üsyanların xarakterini müəyyən etmək. Səfəvi dövlətinin, Nadir şah dövlətinin süqutu səbəblərini aydınlaşdırmaq. Baş verən üsyanların xarakterini müəyyən etmək. Səfəvi dövlətinin, Nadir şah dövlətinin süqutu səbəblərini aydınlaşdırmaq.

Hindistanda iqtisadi tənəzzülün səbəblərini üzə çıxarmaq, Əfqan-Moğol müharibəsinin məqsədini aydınlaşdırmaq. Vahid dövlətin dağılması, daxili feodal müharibələri və xarici işğalların ölkəyə soxulması ilə məhsuldar qüvvələrin inkişafını ləngitməsi arasındakı əlaqələri müəyyənləşdirmək. Ost-hind kompaniyasının Hindistanı və digər Şərq ölkələrini iqtisadi və siyasi cəhətdən nüfuz dairələrinə bölməsini şərh etmək və ona qiymət vermək. Hindistanda gedən hərbi əməliyyatları xəritə üzrə izləmək və kontur xəritədə nişanlamaq.

Ədəbiyyatı, memarlığı mədəniyyətin digər sahələrinin inkişafı ilə əlaqələndirmək. Dərslik, ensiklopediya və müxtəlif sorğu ədəbiyyatından istifadə etməklə XVII-XVIII əsrin görkəmli hind mədəniyyət xadimləri və hind memarlığının incisi olan Tac-Mahal məqbərəsi barədə əlavə məlumat toplamaq. Feodal zülmü və milli zülm arasındakı oxşar və fərqli cəhətləri aydınlaşdırmaq. Sosial-iqtisadi faktlardan istifadə etməklə Çinin Qərb dövlətlərinin, o cümlədən İngiltərənin yarımmüstəmləkəsinə çevrilməsinin səbəb və nəticələrini açıqlamaq. Çində feodal və müstəmləkə zülmünün gücləndiyini faktlarla sübut etmək. XVII-XVIII əsrlərdə Çində yaşayıb-yaratmış görkəmli alimlər haqqında məlumat hazırlamaq. Çinin xarici ölkələrlə mədəni əlaqələrini aydınlaşdırmaq. Ərəb ölkələrinin xarici dövlətlərin işğalçılıq planlarında tutduğu yeri müəyyənləşdirmək. Vəhabilər hərəkatının mahiyyətini açıqlamaq və müasir dövrlə əlaqələndirmək. Küləmənlərin mənşəyini izah etmək. Suriyada Osmanlı ağalığına qarşı çevrilən Dahir Ömərin başçılığı ilə üsyanı səciyyələndirmək və məğlubiyyət səbəblərini şərh etmək. Osmanlı imperiyasının hakimiyyətinin zəifləməsi ilə yerli iri feodalların hakimiyyətinin güclənməsi arasında əlaqəni müəyyənləşdirmək. Afrika ölkələrinin qeyri-bərabər inkişafını təhlil və müqayisə etmək. Afrikada müstəmləkə istilalarının nəticələrini müəyyənləşdirmək, işğal edilmiş əraziləri xəritədə göstərmək və əsas müqavimət rayonlarını işarə edilmiş əraziləri xəritədə göstərmək və əsas müqavimət rayonlarını işarə etmək. Səfəvi dövlətinin, Nadir şah dövlətinin süqutunun səbəblərini faktlarla əsaslandırmaq.

## Qaynaqlar və ədəbiyyat


**I bölməyə dair:**

1.Барг М.А. Кромвель и его время. Москва, 1960.

2.Барг М.А. Народные низы Английской буржуазной революции. Ленинград, 1973.

3.Буганов В.И. Зырянов П.Н. История России (Конец XVII-XIX вв.). Учебник. Москва, 1999.

4.Ефремов Н.А. Промышленная революция в Англии. Москва, 1983.

5.История Франции. Том I. Москва, 1972.

6.Кавца Л.А. История России XVI-XVII вв. Учебник. Москва, 1997.

7.Лавровский В.М., Барг М.А. Английская буржуазная революция. Москва, 1953.

8.Манфред В.З. Великая Французская буржуазная революция. Москва, 1983.

9.Mustafazadə T. Ümumi tarix. III cild. Bakı, 1997.

10.Новая история (1500-1800 гг.). Учебник. Москва, 1999.

11.Ревуненков В.Г. Очерки по истории Великой Французской революции: Якобинская республика и ее крушение. Ленинград, 1983.

12.SSRİ tarixi. I hissə. Bakı, 1985.

13.Сто великих битв. Москва, 1998.

14.Тарле Е.В. Очерки по истории колониальной политики Западно-Европейских государств. (Конец XV - начала XIV в). Москва-Ленингард. 1965.

15.Тарле Е.В. Северная война и шведские нашествие на Россию, том 10. Москва, 1959.

16.Виргинский В.С. Очерки истории науки и техники XVI-XIX вв. (до 70-х гг. - XIX вв.) Москва, 1984.

17.Всемирная история. Учебник. Москва, 1997.

18.Вся история в одном томе. Москва, 1997.

**II bölməyə dair:**

1.Альперович М.С, Слезкин Л.Ю. Новая история стран Латинской Америки. Москва, 1970.

2.Чизхолм Д. Мировая история в датах. Москва, 1994.

3.Фурсенко А.А. Американская революция и образование США. Москва, 1984.

4.Mustafazadə T. Ümumi tarix. III cild. Bakı, 1997.

5.Новая история. Первый период. Москва, 1983.

6.Виргинский В.С. Очерки истории и техзники XVI-XIX вв.(до 70 х гг.XIX в). Москва, 1984.

7.Война за независимость ит оброзование США. Москва, 1976.

**III bölməyə dair:**

1.Алтай в эпоху капитализма. Барнаул, 1986.

2.Бекмаханова Н.Ч. Многонациональное население Казахстана и Киргизии в эпоху капитализма (60-е годы XIX в - 1917 г). Москва, 1986.

3.Чизхолм Д. Мировая история в датах. Москва, 1999.

4.Документы по русской политике в Закавказье. Баку, 1920.

5.История, география и этнография Дагестана XVIII-XIX вв. Москва,1958.

6.История Башкырдской АССР. Москва, 1958.

7.История Казахской ССР с древнейших времен до наших дней. Том I. Алма-Ата, 1978.

8.История Киргизской ССР с древнейших времен до наших дней. Том I. Фрунзе, 1985.

9.История стран Азии и Африки в новое время. Учебное пособие. Москва, 1971.

10.История Северного Кавказа с древнейших времен до XVIII в. Москва, 1988.

11.История Татарской АССР с древнейших времен до наших дней. Казань, 1986.

12.История Тувы. Том I, Москва, 1964.

13.История Туркменской ССР. Том I, книга II. Ашхабад, 1957.

14.История Узбекской ССР. Том I. Ташкент, 1967.

15.История Чувашской АССР с древнейших времен др наших дней. Том I. Чебоксары, 1966.

16.Кинятина Н, Блиев М.Кавказ и Средняя Азия во внешней политике России. Вторая половина XVIII-80 - е гг - XIX вв. Москва, 1984.

17.Губер А.А, Ким Г.Ф, Хейфец А.Н. Новая история стран Азии и Аврики. Москва, 1982.

18.Mehdiyeva N.H. Türk xalqlarının tarixinə dair materiallar. Bakı, 1994.

19.Зырянов П.Н, Буганов В.И. История России. Конец XVII-XIX век. Учебник. Москва, 1999.

**IV bölməyə dair:**

1.Abdullayev Z.Z, Həsənov N.Ə. İranın yeni tarixi. Bakı, 1982.

2.Чизхолм Д. Мировая история в датах. Москва, 1994.

3.Донской Г.М. Задания для самостоятельной работы по новой истории. Москва, 1983.

4.Ерофеев Н.А. Империя создавалась так... Ангилийский калониализм в XVIII в. Москва, 1964.

5.История стран Азии и Африки в новое время. Учебное пособие. Москва, 1971.

6.Губер А.А, Ким Г.Ф, Хейфц А.Н. Новая история стран Азии и Африки. Москва, 1982.

7.Nehru S. Ümumdünya tarixinə bir nəzər. Bakı, 1982.

8.Новая история Китая. Москва, 1972.
9.Шаститко П.М. Нана Сахиб. Москва, 1967.
10.Всемирная история. Учебник. Москва, 1997.

**I.Xəritələr və atlaslar**

1."Afrika və Yaxın Şərq yeni dövrün başlanğıcında".
2."Avropa yeni dövrün başlanğıcında".
3."Fransa burjua inqilabı dövründə (1789-1794). Avropa Direktoriya dövründə".
4."Hindistan yeni dövrün başlanğıcında".
5."XX əsrin başlanğıcında Latın Amerikasında müstəqil dövlətlərin yaranması."
6."İstiqlaliyyət müharibəsi və ABŞ-ın yaradılması".
7."1789-cu ildən 1876-cı ilədək müstəmləkə işğalları".
8."Osmanlı imperiyası XVII əsrdə".
9."Polşanın bölüşdürülməsi".
10."Şimal müharibəsi".

**II.Cədvəllər, sxemlər, diaqramlar, şəkillər.**

1."Bastiliyanıq alınması" şəkli.
2."Feodalizm və kapitalizm xarakterik xüsusiyyətləri" cədvəli.
3."Fransada üç silk" cədvəli.
4."Fransa inqilabdan əvvəl" cədvəli.
5."İngiltərə inqilabdan əvvəl" cədvəli.
6."İngilis kralı I Karlın edam edilməsi" şəkli.
7."İstiqlaliyyət Bəyannaməsi"nin elan edilməsi şəkli.
8."1787-ci il Konstitusiyasına əsasən ABŞ-ın ali hakimiyyət orqanları" sxemi.
9."Neyzvi döyüşü" sxemi.
10."Poltava döyüşü" sxemi.
11."Texnika XVIII əsrdə" sxemi.
12."Ticarət. Manufaktura. Fabrik" sxemi.

**III.Diafilmlər. Audiovizual vasitələr:**

1."Böyük Fransa burjua inqilabı".
2."İstiqlaliyyət müharibəsi və ABŞ-ın yaradılması".
3."XVII əsr İngiltərə burdua inqilabı".
4."Poltava döyüşü".

# X SİNİF

## YENİ TARİX

**Həftədə 2(6) saat, il boyu 68(204) saat.**

## I BÖLMƏ

## DÜNYA ÖLKƏLƏRİ XIX ƏSRİN BİRİNCİ YARISINDA - 21(60) saat.

**1.Avropa ölkələri və Rusiya - 6(19) saat.**
**İngiltərə - 1(3) saat.**
Sənaye çevrilişinin başa çatması. Maşınlı sənayenin inkişafı. Dəmir yolların çəkilişi. Nəqliyyatın inkişafının iqtisadi əlaqələrin və ticarətin genişlənməsinə təsiri. Ölkədə iri sənayenin aparıcı rolu. Şəhərlərin inkişafı.

İstehsalın genişlənməsi və rəqabət. İqtisadi böhranlar, səbəbləri və nəticələri. Fəhlələrin vəziyyəti. Tred-yunionların qadağan edilməsi haqqında qanunun ləğv olunması. 1832-ci ilin parlament islahatı. Xartiyaların hazırlanması. Parlamentin xartiyaları rədd etməsi. Çartizm hərəkatı və onun məğlubiyyəti.

**Fransa - 1(3) saat.**
Fransada birinci imperiyanın yaradılması. Qəsbkarlıq müharibələrinin başlanması. 1800-1807-ci illərdə Avstriya, Prussiya və Rusiya orduları üzərində Fransanın qələbələri. Kontinental blokada. Tilzit sülhü. Napoleon imperiyasının zəifləməyə başlaması. 1812-ci il Fransa-Rusiya müharibəsi. "Xalqlar döyüşü". Fransanın məğlubiyyəti. Vyana konqresi. "Müqəddəs ittifaq".

**Almaniya - 1(4) saat.**
Almaniyada feodal dağınıqlığı. Prussiya krallığının digər alman dövlətlərindən fərqi. Prussiyada kapitalizmin inkişafı. Dəmir yolların çəkilişi. İqtisadi geriliyin səbəbləri: feodal qaydalarının mövcudluğu, siyasi dağınıqlıq, daxili bazarın ləng inkişafı.

Mülkədar torpaq sahibliyi şəraitində muzdlu əməyin kənd təsərrüfatında tətbiqi. Kəndlilərin və fəhlələrin vəziyyəti. Sileziya toxucularının üsyanı (1844). Alman burjuaziyası.

1848-1849-cu illər inqilabı. Berlin üsyanı. Franktfurt-Maynda Ümumalman parlamenti. Almaniyanı birləşdirmək cəhdi. Kralın parlamenti qovması və konstitusiya hazırlamaq haqqında fərmanı. Drezden və Baden hersoqlu-

ğunda üsyan (may, 1849). Üsyançılara divan tutulması. İnqilabın məğlubolma səbəbləri. Ölkədə mülkədar-yunker hökmranlığının saxlanması. Siyasi birləşmənin baş tutması. İnqilabın tarixi əhəmiyyəti. Bəzi alman dövlətlərində konstitusiyanın tətbiq edilməsi.

**İtaliya - 1(3) saat.**

Sosial-iqtisadi vəziyyət. Siyası dağınıqlıq. Ölkənin bir hissəsi Avstriya tərkibində. Feodal qaydalarının kapitalizmin inkişafını ləngitməsi. Xalq kütlələrinin narazılığının artması. Avstriya hökmranlığından azad olmağın, ölkəni siyasi cəhətdən birləşdirməyin, mütləqiyyəti və feodal qaydalarını ləvğ etməyim vacibliyi.

İtaliya burjuaziyasının monarxist dairələr və katolik kilsəsi ilə həmrəyliyi.

Milli-azadlıq hərəkatında inqilabçı-demokratik cərəyan. C.Haribaldi.

1848-1849-cu illər İtaliya inqilabı və onun xarakteri. Milan, Venesiya və Romada xalq üsyanları. Üsyanların yatırılması. İnqilabın məğlubolma səbəbləri və tarixi əhəmiyyəti.

**Avstriya-Macarıstan - 1(3) saat.**

İmperiyada sosial-iqtisadi vəziyyət. Ölkədə feodal qaydalarının hökmranlığı. İmperatorun qeyri-məhdud hakimiyyəti. Azad fikirliliyin təqibi.

Avstriya-Macarıstan çoxmillətli dövlət kimi. Kapitalist inkişafının ləngiməsi. Təhkimçilik hüququ. Milli ayrı-seçkilik. Avstriyanın sənaye, nəqliyyat və ticarətdə geriliyi.

Vyana və Praqada üsyanlar. Macar xalqının milli-azadlıq mübarizəsi. Layoş Koşut və Şandor Petefi. İnqilabın məğlubolma səbəbləri, yekunu və tarixi əhəmiyyəti.

**Rusiya - 1(2) saat.**

Mütləqiyyətin daxili və xarici siyasəti. Fransız ordusunun Rusiyaya hücumu (1812). Rusiyanın Avropanın jandarmı rolunu oynamağa başlaması. M.M.Speranskinin fəaliyyəti.

Dekabristlər üsyanı.

XIX əsrin I yarısında iqtisadi vəziyyət. Sənaye çevrilişinin başlanması. Qafqazda işğalçılıq müharibələri. Cənubi Qafqazın işğalı. İctimai hərəkat. V.Q.Belinski, A.M.Gertsen və T.Q.Şevçenko.

**2.Amerika xalqları XIX əsrin birinci yarısında - 2(6) saat.**

**Amerika Birləşmiş Ştatları - 1(3) saat.**

ABŞ-ın iqtisadi inkişafı. Kapitalist sənayesi. ABŞ-da sənaye çevrilişinin başlanması. Kənd təsərrüfatında kapitalizmin inkişafının Amerika yolu. ABŞ-da sosial münasibətlərin iki tipi və iki təsərrüfat sistemi. İrqçilik. XIX əsrin I yarısında ABŞ-da başlıca siyasi qüvvə. ABŞ-ın xarici siyasəti. Monqo doktrinası. Yeni torpaqların tutulması və köçürmə siyasəti. Nat Terner.

Abolisionist hərəkatı.

**Latın Amerikası ölkələrində sosial-iqtisadi inkişaf. İstiqlaliyyət uğrunda müharibələr - 1(3) saat.**

Sosial-iqtisadi vəziyyət. Müstəmləkə əsarəti. İspaniya müstəmləkələrində istiqlaliyyət uğrunda müharibə. Meksikada M.İdalqonun üsyanı. X.Morelosun mübarizəsi. Meksikanın müstəqil dövlət elan olunması. Quldarlığın ləğvi. S.Bolivar. Boliviya Respublikasının yaranması. Latın Amerikasında istiqlaliyyət uğrunda mübarizənin nəticələri. ABŞ-ın Meksikaya qarşı müharibəsi (1846). Latın Amerikası ölkələrində kapitalizmin inkişafı. Millətlərin formalaşması. Latifundiyaların genişlənməsi. Xarici inhisarlar tərəfindən Latın Amerikası ölkələri əhalisinin istismarı.

**3.Türk dünyası və Qafqaz xalqları XIX əsrin birinci yarısında - 3(9) saat.**

**Türkiyə - 1(3) saat.**

Sosial-iqtisadi vəziyyət. III Sultan Səlim islahatlarının davam etdirilməsi və ölkədə qeyri-sabitlik. Yeniçərlərin qiyamı (1805). III Sultan Səlimin hakimiyyətdən salınması və edam edilməsi. IV Mustafanın və II Mahmudun hakimiyyəti.

1806-1812 və 1828-1829-cu illərdə rus-türk müharibələri. Buxarest və Ədirnə müqavilələri. Türkiyə-Misir ziddiyyətləri. Avropa dövlətləri ilə münasibətlər. Türkiyə üzərində Avropa qəyyumluğu. Kapital asılılığın güclənməsi. Ölkənin iri dövlətlərin xammal bazasına çevrilməsi prosesi. Yarımmüstəmləkəyə çevrilmək təhlükəsi.

Tənzimat hərəkatının (1839) başlanması, onun səbəbləri, nəticələri və xarakteri.

**Mərkəzi Asiya, Qazaxıstan, Krım, Volqaboyu və Sibir türkləri -1(3) saat.**

Mərkəzi Asiya uğrunda İngiltərə-Rusiya rəqabəti. Regionu işğal etmək üçün bu dövlətlərin strateji planları. Rus idarə sisteminin yaradılması: xanlıqların ləğvi və mahalların təşkili. Müstəmləkəçilər əleyhinə xalq üsyanları. M.Qtemisov, İ.Taymanov və K.Kasımov üsyanların başçılığı kimi. Böyük Yüzün işğalı (1846). Krımın sosial-iqtisadi vəziyyəti.

Volqaboyu xalqlarının vəziyyəti. 40-cı illərin "kartof üsyanları"nın səbəbləri və nəticələri. Tatarıstanda sənaye istehsalının və ticarətin inkişafı. Xristianlaşdırmsa siyasəti. Sibir türklərinin vəziyyəti. Yakutlar və xakasların həyat tərzi. Çarizmin müstəmləkəçilik siyasəti. Vasili Mançarın başçılığı ilə Yakutiyada üsyan. Sibirin idarə edilməsi haqqında nizamnamə (1822). Əhali zümrələri. Sibir general-qubernatorluğunun yaradılması.

**Qafqaz xalqları - 1(3) saat.**

XIX əsrin başlanğıcında Qafqazdakı dövlət qurumları.

Gürcüstanda Kaxetiya və İmeretiya çarlıqları. Meqreliya, Svanetiya, Quriya, Acarıstan və Abxaziya knyazlıqları.

Şimali Qafqazda avar xanlığı. Qaraqaytaq usmiliyi. İşkeriya (Çeçenistan). Kabarda knyazlıqları. Adıgeylər. Osetinlər. Dağlı xalqları arasında qəbilə-tayfa və feodal münasibətləri. Rusiyanın Qafqazda işğalçılıq planları.

Rusiya işğalının başlanması. Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi. Gürcüstan quberniyasının yaradılması. İmeretiya çarlığı. Quriya knyazlığı və Abxaziyanın işğalı. Rus idarəçiliyi sisteminin formalaşdırılması. Rusiyanın müstəmləkəçilik siyasəti.

Kartli (1804), Kaxetiya (1813), İmeretiya (1819) və Quriyada (1841) çarizmə qarşı üsyanlar və kəndli çıxışları.

Komendant idarə üsulunun ləğvi. Canişinliyin yaradılması. Cənubi Qafqazın Rusiya sənayesinin xammal mənbəyinə çevrilməsi prosesinin başlanması.

Şimali Qafqazda Rusiyanın işğalçılıq siyasəti. Dağlıların milli-azadlıq hərəkatı. Müridizm. İmam Qazi Məhəmməd, Şeyx Şamil. İmamətin yaradılması.

Azadlıq mübarizələrinin çap orduları üzərində qələbələri. Milli Misak Məclisi və onun Şimali Qafqaz xalqlarını birləşdirməkdə rolu.

**4.Asiya və Afrika ölkələri XIX əsrin I yarısında - 5(14) saat.**

**İran - 1(3) saat.**

Sosial-iqtisadi vəziyyət. İranın beynəlxalq vəziyyəti. Rusiya-İran müharibələri. İranın məğlubiyyəti və Cənubi Qafqazı itirməsi.

İranla bəzi Avropa dövlətləri arasında imzalanan müqavilələr. İngiltərə, Fransa, Avstriya və ABŞ-ın İrandan aldığı imtiyazlar. Ölkədə xarici dövlətlərin təsirinin güclənməsi. Təslimçilik rejimi. İranın əcnəbi dövlətlərin xammal mənbəyi və satış bazarına çevrilməsi. Xparici kapitalın İran iqtisadiyyatına təsiri. Sənətkarlığın zəifləməsi.

Feodal quruluşu böhranının dərinləşməsi. Əmtəə-pul münasibətləri inkişafının feodal qaydalarını sarsıtması. Kəndlilərin ağır vəziyyəti. Qəsbkarlıq. Babilər hərəkatı.

**Hindistan - 1(3) saat.**

Ost-Hind kompaniyasının Hindistanın cənubunda ağalığı. XIX əsrin əvvəllərində Hindistanda müstəqil dövlətlər. Siqxdə feodallararası mübarizə. Rəncabın birləşdirilməsi və Siqx dövlətinin yaranması. Amritsar müqaviləsi. XIX əsrin I yarısında Hindistanın iqtisadi inkişafı. Ost-Hind kompaniyasının iqtisadi siyasəti. Bentinkin islahatları. XIX əsrin 20-30-cu illərində xalq hərəkatı. Hind maaarifçiləri. Maysor üsyanı (1830). İngilis-siqx müharibələri. Hindistanın istilasının başa çatdırılması.

**Çin - 1(3) saat.**

XIX əsrin əvvəllərində Çinin zəifləməsi. "Ağ Zambaq"gizli cəmiyyətinin rəhbərliyi altında 1796-1804-cü illər üsyanı. ABŞ və İngiltərənin Çinlə ticarəti. Tiryək ticarətinin genişlənməsində Ost-Hind kompaniyasının rolu. Kanton tiryək ticarətinin əsas mərkəzi kimi. Rusiya-Çin münasibətləri. Mancurlara qarşı çıxışların artması. İngiltərə-Çin münasibətlərinin pisləşməsi. Tiryək ticarəti haqqında imperotor fərmanı. Birinci tiryək müharibəsi. Hərbi əməliyyatların başlanması. İngiltərənin Hönkönqu ələ keçirməsi. Xalqın müqaviməti. Nankin müqaviləsi (1842). İngilislərə və mancurlara qarşı silahlı mübarizə.

**Yaponiya - 1(2) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. Kəndli təsərrüfatı və sənaye. Manufaktura tipli müəssisələrin genişlənməsi.

Avropa dövlətləri və Çinlə münasibətlər. Ticarət. "Qapalı ölkə" və "Açıq qapı" siyasətini doğuran şərait. Tokuqava hökumətinin böhranı.

Feodal təsərrüfatı sisteminin tənəzzülü. Kənddə ictimai təbəqələşmə. Sosial ziddiyyətlərin genişlənməsi. Hökumət əleyhinə çıxışlar. Yaponiyanın xarici dövlətlərin xammal bazasına çevrilməsi.

**Afrika və ərəb xalqları - 1(3) saat.**

XIX əsrin əvvəllərində Afrika xalqlarının vəziyyəti. Qul alveri. 30-40-cı illərdə Avropa dövlətləri tərəfindən qul alverinin qadağan edilməsi. Afrika xalqlarının inkişafına mane olan amillər. Müstəmləkə zülmünə qarşı üsyanlar. Əlcəzair əhalisinin fransız müstəmləkəçilərinə qarşı mübarizəsi. Əbdülqadir.

Misirdə döyüşçü məmlüklərin Napoleon Bonapartın ordusuna qarşı müharibəsi. Yerli feodalların xalqa zidd siyasəti. Məhəmmədəlinin islahatları. XIX əsrin I yarısında Misirdə kənd təsərrüfatı və sənayenin inkişafı. İnzibati sistem. Məhəmmədəlinin Türkiyə ilə müharibədə məğlub olması. Türkiyə tərəfindən Misirin daxili muxtariyyatının tanınması. Suriyanın Məkkə (1832) və Dəməşq (1832) şəhərlərinin Misir tərəfindən tutulması. 1833-cü ilin mayında ölkənin idarə olunmasının rəsmən Məhəmmədəliyə verilməsi. Misirlilərin Suriyanı tərk etməsi (1840).

**5.Mədəniyyət - 5(11) saat.**

**5.Avropa ölkələrinin mədəniyyəti - 1(2) saat.**

Elm. Mədəniyyət və rabitə sahəsində texniki yeniliklər. Kənd təsərrüfatı və sənaye sahələrində texnikanın tətbiqi. Riyaziyyatın inkişafı: İ.Nyuton, D.Coul və R.Meyer. Kimya və fizika sahəsində kəşflər. Biologiyanın uğurları. Q.Darvin.

Qabaqcıl ideyaların ədəbiyyatda tərənnümü. İngilis şairi Corc Bayron. Yazıçı Ç.Dikkens. Franssız yazıçıları V.Hüqo və O.Balzak. Ədəbiyyatda tənqidi realizm.

Musiqi. Polyak bəstəkarı F.Şopen. Avstriya və alman bəstəkarları F.Şubert, R.Şuman, macar bəstəkarı F.List, italyan bəstəkarları H.Rossini, C.Verdi və J.Mile.

Memarlıq abidələri.

**Rusiya mədəniyyəti - 1(2) saat.**

Rusiyada maarif və elm. N.İ.Lobaçevski, N.N.Zinin, V.V.Petrov və N.İ.Piroqov. Səyyahlar. İ.F.Kruzenştern, F.F.Bellins-Hauzen və b.

Ədəbiyyat. A.S.Puşkin, A.S.Qriboyedov, M.Y.Lermontov və N.V.Qoqol.

İncəsənət. Memarlıq, rəssamlıq və heykəltəraşlıq. K.İ.Rossi və K.P.Bruyulov. Musiqi.M.İ.Qlinka.

**Türk dünyasının mədəniyyəti - 1(3) saat.**

Türkiyədə maarif və elm. Hərbi və tibb məktəbləri şəbəkəsinin genişləndirilməsi. Məktəb islahatları. Türk dilində ilk kitab.

Ədəbiyyat. Namiq Kamal, Şəmsəddin Sami və Əhməd Midhət. Poeziya. Ə.Tarhan, R.Əkrəm və R.Tofiq.

Mətbuat. Türk dilində ilk qəzet.

Memarlıq. Təsviri sənət. Musiqi. Bəstəkarlar: Osman İbrahim, Nəcib Vəzirzadə və b. Avropa istiqamətli peşəkar bəstəkarlıq məktəbinin yaradıcıları. Teatr.

Mərkəzi Asiya, Qazaxıstan, Volqaboyu və Sibir türkdlərinin mədəniyyəti. Maarif və elm. Tatar şərqşünasları. İlk buryat alimi Ç.Banzarov.

Qazax, türkmən və özbək ədəbiyyatı. Şifahi xalq yaradıcılığı. Akınlar.

Musiqi. Xalq mahnıları. K.Sağırbayev. Qazax rəqsləri. Təsviri sənət. Metalişləmə. Xalçaçılıq.

**Qafqaz xalqlarının mədəniyyəti - 1(2) saat.**

Gürcüstanda maarif və elm. Çarizmin idarəçiliyi asanlaşdırmaq üçün maarif şəbəkəsinə diqqət artırması. Tiflisdə rusdilli məktəblərin açılması. İbtidai məktəblər. Gimnaziyalar. Gürcü ədəbiyyatı. A.Çavçavadze və N.Barataşvili. Milli teatrın əsasının qoyulması. Dramaturq Eristavi. Rəssamlıq. G.İ.Maysuradze və Qvelesiani.

Musiqi. Qabaşvili. Portretçi rəssamlar.

Şimali Qafqaz xalqlarında ədəbiyyat. Şifahi xalq yaradıcılığı. Nağıl və dastanlarda rus işğalçılarına nifrət və vətənə məhəbbət hisslərinin tərənnümü. Xalq qəhrəmanları. Şeyx Mənsur, Hacı Murad, Şeyx Şamil və h. haqqında söyləmələr, mahnılar.

Küçə tamaşaları: kəndirbazlar, pəhləvan oyunları masqarabazlar-xalq məzhəkələri.

Dekorativ-tətbiqi sənət. Ağac və metal üzərində oyma, bədii naxışlar, parça üzərində bədii tikmələr.

Xalq musiqisi. Bondur, ildak, zurna və qarmon musiqi alətləri kimi.

**Şərq xalqlarının mədəniyyəti - 1(2) saat.**

İran, Hindistan və Çində maarif və elm. Ədəbiyyat və incəsənət. Rəssamlıq və memarlıq. Musiqi. Şərq xalqlarının mədəniyyətinin inkişafına mane olan amillər. Qərb ölkələri mədəniyyətinin Şərqə təsiri.

**Təkrar-ümumiləşdirici dərs: "Dünya ölkələri XIX əsrin birinci yarısında. Sosial-iqtisadi və siyasi inkişafın əsas yekunları" - 0(1) saat.**

Nəticə.

Sənəd.

Xronoqrafiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslaravrası və fənlərarası əlaqələr:** Ümumi tarix (VIII sinif): Fransa və İngiltərə XI-XV əsrlərdlə. Almaniyada kəndli müharibəsi. Amerika XV əsrdə. Avropalıların Amerikada müstəmləkə işğalları. Teymurilər dövləti. Osmanlı dövlətinin yaranması. Osmanlı fəthləri. Sibir, Qazan və Həştərxan xanlıqları. Çingiz xanın Çinə yürüşü. Böyük Moğol imperiyası (IX sinif): İngiltərə burjua inqilabı. Sənaye çevriliş. Fransa burjua inqilabı. Rusiya XVII əsrin ikinci yarısı - XVIII əsrdə. Qərbi Avropa xalqlarının və Rusiyanın mədəniyyəti. Şimali Amerikada istiqlaliyyət müharibəsi. Latın Amerikasında müstəqil dövlətlərin yaradılması. Mərkəzi Asiya və Qazaxıstan xalqları XVII-XVIII əsrlərdə. Volqaboyu və Sibir türkləri XVII-XVIII əsrlərdə. Türkiyə XVIII əsrdə. XVI-XVII əsrlərdə türk xalqlarının mədəniyyəti. Qafqaz xalqları XVII-XVIII əsrlərdə. İran XVII əsrin ikinci yarısı - XVIII əsrdə. Hindistan XVII əsrin ikinci yarısı - XVIII əsrdə. Azərbaycan tarixi (IX sinif): Səfəvilər dövlətinin zəifləməsi və süqutu. Nadirin şah seçilməsi. İnsan və cəmiyyət (X sinif): Texniki tərəqqidə elm və təhsilin rolu. İnsanların iqtisadi fəaliyyət və təkamülü.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** İstehsal münasibətləri. İqtisadi böhran. Anarxiya. Qrossbauerlər. İyul monarxiyası. Siyasi dağınıqlıq. Xırda burjua demokratları. Ümumi seçki hüququ. İkinci respublika. "Avropanın jandarmı". Arakçeyevçilik. İnqilabi proqram. Gizli dərnəklər. Ümumalman parlamenti. Yunkerlər. Tred-yunionlar. Xartiya. Restavrasiya rejimi. Milli emalatxanalar. Kontinental blokada. Parlament islahatı. Müstəmləkə sistemi. Fermer təsərrüfatı. Linc məhkəməsi. İrqçilik. Yarımmüstəmləkə. Mühacirət. Abolisionistlər. Homstedlər. Liberal mülkədar. Azadlıq ordusu. Müsadirə. İstefa. Müstəqil milli dövlətlər. Latifundiya. Qəyyumluq. Kapital asılılığı. Tənzimat hərəkəti. Strateji plan. İdarə sistemi. "Kartof üsyanı". Xammal bazası. Komendantlıq. Müridizm. İmamət. Tayşa. Toyon. Ceneral-qubernatorluq. Quberniya. "Xətt-şərif" (ali fərman). İctimai fayda şurası. Qeyri-bərabər hüquqlu müqavilə. İmtiyaz, təslimçilik rejimi. "Qapalı ölkə", "Açıq qapı" siyasəti. "Ağ zambaq" cəmiyyəti. "Səmavi rifah dövləti". Konfe-

derasiya. Komprador burjuaziya. Boykot siyasəti. Milli konqres. "Qaralar ovlağı". Zəminədarlıq sistemi.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilikləri və bacarıqları müvafiq mövzuların öyrənilməsinə tətbiq etmək. İqtisadi böhranların səbəb və nəticələri izah etmək.

XIX əsrin I yarısında Qərbi Avropanı bürümüş inqilabların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək. İnqilabi hadisələrin ölkələrin gələcək inkişafına göstərdiyi təsiri aydınlaşdırmağı bacarmaq. Müstəmləkəçilik siyasətinin mahiyyətini açmaq.

Fransada 1815-1850-ci illər arasındakı dövrdə baş vermiş üsyanların, burjua inqilabının ölkənin siyasi və iqtisadi vəziyyəti ilə əlaqəsini açmaq. İyul inqilabı ilə Böyük Fransa inqildabının hərəkətverici qüvvələrini və nəticələrini müqayisə etmək. İyul inqilabından sonra Fransada kapitalizmin sürətli inkişafının səbəblərini izah etmək. 1789, 1830 və 1848-ci illərdə Fransada yaranmış siyasi vəziyyəti müqayisə etmək. Lion üsyanlarının başvermə və məqbulolma səbəblərini izah etmək. XIX əsrin 40-cı illərində Fransada iyul monarxiyasının böhranının səbəblərini göstərmək. Fransada 1848-ci il inqilabının səbəblərinin iyul monarxiyasının siyasəti ilə əlaqəsini şərh etmək. Böyük Fransa burjua inqilabı ilə (1789-1794), 1830-cu il iyul və 1848-ci il burjua-demokratik inqilabları arasındakı fərqləri və oxşar cəhətləri müəyyənləşdirmək.

XIX əsrin I yarısında Rusiyanın daxili və xarici siyasətinin mahiyyətini aydınlaşdırmaq. 1812-ci il müharibəsinin səbəblərini, nəticələrini və xarakterini izah etmək, qələbədə xalqın roluna qiymət vermək. Napoleon ordusunun məğlubiyyət səbəblərini şərh etmək. Rusiyada azadlıq hərəkatının başlanmasında Avropanın təsirini açıqlamaq. Dekabristlər üsyanının və onun Rusiyanın ictimai inkişafına təsirini təhlil etmək, üsyanın məğlubiyyət səbəblərini faktlarla əsaslandırmaq. Rusiyada kapitalizmin inkişafı, sənaye çevrilişinin başlanmasını, ticarətin inkişafını və ümumrusiya bazarının yaranmasını cəmiyyətin obyektiv inkişaf qanunauyğunluqları ilə bağlamaq. Mütləqiyyətin müstəmləkəçilik siyasətinin mahiyyətini açmaq. İctimai hərəkatın yüksəliş səbələrini aydınlaşdırmaq. Mədəniyyətin inkişafına təsir edən amilləri göstərmək. Elm, texnika, ədəbiyyat və incəsənətdəki inkişafın uğurlarını kapitalizmin inkişafı ilə əlaqələndirmək.

Bölmədə adı çəkilən ölkələrin yerini xəritədə göstərməyi bacarmaq və kontur xəritədə onların ərazisini nişanlamaq.

ABŞ-da sosial münasibətlərin iki tipini və təsərrüfatın hökm sürməsinin səbəb və nəticələrini müəyyənləşdirmək. ABŞ-ın cənubunda irqçiliyin kök salmasını faktlarla sübut etmək və bunun səbəblərini aydınlaşdırmaq. Zəbt

edilmiş yeni torpaqlara köçürmə ilə ABŞ-da ziddiyyətlərin kəskinləşməsinin ləngiməsi arasındakı əlaqəni müəyyənləşdirmək, irqçiliyin mahiyyətini açıqlamaq. XIX əsrin I yarısında quldarların siyasi üstünlüyü ilə sənaye və ticarət burjuaziyasının zəifliyi arasında səbəb-nəticə əlaqələrini izah etmək.

Xəritədə Avropa dövlətlərinin Latın Amerikasındakı müstəmləkələrini tapmaq və XI əsrin birinci yarısında yaranmış müstəqil dövlətləri sadalamaq. Latın Amerikasındakı istiqlaliyyət uğrunda müharibələrin yarımçıq qalmasının səbələrini aydınlaşdırmaq. İdalqo və Morelosun xidmətlərini qeyd etməklə onları Meksika xalqının qəhrəmanları kimi xarakterizə etmək. Bolivarın fəaliyyəti və milli azadlıq müharibəsinin güclənməsində onun rolunu şərh etmək. Latın Amerikasının təbii sərvətlərinin qarət edilməsi ilə İspaniyanın və Portuqaliyanın müstəmləkə siyasətinin əlaqəsini göstərmək. Müstəmləkə əsarətinə qarşı çıxışları və üsyanları Avropa ölkələrinin və ABŞ-ın müstəmləkəçilik siyasətinə etiraz təzahürü kimi qiymətləndirmək və bunu əsaslandırmaq. Üsyanların müstəmləkə əsarətinə qarşı çevrilməsini faktlarla sübut etmək. Latın Amerikasındakı istiqlaliyyət uğrunda müharibələrin nəticələrini təhlil etmək, onları qiymətləndirmək və səciyyələndirmək.

Latın Amerikasında istiqlaliyyət uğrunda müharibə nəşticəsində İspaniya mütləqiyyətinin zülmünün devrilməsi və bir sıra müstəqil dövlətlərin yaranmasını faktlarla sübut etmək, onların dövlət quruluşunu müəyyənləşdirmək və xəritədə göstərmək.

Türkiyədə III Sultan Səlimin dövründə qeyri-sabitliyin səbələrini izah etmək. Sultana qarşı baş verən üsyanların mahiyyətini açmaq. XIX əsrin əvvəllərindəki Rusiya-Türkiyə müharibələrinin səbəblərini və xarakterini müəyyənləşdirmək, nəticələrini aydınlaşdırmaq. Türkiyənin Avropa dövlətlərindən asılılığının artması səbələrini açıqlamaq. Tənzimat hərəkatını doğuran amilləri və onun xarakterini açıqlamağı bacarmaq.

Mərkəzi Asiya, Qazaxımstan və Sibirdə Rusiyanın marağının getdikcə artmasının səbəblərini izah etmək. Üsyanların yerli və xarici zülmə qarşı çevrildiyini faktlarla izah etmək. Mədəniyyətin xalqların azadlıq mübarizəsində rolunu açmaq.

XIX əsrin başlanğıcında Qafqazda mövcud olan pərakəndəliyin səbələrini izah etmək. Onun xarici işğalçılara qarşı mübarizədə xalqın qüvvəsini zəiflətdiyini faktlarla aydınlaşdırmaq. Rusiyanın işğalçılıq siyasətinin mahiyyətini açmaq. Çarizmə qarşı üsyanların səbələrini və nəticələrini aydınlaşdırmaq.

Rusiyanın müstəmləkəçilik siyasətinin mahiyyətini izah etməyi bacarmaq. Azadlıq mübarizəsində milli mədəniyyətin roluna qiymət vermək.

İrana Avropa dövlətlərinin və Rusiyanın marağının artması səbələrini aydınlaşdırmaq. Cənubi Qafqaz uğrunda Rusiya-İran müharibələrinin səbəblərini izah etmək. İranın xarici dövlətlərlə qeyri-bərabər hüquqlu müqavilələr bağlamasına məcbur olmasının səbəblərini şərh etməyi bacarmaq. Feodal quruluşunun böhranının, sosial ziddiyyətlərin kəskinləşməsinin və babilər hərəkatının səbəblərini müəyyənləşdirmək. Hindistanın xarici dövlətlərin işğalçılıq plandlarında tutduğu yeri izah etmək. Amritsar müqaviləsinin Hindistan üçün nəticələrini şərh etmək. Martx knyazlıqlarının Hindistanda ingilis hakimiyyətinin möhkəmlənməsinə mane olmasını faktlar əsasında sübut etmək. XIX əsrin əvvəlllərində Ost-Hind kompaniyasının siyasətinin fəallaşmasını açıqlamaq. Heydərabad knyazlığı (1800) və Audla (1801) bağlanan müqavilələrin yerli knyazların xarici siyasətlə məşğul olmalarına yol verməmək məqsədi daşıdığını izah etmək. İngilis-maratx müharibələrində ingilis ordularının qalib gəlməsinin səbələrini açıqlamaq.

İngiltərə və ABŞ-ın Çində siyasətinin mahiyyətini açmaq. Feodal zülmü ilə müstəmləkə zülmü arasındakı fərqi izah etmək. Çinin təbii sərvətlərinin qarət edilməsində ingilislərin roluna qiymət vermək. İngiltərə siyasətinin ziddiyyətli tərəflərini aydınlaşdırmaq. Üsyanların feodal zülmü və müstəmləkə əsarətinə qarşı çevrilməsini sübut etmək. "Birinci tiryək müharibəsi"ndə ingilislərin və fransız qoşunlarının qələbəsinin səbəblərini izah etmək. Müharibənin nəticələrini şərh etmək. İngilislərin tutduğu Hankonq adasını xəritədə göstərmək.

Yaponiyada hökumətin siyasi böhranının iqtisadiyyatdakı böhranla bağlı olduğunu sübut etmək. Ölkədə ictimai ziddiyyətlərin, narazılıqların və çıxışların səbələrini araşdırmağı bacarmaq.

Şərq ölkələrində mədəniyyətin xalqın milli-azadlıq mübarizəsində oynadığı rolu açıqlamağı və qiymətləndirməyi bacarmaq.

## II BÖLMƏ

## DÜNYA ÖLKƏLƏRİ XIX ƏSRİN İKİNCİ YARISINDA - 19(61) saat.

### 6.Avropa və Rusiya - 5(19) saat.

### İngiltərə - 1(4) saat.

Sənayenin inkişaf səviyyəsinə, ticarətin miqyasına və dəniz qüdrətinə görə Böyük Britaniyanın dünya birinciliyi. İngiltərə dünya emalatxanasıdır. Əmək məhsuldarlığı. İngiltərənin dünyada qüdrətli ölkəyə çevrilməsi. Xaricə kapital ixracı. Sosial-iqtisadi vəziyyət. Tred-yunionlar. Dövlət quruluşu-

nun parlamentli monarxiya siyasətində qalması. Liberal və mühafizəkar partiyalar. 1867-ci il parlament islahatı.

İngiltərənin müstəmləkəçilik siyasəti. Onun dünyada ən iri müstəmləkə dövlətinə çevrilməsi. "Ağ müstəmləkələr". Müstəmləkələrdə milli-azadlıq hərəkatı.

Müstəmləkələrin özünüidarə uğrunda mübarizəsi. Kanada ilk dominiondur.

**Fransa - 1(4) saat.**

Fransada 1851-ci il 2 dekabr dövlət çevrilişi. İkinci imperiyanın yaradılması. Tətillərin qadağan edilməsi haqqında qanunun ləğv edilməsi (1864). İkinci imperiya zamanı Fransanın apardığı müharibələr. Fransa-Prussiya müharibəsi (1870-1871). "Sedan fəlakəti". 1870-ci il 4 sentyabr inqilabı. Fransanın respublika elaqn edilməsi. İkinci imperiyanın dağılması. 1870-ci il inqilabının xarakteri. "Milli xəyanət" komitəsi. Fransa ilə Almaniya arasında müqavilə (1871). Tyer hökumətinin təşkili. 1871-ci il 18 mart üsyanı. İlk inqilabi hökumət. Paris Kommunası və onun iqtisadi və sosial tədbirləri. Fransanın sosial-iqtisadi inkişafının xüsusiyyətləri. Dünyanın bölüşdürülməsində Fransanın iştirakı. Fransa-Almaniya və Fransa-İngiltərə ziddiyyətləri.

**İtaliya - 1(4) saat.**

İtaliyanın birləşdirilməsi uğrunda mübarizə. Milli birlik uğrunda mübarizənin güclənməsi. İctimai hərəkatlar və cərəyanlar. C.Haribaldi. Kamillo Kavur. Avstriyaya qarşı Sardiniya-Fransa ittifaqının yaradılması (1859). Müharibənin başlanması. Avstriyanın məğlubiyyəti. Lombardiyanın Sardiniya krallığına birləşdirilməsi. Kiçik İtaliya dövlətlərində inqilabi hərəkat Birləşmədə Sardiniya krallığının rolu.

Haribaldinin "Minlər" dəstəsi. Sicilyanın azad edilməsi. Neapola yürüş. İtaliyanın "yuxarıdan" birləşdirilməsinin başa çatdırılması (1861). İtaliya krallığının yardılması. Konstitusiyalı-monarxiya quruluşu. Romanın ilhaq edilməsi. Birləşmənin başa çatması (1870) və əhəmiyyəti.

**Almaniya -1(4) saat.**

Almaniyanın birləşdirilməsi uğrunda mübarizə. Prussiyanın güclənməsi. Milli birləşmə yolları. "Dəmir və qanla" birləşdirmənin hazırlanması. Otto Bismark. Danimarka və Avstriya ilə müharibə. Şimali Alman ittifaqının yaradılması (1866) və 22 alman dövlətimnin birləşməsi.

Fransa-Prussiya müharibəsinin Almaniya üçün nəticələri. Almaniyanın birləşdirilməsinin başa çatması (1871). Almaniya imperiyasının yaradılması. Almaniya "Üçlər ittifaqı" hərbi blokunun yaradıcısıdır.

**Rusiya - 1(3) saat.**

XIX əsrin 50-60-cı illərində Rusiyanın iqtisadi və siyasi vəziyyəti. Təh-

kimçilik hüququnun süqutu. Burjua islahatları. 60-90-cı illərdə iqtisadi inkişaf. Kənd təsərrüfatında və sənayedə kapitalizmin inkişafı. Şəhərlər, nəqliyyat və ticarət. 60-90-cı illərdə ictimai hərəkat. Xarici siyasət. "Şərq məsələsi"nin kəskinləşməsi. Krım müharibəsi. 1877-1878-ci illərdə Rusiya-Türkiyə müharibəsi. Mərkəzi Asiyanın işğalının başa çatdırılması. Çarizmin qatı millətçilik siyasəti.

**Amerika xalqları - 2(6) saat.**

**Amerika Birləşmiş Ştatları - 1(3) saat.**

ABŞ-da burjua-demokratik inqilabının yetişməsi. Respublikaçılar partiyasının yaradılması. Quldarlığa qarşı mübarizə. Con Braun üsyanı. A.Linkolnun prezident seçilməsi. Quldarların qiyamı və ölkənin cənub ştatlarında Konfederasiyanın yaradılması.Vətəndaş müharibəsi. Onun səbəbləri və xarakteri. Şimalla cənub arasında gedən hərbi əməliyyatlarda qüvvələr nisbəti. Homsteddlər haqqında qanunun qəbul edilməsi (1862). Quldarlığın ləğvi (1863). Vətəndaş müharibəsinin ikinci mərhələsi. Şimalın qələbəsi. İrticaçı qüvvələrin fəallaşması. Kukluksklançılar. Konstitusiyada düzəliş. Ağlarla qara dərililərin hüquq bərabərliyinin tətbiq edilməsi. Burjua inqilabının nəticələri və tarixi əhəmiyyəti.

**Latın Amerikası ölkələri - 1(3) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. Müstəqillik əldə etmiş ölkələrdə respublika quruluşunun yaradılması. Kapitalizmin inkişafı və millətlərin formalaşması. Xarici inhisarların Latın Amerikasında fəallaşmaları. Avropa dövlətləri və ABŞ-ın bu ölkələrə ağır şərtli müqavilələri zorla qəbul etdirməsi və onları yarımmüstəmləkələrə çevirməsi. Yerli latifundiyaçılarla xarici kapitalist ittifaqlarının yüksəlməsi. Braziliya və Argentinada kəndli həyəcanları və kütləvi çıxışları. Yerli sənaye burjuaziyasının milli iqtisadiyyatı inkişaf etdirmək uğrunda mübarizəsi.

**8.Türk dünyası və Qafqaz xalqları - 3(9) saat.**

**Türkiyə - 1(4) saat.**

Krım müharibəsində müttəfiqlərin qələbəsi. Tənzimat hərəkatının ikinci mərhələsi və nəticələri. Osmanlı imperiyasının xarici dövlətlərdən asılılığının güclənməsi. Xalq narazılığının artması. "Güləli təşəbbüsü". Türk burjuaziyasının formalaşması. Maarifçilik və konstitusiya tərəfdarları hərəkatının başlanması - Namiq Kamal, İbrahim Şinasi və b. "Yeni Osmanlılar" cəmiyyətinin yaradılması (1865) və onun gizli fəaliyyəti. İstanbulda xalq həyəcanları. Saray çevrilişi. Sultan Əbdüləzizin devrilməsi. II Əbdülhəmindin hakimiyyəti. "Midhət konstitusiyası". Onun müddəaları. 1877-1878-ci illər rus-türk müharibəsində Türkiyənin məğlubiyyəti. Berlin konqresi və onun nəticələri.

"Gənc türklər" hərəkatının başlanması (1899). "İttihad və tərəqqi" komi-

tələri, onların fəaliyyəti.

**Mərkəzi Asiya, Qazaxıstan, Krım, Volqaboyu və Sibir türkləri - 1(3) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. Mərkəzi Asiyada rus işğalının genişləndirilməsi. Çimkənd, Daşkənd Xocəntin alınması. Türküstan general-qubernatorluğunun yaradılması. Qazaxıstanın işğalının başa çatdırılması. Kokand, Xivə xanlıqlarının və Türkmənistanın işğalı. Mərkəzi Asiyanın işğalının başa çatdırılması. Müstəmləkə zülmünün güclənməsi və ona qarşı mübarizə. Krım və Volqaboyu türklərinin vəziyyəti. Təhkimçilik hüququnun ləğvi. Digər islahatlar. Kapitalist münasibətlərinin inkişafı. Kənddə ictimai təbəqələşmə. Torpaq sahibliyi və torpaqdan istifadə. Mərkəzi quberniyaların əhalisinin Volqaboyuna və Sibirə köçürülməsi. Sibirin türk xalqları. Yakutlar, tuvalılar və xakaşlar.

Müstəmləkəçilik siyasətinin davam etdirilməsi. Sənayedə kapitalizmin inkişafa başlaması. Meşə təsərrüfatı. Yüngül sənaye. Nəqliyyat və şəhərlər. Ticarət.

**Qafqaz xalqları - 1(2) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. Rusiyadakı ictimai-siyasi hərəkatın Qafqaza təsiri. İnqilabi ideyaların yayılması.

Şamil hərəkatının məğlub olması və onun səbəbləri. Şimali Qafqazın qəti olaraq Rusiyaya qatılması. Burjua islahatları və onların nəticələri.

Qafqazda sənayenin vəziyyəti. Dağ-mədən sənayesi. Neft sənayesinin inkişafı. Sənayenin digər sahələri. Fəhlələrin təşəkkülü. Poti-Tiflis, Bakı-Tiflis, Rostov-Vladiqafqaz (1875), Bakı-Petrovsk (Mahacqala) dəmir yollarının çəkilişi. Dəmir yolların regionlararası iqtisadi əlaqələrin inkişafına təkan verməsi. Millətlərin formalaşması.

**9.Asiya və Afrika ölkələri - 5(16) saat.**

**İran - 1(3) saat.**

Mirzə Tağı xanın ingilis müstəmləkəçilərinin iqtisadi-siyasi mövqeyinə qarşı yönəldilmiş islahatları və onların uğursuzluğu. İngilis-İran müharibəsi. Paris sülhü. İngilislərin İranda öz mövqeyini möhkəmləndirməsi. ABŞ və İran arasında 1856-cı il müqaviləsi. İran iqtisadiyyatının xarici kapitaldan asılılığı. Ölkənin şimalında Rusiyanın, cənubunda isə İngiltərənin ağalığı. Xalq kütlələrinin ağır vəziyyəti. 1891-ci ilin "Tənbəki qiyamı" və onun nəticələri. Millətçilik ideyalarının yayılması.

**Hindistan - 1(3) saat.**

İqtisadiyyat. Kənd təsərrüfatının geriliyi. Hindistan iqtisadiyyatının ingilis burjuaziyasının mənafeyinə tabe etdirilməsi. Müstəmləkəçilər tərəfindən əhalinin istismarı. Sipahilər ordusu. 1857-1859-cu illərdə Sipahilər üsyanı. Onun yatırılması. XIX əsrin ortalarında Hindistanda kapitalist müəssisələri-

nin yaranması, ölkədə dəmir yol çəkilişi və onun sənayenin inkişafına təsiri. Milli kapitalın pambıq-parça sənayesinin inkişafında rolu. XIX əsrin 70-80-ci illərində xalq üsyanları. Hindistan Milli Konqresi partiyasının yaradılması. Sol cinah. B.Tilakin başçılıq etdiyi xırda burjua demokratlarının müstəqil Hindistan Respublikası yaradılması uğrunda mübarizəsi.

**Çin - 1(3) saat.**

Çinin sosial-iqtisadi vəziyyəti. Çində Taupin müharibəsi (1850-1864). Mancuriya sülaləsinə və mülkədarlara qarşı mübarizənin müstəmləkəçilərə qarşı mübarizə ilə birləşməsi. Xun Sütsian. Taypinlərin tədbirləri. Torpaq haqqında qanun. Taypinlər üsyanının məğlubiyyəti, səbəbləri, tarixi əhəmiyyəti. İngiltərə-Fransa qoşunlarının Pekini tutması. Çinin hakim dairələri və Qərb dövlətləri. Yeni "Tiryək müharibələri" (1856-1860). Əcnəbilərin yeni imtiyazları. Ayqun müqaviləsi əsasında Çinin Amurosahil torpaqlarının Rusiyaya birləşməsi. Çinin xarici dövlətlərdən asılılığının artması.

**Yaponiya - 1(2) saat.**

Sosial-iqtisadi vəziyyət. 1868-ci il inqilabı. Onun səbəbləri. Burjua islahatları. Sənayenin inkişafı. Sənaye çevrilişi. Sənayedə təmərküzləşmə. Bankların və sənaye-ticarət şirkətləri fəaliyyətinin genişlənməsi. İnhisarlar.

Yapon dövlətinin hərbi cəhətdən güclənməsi. Onun hərbi-feodal xarakteri. Burjua islahatlarının imperator hakimiyyətinin güclənməsində rolu. İslahatlardan narazılıq. Kütləvi çıxışlar. Xalq hüquqları uğrunda hərəkatın genişlənməsi. 1889-cu il Konstitusiyası. İmperatorun mütləq hüquqlarının təsbit edilməsi.

**Afrika xalqları və ərəb ölkələri - 1(5) saat.**

Süveyş kanalının çəkilişi (1859-1869). Efiopiya-İngiltərə müharibəsi (1867-1868). Efiopiyanın öz istiqlaliyyətini qoruyub saxlaması. Afrikanın bölüşdürülməsinin başa çatdırılması. XIX əsrin sonlarında Afrika xalqlarının mübarizəsinin əsas formaları. "Misir misirlilər üçündür" şüarı altında üsyan (1881). Misirdə I Abbasın islahatları. Qahirə-İskəndəriyyə dəmir yolu çəkilişinin ingilislərə konsessiyaya verilməsi. Misirin iqtisadi yüksəlişi. İlk kapitalist müəssisələri. Mehdiçilərin mübarizəsi. Mehdiçilər dövləti. Xartum döyüşü. Efiopiya-İtaliya müharibəsi. Aud döyüşü. XIX əsrin sonunda Afrika xalqlarının işğalçılara qarşı mübarizəsinin nəticəsi. Afrikanın inkişaf etmiş ölkələrində millətlərin təşəkkülü. Milli azadlıq hərəkatının başlanması, milli burjuaziya və mütərəqqi ziyalılar.

XIX əsrin 50-70-ci illərində kənd təsərrüfatının vəziyyəti. Avropa sənaye mallarının yerli sənaye istehsalı ilə rəqabəti. Xarici ticarətin inkişafı. 60-70-ci illərdə siyasi həyatda avropalaşdırma prosesi. Misirin əsarət altına alınmasının yeni mərhələsi (1876).

Ərəbistanda siyasi əsarətə və vergi zülmü əleyhinə üsyanlar. 60-cı illər-

də ingilis kapitalının İraqda öz mövqeyinin möhkəmləndirməsi. İraqda canişin Midhət paşanın (1869-1872) fəaliyyəti. 60-70-ci illərdə Suriyanın iqtisadi dirçəlişi.

**10.Mədəniyyət - 4(9) saat.**

**Avropa mədəniyyəti - 1(2) saat.**

Elm. Texniki elmlərin inkişafı. Elektromaqnit dalğalarının kəşfi. Görkəmli fiziklər. Maksvell və Hers. Rentgen şüalarının, radioaktivliyin və elektronun kəşfi. Marten sobası. Avtomat dəzgahlar. Daxiliyanacaqlı mühərriklər. Nəqliyyatın inkişafı. Dəmir yolları çəkilişinin genişlənməsi. Buxar donanması. Elektrikin kəşfi. Tramvay, avtomobil, aeroplan və teplovoz. Rabitənin inkişafı. Ədəbiyyat. Simvolizm və dekadentlik. Tənqidi realizm. Bernard Şou, Emil Zolya, Mark Tven və b.

Rəssamlıq və heykəltəraşlıq. Ketl Kolvits və Oquste Rode.

Musiqi. R.Ştraus, E.Qriq və V.Dvoryak.

**Rusiya mədəniyyəti - 1(2) saat.**

Rusiyada maarif və elm. P.L.Çebişev, S.V.Kovalevskaya, A.M.Butlerov, D.İ.Mendeleyev və A.S.Popov. Səyyahlar. Q.Q.Semyonov-Tyanşanski, N.J.Prjevalski və N.N.Mikluxo-Maklay.

Ədəbiyyat. İ.S.Turgenev, İ.A.Qonçarov, F.M.Dostayevski, A.Nekrasov, L.N.Tolstoy, A.P.Çexov, A.N.Ostrovski.

Rəssamlıq. V.Q.Perov, İ.Y.Repin və V.İ.Surikov. Musiqi, P.İ.Çaykovski, M.P.Musorqski və N.A.Rimski-Korsakov.

**Türk dünyası və Qafqaz xalqlarının mədəniyyəti - 1(3) saat.**

Türkiyədə maarif və elm. İstanbul universitetinin (1874), Müəllimlər institutunun və digər ali məktəblərin açılması. Tarixçilər - Cövdət Paşa və Lütvi Paşa.

Mətbuat. Qəzet nəşri. "Sərvəti-Fyudun" jurnalı. Ədəbiyyat. Mütərəqqi meyllərin güclənməsi. Tofiq Fikrət, Xalid Ziya Uşaqgil, H.Gülpinar.

Rəssamlıq. Teatr və musiqinin inkişafı.

Mərkəzi Asiya və Qazaxıstanda elm. Ədəbiyyat və incəsənət. Rəssamlıq, musiqi.

Krım, Volqaboyu və Sibir türklərində maarif və elm. Üsuli-cədid məktəbləri. Maddi mədəniyyət. Dini inam və etiqadlar. Mətbuat və ədəbiyyat. Folklor. İncəsənət. Teatr, musiqi, rəssamlıq və memarlıq.

Qafqazda maarif və elm. Məktəblərin sayının artması. Ədəbiyyatın inkişafı. Teatr. Mətbuat. Rəssamlıq və musiqi.

**Şərq ölkələrinin mədəniyyəti 1(2) saat.**

İranda Mirzə Tağı xan islahatlarının mədəniyyətə təsiri. Maarif və elm. Tehran universitetinin açılışı. Dövlət qəzetinin nəşri. Ədəbiyyatda maarifçilik. Yəğmi Cəndəqinin yaradıcılığı. Rəssamlıq. Mahmud Məlik.

Hindistanda və Çində maarif və elm. Humanitar elmlərin inkişafı. Hindistanda "Benqal intibahı". Ədəbiyyat: R.Taqor, Yu-stao, Xuan-Tszun. İncəsənət. Memarlıq. Heykəltəraşlıq və rəssamlıq.

**Təkrar-ümumilşdirici dərs: XIX əsrin ikinci yarısında dünyanın inkişafının əsas meylləri və ziddiyyətləri - 0(2) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ümumi tarix. (IX sinif): Türkiyə XVII-XVIII əsrlərdə. Krım, Volqaboyu və Sibir türkləri XVII-XVIII əsrlərdə. Mərkəzi Asiya və Qazaxıstan xalqları XVII-XVIII əsrlərdə. İngiltərədə kapitalizmin inkişafı. Fransa burjua inqilabı. Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə. ABŞ-ın yaranması. Latın Amerikası ölkələri XVII-XVIII əsrlərdə. Afrika xalqları və ərəb ölkələri XVIII əsrdə. Rusiya XVII əsrin ikinci yarısı - XVIII əsrdə. XVII əsrin ikinci yarısı - XVIII əsrdə Avropa, Rusiya, Şərq, türk və Qafqaz xalqlarının mədəniyyəti. (X sinif): Avropa dövlətləri və Rusiya XIX əsrin birinci yarısında ABŞ və Latın Amerikası ölkələri XIX əsrin birinci yarısında. Türk dünyası və Qafqaz xalqları XIX əsrin birinci yarısında. Afrika xalqları və ərəb ölkələri XIX əsrin birinci yarısında. XIX əsrin birinci yarısında Avropa, Rusiya, türk, Qafqaz və Şərq xalqlarının mədəniyyəti. Azərbaycan tarixi (X sinif): XIX əsrin birinci yarısında Azərbaycan mədəniyyəti. Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti. Ədəbiyyat (X sinif): Namiq Kamal. "Vətən, yaxud silistre" əsəri.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** "Dünya emalatxanası". "Dünya faytonçusu". Kapital ixracı. Liberallar. Mühafizəkarlar. Dominion. "Ağ koloniyalar". İnqilabi-demokratik cərəyan. Mötədil cərəyan. "Yuxarıdan və aşağıdan birləşdirmə". "Əlverişli təcrid prinsipi" sityasəti. Britaniya Şərqi Afrikası. Sələmçilik. Kəsiklər. Müvəqqəti mükəlləfiyyətlilik. Kəndli islahatı. Zemstvo. Şəhər Duması. Burjua monarxiyası. Kəndlilərin təbəqələşməsi. Xalqçılıq. Ödənc. Homsted. İrqi ayrı-seçkilik. Burjua-demokratik inqilabı. Konfederasiya. Kənd təsərrüfatında inkişafın Prussiya və Amerika yolu. Linc məhkəməsi. Kukluksklançılar. Rezervasiyalar. Seqreqasiya. Latifundiyaçılar. Burlar. Afrikanerlər. "Küləlii təşəbbüsü". "Yeni osmanlılar". "Midhət konstitusiyası". Üsuli-cədid. Aqrar ölkə. Millət. Kapital asılılığı. Millətçilik ideyaları. İnhisarlar. Konsern. Texniki gerilik. Simvolizm. Dekadentlik. Tənqidi realizm. Dünya maliyyə mərkəzi. Sənaye-ticarət şirkətləri. "Eksteritoriallıq hüququ". Settlment. Sipahilər.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə foromalaşdırılan anlayışları

izah etmək və düzgün işlətmək. İngiltərənin başqa ölkələrdən öz üstünlüyünün zirvəsinə çatdığı sahələri müəyyənləşdirmək və bu üstünlüyün əsasını təşkil edən amilləri göstərmək. İngilis kapitalının mənbələrini müəyyənləşdirmək. İngiltərədə əmək məshuldarlığının yüksəlişinə təsir edən amilləri aydınlaşdırmaq. İngiltərə müstəmləkəçiliyinin xüsusiyyətlərini izahetmək. Müstəmləkələrin ərazisini və əhalisini müvafiq olaraq metropoliya ilə müqayisə etmək. Müstəmləkələrdəki milli-azadlıq hərəkatının mahiyyətini açmaq. 1867-ci il parlament islahatının fərqini müəyyənləşdirmək. İngiltərənin "Dünya emalatxanası" olduğunu faktlarla sübut etmək. İngiltərənin kapital ixrac etdiyi ölkələri və regionları xəritədə göstərmək. XIX əsrin ikinci yarısında İngiltərənin sosial-iqtisadi vəziyyətini səciyyələndirmək. İngiltərədə dövlət quruluşunun parlamentli monarxiya olduğunu faktlarla sübut etmək. Liberal və mühafizəkar partiyalarının fəaliyyətinin oxşar və fərqli cəhətləri və onların səbəblərini müəyyənləşdirmək.

Fransada 1851-ci il 2 dekabr dövlət çevrilişinin mahiyyətini açıqlamaq. I və II imperiyaların apardıqları müharibələrin nəticələrini müqayisə etmək. Fransa-Prussiya müharibəsinin səbəblərini izah etmək. Əsas hərbi əməliyyatların gedişini xəritədə göstərmək və kontur xəritədə nişanlamaq. Fransa-Prussiya müharibəsində tərəflərin məqsədlərini müəyyən etmək. Müharibənin xaraktekrində baş vermiş dəyişikliyin səbəblərini aydınlaşdırmaq. "Sedan fəlakəti" adlanan hadisənin səbəblərini izah etmək. 1870-ci il 4 sentyabr inqilabını doğuran səbəbləri və inqilabın nəticələrini təhlil etmək. Tarixi faktlardan istifadə etməklə "Milli xəyanət hökuməti"nin fəaliyyətinə qiymət vermək. 1871-ci il 18 mart üsyanının səbəblərini müəyyənləşdirmək. Paris Kommunnası diktaturası ilə Yakobin diktaturasını müqayisə etmək, ümumi və fərqli cəhətlərini aşkarlamaq, Fransa-Prussiya müharibəsinin Fransa üçün nəticələrini müəyyən etmək. Sənədlər və xəritə-sxemdən istifadə etməklə Fransa sənayesinin ləng inkişafının səbəblərini müəyyənləşdirmək və ölkənin sosial strukturuna onun təsirini səciyyələndirmək. XIX əsrin ikinci yarısının sonlarında İngiltərə və Fransanın sosial-iqtisadi inkişafının ümumi və fərqli cəhətlərini göstərmək. İngiltərə-Fransa ziddiyyətlərinin səbəblərini aydınlaşdırmaq. Xəritədə İngiltərə və Fransanın müstəmləkə işğallarının və təcavüzünün istiqamətlərini müəyyənləşdirmək.

Almaniyanın və İtaliyanın birləşdirilməsində fərqli və oxşar cəhətləri aydınlaşdırmaq. Bu birləşmənin hər iki ölkənin sosial-iqtisadi və siyasi inkişafında oynadığı rolu göstərmək. Almaniyanın sənaye istehsalının həcminə görə dünyada ikinci yerə çıxmasının səbəblərini müəyyənləşdirmək. Haribaldi və Kavurun fəaliyyətinə qiymət vermək. İtaliyanın və Almaniyanın dövlət quruluşlarını müqayisə etmək. Alman dövlətləri içərisində Prussiyanın güclənməsi səbəblərini açıqlamaq. Bismarkın şəxsiyyətini səciyyələn-

dirmək, Fransa-Prussiya müharibəsinin Almaniya üçün nəticələrini müəyyənləşdirmək.

XIX əsrin ikinci yarısında Rusiyanın sosial-iqtisadi və siyasi inkişafının xüsusiyyətlərini izah etmək. Xarici siyasətdə türkdilli xalqlara qarşı təcavüzkar siyasət yeritməsinin səbəblərini faktlar əsasında aydınlaşdırmaq, Krım müharibəsini və 1877-1878-ci illər Rusiya-Türkiyə müharibələrini "Şərq siyasəti"nin davam etdirilməsi kimi qiymətləndirmək. 60-70-ci illərin burjua islahatlarının səbəb və nəticələrini açmaq. Təhkimçilik hüququnun süqutunun zəruriliyini əsaslandırmaq. Rusiyada ictimai hərəkatların genişlənməsinin, o cümlədən xalqçılığın meydana gəlməsinin şərtlərini müəyyənləşdirmək. Onların perspektivini müəyyənləşdirmək.

XIX əsrin II yarısında Avropa və rus mədəniyyətinin coşğun inkişafının səbəblərini müəyyənləşdirmək. 60-70-ci illərdəki ictimai hərəkatla burjua islahatları arasında əlaqəni müəyyənləşdirmək.

XIX əsrin II yarısında Rusiyanın iqtisadi inkişafı ilə xarici siyasəti arasındakı əlaqəni aydınlaşdırmaq. Bu dövrdə Rusiyanın xarici siyasətinin əsas məqsədlərini və istiqamətlərini müəyyənləşdirmək.

ABŞ-da burjua-demokratik inqilabın zəruriliyini əsaslandırmaq. Vətəndaş müharibəsinin əsas səbəblərini və xarakterini izah etmək. Onu istiqlaliyyət uğrunda aparılan müharibədən fərqləndirməyi bacarmaq. İnqilabın natamam olmasını sübut etmək. Homstedlər haqqında qanunun və quldarlığın ləğvinin vətəndaş müharibəsinin gedişinə təsirini konkret faktlarla açıqlamaq. Vətəndaş müharibəsində Şimalın qələbəsinin səbəblərini aydınlaşdırmaq. İrticaçı qüvvələrin formalaşmasının səşbəblərini izah etmək. Burjua inqilabının ümumdünya tarixi əhəmiyyətini müəyyənləşdirmək. C.Braunun şəxsiyyətini və fəaliyyətini səciyyələndirmək. A.Linkolnu siyasi və hərbi xadim kimi səciyyələndirmək. ABŞ-ın və digər böyük dövlətlərin Latın Amerikası barəsindəki siyasətinin mahiyyətini aydınlaşdırmaq. Latın Amerikası ölkələrində xalq kütlələrinin vəziyyətini xarakterizə etmək. Yerli latifundiyaçılarla xarici kapital arasındakı ittifaqın əsaslarını açmaq, müstəqil dövlətlərin kütləvi çıxışların, istiqlaliyyət uğrunda mübarizənin kimlərə qarşı yönəldiyini və onun səbəblərini aydınlaşdırmaq. Kapitalizmin inkişafının formalaşmasındakı rolunu aydınlaşdırmaq.

Türkiyədə tənzimat hərəkatının uğursuzluğunun səbəblərini şərh etmək. Ölkənin xarici kapitallardan asılılığının getdikcə dərinləşməsini faktlarla açıqlamaq. "Yeni osmanlılar" və "Gənc türklər" təşkilatının yaradılmasının vacibliyini əsaslandırmaq. Mərkəzi Asiya, Krım, Volqaboyu və Sibirdə Rusiyanın işğalçılıq siyasətinin mahiyyətini açmaq.

XIX əsrin ikinci yarışında Qafqaz xalqlarının həyat tərzini, məişətini və məşğuliyyətini səciyyələndirməyi bacarmaq. İnqilabi ideyaların yayılma sə-

bəblərini müəyyənləşdirmək. Dağlı xalqların milli-azadlıq hərəkatının məğlub olmasının səbəblərini şərh etmək. Rusiyanın Qafqazda müstəmləkəçilik siyasətinin mahiyyətini açmaq. Qafqazda kapitalizmin inkişafının və mədəni dirçəlişinin səbəblərini faktlar əsasında aydınlaşdırmaq.

İranda xarici ölkələrin müstəmləkəçilik siyasəti ilə Tağı xan islahatlarının bir-birinə zidd olduğunu sübut etmək. Tağı xan islahatlarının uğursuzluğunun səbəblərini aydınlaşdırmaq. İranda Rusiya və İngiltərənin maraqlarının toqquşduğunu izah etmək.

Hindistanın xammal bazası və satış bazarına çevrilməsini təhlil etmək və əsaslandırmaq. Lahor müqaviləsinin əsarətli şərtlərinin Hind xalqının mənafeyinə zidd olduğunu faktlarla sübut etmək. Üsyanların kortəbii xarakter daşımasını, taxt-tac uğrunda müharibələrin ingilislərin Hindistanı işğal etmələrinin asanlaşdırılmasını əlaqəli şəkildə izah etmək. Ost-Hind kampaniyasının işğallarını xəritədə izləmək və kontur xəritədə nişanlamaq. Hindistanın idarə edilməsinin Britaniya hakimiyyəti orqanlarına verilməsinin səbələrini izah etmək.

Çinin iqtisadi və hərbi texniki geriliyi ilə Tsin qoşunlarının məğlubiyyəti arasındakı əlaqəni açmaq. Çinin xarici ölkələrdə ticarət əlaqələrində İngiltərənin yerini və rolunu müəyyənləşdirmək. Feodal geriliyinin təsərrüfatın inkişaf etməsini və onun səbəblərini Çinin iqtisadi, ictimai-siyasi həyatından gətirilən faktlarla izah etmək. Taupin hərəkatının mahiyyətini, gedişini, onun məğlubiyyət səbəblərini və yürüşlərini əsas tarixi əhəmiyyətini aydınlaşdırmaq.

Yaponiyada islahatların kapitalist münasibətlərinin inkişafına təsirini izah etmək. Yaponiyada burjua inqilabının yarımçıq xarakter daşıdığını faktlar əsasında sübut etmək.

Dünyanın yenidən bölmək uğrunda yapon hakim dairələrinin siyasətini aydınlaşdırmaq. 1889-cu il Yaponiya konstitusiyası ilə İngiltərədə 1689-cu il "Hüquqlar haqqında bill"i müqayisə etmək əsasında Yaponiya ilə İngiltərənin siyasi quruluşundakı oxşar və fərqli cəhətləri aydınlaşdırmaq.

Afrika xalqlarının inkişaf baxımından digər dünya xalqlarından geridə qalmasının səbəblərini izah etmək. XIX əsrin II yarısında Qərbi Avropa müstəmləkəçilərinə qarşı Afrika və ərəb ölkələrindəki milli-azadlıq hərəkatının mahiyyətini izah etmək. Avropa dövlətlərinin Misirdə və digər ərəb ölkələrində möhkəmlənməsinin əsas səbəblərini aydınlaşdırmaq. Afrikada və ərəb ölkələrində işğalları, hərbi əməliyyatları və xalq hərəkatının genişləndiyi rayonları xəritədə göstərməyi bacarmaq və kontur xəritədə nişanlamaq. Afrika xalqlarının və ərəb ölkələrinin müstəmləkə əsarətinə qarşı mübarizəsini, onun əsas formalarını aydınlaşdırmaq.

# III BÖLMƏ

## DÜNYA XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ -18(57) saat.

**11.Avropa ölkələri və Rusiya - 4(16) saat.**

**İngiltərə - 1(4) saat.**

Siyasi quruluşu. Ölkədə iki partiyalı sistem. Parlament. Siyasi sistemin böhranı. Mühafizəkarlar və liberallar. 1912-ci ildə İrlandiya məsələsi üstündə münaqişə. Antanta blokunun yaradılması. Avropa qitəsində hegemonluğu saxlamaq siyasəti. İngilis-bur müharibəsi (1902). Cənubi Afrikanın İngiltərənin dominionuna çevrilməsi. Şərqdə müstəmləkəçilik siyasəti.

İngiltərə-Almaniya ziddiyyətlərinin kəskinləşməsi. Hərbi hazırlıq.

**Almaniya - 1(4) saat.**

Sosial-iqtisadi vəziyyət. Siyasi mübarizə. Almaniyada əhali arasında ayrı-seçkilik. Almaniya ekspansiyasının fəallaşması və dünyanı yenidən bölmək uğrunda müharibəyə hazırlaşması. Almaniyanın Avropada hökmranlıq iddiasının güclənməsi və onun dünya bazarında güclü rəqibə çevrilməsi. "Şərqə hücum" planının hazırlanması. Berlin-Bağdad dəmir yolunun çəkilişi üçün konsepsiya alınması. İngiltərə və Fransa ilə münaqişələr. Sürətli silahlanma. İki hərbi blokun qarşıdurması. Müharibəyə hazırlıq.

**Fransa - 1(4) saat.**

Sosial-iqtisadi inkişaf. Avropada maşınqayırma və aviasiyanın inkişafında Fransanın üstünlüyü. Maliyyə kapitalının başlıca dayağı. Maliyyə oliqarxiyası. Kapital ixracında Fransanın mövqeyinin güclənməsi. Radikallar partiyasının yaradılması və hakimiyyətə gəlməsi. Həyata keçirilən tədbirlər. Afrikanın bölüşdürülməsinə dair ingilis-fransız sazişi. Fransa-Rusiya hərbi konvensiyası. R.Puankerinin prezident seçilməsi. İctimai hərəkat.

**Rusiya - 1(4) saat.**

İqtisadi, sosial və siyasi vəziyyət. 1900-1903-cü illərin dünya iqtisadi böhranının Rusiya iqtisadiyyatına təsiri. Əhalinin ümumi vəziyyəti.

Birinci rus inqilabının səbəbləri və nəticələri. İnqilab illərində milli-azadlıq hərəkatı. Çarizmin milli qırğın siyasəti. Dövlət dumaları. Siyasi partiyaların yaranması, onların istiqamətləri və fəaliyyətləri.

Stolıpin islahatları; mahiyyət və nəticələri. İqtisadi yüksəliş illərində sənaye və kənd təsərrüfatı. Səhmdar cəmiyyətləri və inhisarlar. Bank-kredit sistemi. Çarizmin daxili və xarici siyasəti. İqtisadiyyatın bərabərləşdirilməsi. Rusiya müharibə ərəfəsində.

**12.Amerika ölkələri - 2(7) saat.**

**ABŞ - 1(4) saat.**

ABŞ-da reformizm. İnhisarların təzyiqi. T.Ruzveltin trestlərin fəaliyyətini məhdudlaşdırmaq tədbirləri. V.Vilsonun "Yeni demokratiya" islahatları. İslahatların nəticəsi. ABŞ prezidenti Taftın "Dollar diplomatiyası" və T.Ruzveltin "böyük dəyənək" siyasəti. Xarici siyasətin əsas istiqamətləri. Panama kanalının çəkilişi. ABŞ-ın qərb yarımkürəsində rolu. Zənci əhalisinin irqçiliyə qarşı mübarizə assosiasiyasının yaradılması.

**Latın Amerikası ölkələri - 1(3) saat.**

Latın Amerikası xalqlarının azadlıq hərəkatında yeni mərhələ. Xalqların bütün zümrələrinin birgə çıxışları.

1910-1917-ci illər Meksika inqilabı. İnqilabın səbəbləri. Emiliano Sapata və Fransisko Vilyanın inqilabda rolu. Latifundiyaçıların hökmranlığının süqutu. Liberallar hökumətinin təşkili və onun fəaliyyəti. Əks inqilabçı mülkədarların fəallaşması. Liberallar hökumətinin devrilməsi (1913). Burjua-mülkədar hakimiyyətinin qurulması. V.Karransa. Ölkədə xalq etirazlarının güclənməsi. ABŞ-ın Meksikaya müdaxiləsi. Meksika inqilabının xarakteri. İnqilabın nəticələri və tarixi əhəmiyyəti.

Argentina. Sosial-iqtisadi və siyasi vəziyyəti. Sənayenin, əsasən yüngül sənayenin inkişafı. Argentina millətinin yüksəlişi. Milli-demokratik hərəkat. Siyasi partiyaların yaranması.

**13.Türk dünyası və Qafqaz xalqları - 3(8) saat.**

**Türkiyə - 1(3) saat.**

Sosial-iqtisadi vəziyyət. Ölkənin Avropa dövlətlərindən geridə qalması. Balkanlarda milli-azadlıq hərəkatının Osmanlı imperiyasını zəiflətməsi. İri dövlətlərin Türkiyəni parçalamaq siyasəti. "Gənc türklər" inqilabı (1908). Sultan II Əbdülhəmidin taxtdan salınması. V.Mehmet Rəşad hakimiyyətdə. "İttihad və Tərəqqi" partiyasının fəaliyyəti. "Gənc türklərin" islahatları.

İtaliya-Türkiyə müharibəsi (1911-1912). Balkan müharibələri (1912-1913). Müharibələrin Türkiyə üçün nəticələri. Ənvər Paşa, Tələt Paşa və Camal Paşa üçlüyü hakimiyyətdə. (Tiriumvirat)

**Mərkəzi Asiya, Qazaxıstan, Krım, Volqaboyu və Sibir türkləri - 1(3) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. Kənd təsərrüfatı və sənaye. Çarizmin müstəmləkə siyasətinin davam etdirilməsi.

Birinci rus inqilabı (1905-1907) illərində fəhlə tətilləri və kəndli çıxışları. Milli-azadlıq hərəkatı. Rusiyanın dövlət dumalarında müsəlman fraksiyasının fəaliyyəti. Volqaboyu və Sibir türkləri birinci rus inqilabı illərində. "Müsəlman ittifaqı"nın qurultayları.

Stolıpinin aqrar islahatlarının bu regionlara təsiri. İslahatların nəticələri. Milli burjuaziya.

**Qafqaz xalqları - 1(2) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. 1905-1907-ci illər rus inqilabının Qafqaza təsiri və milli-azadlıq hərəkatı. Qafqaz xalqlarının çarizmə qarşı mübarizəsi. İnqilabi dərnəklər və təşkilatlar, fəhlə tətilləri və kəndli çıxışlarının genişlənməsi.

İri dövlətlərin Qafqazda strateji maraqları. Ermənilərin Qafqazın müsəlman-türk xalqlarına qarşı soyqırımının başlanması.

**Asiya və Afrika ölkələri - 5(14) saat.**

**İran - 1(4) saat.**

Sosial-iqtisadi vəziyyət. İranın İngiltərə və Rusiyanın yarımmüstəmləkəsinə çevrilməsi. Şah üsul-idarəsinin və xarici kapitalın ölkəni talan etməsi. İranda kapitalizmin zəif inkişafı. Xalqın ağır vəziyyəti. Ziddiyyətlərin kəskinləşməsi. 1905-1911-ci illər inqilabı. Konstitusiya haqqında fərman. Milli Məclis. Əncumən hərəkatının güclənməsi. 1908-ci ildə əks inqilabi çevriliş. Təbriz inqilabının mərkəzi kimi. Fədailərin Tehranı tutması və şahı devirməsi (1909). İkinci məclis. İngiltərə və Rusiyanın köməyi ilə şahın yeni əks inqilabı çevrilişi (1911). İnqilabın məğlub olması, səbəbləri və əhəmiyyəti.

**Hindistan - 1(2) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. Ümumxalq narazılığı. Kütləvi mübarizə forması. 1906-1908-ci illərdə inqilabi yüksəliş. Ümumxalq hərəkatı. Pəncab üsyanı. İngilis hakimiyyət orqanlarının tədbirləri. Bombey fəhlələrinin siyasi tətili (1908).

**Çin - 1(3) saat.**

XX əsrin əvvəllərində Çinin sosial-iqtisadi vəziyyəti. Çində ziddiyyətlərin kəskinləşməsi. Komprador burjuaziyanın xarici kapitalla əlaqəsi. Milli burjuaziya. İri dövlətlər əleyhinə üsyan (1899). “Birləşmiş ittifaq”ın yaradılması (1905). 1904-1905-ci illərin rus-yapon müharibəsinin Çinə təsiri. Sun Vatsenin “üç xalq prinsipi”. 1911-1913-cü illər inqilabı. Çinin respublika elan edlilməsi. Sun-Yatsenin prezident olması. Avropa dövlətlərinin müdaxiləsi. Yuan Şikay diktaturası. “Birləşmiş ittifaq”ın liberal burjuaziya ilə Homindan partiyasında birləşməsi. İkinci inqilab.

1913-cü ilin aprel müqaviləsi. 1911-1913-cü illər inqilabının xarakteri. İnqilabın əhəmiyyəti.

**Yaponiya - 1(3) saat.**

Sosial-iqtisadi vəziyyət. Ölkədə kapitalizmin sürətli inkişafı. Dünyanı yenidən bölmək iddiası. Yeni bazarlar əldə etmək niyyətləri. Rusiya ilə ziddiyyətlərin kəskinləşməsi. İngiltərə-Yaponiya müqaviləsi (1902). Rusiya-Yaponiya müharibəsi (1904-1905). Portsmut sülhü. Yaponiya-Koreya müqaviləsi. 1905-1907-ci illər rus inqilabının Yaponiyaya təsiri.

**Afrika xalqları - 1(2) saat.**

Afrika xalqlarının istismarının güclənməsi. Xalqların müstəmləkə əsarə-

tindən azad olmaq uğrunda silahlı mübarizəsi.

Afrikanın inkişaf etmiş ölkələrində millətlərin, milli burjuaziyanın, mütərəqqi ziyalıların formalaşması. Milli şüurda oyanış. Cənubi Afrikada Afrika Milli Konqresinin yaranması. Milli-azadlıq hərəkatının başlanması.

**15.Mədəniyyət - 4(10) saat.**

**Avropa və Rusiya mədəniyyəti - 1(4) saat.**

XX əsrin əvvəllərində Avropa mədəniyyətinin inkişafının əsas cəhətləri. Təhsil və elm. Təbiətşünaslıqda inqilab. İngilis fiziki E.Rezerfordun, Danimarka fiziki N.Brounun və alman alimi A.Eynşteynin kəşfləri. Genetikanın inkişafı. Q.Mendel. Ədəbiyyat. Emil Zolya, R.Rollan, H.Mann və b. İncəsənət. Teatr və kino: H.İbsen, A.Antuan və M.Reynhardt. Musiqi. M.Pavel, R.Ştraus və Q.Maler. Rəssamlıq. Klod Mone və Ogüste Renuar.

Rusiyada maarif və elm. Ədəbiyyat və incəsənət.

Musiqi, rəssamlıq, heykəltəraşlıq. Mətbuat və teatr.

**Amerika xalqlarının mədəniyyəti - 1(1) saat.**

Təhsil və elm. Ədəbiyyat. Cek London. Mark Tven. Teodor Drayzer və başqaları.

İncəsənət. Teatr və kino. Musiqi. Rəssamlıq.

**Türk dünyası və Qafqaz xalqlarının mədəniyyəti - 1(3) saat.**

Türkiyədə maarif və elm. Ədəbiyyat. Tofiq Fikrətin əsərlərində vətəndaşlıq motivlərinin güclənməsi. Mehmet Emin, Yəhya Kamal, Əhməd Haşim, Faruk Camlibel, Aka Gündüz, H.Kuprinar, Ömər Seyfəddinin ədəbiyyatı demokratikləşdirmək və türk dilini saflaşdırmaq uğrunda mübarizəsi. Onların yaradıcılıqlarında real həyatın tərənnümü. Teatr sənətinin inkişafı.

Əbdülrəzzaq Əfəndinin "Tuluat" teatrı. Dramaturq Hüseyn Suat. Memarlıqda Avropa təsirinin güclənməsi. Kino. 1914-cü ildə çəkilmiş ilk sənədli film. "Ovuc" və "Casus" (1917) bədii filmləri. Seden Əfəndi qardaşlarının İstanbulda yaratdıqları ilk kino şirkəti (1919). Rəssamlıq. N.Güran, X.Üsküdarlı. X.Paşa və b. Musiqinin inkişafı. O.İbrahim, N.Vəzirzadə və Əli bəy Kaptanzadə.

Krım, Volqaboyu və Sibirin türk xalqlarında maarif. Məktəblər və mədrəsələr. Seminariya və gimnaziyalar.

Çarizmin müstəmləkəçiliek siyasətinin mədəniyyətə təsiri. Ədəbiyyat və incəsənət. N.Qafuri. Mərkəzi Asiya və Qazaxıstanda maarif və elm. Ədəbiyyat, şifahi xalq yaradıcılığı. Cambul, H.Həkimzadə, S.Ayni, D.Kılıc və Satilqanov. Mətbuat, kitabxana, mədəni-maarif müəssisələri. İncəsənət. Rəssamlıq. Memarlıq. Musiqi, teatr.

Qafqazda maarif və elm. Məztbuat. Maarif sahəsində çarizmin müstəmləkə siyasətinin davam etdirilməsi. Qafqazın müsəlman əhalisinə qarşı ay-

rı-seçkilik. Ədəbiyyat və incəsənətdə inqilabi-demokratik, milli oyanış ideyaları. Musiqi, teatr, rəssamlıq və memarlıq.

**Şərq xalqlarının mədəniyyəti - 1(2) saat.**

İranda maarif və elm. 1905-1911-ci illər inqilabı və ədəbiyyat.

Şimali Azərbaycan ədəbi mühiti və İran. C.Məmmədquluzadə və M.Ə.Sabirin yaradıcılığının İran ədəbiyyatına təsiri. Tarixi romanlar. İncəsənət. Memarlıq, rəssamlıq, teatr, musiqi.

Hindistan, Çin və Yaponiyada maarif və elm. Təhsil müəssisələri şəbəkəsinin genişlənməsi. Dilçilik elminin inkişafı. Ədəbiyyatda realizmin güclənməsi. Dövrün ziddiyyətlərinin ədəbiyyatda əksi. Roman janrı. Poeziya. İncəsənət. Memarlıq, rəssamlıq, teatr. Musiqi. Musiqiyə Avropa təsiri.

**Təkrar-ümumiləşdirici dərs: Dünya yeni əsrin əvvəllərində - 0(2) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ümumi tarix (IX cinif): Rusiya XVII əsrin ikinci yarısı - XVII əsrdə. İngiltərə XVIII əsrdə. Burjua inqilabı. Şimali Amerikada istiqlaliyyət müharibəsi. ABŞ-ın yaradılması. Fransa burjua inqilabı. İran, Türk dünyası, Qafqaz, Hindistan, Çin, Afrika xalqları XVIII əsrdə. (X sinif): Avropa ölkələri və Rusiya XIX əsrdə. Türk dünyası və Qafqaz xalqları XIX əsrdə. Asiya və Afrika ölkələri XIX əsrdə. Azərbaycan tarixi (X sinif): Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti. Azərbaycan XIX əsrdə. XIX əsr Azərbaycan mədəniyyəti. Ədəbiyyat (X sinif): Cek London. "Həyat eşqi". Coğrafiya (VII sinif): Afrikanın əhalisi və siyasi xəritəsi. Mərkəzi Asiya. "Türk dünyası" anlayışı. Cənubi Amerikanın əhalisi və siyasi xəritəsi.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Siyasi sistem. Ekspansiya. Konsessiya. Sürətlə silahlanma. Militarizm. Elmdə inqilab. Aqrar qanunlar. Aqrar islahatlar. Təmərküzləşdirmə. Bank kapitalı. Maliyyə oliqarxiyası. Səhm. Səhmdarlıq. İnhisarlar. Kartel. Sindikat. Trest. Milli qırğın. "İslandiya problemi". "Dollar dipdlomatiyası". Reformizm. "Yeni demokratiya". "Böyük dəyənək".Diktatura. Sventifikoslar ("alimlər"). Kaşiklər (yerli hakimlər). Daşnaklar. Fraksiya. İnqilabi çevriliş. "Stolıpin qalstukları". Ucqarlara köçürmə. Milli oyanış. Strateji maraq. Müsəlman fraksiyası. "Üçlər ittifaqı". Antanta. "İlodırım sürətli müharibə". Əncümənlər. Fədailər. Bitərəflik. Siyasi tətil. "İkinci inqilab". "Üç xalq prinsipi". Liberal burjuaziya. Milli burjuaziya. "Gənc türklər" inqilabı. Dövlət Düması.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. XX əsrin əvvəllərində Avropa ölkələrində gedən siyasi mübarizənin mahiyyətini aydınlaşdırmaq. İngiltərənin sosial-iqtisadi inkişafının xarakterik cəhətlərini izah etmək. İngiltərə və Fransanın sosial-iqtisadi inkişafının ümumi və fərqli cəhətlərini göstərmək. Böyük ölkələrin zorakılığa can atmasının və Avropada militarizmin güclənməsinin səbəblərini izah etmək. Böyük dövlətlər arasındakı ziddiyyətlərin səbəblərini aydınlaşdırmaq. Birinci dünya müharibəsinin hazırlanmasında Almaniyanın və digər ölkələrin rolunu faktlar əsasında müəyyənləşdirmək. Dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizənin səbəblərini aydınlaşdırmaq.

XX əsrin əvvəllərində Almaniyanın sosial-iqtisadi vəziyyətini təhlil etmək. Ölkədə sənaye və kənd təsərrüfatının inkişafının səbəblərini aydınlavşdırmaq. İri inhisarların yaranmasının, maliyyə oliqarxiyasının təzşəkkülünün mahiyyətini və səbəblərini aydınlaşdırmaq. Militarist ənənələrin güclənməsinin, irqçilik və təcavüzkarlıq ideyalarının üstünlüyünün səbəblərini aydınlaşdırmaq. Almaniyanın iddia etdiyi əraziləri xəritədə göstərmək.

XX əsrin əvvəllərində Fransanın sosial-iqtisadi inkişafının ümumi və xarakterik cəhətlərini göstərmək. Fransada partiyaların siyasətini səciyyələndirmək. Fransa hakim dairələrinin xarici siyasət xəttini səciyyələndirmək. Sənədlərdən və xəritədən istifadə etməklə XX əsrin əvvəllərində Fransanın işğal etdiyi bölgələri müəyyənləşdirmək.

Dünya iqtisadi böhranının Rusiyaya təsirini izah etmək. XX əsrin əvvəllərində ölkənin iqtisadi-siyasi durumunu təhlil etmək. Birinci rus inqilabının səzbəb və nəticələrini izah etmək. Stolıpinin aqrar islahatlarına qiymət vermək. Birinci dünya müharibəsi ərəfəsində Rusiyanın ictimai-iqtisadi vəziyyətini səciyyələndirmək.

XX əsrin əvvəllərində İngiltərə və ABŞ-ın siyasi inkişafının fərqli cəhətlərini müəyyənləşdirmək. ABŞ-ın dövlət quruluşunu, onun əsas partiyalarını, görkəmli siyasi xadimlərinin fəaliyyətini səciyyələndirmək. Həyata keçirilən islahatların əhəmiyyətini göstərmək.

Müəllimin şərhindən, dərsliyin mətnindən və sənədlərdən, ensiklopediyadan və sorğu, eləcə də elmi-kütləvi ədəbiyyatdan istifadə etməklə 1910-1917-ci illər Meksika inqilabının Latın Amerikasında milli-azadlıq hərəkatı tarixindəki yerini və rolunu müəyyənləşdirmək. XX əsrin əvvəllərində Latın Amerikasında azadlıq hərəkatının yeni mərhələsinin xarakterik cəhətlərini müəyyən etmək. Meksika inqilabını doğuran səbələri göstərmək. İnqilabın əsas hərəkətverici qüvvəsi və xarakterini müəyyənləşdirmək. Sənədlərdən və faktlardan istifadə edərək, Meksika inqilabının nəticələri və əhəmiyyətini qiymətləndirmək.

Türkiyədə kapitalizmin ləng inkişafının və ölkənin Avropa imperiyasının zəifləməsini onunla əlaqələndirməyi bacarmaq. Erməni daşnaklarının dinc türk və müsəlman xalqlarına qarşı törətdiyi soyqırımın mahiyyətini açmaq və müasirliklə əlaqələndirmək.

Çar Rusiyası ərazisindəki türk xalqlarının milli oyanışına dair faktları sadalamaq. Milli oyanış və dirçəlişdə mədəniyyətin rolunu izah etmək. XX əsrin əvvəllərində Qafqazda inqilabi yüksəlişin səbəblərini izah etmək, onu çarizmin müstəmləkə zülmü ilə əlaqələndirməyi bacarmaq.

Antanta dövlətlərinin və Üçlər ittifaqının Qafqazda maraqlarını faktlar əsasında şərh etmək.

Faktlara əsaslanaraq, İranın əcnəbi dövlətlərdən asılı olduğunu sübut etmək. Xarici kapitalın ölkənin iqtisadiyyatına axının nəticələri aydınlaşdırmaq. 1905-1911-ci illər inqilabının səbəb və nəticələrini izah etmək.

XX əsrin əvvəllərində İngiltərənin Hindistandakı siyasətinin ümumi cəhətlərini göstərmək. 1906-1908-ci il hərəkatına divan tutulmasında hind knyazlarının və feodal əyanların iştirakına qiymət vermək. Hadisələri əvvəlki inqilabi çıxışlarla əlaqələndirmək. Hindistan Milli Konqres partiyası haqqında məlumatla sinif qarşısında çıxış etmək. XX əsrin əvvəllərində Çinin iri dövlətlərin yarımmüstəmləkəsinə çevrilməsinin səbəblərini açıqlamaq. Sun Vatsenin fəaliyyətini və rolunu səciyyələndirmək. “Üç xalq prinsipi”nin mahiyyətini açmaq. İnqilabda liberal burjuaziyanın rolunu izah etmək. Xəritədə inqilabın baş verdiyi əsas rayonları göstərmək. İnqilabın xaraakterini və əhəmiyyətini müəyyənləşdirmək. Kəndli hərəkatının ölkənin iqtisadi və siyasi vəziyyəti ilə əlaqəsinin açmaq.

Yaponiyanın sürətli inkişafını onun dünyanı yenidən bölmək iddiası ilə əlaqələndirməyi bacarmaq. Dövrün hadisələrinin mədəniyyətdə öz əksini tapmasını misallarla sübut etmək. XX əsrin əvvəllərində Afrika xalqlarının istismarının gücləndirilməsinin səbəblərini müəyyənləşdirmək. Afrikada milli-azadlıq hərəkatının məğlubiyyət səbəblərini izah etmək. Afrika xalqlarının müstəmləkəçilərə qarşı mübarizəsində yaranan yeni keyfiyyət dəyişikliklərinin millətin, milli burjuaziyanın, mütərəqqi ziyalıların formalaşması ilə əlaqələr olduğunu faktlar əsasında izah etmək. Afrikada azadlıq mübarizəsinin əsas rayonlarını kontur xəritəyə köçürməyi bacarmaq.

XX əsrin əvvəllərində təbiətşünaslıqda edilmiş yeni kəşflərin əhəmiyyətini açıqlamaq. Bu dövrdə Avropa mədəniyyətinin əsas cəhətlərini səciyyələndirmək. Dövrün görkəmli elm və mədəniyyət nümayəndələri haqqında qısa məlumatlar hazırlamaq.

## IV BÖLMƏ

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ - 10(25) saat.

**16,Müharibənin başlanması və gedişi - 3(9) saat.**

**Müharibənin başlanğıc mərhələsi -1(3) saat.**

Birinci dünya müharibəsinin səbəbləri. İştirakçı dövlətlərin məqsədləri. Müharibənin xarakteri. Sarayevada qəsd. Avstriya ultimatumu. Müharibənin başlanması. Müharibənin miqyası. Fransa və Rusiyanın müharibəyə qoşulması. İngiltərənin müharibəyə girməsi. "Üçlər ittifaqı" və "Antanta" hərbi blokları arasında irimiqyaslı döyüşlərin başlanması. Almaniyanın Fransa və Şərqi Prussiyada hücumları. Marna döyüşü. Almaniyanın "İldırımsürətli müharibə" planının boşa çıxması. Osmanlı imperiyasının müharibəyə girməsi. 1914-cü il kampaniyasının yekunları.

**1915-1916-cı illərdə cəbhədə və arxada vəziyyət - 1(3) saat.**

Şəzrq cəbhəsində hücum. Qərb cəbhəsində mövqe müharibəsi. İtaliyanın müharibəyə daxil olması və Antantaya qoşulması. "Dördlər ittifaqı". Sualtı müharibə. Bloklara daxil olan ölkələrin sənaye sahələrini hərbi rels üzərinə keçirmələri. Rusiya iqtisadiyyatının tənzimetmə siyasəti. "Verden qəssabxanası". Somma döyüşü. Rumıniyanın müharibəyə girməsi. Yutlandiya dəniz döyüşü. 1915-1916-cı illərdəki hərbi əməliyyatların yekunları.

**Müharibənin son illəri - 1(3) saat.**

1917-ci il kampaniyasında Antantanın planları. Müharibə dövründə Rusiyada ümummilli böhranının dərinləşməsi. 1917-ci il Fevral inqilabı. Monarxiyanın devrilməsi. İkihakimiyyətliliyin yaranması. ABŞ-ın müharibəyə girməsi. Qərb cəbhəsinə hücum. 1917-ci il Oktyabr çevrilişi. Sovet Respublikasının yaradılması. Şərq cəbhəsinin süqutu. Bolşevik Rusiyasının müharibədən çıxması. Brest sülhü. Son əməliyyatlar. Dördlər ittifaqının məğlub olması. Bolqarıstan, Osmanlı imperiyası və Avstriya-Macarıstanın təslim olması.

**17.Türk dünyası və Qafqaz xalqları Birinci dünya müharibəsi illərində - 2(4) saat.**

**Türkiyə Birinci dünya müharibəsi illərində - 1(2) saat.**

Türkiyənin Almaniya tərəfindən Birinci dünya müharibəsinə cəlb edilməsi. Ölkədə qeyri-sabitlik. Türkiyəni bölmək barədə ingilis-fransız-rus sazişi. Ermənі-daşnak quldurlarının azğınlığı, türk və digər müsəlman əhalisinə qarşı törədilən soyqırımı.

Türklər Qafqazda. Fələstin və Makedoniya cəbhələrində məğlubiyyətlər. Türkiyənin təslim olması. Mudros barışığı (1918). İngiltərə, Fransa, İtaliya

və Yunanıstanın Anadolunu işğal etməyə başlaması.

**Mərkəzi Asiya, Qazaxıstan, Krım, Volqaboyu və Sibir türkləri Birinci dünya müharibəsi illərində - 1(2) saat.**

Müharibə illərində Mərkəzi Asiya, Qazaxıstan, Volqaboyu, Krım və Sibir regionlarında sosial-iqtisadi vəziyyət. A.İmanovun başçılığı ilə üsyan (1916). Türk xalqları regionu fevral inqilabi dövründə. Türküstan komitəsinin yaradılması. Milli-azadlıq hərəkatı.

Müharibənin Krım, Volqaboyu və Sibir türklərinin həyat tərzinə təsiri. Tatarıstan və Baqırdıstan sənayesinin hərbiləşdirilməsi. Əhalinin arxa cəbhəyə səfərbərliyi. Tatarıstanda "İctimai təhlükəsizlik quberniya komitəsi"nin fəaliyyəti. Kazanda müsəlman komitəsinin təşkili.

Fevral inqilabının qələbəsindən sonra Krım, Volqaboyu, Sibir, Mərkəzi Asiya və Qazaxıstanda siyasi vəziyyət. Oktyabr çevrilişi və türk xalqları.

**Qafqaz xalqları Birinci dünya müharibəsi illərində - 1(2) saat.**

Müharibənin iqtisadiyyata təsiri. Sənaye və kənd təsərrüfatında gerilik. Xalqın güzəranının ağırlaşması. Ərzaq qıtlığı. Narazılığın artması. Qafqaz Birinci dünya müharibəsinin səbəblərindən biri kimi. Rusiyada Fevral burjua-demokratik inqilabı və Qafqaz. Müvəqqəti hökumətin yerli idlarəçilik orqanı olan Xüsusi Zaqafqaziya Komitəsini yaratması. Milli-azadlıq hərəkatı.

Oktyabr çevrilişi və Qafqaz. Zaqafqaziya Komissarlığı. Bolşevik Rusiyasının Qafqazı ələ keçirmək planları. Zaqafqaziya Seymi.

**18.Asiya və Afrika xalqları Birinci dünya müharibəsi illərində - 4(5) saat.**

**Yaponiya - 1(1) saat.**

Yaponiyanın Antanta dövlətləri tərəfindən Birinci dünya müharibəsinə girməsi və Uzaq Şərqdə işğalları. "İyirmi bir tələbi" Çinə qəbul etdirməsi və Çində öz mövqeyini möhkəmləndirməsi. Yaponiyada ilk partiyalı hökumətin yaradılması.

**İran - 1(1) saat.**

Müharibə dövründə İran ərazisinin hərbi əməliyyat meydanına çevrilməsi. Şahın bitərəflik siyasəti. İranda Rusiya, İngiltərə, Türkiyə və Almaniyanın işğalları. Xalq kütlələrinin xarici işğalçılara və yerli zülmkarlara qarşı mübarizəsi. Siyasi partiya və cəmiyyətlərin açıq fəaliyyəti.

**Hindistan və Çin - 1(2) saat.**

İngilis hakimiyyət orqanlarının hind xalqının kütləvi mübarizəsinin qarşısını almaq üçün həyata keçirdiyi yumşaldıcı tədbirlər. Hindistanın müharibəyə münasibəti. Hərbi polis terroru. Orduda qiyamlar. Hindistan Milli Konqres partiyalarının və "Müsəlman cəmiyyətinin" siyasi müstəqillik uğrunda mübarizəsi. Milli-azadlıq hərəkatı və M.K.Qandi.

Müharibənin ilk dövrlərində Çinin bitərəf qalması. Yaponiyanın tələblə-

ri. Respublikanın ləğvi təhlükəsinin aradan qaldırılması. Yaponiyanın təzyiqi ilə Çinin müharibəyə girməsi.

Çin cəmiyyətində mütərəqqi qüvvələrin rolunun artması.

**Ərəb ölkələri - 1(1) saat.**

Ərəb ölkələrini nüfuz dairəsinə almaq uğrunda iri kapitalist dövlətləri arasında mübarizə. Misirin İngiltərənin əsas hərbi bazasına çevrilməsi. Alman-türk qoşunlarının Misirə yürüşü və onun nəticələri. Saks-Tiko sazişi (1916). Suriya, İraq, Livan və Fələstinin İngiltərə, Fransa və düşmən Rusiyanın nüfuz dairələrinə bölünməsi.

İngiltərənin Fələstində "yəhudilər üçün milli ocaq" yaradıldığını elan etməsi.

İngiltərənin İraqa soxulması. Bağdadın tutulması. Küveytin 1914-cü ilin noyabrında ingilis protektoratlığına keçməsi.

**19.Birinci dünya müharibəsinin başa çatması və nəticələri - 1(1) saat.**

Almaniyada inqilab. Kompeyn barışığı. Müharibənin bitməsi. Dördlər ittifaqının məğlubiyyətinin səbəbləri. Müharibənin ictimai və geosiyasi nəticələri. Dörd imperiyanın süqutu. Müstəqil dövlətlərin meydana gəlməsi. Müharibənin bəşəriyyətə vurduğu zərbə. İnsan tələfatı, iqtisadi dağıntılar. İqtisadiyyatın pozulması.

Xalqların ağır vəziyyəti. Rusiyada sovet rejiminin meydana gəlməsi. Dünyada milli-azadlıq hərəkatının genişlənməsi.

**Təkrar-ümumiləşdirici dərs: "Birinci dünya müharibəsinin nəticələri" - 0(2) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Ümumi tarix (X sinif): İngiltərə, Fransa və Almaniya XIX əsrdə. Fransa-Prusiya müharibəsi. Türk dünyası və Qafqaz xalqları XIX əsrdə. Asiya xalqları XIX əsrdə. Dünyanı yenidən bölüşdürmək uğrunda mübarizənin başlanması. Azərbaycan tarixi (X sinif): Müharibə və sülh problemləri. Ədalətli və ədalətsiz müharibələr.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Dünya müharibəsi. Müharibənin xarakteri. "İldırımsürətli müharibə". "Verden qəssabxanası". Sənayenin hərbiləşdirilməsi. Çevriliş. Bitərəflilik siyasəti. Hərbi-polis terroru. "Milli ocaq".

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmaş bilik və bacarıqları bölmənin mövzularının öyrənilməsinə tətbiq etmək. Bi-

rinci dünya müharibəsinin səbəblərini və xarakterini müəyyənləşdirmək. İştirakçı dövlətlərin məqsədlərini ayrılıqda açıqlamaq. Müharibənin dünya müharibəsinə çevrildiyini faktlar əsasında göstərmək.

Türkiyənin müharibəyə cəlb edilməsinin səbəblərini, erməni daşnaklarının törətdiyi türk soyqırımının mahiyyətini izah etmək. Müharibənin Mərkəzi Asiya, Qazaxıstan, Krım, Volqaboyu və Sibir türklərinin vəziyyətini ağırlaşdırdığını faktlarla göstərmək. Qafqazda yaşayan xalqların Birinci dünya müharibəsi dövründəki ağır sosial-iqtisadi vəziyyəti ilə milli-azadlıq hərəkatını əlaqələndirmək. Yaponiyanın Uzaq Şərqdəki siyasətinin məqsədlərini aydınlaşdırmaq. Birinci dünya müharibəsinin iqtisadi və geosiyasi nəticələrini qiymətləndirmək. Bəşəriyyətə dəyən maddi və mənəvi zərəri faktlarla göstərmək. Ədalətsiz müharibələrin xalqlara yalnız fəlakət gətirdiyini aydınlaşdırmaq, gələcəkdə belə müharibələrə qarşı mübarizə aparmağa hazır olmaq hissi formalaşdırmaq.

## Qaynaqlar və ədəbiyyat

### I bölməyə dair:

1.Альперович М.С., Слезкин Л.Ю. Новая история стран Латинской Америки. Москва, 1970.

2.Armaoğlu Fahir. XX yüzilliyin siyasi tarixi, I cild. Ankara, 1991.

3.Бушуев С.К. Борьба горцев за независимость под руководством Шамиля. Москва, 1939.

4.Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı. Bakı, 1998.

5.Ерофеев Н.А. Английский колониализм в середине XIX века. Москва, 1977.

6.Храмов П. Экономическое развитие Росии в XIX-XX вв. Москва, 1969.

7.История Африки в XIX - начало XX вв. Москва, 1984.

8.История Башкырдской АССР. Москва, 1989.

9.История Казахской ССР с древнейших времен до наших дней. Том II. Алма-ата, 1979.

10.История национально-освободительной борьбы народов Африки в новое время. Москва, 1976.

11.История Туркменской ССР, том II. Ашхабад, 1959.

12.Кан С.Б. Революция 1848 г. в Австрии и Германии. Москва, 1969.

13.Косулина Л.Г., Данилов А.А. История России. XIX век. Москва, 1998.

14.Кредер А.А. Новая история. Часть II. 1800-1914. Учебник. Москва,

1999.

15.Германская история в новое и новейшее время. Том, I, Москва, 1970.

16.Губер А.А., Ким Г.Ф., Хейфец А.Н. Новая история стран Азии и Африки. Москва, 1982.

17.Мунчаев Ш.И., Устинов В.И. История России. Москва, 1977.

18.Вопросы истории народов Кавказа. Тбилиси, 1988.

19.Всемирная история, 19-24 том. Минск, 1988.

20.Всемирная история. Учебник. Москва, 1977.

21.Зарождение идеологии национально-освободительного движения (XIX - начало XX века); очерки по истории общественной мысли народов Востока. Москва, 1973.

22.Застенков. Революция 1848 г во Франции, том I и II. Москва, 1948.

**II-III bölmələrə dair:**

1.Алтай в эпоху капитализма. Барнаул, 1986.

2.Альперович М.С., Слезкин Л.Ю. Новая история стран Латинской Америки. Москва, 1970.

3.Armaoğlu Fahir. XX yüzilliyin siyasi tarixi. I cild. Ankara, 1991.

4.Бушуев С.К. Борьба горцев за независимость под руководством Шамиля, Москва, 1939.

5.Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камни. Баку, 1990.

6.Dünya xalqları. Tarixi etnoqrafik ensiklopedik məlumat kitabı. Bakı, 1988.

7.Ерусалимский А.С. Бисмарк. Дипломатия и милитаризм. Москва, 1968.

8.Иванов Р.Ф. Авраам Линколн и гражданская война в США. Москва, 1964.

9.История Африки в XIX - начало XX вв. Москва, 1984.

10.Косулина Л.Г., Данилов А.А. История России. XIX век. Москва, 1998.

11.Кредр А.А. Новая история. Часть II. 1800-1914. Учебник. Москва, 1999.

12.Галкин И.С. Создание Германской империи, Москва, 1986.

13.Губер А.А., Ким Г.Ф., Хейфец А.Н. Новая история стран Азии и Африки. Москва, 1982.

14.Гурко-Кряжин В. Армянский вопрос. Баку, 1990.

15.Мунчаев Ш.И., Устинов В.И. История России. Москва, 1997.

16.Вопросы истории народов Кавказа. Тбилиси, 1998.
17.Всемирная история, 19-24 том. Москва, 1998.
18.Всемирная история. Учебник. Москва, 1997.
19.Зарождение идеологии национально-освободительного движения (XIX - начало XX вв.): очерки по истории общественной мысли народов Востока. Москва, 1973.
20.Зубок Л.И. Очерк истории США (1877-1918). Москва, 1973.

**IV bölməyə dair:**

1.Бисмарк Ш.И. Закавказье в годы первой мировой войны. Сухуми, 1969.
2.Ерусалимский А.С. Бисмарк. Дипломатия и милитаризм. Москва, 1968.
3.История первой мировой войны. 1914-1918 в двух томах. Москва, 1968.
4.Кредер А.А. Новая история. Часть II. 1800-1914. Учебник. Москва, 1999.
5.Новейшая история 1900-1945. Учебник часть I, Москва, 1999.
6.Всемирная история, том 19-24. Минск, 1998.
7.Всемирная история. Учебник. Москва, 1997.

**Sinifdənxaric oxu üçün ədəbiyyat**

1.Dikkens Ç. “Oliver Tvistin macəraları”.
2.Hüqo V.”Səfillər”.
3.A.Qədiri. “Ötən günlər”.
4.Tven M. “Tom Soyyerin macəraları”.
5.Tven M. “Heklberri Finin macəraları”.
6.Tolstoy L. “Hərb və sülh”.
7.Harriyet Biçer-Stou. “Tom dayının koması”.

**I.Xəritələr və atlaslar**

1.”ABŞ-da vətəndaş müharibəsi”.
2.”Almaniyanın birləşdirilməsi”.
3.”Birinci dünya müharibəsi”.
4.”Birinci rus inqilabı”.
5.”Balkan müharibələri”.
6.”Dünya ölkələri 1815-ci ildən sonra”.
7.”Fransa-Prussiya müharibəsi”.
8.”İtaliyanın birləşdirilməsi”.
9.”Krım müharibəsi”.

10."1812-ci il Rusiya-Fransa müharibəsi".
11."Napoleonun Avropada işğalları".
12."Osmanlı imperiyası XIX əsrdə".
13."Rusiya-Yaponiya müharibəsi".

**II.Sxemlər, diaqramlar, cədvəllər**
1."Austerlis döyüşü" sxem.
2."Birinci dünya müharibəsi" cədvəl.
3."Borodino döyüşü" sxem.
4."Hərbi-siyasi bloklar" diaqram.
5."Leypsik döyüşü" sxem.
6."Marna döyüşü" sxem.
7."XIX əsrin sonlarında böyük dövlətlərin müstəmləkələri" cədvəl.
8."Port-Artur döyüşü" sxem.
9."Rusiyanın Dövlət dumaları" cədvəl.
10."Sinop döyüşü" sxem.
11."Trafalqar döyüşü" sxem.
12."Vaterloo döyüşü" sxem.
13."Verden döyüşü" sxem.

**III.Audiovizual vasitələr:**
Bədii film:
"Borodino", "Sarayevoda qəsd", "Küləklə sovrulanlar", "Çalı quşu".

## XI SİNİF

## ƏN YENİ TARİX

**Həftədə 2(7,5) saat, il boyu 68(255) saat.**

### GİRİŞ - 1(1) saat

Ən yeni tarix ümumi tarixin bir hissəsi kimi. Fənnin tədrisinin məqsəd və vəzifələri. Ən yeni tarix kursunun xarakterik cəhətləri, mərhələləri və öyrənilməsinin əhəmiyyəti.

## I BÖLMƏ

### DÜNYA ÖLKƏLƏRİ İKİ CAHAN MÜHARİBƏSİ ARASINDA - 22(86) saat.

**1.Versal-Vaşinqton sistemi - 2(8) saat**

Birinci dünya müharibəsinin nəticələri. ABŞ prezidenti V.Vilsonun "14 maddə"si. Sülh konfransı. Dünyanın siyasi xəritəsinin dəyişdirilməsi. Qalib dövlətlər arasında ziddiyyət. Almaniya ilə Versal sülhü. Millətlər Cəmiyyətinin yaradılması. Versal sistemi: mahiyyəti, ziddiyyətləri. Avstriya, Bolqarıstan, Türkiyə və Macarıstan ilə sülh müqavilələri. "Mandat sistemi" və onun mahiyyəti. Uzaq Şərqdə Dövlətlərin qarşılıqlı maraqlarının razılaşdırılması. Uzaq Şərqdə və Sakit okeanda qüvvələr nisbətinin ABŞ-ın xeyrinə həll edilməsi. Dünyanın sonrakı inkişafına Versal-Vaşinqton sisteminin təsiri.

**Avropa dövlətləri, ABŞ və SSRİ - 8(35) saat**

**Almaniya - 1(5) saat**

1918-ci il noyabr inqilabı, monarxiyanın devrilməsi, respublika elan olunması. Veymar Konstitusiyası. Almaniyanın iqtisadi potensialını dirçəltmək tədbirləri. Daues planı və onun nəticələri. Almaniya dünya iqtisadi böhranı illərində. Almaniyada faşizm və onun xarakterik cəhətləri. Nasistlərin hakimiyyətə gəlməsi. Veymar respublikasının ləğvi. İqtisadiyyatın hərbiləşdirilməsi. Müharibəyə ideoloji və siyasi hazırlıq. Antisemitizm. Versal sülh müqaviləsi şərtlərinin ləğv olunması.

**İngiltərə - 1(4) saat.**

Birinci dünya müharibəsinin İngiltərə üçün nəticələri. 20-ci illərin əvvəllərində İngiltərədə sosial-iqtisadi vəziyyət. Birinci Leyborist hökuməti.

1926-cı il ümumi tətili. İkinci Leyborist hökuməti. Dünya iqtisadi böhranının İngiltərə iqtisadiyyatına təsiri. "Milli birlik hökuməti"nin təşkili. İngiltərə II Dünya müharibəsi ərəfəsində. İki dünya müharibəsi arasında İngiltərənin iqtisadi və siyasi inkişafının nəticələri.

**Fransa - 1(4) saat.**

Birinci dünya müharibəsindən sonra Fransada iqtisadi və siyasi vəziyyət. "Sol blok" hökuməti. İqtisadi böhran və onun xüsusiyyətləri. Fransada faşist çevrilişi cəhdi və iflası. Xalq Cəbhəsinin yaranması. Fransa Xalq Cəbhəsinin hakimiyyəti dövründə. İkinci dünya müharibəsi ərəfəsində Fransanın xarici siyasəti. 20-30-cu illərdə Fransanın sosial-iqtisadi və siyasi inkişafının yekunları.

**ABŞ - 1(5) saat.**

Birinci dünya müharibəsinin ABŞ üçün nəticələri. 20-ci illərdə ABŞ-da siyasi vəziyyət. İqtisadi yüksəliş. ABŞ dünya iqtisadi böhranı illərində. Huver. Sosial-iqtisadi və siyasi ziddiyyətlərin kəskinləşməsi. T.Ruzvelt və onun "Yeni xətt" siyasəti. 30-cu illərdə ABŞ-ın xarici siyasəti və onun beynəlxalq münasibətlərə təsiri.

**İtaliya - 1(4) saat.**

Birinci dünya müharibəsindən sonra İtaliyanın sosial-iqtisadi və siyasi vəziyyəti. Faşizmin meydana gəlməsi. Faşist partiyasının yaranması. Faşistlər hakimiyyət başında. İtaliya dünya iqtisadi böhranı illərində. 30-cu illərdə İtaliyanın daxili və xarici siyasəti, onun nəticələri.

**İspaniya - 1(4) saat.**

İspaniyada burjua-demokratik inqilabı, onun səbəbləri və nəticələri. Monarxiyanın devrilməsi. Daxili siyasi mübarizənin kəskinləşməsi. Xalq Cəbhəsinin yaradılması və hakimiyyətə gəlməsi. Faşist qiyamı. Vətəndaş müharibəsinin başlanması. Almaniya və İtaliyanın İspaniyaya müdaxiləsi. Qərb dövlətlərinin qarışmamaq siyasəti. Vətəndaş müharibəsi şəraitində Xalq Cəbhəsinin fəaliyyəti. İspan xalqının milli-azadlıq müharibəsinin məğlubiyyət səbəbləri. Frankonun diktaturasının qurulması.

**Mərkəzi və Cənubi-Şərqi Avropa ölkələri - 1(4) saat.**

Birinci dünya müharibəsinin Mərkəzi və Cənub-Şərqi Avropa üçün nəticələri. Yeni müstəqil dövlətlərin meydana gəlməsi. 20-30-cu illərdə Çexoslovakiya, Macarıstan, Avstriya, Yuqoslaviya, Polşa, Rumıniya, Bolqarıstanın sosial-iqtisadi, siyasi və beynəlxalq vəziyyəti.

**Sovet Sosialist Respublikaları İttifaqı - 1(5) saat.**

Rusiyada vətəndaş müharibəsi və xarici hərbi müdaxilə. Xarici müdaxiləçilərə qarşı mübarizə. Vətəndaş müharibəsi cəbhələrində əsas hərbi əməliyyatlar. Milli dövlətlərin yaranması. "Hərbi kommunizm" siyasəti. Vətəndaş müharibəsinin başa çatması. İmperiyanın bərpasına yönəlmiş siya-

sət. SSRİ-nin yaradılması. Yeni iqtisadi siyasət və onun nəticələri. SSRİ-də sosialist yenidənqurmaları: tələsik sənayeləşdirmə, zorakı kollektivləşdirmə və onların nəticələri. Totalitar sosializm cəmiyyətinin qurulması, onun sosial-iqtisadi və siyasi nəticələri. Kütləvi repressiyalar. 20-30-cu illərdə xarici siyasət.

**3.Türk dünyası və Qafqaz xalqları - 4(14) saat.**

**Türkiyə - 1(4) saat**

Birinci dünya müharibəsinin Türkiyə üçün nəticələri. Yunanıstan-Türkiyə müharibəsi. Milli-azadlıq hərəkatının başlanması. Mustafa Kamal Atatürk. Türkiyə Böyük Millət Məclisinin yaranması. Türk xalqının qələbəsi. Respublika elan edilməsi. Kamalçıların islahatları. Etatizm siyasəti. 20-30-cu illərdə Türkiyənin iqtisadi inkişafı və xarici siyasəti.

**Mərkəzi Asiya və Qazaxıstan xalqları - 1(3) saat.**

Türküstan Muxtar Federativ Respublikasının yaradılması. Alaş-Orda hökuməti. Buxara və Xivədə demokratik hərəkat. Kolçaka və bolşeviklərə qarşı mübarizə. Mərkəzi Asiyada Sovet muxtariyyətinin təşkili. Sovetlərin Mərkəzi Asiyada yeni inzibati-ərazi bölgüsü və müstəmləkə siyasəti. Basmaçı hərəkatı. Mərkəzi Asiya və Qazaxıstanda sənayeləşdirmə və kollektivləşdirmə, onların nəticələri.

**Krım, Volqaboyu və Sibir xalqları - 1(3) saat.**

Krım tatarlarının milli-azadlıq mübarizəsi. Krım xalq respublikasının yaranması. 1918-1920-ci illərdə Krım uğrunda mübarizə və Sovet muxtariyyətinin yaranması. Volqaboyu və Sibir milli muxtar qurumlarının yaradılması. Tatar-Başqırd Respublikası ideyası. Kolçaka qarşı mübarizə. Milli qüvvələrin Sovet Rusiyası ilə anlaşması. Tatarıstan Muxtar Sovet Sosialist Respublikası və Çuvaş muxtar vilayətinin təşkili. Milli liderlərə qarşı təqiblər. Sovet hökumətinə qarşı üsyanlar. Sibir türkləri. Tuvalıların bolşeviklərə və Kolçak ordusuna qarşı azadlıq mübarizəsi. Müstəqil milli dövlətin yaradılması. Sovet müdaxiləsi və Sibirdə Sovet muxtariyyətinin təşkili. Krım, Volqaboyu və Sibir xalqları sovet rejimi şəraitində. Sosial-iqtisadi və siyasi inkişafın nəticələri.

**Qafqaz xalqları - 1(4) saat.**

Birinci dünya müharibəsindən sonra Qafqazda sosial-iqtisadi vəziyyət. Cənubi və Şimali Qafqazda müstəqil dövlətlərin yaranması. Qafqaz-Osmanlı münasibətləri. Gürcüstan-Ermənistan müharibəsi. Qars Respublikası. İngilislər Qafqazda. Şimali Qafqazın "könüllü ordu" tərəfindən işğalı və dağlıların milli-azadlıq mübarizəsi. Ermənistan-Denikin koalisiyası. Sovet Rusiyasının Qafqaz dövlətlərinin istiqlaliyyətinə son qoyması. Qafqazda sovet respublikalarının təşkili. Sənayeləşdirmə və kollektivləşdirmə. Onlara qarşı çıxışlar.

**4.Asiya və Afrika - 5(20) saat.**

**Yaponiya - 1(4) saat.**

Yaponiyada 1918-ci il "düyü qiyamları". Paris sülh konfransı Yaponiya haqqında. Yaponiyanın Vaşinqton konfransında iştirakı. Dünya iqtisadi böhranının Yaponiyaya təsiri. 30-cu illərdə Yaponiyanın daxili və xarici siyasəti. Militarist rejimin yaradılması.

**Çin - 1(5) saat.**

Birinci dünya müharibəsindən sonra Çinin ictimai-iqtisadi vəziyyəti. Paris sülh konfransının Çinə dair qərarlarına qarşı xalq etirazları. 1925-1927-ci illərdə milli inqilab. 20-ci illərin axırları və 30-cu illərdə Çinin iqtisadi vəziyyəti. 1927-1937-ci illərdə ölkədə demokratik və milli-azadlıq mübarizəsi. Çin ikinci dünya müharibəsi ərəfəsində.

**Hindistan - 1(5) saat.**

Dünya müharibəsindən sonra ölkənin sosial-iqtisadi və siyasi vəziyyəti. 1918—1921-ci illərdə milli-azadlıq hərəkatı. Ölkənin iqtisadi həyatı. M.K.Qandi. Qeyri-zorakı tədbirlərdən imtina taktikası. Amritsar və Pəncab hadisələri. Hindistanın idarəçiliyi haqqında qanun. Hindistan Milli Konqresinin vətəndaş itaətsizliyi kampaniyasını elan etməsi. Bombey tətilləri. İkinci vətəndaş itaətsizliyi kampaniyası. "Duz yürüşü". Cavahirləl Nehru. Hindistanda milli məsələ. "Müsəlman cəmiyyəti"nin Pakistan dövləti yaratmaq tələbləri. 20-30-cu illərdə Hindistanın sosial-iqtisadi və siyasi inkişafının nəticələri.

**İran - 1(2) saat.**

Birinci dünya müharibəsindən sonra İranda siyasi vəziyyət. 1919-cu il 9 avqust tarixli İngiltərə-İran müqaviləsi. İranda demokratik hərəkatın güclənməsi. Gilan respublikası. İranda ingilis işğalına və hökumətin mürtəce siyasətinə qarşı milli-azadlıq hərəkatının başlanması. 1921-ci il 21 fevral dövlət çevrilişi. Qacarlar hakimiyyətinin sonu. Pəhləvilər sülaləsinin hakimiyyətə gəlməsi. İranda irticanın güclənməsi. Demokratik hərəkata divan tutulması. Aqrar qanunlar və islahatlar. Kapitulyasiya rejiminin ləğvi. 30-cu illərdə İranın sosial-iqtisadi inkişafının nəticələri. İranın xarici siyasəti.

**Ərəb ölkələri - 1(4) saat.**

Ərəb ölkələrinin bölüşdürülməsi. "Mandat sistemi" aə onun mahiyyəti. Ərəb ölkələrinin İngiltərə və Fransadan siyasi asılılığının güclənməsi. Milli azadlıq hərəkatının genişlənməsi. Misirin və İraqın müstəqillik əldə etməsi. Səudiyyə Ərəbistanı dövlətinin yaranması.

**20-30-cu illərdə beynəlxalq münasibətlər - 2(7) saat.**

20-ci illərin əvvəllərində qüvvələrin yeni nisbəti. Beynəlxalq münasibətlərdə sabitləşmə. Lokarno konfransı. Reyn təminat paktı. Genuya konfransı. Brian-Kolleq paktı. Tərksilah konfransı. 30-cu illərdə böyük dövlətlər ara-

sında ziddiyyətlərin kəskinləşməsi. Avropada və Asiyada müharibə ocaqlarının yaranması. Versal sisteminin iflası. Efiopiyanın İtaliya tərəfindən işğalı. Berlin-Roma-Tokio təcavüzkar blokunun yaradılması. Kollektiv təhlükəsizlik sistemi yaratmaq cəhdləri. Avstriyanın Almaniya tərəfindən ilhaqı (anşlüs). Münhen sövdələşməsi. "Polad pakt". İngiltərə-Fransa-SSRİ danışıqları. Almaniya-SSRİ münasibətləri. Molotov-Ribbentrop paktı. 20-30-cu illərdə beynəlxalq münasibətlərin əsas yekunları.

**20-30-cu illərdə mədəniyyət - 1(2) saat.**

Dünya mədəniyyətinin inkişafında əsas istiqamətlər və meyllər. Elm. Mühüm elmi kəşflər. Təhsil. Ədəbiyyat. İncəsənət. Memarlıq. Heykəltəraşlıq. Rəssamlıq. Musiqi. Teatr.

**Təkrar-ümumiləşdirici dərs: 20-30-cu illərdə dünyanın inkişafı: istiqamətlər, problemlər, yekunlar - 0(1) saat.**

Nəticə

Sənəd

Xronologiya

Sual və tapşırıqlar

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Azərbaycan tarixi (XI sinif): Azərbaycan Xalq Cümhuriyyəti. Rusiyanın Azərbaycana təcavüzü və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu. 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı. Azərbaycan sovet rejiminin qurulması. Azərbaycan SSR-in ərazi bütövlüyünə yeni qəsdlər, formal müstəqilliyn ləğv olunması, Azərbaycanda sovet milli siyasəti. DQMV və Naxçıvan MSSR-in təşkili. Azərbaycan SSR yeni iqtisadi siyasət, sənayeləşdirmə və zorakı kollektivləşdirmə illərində. Azərbaycanın dövlət xadimlərinə və ziyalılarına qarşı repressiyalar. Ə.Lahutinin başçılığı altında 1922-ci il Təbriz üsyanı. Təbriz kibrit zavodu fəhlələrinin 1930-cu il çıxışları. Ümumi tarix (IX sinif): İngiltərədə vətəndaş müharibəsi (X sinif). Vyana konqresi və onun qərarları. ABŞ-da vətəndaş müharibəsi. Başlıca kapitalist dövlətləri XIX əsrin sonu - XX əsrin əvvəllərində. Çin, Hindistan, İran və Türkiyə, Qafqaz, Krım, Orta Asiya, Qazaxıstan, Volqaboyu və Sibir XX əsrin əvvəllərində. Birinci Dünya müharibəsi. Rusiyada Fevral inqilabı və Oktyabr çevrilişi. İnsan və cəmiyyət (X sinif): Texniki tərəqqidə elm və təhsilin rolu. İnsanların iqtisadi fəaliyyəti və təkamülü.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Vilsonun 14 maddəsi. Millətlər cəmiyyəti. Mandat sistemi. Hərbsizləşdirilmiş zona. Hərbi-sənaye potensialı. "Sanitar kordonu". Qeyri-bərabər hüquqlu müqavilələr sistemi. Avropa hegomonluğu. Millətlər Cəmiyyətinin Məclisi. Təcavüzkar dövlət. Təcavüzə məruz qalmış tərəf. Veymar konstitusiyası. Veymar respublikası. Faşizm. Faşist partiyası. Üçüncü reyx. Nasional-sosializm. Nasizm. Millət-

çilik. Rasizm. "Sosial darvinizm". Antisemitizm. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi. Vahid şəklə salma siyasəti (unifikasiya). Siyasi terror xətti. "İrsi həyətlər haqqında qanun". Birinci və ikinci leyborist hökumətləri. Lokaut. Qırmızı cümə. Ştreykberxlər xartiyası. İşsizlər hərəkatı. "Milli Birlik hökuməti". Antifaşist birliyi. "Sol blok" hökuməti. Xalq Cəbhəsi. Xalq cəbhəsi hökuməti. "Odlu xaçlar".

Hərbiləşdirilmiş faşist təşkilatı. Müharibə borcları üzrə ödənişlər. "Mehriban qonşuluq" siyasəti. "Yeni xətt" siyasəti. Sahibkarlarla kollektiv müqavilələr bağlamaq hüququ. "Huvervillər". "İqtisadiyyatın çiçəklənməsi" (prosperite). "Vicdanlı rəqabət kodeksləri". Gənclər üçün əmək düşərgələri. Burjua-demokratik inqilabı. İctimai həyatın demokratikləşdirilməsi. "Beynəlmiləl briqadalar". Qarışmamaq siyasəti. Aqrar-sənaye ölkəsi. Siyasi sistemin sağlamlaşdırılması ("Sanasion proqram"). Monarxiya faşist idarə üsulu. İşğal tətilləri. Vahid cəbhə taktikası. Xarici hərbi müdaxilə. Hərbi kommunizm siyasəti. Ərzaq sapalağı. Yeni iqtisadi siyasət. Millətlərin öz müqəddəratını təyin etmə hüququ. Muxtariyyələşdirmə. İttifaq dövləti. Sənayeləşdirmə. Kollektivləşdirmə. Qolçomaqların bir sinif kimi ləğvi. İnzibati-amirlik sistemi. Sovet rejimi. Repressiyalar. Zaqafqaziya Federasiyası. Muxtar respublika. Muxtar vilayət. Başmaçı hərəkatı. Torpaq-su islahatları. Türkiyə Böyük Millət Məclisi. Kamalçılar islahatı. Etatizm siyasəti. "Qara kabinet". Kapitulyasiya rejimi. Vətəndaş itaətsizliyi kampaniyası. Duz yürüşü. Uşaq müqavimət hərəkatı ("Meymun briqadaları"). "4 may" hərəkatı. "Düyü qiyamları". Yapon militarizmi. Tanaka memorandumu. Təcavüzkarın şirnikləndirilməsi. Referendum. Anşlüs. Münhen sövdələşməsi. Antikomintern paktı. Molotov-Ribbentrop paktı. "Üçüncü reyx". Milli-ərazi muxtariyyəti. Milli mədəni muxtariyyət. Totalitar sosializm.

**Şagirdlərin əsas bacarıqları:** Bölmənin mövzuları üzrə formalaşdırılan zsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilikləri və bacarıqları müvafiq mövzuların öyrənilməsinə tətbiq etmək. Versal-Vaşinqton sisteminin mahiyyətini aydınlaşdırmaq, onu dünyanın nüfuz dairələrinə bölüşdürülməsi uğrunda mübarizənin yeni mərhələsi kimi səciyyələndirmək və faktlarla sübut etmək. Qalib dövlətlərin Türkiyəni parçalamaq və bir dövlət kimi məhv etmək planlarını Versal sisteminin tərkib hissəsi olduğunu, Sevr müqaviləsinin ədalətsiz, işğalçı xarakterini açıqlamaq. "Mandat sistemi"nin mahiyyətini və məqsədini aydınlaşdırmaq. Türkiyə, İran, Hindistan və Çində milli-azadlıq hərəkatlarının baş vermə səbəblərini, xarakterini, ümumi cəhətlərini təhlil etmək əsasında konkret nəticələr çıxarmaq. M.K.Atatürkün başçılığı altında türk xalqının azadlıq mübarizəsinin nəticəsi olaraq yaradılmış Türkiyə Cümhuriyyətinin türk-müsəlman dünyası üçün əhəmiyyətini göstərmək. Türkiyənin dünyəvi,

demokratik dövlətə çevrilməsində kamalçılar islahatlarının oynadığı rolu səciyyələndirmək.

Birinci dünya müharibəsinin Avropa ölkələrində və ABŞ-da sosial-iqtisadi və siyasi şəraitə göstərdiyi təsiri açıqlamaq və bunlara dair faktlar gətirmək. Başlıca Avropa ölkələri və AVŞ-ın inkişafını müqayisə etmək, onların inkişafının fərqli və oxşar cəhətlərini müəyyənləşdirmək. Dünya iqtisadi böhranının müxtəlif ölkələrə təsirini fərqli cəhətlərini və onların səbəblərini aydınlaşdırmaq. F.D.Ruzveltin "Yeni xətt" siyasətinin mahiyyətini açıqlamaq. İngiltərədə ilk leyborist hökumətlərinin təşkili və fəaliyyətlərinin əsas cəhətlərini aydınlaşdırmaq. Avropanın bir sıra ölkələrində Xalq səbəblərinin meydana gəlməsini faşizm təhlükəsinə qarşı mütərəqqi, demokratik qüvvələrin əlbir fəaliyyətinin nəticəsi kimi qiymətləndirmək. Fransada və İspaniyada Xalq Cəbhəsi hökumətlərinin süqutu səbəblərini müqayisəli şəkildə aydınlaşdırmaq.

Faşist ideologiyasının mahiyyətini açıqlamaq. Müxtəlif ölkələrdə monarxist faşist rejiminin meydana gəlməsi və onun klassik faşizmdən fərqli cəhətlərini aydınlaşdırmaq. Avropanın bir sıra ölkələrində faşist ideologiyasının yayıla bilməsinin səbəblərini müəyyənləşdirmək. İngiltərə, ABŞ, Rusiya, İspaniya və digər ölkələrin nümunəsində vətəndaş müharibələrinin mahiyyətini, ümumi xarakterik cəhətlərini, səbəblərini faktlar əsasında təhlil etmək. Sovet rejiminin "hərbi kommunizm", "yeni iqtisadi siyasət" tədbirlərinin mahiyyəti, səbəb və nəticələrini aydınlaşdırmaq. Bolşeviklərin "Millətlərin öz müqəddaratını təyin etmək hüququ" prinsipindən üz döndərdiyini, keçmiş Rusiya imperiyasının müstəmləkə siyasətini davam etdirdiyini faktlarla sübut etmək. SSRİ-nin təşkilini mahiyyət etibarilə keçmiş Rusiya imperiyasının başqa formada bərpa olunması kimi qiymətləndirmək. SSRİ-də həyata keçirilən sosialist yenidənqurmalarının mahiyyəti, məqsədi və nəticələrini izah etmək. Sovet sənayeləşdirməsinin başqa dövlətlərdəkindən fərqli cəhətlərini aydınlaşdırmaq. Zorakı kollektivləşdirmənin mahiyyət və nəticəsini dərk etmək, onun kəndliləri təhkimli halına salınmasının bir forması kimi qiymətləndirmək. Sovet cəmiyyətində aparılan kütləvi-siyasi repressiyaların avtoritar sistemin möhkəmləndirilməsi yolunda zəruri addım olduğunu faktlarla əsaslandırmaq. Sovet rejiminin demokratik, azadfikirlilik hallarını məhv etməsini, insan hüquqlarının tapdalanmasını, başqa xalqlara, xüsusilə türk xalqlarına qarşı törədilmiş cinayətlərini konkret faktlarla sübut etmək. SSRİ-də totalitar sosializminin qurulması, inzibati-amirlik sisteminin yaradılması və 30-cu illərin repressiyaları arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək. Rusiyada Fevral inqilabı və Oktyabr çevrilişindən sonra yerlərdə sovet milli siyasətinin mahiyyətini, məqsəd və niticələrini real faktlar əsasında açıqlamaq. Milli regionlarda, o cümlədən Qafqaz-

da, Krımda, Volqaboyunda, Mərkəzi Asiyada, Sibir və Qazaxıstanda başlayan milli-azadlıq mübarizəsinin xüsusiyyətlərini aydınlaşdırmaq. Ermənistanın Cənubi Qafqazda Rusiyanın imperiya siyasətinin həyata keçirilməsində başlıca dayağı olduğunu izah etmək və onu müasir dövrlə əlaqələndirmək. Birinci dünya müharibəsi nəticəsində dünyanın siyasi xəritəsində baş vermiş dəyişiklikləri kontur xəritədə göstərmək. Müxtəlif ölkələrin sosial-iqtisadi və siyasi inkişafını xarkterizə edən cədvəllər tərtib etmək.

## II BÖLMƏ

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ - 15(16) saat.

**7.Müharibənin başlanğıc mərhələsi - 3(12) saat.**

**Müharibənin başlanması - 1(3) saat.**

Müharibənin səbəbləri və xarakteri. Hücum etməmək barədə sovet-alman müqaviləsi. Almaniyanın Polşa üzərinə hücumu. Fransanın və İngiltərənin müharibəyə girməsi. İkinci dünya müharibəsinin başlanması.

**"Qəribə müharibə" - 1(4) saat.**

Avropada "qəribə müharibə". SSRİ-nin Sağsahil Ukraynasını və Qərbi Belarusiyanı işğal etməsi. "Sərhədlər və dostluq haqqında" sovet-alman müqaviləsi. SSRİ ilə Finlandiya arasında müharibənin başlanması və onun nəticələri.

**Qərbdə hərbi əməliyyatlar - 1(5) saat.**

Almaniyanın Danimarka və Norveçi işğal etməsi. "Qəribə müharibə"nin başa çatması. Hollandiya və Belçikaya hücum. Fransanın təslim olması. Böyük Britaniyaya qarşı hava hücumları. Afrikada və Balkanlarda hərbi əməliyyatlar. Faşist bloku tərəfindən Cənub-Şərqi Avropanın nəzarət altına alınması. SSRİ-nin Baltikyanı dövlətləri işğal etməsi. Faşistlərin işğal etdiyi ərazilərdə faşist "yeni qayda" rejimi. Müqavimət hərəkatının başlanması. Qərbdə hərbi əməliyyatların xarakterik cəhətləri.

**Müharibənin ikinci mərhələsi - 2(12) saat.**

**Almaniyanın SSRİ üzərinə hücumu və "Antihitler koalisiyası"nın yaradılması - 1(6) saat.**

SSRİ-yə qarşı müharibəyə hazırlıq. "Barbarossa" planı. Almaniyanın SSRİ üzərinə hücumu. Alman qoşunlarının SSRİ-nin içərilərinə doğru irəliləməsi. Müharibənin ilk nəticələri. Lendliz haqqında qanunun SSRİ-yə şamil edilməsi. "Atlantika xartiyası". Antihitler koalisiyasının yaranması.

**1941-1942-ci illərdə hərbi əməliyyatlar - 1(6) saat.**

Sakit okeanda hərbi əməliyyatların başlanması. Yaponiya və ABŞ-ın

müharibəyə qoşulması. Moskva ətrafında alman qoşunlarının məğlubiyyəti. "İldırımsürətli müharibə" planının iflası. Faşist blokunun zəbt etdiyi ərazilərdə Müqavimət, partizan və milli-azadlıq hərəkatları. 1942-ci ildə Afrika, Asiya və Sakit okeanda hərbi əməliyyatlar. 1941-1942-ci illərdəki hərbi əməliyyatların xarakterik cəhətləri və yekunları.

**9.Müharibənin gedişində əsaslı dönüş - 2(12) saat.**

**Əsaslı dönüşün başlanması - 1(6) saat.**

Əsaslı dönüşün başlanması ərəfəsində arxa cəbhə. Stalinqrad döyüşü. Afrikada hərbi əməliyyatlar. Müharibənin gedişində əsaslı dönüşün başlanması, onun hərbi, siyasi və iqtisadi şərtləri.

**Əsaslı dönüşün başa çatması - 1(6) saat.**

Kursk döyüşü. Əsaslı dönüşün başa çatması. Arxa cəbhə əsaslı dönüş dövründə. Faşist blokunun dağılmasının başlanması. İtaliyanın təslim olması. Tehran konfransı.

**10.Türkiyə və Qafqaz xalqları müharibə illərində - 2(7) saat.**

**Türkiyə - 1(4) saat.**

Türkiyənin İngiltərə və Fransa ilə hərbi ittifaqı. Müharibə illərində Türkiyədə sosial-iqtisadi və siyasi vəziyyət. Türkiyənin Almaniya ilə dostluq və hücum etməmək haqqında müqavilə bağlaması. Türkiyənin özünü bitərəf elan etməsi. Almaniya ilə diplomatik əlaqələri kəsməsi. Türkiyənin müharibəyə qoşulması. Müharibə illərində türk diplomatiyasının uğurları.

**SSRİ tərkibindəki türk və Qafqaz xalqları müharibə illərində - 1(3) saat.**

Türk və Qafqaz xalqlarının iqtisadiyyatı müharibə illərində. Müharibə illərində SSRİ-nin türklər yaşayan regionlarının iqtisadiyyatındakı dəyişikliklər və faşizm üzərində qələbədə onun rolu. Türk və Qafqaz döyüşçülərinin cəbhədə fədakarlıqları. Antisovet türk-müsəlman legionları. Türk və Qafqaz xalqlarının repressiyalara və deportasiyaya məruz qalması. Krımda və Qafqazda bəzi milli müxtar dövlət qurumlarının ləğv edilməsi. Tuvanın ilhaqı.

**Faşist blokunun məğlub endilməsi - 2(12) saat.**

**1944-1945-ci illərdə hərbi əməliyyatlar - 1(6) saat.**

Sovet-alman cəbhəsində hərbi əməliyyatlar. Avropada ikinci cəbhənin açılması. Müttəfiqlərin Sakit okeanda hərbi əməliyyatları. Faşist blokunun dağılması. Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində milli-azadlıq hərəkatı. Sovet qoşunlarının sözü gedən ölkələrə daxil olması, həmin ölkələrdə sovet meylinin güclənməsi. Krım konfransı. Birləşmiş Millətlər Təşkilatının yaradılması. Berlin əməliyyatı. Almaniyanın təslim olması.

**İkinci dünya müharibəsinin başa çatması - 1(6) saat.**

Potsdam konfransı. ABŞ-ın müharibədə atom silahını tətbiq etməsi. Xirosima və Naqasaki. SSRİ-nin Yaponiyaya qarşı müharibəyə qoşulması.

Yaponiyanın təslim olması. İkinci dünya müharibəsinin başa çatması, onun yekunları və dərsləri. Nürnberq prosesi.

**Təkrar ümumiləşdirici dərs - İkinci dünya müharibəsinin yekunları və dərsləri - 0(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kurslararası, kursdaxili və fənlərarası əlaqələr:** Azərbaycan tarixi (X sinif): Azərbaycan Birinci Dünya Müharibəsi illərində. (XI sinif): Azərbaycan Xalq Cümhuriyyəti. Ümumi tarix (X sinif): Birinci dünya müharibəsi və yekunları. (XI sinif): Versal-Vaşinqton sistemi. Avropa dövlətləri, ABŞ və SSRİ iki dünya müharibəsi arasındakı dövrdə. 20-30-cu illərdə beynəlxalq münasibətlər. Ədəbiyyat (XI sinif): Ernest Heminqueyin "Əlvida silah" əsəri. İnsan və cəmiyyət (IX sinif): Müharibə və sülh problemləri. Ədalətli və ədalətsiz müharibələr.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** İkinci dünya müharibəsi. "Vays" planı. "Sərhədlər və dostluq haqqında" sovet-alman müqaviləsi. "Qəribə müharibə". "Majino xətti". "Mannerheym xətti". "Dünkerk möcüzəsi". "Müqavimət hərəkatı". "Polad pakt". "Barbarossa planı". "Atlantika xartiyası". "İldırımsürətli müharibə". "Tufan" əməliyyatı. Antihitler koalisiyası. Lend-liz qanunu. "Ost" planı. "Vilvet" planı. Müharibənin gedişində əsaslı dönüş. Faşist blokunun iflası. "Rels müharibəsi". "Konsert əməliyyatları". Avropada ikinci cəbhə. "Overlord" əməliyyatı. Kursk qövsü. Birləşmiş Millətlər Təşkilatı. "Böyük üçlük". "Katin məsələsi". "Yaşıl qovluq". "Edelveys" planı. "Nürnberq prosesi". Avantürist plan.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilik və bacarıqları bölmənin öyrənilməsinə tətbiq etmək. İkinci dünya müharibəsinin səbəbləri və xarakterini müəyyənləşdirmək, onu Birinci Dünya Müharibəsinin səbəbləri və xarakteri ilə müqayisə etmək. İkinci Dünya Müharibəsinin Versal-Vaşinqton sistemi ilə əlaqəsini aydınlaşdırmaq. Müharibə edən dövlətlərin hərbi strateji planlarını Birinci dünya müharibəsinin yekunları ilə əlaqələndirmək. Qərb dövlətlərinin təcavüzkarı şirnikləndirmək, qarışmamaman siyasətinin və "qəribə müharibə"nin mahiyyətini açıqlamaq. Qərbdə aparılan hərbi əməliyyatların xarakterik cəhətlərini müəyyənləşdirmək. Avropada, Afrikada, Asiyada və Sakit okeanda baş vermiş əsas hərbi əməliyyatları müharibə edən dövlətlərin və ya blokların strateji planları ilə əlaqələndirmək. Faşist Almaniyasının dünya ağalığına can atmasının alman xalqı üçün nəticələrini müəyyənləşdirmək. "Barbarossa"

planının mahiyyət etibarilə avantürist plan olduğunu əsaslandırmaq. 1941-1942-ci illərdə gedən hərbi əməliyyatların xarakterik cəhətlərini və yekunlarını aydınlaşdırmaq, müharibə edən dövlətlərin strateji planları ilə əlaqələndirmək. Faşist bloku dövlətlərinin müharibənini ilk illərində müvəffəqiyyətlərinin səbəblərini izah etmək. Müqavimət, partizan və milli-azadlıq hərəkatlarının yaranması xüsusiyyətlərini aydınlaşdırmaq. İkinci Dünya Müharibəsinin əsas hərbi əməliyyatlarının keçirilməsini atlas və kontur xəritələr vasitəsilə izləmək, onların şərhini vermək, strateji mahiyyətini aydınlaşdırmaq. 1944-1945-ci illərin hərbi əməliyyatlara dair qərarları arasındakı əlaqəni aydınlaşdırmaq. Müttəfiq dövlət başçılarının Tehran, Krım və Potsdam konfranslarının sənədləri əsasında dünyanın idarə edilməsi uğrunda Qərb dövlətləri ilə SSRİ arasında gedən mübarizənin səbəblərini aydınlaşdırmaq, onlar arasında sövdələşmələrin mahiyyətini izah etmək. Müxtəlif ölkələrdə müharibənin gedişinə, əsas hərbi əməliyyatların aparılması və nəticələrinə dair sxemlər, diaqramlar, cədvəllər təşrtib etmək, referatlar işləmək. İkinci Dünya Müharibəsinin yekunları təhlil etmək, onu Birinci Dünya Müharibəsinin yekunları ilə müqayisə etmək. İki dünya müharibəsinin bəşəriyyətə gətirdiyi faciə və fəlakətləri ümumiləşdirmək, müharibənin bəşəriyyət əleyhinə ən ağır cinayət olduğunu faktlarla sübut etmək. Müharibə illərində Türkiyə dövlətinin diplomatiyası ilə ölkədəki siyası, iqtisadi və hərbi vəziyyət arasındakı əlaqəni aydınlaşdırmaq. SSRİ-də yaşayan türk xalqlarının müharibəyə qatılması nəticəsində, müharibə illərində onların iqtisadiyyatında baş vermiş dəyişikliklərin səbəblərini aydınlaşdırmaq. SSRİ-nin Yaponiyaya qarşı hərbi əməliyyatlara qoşulmasını onun strateji planları ilə əlaqələndirmək. Nürnberq prosesinin mahiyyətini aydınlaşdırmaq. ABŞ-ın müharibədə atom silahı tətbiq etməsinin hərbi-siyasi və mənəvi-psixoloji cəhətlərini aydınlaşdırmaq.

## III BÖLMƏ

## DÜNYA MÜHARİBƏDƏN SONRAKI DÖVRDƏ - 31(112) saat.

### 12.ABŞ, Avropa ölkələri, SSRİ və Yaponiya - 11(53) saat.

**Amerika Birləşmiş Ştatları - 1(7) saat.**

İkinci dünya müharibəsinin ABŞ üçün nəticələri. Trümenin prezidentliyi dövründə daxili və xarici siyasət. Əmək münasibətləri. Makkartizm. İrqi bərabərlik problemi. Respublikaçıların qələbəsi. D.Eyzenhauer. 50-60-cı illərdə ABŞ-ın sosial-iqtisadi inkişafı və onun səbəbləri. Kennedinin prezident-

liyi. Consonun daxili və xarici siyasəti. R.Nikson. 70-ci illərdə ABŞ-ın daxili və xarici siyasəti. Ronald Reyqanın prezidentliyi. "Reyqanomika" siyasəti. ABŞ 90-cı illərdə. B.Klinton. İkinci dünya müharibəsindən sonra ABŞ-ın iqtisadi və siyasi inkişafının əsas nəticələri. ABŞ XX-XXI əsrlərin qovşağında.

**İngiltərə - 1(6) saat.**

Müharibədən sonrakı illərdə İngiltərənin iqtisadi və siyasi vəziyyəti. Üçüncü və dördüncü leyborist bökumətləri (1945-1951). Mühafizəkarların on üç illik idarəçiliyi. İngiltərə 60-cı illərin ikinci yarısı - 70-ci illərdə. Olster problemi. İngiltərənin "Ümumi bazara" daxil olması. M.Tetçer hökumətinin daxili və xarici siyasəti. İngiltərə 90-cı illərdə və XXI əsrin astanasında.

**Fransa - 1(6) saat.**

Müharibədən sonrakı vəziyyət. Fransa müvəqqəti rejim dövründə. Dördüncü respublika. 50-ci illərdə iqtisadi yüksəliş. Beşinci respublika. Şarl de Qoll. 1968-ci il may-iyun hadisələri. De Qollun istefası. Sol qüvvələr hakimiyyət başında. F.Mitteran. Fransa 90-cı illərdə. Fransanın sosial-iqtisadi və siyasi inkişafının əsas meylləri.

**AFR - 1(6) saat.**

Müharibənin Almaniya üçün nəticələri (1945-1946). Almaniyanın parçalanması. K.Adenauer. AFR-də "iqtisadi möcüzə" və onun səbəbləri. AFR 50-60-cı illərdə. Sosial-demokratlar hakimiyyətdə. "Böyük və kiçik" koalisiya hökumətləri. H.Kol. Alman xalqını birliyə aparan yollar və Almaniyanın birləşdirilməsi. Almaniya XX əsrin 90-cı illərində - XXI əsrin ilk illərində. Almaniyanın xarici siyasəti.

**İtaliya - 1(6) saat.**

İtaliya müharibədən sonra. Demokratik dəyişikliklər. Respublikanın qurulması. De Qasperi. 50-60-cı illərdə iqtisadi inkişaf və siyasi mübarizə. İtaliya "iqtisadi möcüzəsi" və səbəbləri. İtaliya müasir dövrdə.

**İspaniya - 1(5) saat.**

Müharibədən sonra sosial-iqtisadi və siyasi vəziyyət. 50-60-cı illərdə liberallaşma. Diktaturadan demokratiyaya keçid. 1978-ci il Konstitusiyası. "Monkloa pakti". Kral Xuan Karlos. Demokratik proseslərin möhkəmləndirilməsi. Sosialistlər hakimiyyətdə. İspaniya müasir dövrdə.

**Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri - 2(6) saat.**

Mərkəzi və Cənub-Şərqi Avropa müharibədən sonra. "Xalq demokratiyası" dövrü. Həmin ölkələrdə sovet modelli qurumların bərqərar olması. Siyasi böhran. Demokratiya və milli-azadlıq uğrunda xalq hərəkatları, Sovet rejimi tərəfindən onların boğulması. ADR-də 1953-cü il iyun, Polşada 1956-cı il 28 iyun hadisələri. Macarıstanda totalitar rejimə qarşı 1956-cı il üsyanı. Çexoslovakiyada 1968-ci il hadisələri. Totalitarizmin güclənməsi. İqtisa-

di vəziyyətin pisləşməsi. Polşada "Həmrəylik" hərəkatı. Rumıniya hadisələri. 80-90-cı illərin "məxmər inqilabdları". Yuqoslaviyanın parçalanması. Serblərin Bosniya və Kosovada "etnik təmizləmə" siyasəti. Totalitar sosializmin iflası. Bazar iqtisadiyyatına keçid.

Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri XX əsrin və XXI əsrin ilk illərində.

**Sovet Sosialist Respublikaları İttifaqı - 2(6) saat.**

İkinci dünya müharibəsinin SSRİ üçün nəticələri. İnqilabi-amirlik sisteminin gücləndirilməsi. Təsərrüfatın bərpa və inkişaf etdirilməsi. 50-60-cı illərin ortalarında cəmiyyətin həyatında yeniləşmə meylləri və iqtisadi islahat cəhdləri, onların uğursuzluqları. 70-80-ci illərdə sosial-iqtisadi böhran meyllərinin güclənməsi. L.İ.Brejnev. "Yenidənqurma" və sovet sisteminin iflası. SSRİ-ni qoruyub saxlamaq cəhdləri, onların boşa çıxması. SSRİ-nin dağılması. Yeni müstəqil dövlətlər. MDB. Rusiya müasir dövrdə.

**Yaponiya - 1(5) saat.**

ABŞ-Yaponiya münasibətləri. Aqrar islahatı. Yoponiya Konstitusiyası. San-Fransisko müqaviləsi. Yaponiyada elmi-texniki tərəqqi. İqtisadi inkişaf və iri kapitalın güclənməsi. Yaponiyanın dünyanın iqtisadi güc mərkəzlərindən birinə çevrilməsi. Yaponiya XX əsrin 90-cı və XXI əsrin ilk illərində.

**13.Türk dünyası və Qafqaz xalqları - 4(14) sinif.**

**Türkiyə - 1(5) saat.**

Müharibədən sonrakı ilk illərdə Türkiyənin sosial-iqtisadi vəziyyəti. İslahatlar. Trumen doktrinası və Türkiyə. 1950-ci ilin parlament seçkiləri. 50-60-cı illərdə iqtisadi inkişaf. 1960-cı il dövlət çevrilişi. 1961-ci ildə yeni Konstitusiyanın qəbul edilməsi. 1971-ci il 12 mart hadisələri. Türkiyə 70-ci illərdə. T.Özal "Türkiyə möcüzəsi". Türkiyə müasir dövrdə. S.Dəmirəl. Türkiyənin xarici siyasəti.

**Qafqaz xalqları - 1(3) saat.**

Sosial-iqtisadi və siyasi vəziyyət. 1957-ci il 9 yanvar fərmanı. Qafqazın deportasiyaya məruz qalmış türk-müsəlman xalqlarının bəzilərinin öz vətənlərinə qayıtması. Axıska türklərinin, Qafqaz türkmənlərinin taleyi və milli haqları uğrunda mübarizəsi. Cənubi Qafqaz respublikalarında dövlət dili məsələsi. 50-ci illərdən sonra Qafqazın iqtisadiyyatı. "Böyük Ermənistan" xülyası. Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması. Gürcüstan və Ermənistanda sosial-iqtisadi vəziyyət. Gürcüstan-abxaz, Ermənistan-Azərbaycan münaqişələri. Şimali Qafqazın dağlı xalqları. Çeçenlərin istiqlal mübarizəsi. C.Dudayev. I və II Çeçenistan müharibələri.

**Mərkəzi Asiya və Qazaxıstan xalqları - 1(3) saat.**

50-80-ci illərdə Mərkəzi Asiya və Qazaxıstan respublikalarında ictimai-siyasi və iqtisadi vəziyyət. Yüksək sürətli demoqrafik inkişaf. Milli oyanış

meylləri. Alma-Ata, Fərqanə, Oş hadisələri. SSRİ-nin dağılmasından sonra müstəqil türk respublikalarının yaranması. Mərkəzi Asiya və Qazaxıstan respublikaları müasir mərhələdə.

**Krım. Volqaboyu və Sibir xalqları - 1(3) saat.**

50-80-ci illərdə iqtisadi və siyasi həyat. Krım tatarlarının milli haqları uğrunda mübarizəsi. 90-cı illərin əvvəllərindən etibarən Volqaboyu və Sibirin türk muxtar qurumlarının siyasi statuslarının artırılması uğrunda mübarizəsi. Ruslaşdırma siyasətinin davam etdirilməsi. SSRİ-nin dağılmasından sonra Tatarıstan və Başqırdıstanda müstəqillik meylləri. Volqaboyu və Sibir xalqları müasir mərhələlərdə.

**14.Asiya, Afrika və Latın Amerikası ölkələri - 9(25) saat.**

**Çin - 1(3) saat.**

1946-1949-cu illərdə vətəndaş müharibəsi. Çin Xalq Respublikasının yaradılması. Sosialist yenidənqurmaları: sənayeləşdirmə, aqrar islahatı, "Böyük sıçrayış", "Xalq kommunaları", "Mədəni inqilab" və onların nəticələri. Den Syaopinin 80-ci illər islahatları. Demokratiya uğrunda hərəkat. Tyananmen hadisələri. İqtisadiyyatın dövlət nəzarətindən azad edilməsi. Çinin qonşu dövlətlərə münasibətləri. Tibet və Tayvan problemləri. Honkonqun Çinə qaytarılması. Şərqi Türküstan (Uyğur) Çinin tərkibində. Çin müasir mərhələdə.

**Hindistan - 1(3) saat.**

İkinci dünya müharibəsindən sonra milli-azadlıq hərəkatı. Hindistan respublikasının yaradılması. "Kəşmir problemi". Ölkənin sosial-iqtisadi inkişafı. C.Nehru xətti. 70-ci illər islahatları. İ.Qandi. 70-ci illərin sonu - 80-ci illərdə ölkədə siyasi böhran. Hindistan müasir mərhələdə.

**Pakistan - 1(3) saat.**

Müstəqil Pakistan dövlətinin yaradılması. 50-ci illərdə aqrar islahatlar. Ölkədə 1958-ci il hərbi çevrilişi. Hindistanla silahlı münaqişə və onun nizama salınması. 1966-cı il Daşkənd bəyannaməsi. 1969-cu il dövlət çevrilişi. Banqladeş Xalq Respublikasının elan edilməsi. Mülkü hökumətin hakimiyyətə gəlməsi. Z.Bhutto. 1977-ci il hərbi çevrilişi. Prezident Ziyaülhəqq. 80-90-ci illərdə ölkədə sosial-iqtisadi və siyasi vəziyyət. Beynəlxalq münasibətlər. 1999-cu il hərbi çevrilişi. Pakistan müasir dövrdə.

**Əfqanıstan - 1(3) saat.**

Müharibədən sonra Əfqanıstanda sosial-iqtisadi və siaysi vəziyyət. İngilis-Əfqanıstan münasibətləri. Şahlıq rejiminin devrilməsi. Əfqanıstanın Respublika elan olunması. Sovet-Əfqanıstan münasibətləri. Əfqanıstana sovet müdaxiləsi və iflası. Müasir mərhələdə Əfqanıstanda vəziyyət.

**İran - 1(3) saat.**

İran İkinci dünya müharibəsindən sonrakı ilk illərdə. 50-ci illərin əvvəllə-

rində milli-azadlıq hərəkatının yüksəlişi. Neft sənayesinin milliləşdirilməsi uğrunda mübarizə. Müsəddiq hökuməti. 1953-cü il dövlət çevrilişi. 60-cı il islahatları. "Ağ inqilab" və onun nəticələri. 1978-79-cü illər inqilabı və onun hərəkətverici qüvvələri. Şahlıq rejiminin devrilməsi. İran İslam Respublikasının yaradılması. İran-İraq müharibəsi. İran müasir mərhələdə.

**Ərəb ölkələri - 2(6) saat.**

Yaxın Şərq müharibədən sonrakı ilk illərdə. İsrail dövlətinin yaradılması. Fələstin problemi. Ərəb-İsrail müharibələri. Müstəqil Fələstin dövlətinin yaradılması uğrunda mübarizə. Misir, İraq, Səudiyyə Ərəbistanı, Əlcəzair. 1952-ci il iyul inqilabi və Misirin milli azadlığı. C.Ə.Nasir. Misirə İngiltərə-Fransa-İsrail təcavüzü. Birləşmiş Ərəb Respublikası. 1971-ci il Konstitusiyası. Ə.Sadatın "açıq qapı" və "liberallaşdırma" siyasəti. Kemp-Devid sazişi. Misir 90-cı illərdə.

İkinci dünya müharibəsindən sonra Ərəbistan yarımadasında ərazi-sərhəd dəyişiklikləri. Yeni müstəqil dövlətlərin yaranması. 40-60-ci illərdə Səudiyyə Ərəbistanının iqtisadi inkişafının səbəbləri. 70-ci illərdə qonşu dövlətlərlə qarşılıqlı münasibətlər. Neft və iqtisadi tərəqqi. Səudiyyə Ərəbistanı 80-90-cı illərdə. Səudiyyə Ərəbistanı müasir dövrdə.

İraqda 1958-ci il iyul inqilabı. 60-cı illərin əvvəllərində dövlət çevrilişləri və hərbi rejimin qurulması. 1968-ci il dövlət çevrilişi. BƏS-in hakimiyyətə gəlməsi. Səddam Hüseyn. İraq-Küveyt münaqişəsi. İraqa qarşı BMT sanksiyaları. ABŞ başda olmaqla Qərb dövlətlərinin İraqda hərbi əməliyyatlara başlaması. İraq müasir dövrdə.

Əlcəzair xalqının fransız müstəmləkəçilərinə qarşı mübarizəsi. Evian sazişi. Əlcəzairin istiqlaliyyət elan etməsi. Sosialist yönümündən imtina. Hakimiyyət uğrunda mübarizə. Əlcəzair müasir dövrdə.

**Latın Amerikası ölkələri - 2(4) saat.**

Müharibədən sonrakı illərdə Latın Amerikası ölkələrində iqtisadi və siyasi vəziyyət. İslahatçı partiyalar hakimiyyət başında. Diktator rejimlərinin devrilməsi. Hərbi çevrilişlər. Qvatemala və Boliviyada yeni inkişaf meylləri. Braziliyada avtoritar qaydalardan imtina. L.Varqas. Argentinada Xuan Peronun islahatları. Çilidə Xalq Birliyi hökuməti. Hərbi çevriliş. Pinoçet.

Latın Amerikası müasir mərhələdə.

**Beynəlxalq münasibətlər - 4(13) saat.**

**Müharibədən sonrakı ilk illərdə beynəlxalq münasibətlər "Soyuq müharibə"nin başlanması - 1(3) saat.**

Müharibədən sonrakı illərdə beynəlxalq münasibətlərin əsas problemləri. "Soyuq müharibə"nin başlanması. 1946-cı il Paris sülh konfransı. Trümen prinsipi. Marşal planı. Qərb ittifaqının təşkili. ADR-in yaranması. Yaxın Şərqdə münaqişə. Hindistan-Pakistan və Hind-Çin münaqişələri. BMT-

nin fəaliyyəti. Qarşılıqlı iqtisadi Yardım Şurası (QİYŞ). NATO-nun yaradılması. Almaniyanın parçalanması.

**50-80-ci illərdə beynəlxalq münasibətlər - 1(5) saat.**

50-80-ci illərdə beynəlxalq aləmdə iki sistemin qarşıdurması. Yaponiya ilə sülh müqaviləsi. Koreya müharibəsi. ANZYUS, SEATO və SENTO hərbi bloklarının yaradılması. NATO-nun genişlənməsi. Hind-Çinə dair Cenevrə sazişi. Varşava Müqaviləsi Təşkilatı. Bandunq konfransı. Eyzenhauer doktrinası. Avropa inteqrasiyası.

60-cı illərdə beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri. Qərbi Berlin. Bloklara qoşulmamaq hərəkatı. Karib böhranı. Nüvə silahı sınaqlarının və yayılmasıqnın qadağan edilməsi məsələsi. Kipr problemi. Vyetnam müharibəsi. Yaxın Şərqdə müharibə.

60-cı illərin sonu - 70-ci illərin əvvəllərində beynəlxalq münasibətlərdə əsaslı dəyişikliklər. 70-ci illərdə beynəlxalq gərginliyin zəifləməsi. Nüvə tərksilahı problemi. Hindistan-Pakistan və Ərəb-İsrail müharibələri. İslam Konfransı Təşkilatı. ATƏM-in yaradılması. Beynəlxalq gərdinliyin zəifləməsinin nəticələri. Əfqanıstanda sovet müdaxiləsinin beynəlxalq münasibətldərə təsiri və nəticələri.

80-ci illərin ortalarında beynəlxalq münasibətlərdə yumşalma. Beynəlxalq siyasətdə yeni təfəkkür. SSRİ-ABŞ danışıqları. Əfqanıstandan sovet qoşunlarının çıxarılması. Maastrix razılaşması. Almaniyanın birləşdirilməsi. ATƏT-in Paris xartiyası.

**Dünya müasir mərhələdə - 2(5) saat.**

SSRİ-nin və dünya sosializm sisteminin dağılmasının beynəlxalq münasibətlərə təsiri. Vahid dünya birliyinin bərpa edilməsi meylinin güclənməsi. "Soyuq müharibə"nin sona çatması. Yeni müstəqil dövlətlərin yaradılması. Münaqişə ocaqları (Balkanlar, Yaxın Şərq, Kipr, Kəşmir və Qafqaz) BMT və ATƏT-in rolunun artması. ATƏT-in zirvə toplantıları (Budapeşt, Lissabon, İstanbul). Türk dövlət başçılarının zirvə toplantıları. NATO yeni şəraitdə. Müasir dünyanın qlobal problemləri. Müharibədən sonrakı dövrdə beynəlxalq münasibətlərin inkişafının yekunları və dərsləri. Dünya XX-XXI əsrlərin qovşağında: problemlər və perspektivlər.

**16.Mədəniyyət - 3(6) saat.**

**Elmi-texniki inqilab - 1(2) saat.**

Elmi-texniki inqilab anlayışı. Elmi biliklərdə radikal dəyişikliklər. ETİ-nin inkişafında yeni mərhələ. ETİ-nin ziddiyyətli xarakteri. Məlumat-kompüter inqilabı. ETİ və bəşəriyyətin qlobal problemləri. ETİ-nin sosial, iqtisadi və siyasi nəticələri. ETİ və insan.

**Ədəbiyyat - 1(2) saat.**

Bədii ədəbiyyatın inkişafında yeni şərait. Tənqidi realizm. Neorealizm.

“Qəzəblənmiş gənc adamlar”. “Sosializm realizmi”.

**İncəsənət - 1(2) saat.**

İncəsənətdə yeni meyllər: ekzistensializm və hiperrealizm. Rok-hərəkat. İncəsənətdə humanizm ideyaları. “Kütləvi mədəniyyət” və onun mahiyyəti.

**Təkrar-ümumiləşdirici dərs: Müharibədən sonrakı dövrdə dünyanın inkişafının əsas meylləri - 0(1) saat.**

Nəticə.

Sənəd.

Xronologiya.

Sual və tapşırıqlar.

**Kursdaxili, kurslararası və fənlərarası əlaqələr:** Azərbaycan tarixi (XI sinif): Azərbaycanlıların Ermənistan ərazisindən kütləvi surətdə deportasiya edilməsi. Totalitar kommunist rejiminin Azərbaycanda sosial-iqtisadi inkişafı imperiyanın mənafeyinə tabe etmək siyasəti. Qondarma Dağlıq Qarabağ problemi. Azəröbaycanın dövlət müstəqilliyini bərpa etməsi. Ermənistanın Azərbaycana təcavüzü. 90-cı illərdə Azərbaycanın xarici siyasəti. Müstəqil Azərbaycan beynəlxalq münasibətlərdə. Ümumi tarix (IX sinif): İstiqlaliyyət uğrunda müharibə. ABŞ-ın yaradılması. Fransada birinci respublika. (X sinif): Almaniyanın və İtaliyanın birləşdirilməsi. Fransada ikinci və üçüncü respublikalar. ABŞ-da vətəndaş müharibəsi. Yaponiyanın konstitusiyalı monarxiya elan edilməsi. Birinci dünya müharibəsi və onun nəticələri (XI sinif): Əsas dünya dövlətləri (ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya, SSRİ) iki dünya müharibəsi arasındakı dövrdə. 20-30-cu illərdə beynəlxalq münasibətlər. İkinci dünya müharibəsi və onun yekunları. Ədəbiyyat (XI sinif): Ernest Xeminquenin “Qoca və dəniz” əsəri. Çingiz Aytmatovun “Əsrə bərabər gün” əsəri. İnsan və cəmiyyət (X sinif): Texniki tərəqqidə elm və təhsilin rolu. İnsanların iqtisadi fəaliyyət və təkamülü. Bəşəriyyətin qlobal problemləri. (XI sinif): Beynəlxalq hüquq. BMT-nin “İnsan hüquqlarının ümumi Bəyannaməsi”. Coğrafiya (IX sinif): Dünyanın müasir siyasi xəritəsi. Beynəlxalq təşkilatlar (BMT, ATƏT və s.). Elmi-texniki tərəqqinin əsas xüsusiyyətləri, tərkib hissələri. “Demoqrafik böhran” və “Demoqrafik partlayış” anlayışı. Demoqrafiq siyasət. ABŞ, Qərbi Avropa və Yaponiya - üç iqtisadi güc mərkəzi kimi. Şimali Amerika ticarət birliyi. AİB, onun Avropanın iqtisadi həyatında rolu. Afrika müasir dövrdə. Latın Amerikası msüasir dövrdə (XI sinif): Müasir dövrdə türk ölkələrinin inteqrasiyasının vacibliyi, perspektivliyi və müxtəlif formaları. Zirvə toplantıları və onların əhəmiyyəti.

**Bölmə üzrə formalaşdırılan əsas anlayışlar:** Xarici ekspansiya. “Tərəqqi naminə ittifaq”. “Böyük dəyənək siyasəti”. Seqreqasiya. Hərbi sənaye kompleksi. “Trümen doktrinası”. “Marşall planı”. “Strateji müdafiə təşəb-

büsü". Taft-Xartli qanunu. Makkartizm. Uotergeyt əhvalatı. "İran-kontras" qalmaqalı. Eyzenhauer doktrinası. İrqi bərabərlik problemi. "Reyqanomika". Yeni müstəmləkəçilik siyasəti. Hərbi metodlar. Kollektiv müstəmləkəçilik. "Sosial kontraktlar". Müvəqqəti rejim. Atlantizm. İtaliya "iqtisadi möcüzəsi". Yoxsul "cənub problemi. "Monkloa paktı", "Üç qeyri nüvə prinsipi". Almaniya "iqtisadi möcüzəsi" . "Yeni Şərq siyasəti". Vahid Almaniya. Milli Cəbhə hökumətləri. "Praqa baharı" hərəkatı. "Açıq qapı" və iqtisadiyyatın liberallaşdırılması siyasəti. Fələstin problemi. Hindistan və Pakistan dominionları. Kəşmir problemi. Demoqrafik partlayış. Urbanizasiya. Xustisializm konsepsiyası. "Soyuq müharibə". NATO. Hərbi-siyasi bloklar. Dünya sosializm sistemi. "Böyük yeddilər". Varşava müqaviləsi. Bağdad paktı. Müştərək bazar. Ümumi rifah dövləti. Qarşılıqlı İqtisadi Yardım Şurası. Nüvə silahı olmayan dünya quruculuğu. Almaniya probleminin demokratik əsas üzərində tənzimlənməsi. Soyqırımı. Energetika problemi. Dövlət terrorizmi. Ekstermizm. Devalvasiya. Dövlət borcu. Aparteid. Traybalizm. Avropa birliyi. Avropa Şurası. Avropa inteqrasiyası. Bazavr iqtisadiyyatı. Məxmər inqilablar. Şok terapiyası. Deportasiyaya məruz qalmış xalqlar, "Böyük Ermənistan" xülyası. Yüksək sürətli demoqrafik inkişaf. Dinc nizamasalma. Nüvə tərksilahı problemi. Beynəlxalq gərginliyin zəifləməsi. Dünya birliyinin bərpası. Dünyanın qlobal problemləri. Dünyanın iqtisadi güc mərkəzləri. Münaqişə ocaqları. Elmi-texniki inqilab. Məlumat-kompüter inqilabı. İnternet. Tənqidi realizm. Neorealizm. "Sosializm realizmi". Rok-hərəkat. "Yenidənqurma". ATƏT. Beynəlxalq təşkilatlar. Bloklara qoşulmamaq hərəkatı. "Üçüncü dünya" dövlətləri. Kütləvi mədəniyyət. Enerji böhranı. Neofaşizm. Müstəmləkə sisteminin iflası. Yeni müstəmləkəçilik. Müxtəlif ictimai quruluşlu dövlətlərin dinc yanaşı yaşaması. Reparasiya. Konfrontasiya. Prolonqasiya. Denonasiya.

**Şagirdlərin əsas bacarıqları:** Bölmə üzrə formalaşdırılan əsas anlayışları izah etmək və düzgün işlətmək. Başqa fənlərdən və kurslardan alınmış əlaqədar bilikləri və bacarıqları müvafiq bölmənin öyrənilməsinə tətbiq etmək. İkinci dünya müharibəsindən sonra dünyanın siyasi xəritəsində baş vermiş dəyişiklikləri xəritə əsasında izləmək və bu dəyişikliklərin baş verməsi səbəblərini izah etmək. Bu dəyişikliklərin konkret dövlətin ikinci dünya müharibəsində iştirakı və müharibədən sonrakı siyasəti ilə əlaqələndirmək. Müharibədən sonrakı dövrdə konkret dövlətlərin daxili və xarici siyasətinə dair ümumiləşdirmə aparmaq. Müharibədən sonrakı dövrdə ABŞ prezidentlərinin daxili və xarici siyasətinin ümumi və fərqli cəhətlərini müəyyənləşdirmək. İkinci dünya müharibəsindən sonra beynəlxalq aləmdə qüvvələr nisbətində dəyişikliklərin səbəb-nəticə əlaqələrini izah etmək. Avropada dinc nizamasalma problemlərinin həllində keçmiş müttəfiqlərin tut-



Georg-Eckert-Institut
für internationale
Schulbuchforschung
Braunschweig
-Schulbuchbibliothek-

duğu mövqeyi təhlil etmək, "Soyuq müharibə" siyasətinin mahiyyətini və səbəb-nəticələrini aydınlaşdırmaq. Beynəlxalq aləmdə iki sistemin qarşıdurmasının dünyanın inkişafına təsirini faktlar əsasında açıqlamaq. İki sistemin qarşıdurmasının kəskinləşməsi nəticəsi olaraq sürətlə silahlanma xəttinin götürülməsi, bəşəriyyətin nüvə təhlükəsinə məruz qalması, iri hərbi-siyasi blokların yaradılması, yeni münaqişə ocaqlarının törədilməsi və b. məsələləri əhatə edən sinxron cədvəllər, sxemlər və diaqramlar tərtib etmək.

ABŞ başda olmaqla Qərb dövlətlərinin və Yaponiyanın müharibədən sonra sosial-iqtisadi, siyasi inkişafının ümumi və fərqli xüsusiyyətlərini səciyyələndirmək. Almaniya, İtaliya, Yaponiya və Türkiyədə baş vermiş "iqtisadi möcüzə"ləri müqayisə etmək, oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək. ABŞ-ı geniş xarici ekspansiyaya təhrik edən amilləri müəyyənləşdirmək, əsas rəqiblərinin ondan maliyyə-iqtisadi asılılığına düşməsinin səbəblərini aydınlaşdırmaq. ABŞ-ın Qərbi Avropa ölkələrinə müharibədən sonrakı bərpa işlərində göstərdiyi maliyyə köməyini, Yaxın və Orta Şərq ölkələrinə dair doktrinalarının mahiyyətini və səbəblərini izah etmək. ABŞ-SSRİ və faşist dövlətlərinin iqtisadiyyata fəal müdaxiləsinin məqsədini, forma və vasitələrini müqayisə etmək. Bir sıra xalqların departasiyaya məruz qşalmalarını, bütöv xalqların süni parçalanmalarının antihumanist və bəşəri cinayətkarlıq olması fikrini əsaslandırmaq. Avropa və Asiyanın bir sıra ölkələrində "xalq inqilabları"nın mahiyyətini açıqlamaq. İkinci dünya müharibəsindən sonra SSRİ-nin Avropaqnın bir sıra ölkələrinə zorla "xalq inqilabları" ixrac etməsinin törətdliyi faciələri konkret faktlar əsasında izah etmək. Totalitar sistemin gücləndirilməsinin hər cür müstəqillik və azadfikirlilik təzahürlərinin boğulmasının, iqtisadiyyatda-inzibati amirlik metodları ilə idarəetmənin davam etdirilməsinin, islahat cəhdlərinin müvəffəqiyyətsizliyinin səbəblərini müəyyənləşdirmək. SSRİ-də və digər sosialist ölkələrində totalitar rejimlərin, ümumən totalitar sosializmin xarakterik cəhətlərini müəyyənləşdirmək. Vətəndaş cəmiyyəti və hüquqi dövlətin vacibliyi nəticəsinin əsaslandırmaq. Sovet rejiminin türk xalqlarına qarşı yeritdiyi "mədəni soyqırımı" adlı geniş yayılmış siyasətini milli və mədəni sərhədlərin süni surətdə silinməsinə, ana dilində təhsil almanın məhdudlaşdırılmasına, mədəniyyət abidələrinin məhv edilməsinə yönəlmiş olduğunu, bu siyasətin milli azlıqların assimlyasiya edilməsi, milli özünüdərkin məhv edilməsi məqsədi daşıdığını faktlarla sübut etmək.

Böyük dövlətlərin müstəqillik verdikləri ölkələrin siyasi istiqlaliyyətini tanımaqla yanaşı, onları iqtisadi asılılıqda saxlamaq və hərbi bloklara cəlb etmək siyasətinin mahiyyətini açıqlamaq. Yeni müstəmləkəçilik siyasətinin mahiyyətini aydınlaşdırmaq. Dövrü mətbuatdan və elmi-kütləvi ədəbiyyat-

dan istifadə etməklə əsas dünya dövlətlərinin xarici siyasəti haqqında məlumatlar hazırlamaq. Dünyada mövcud olan münaqişə ocaqlarının yaranmasının səbəblərini, onların ümumi və fərqli xüsusiyyətlərini aydınlaşdlırmaq, münaqişələrin aradan qaldırılmasında BMT, ATƏT və digər beynəlxalq təşkilatların rolunu izah etmək. Dünyanın əsas iqtisadi güc mərkəzlərinin yaranması səbəblərini müəyyənləşdirmək, Avropa inteqrasiyasının mahiyyətini, əsas əlamətlərini açıqlamaq. Əlavə ədəbiyyatdan istifadə edərək son dövrdə elmi və texnika sahələrindən birində daha böyük nailiyyətlər haqqında məlumat hazırlamaq. Elmi-texniki inqilabın mahiyyətini, əlamətlərini, sosial, iqtisadi və siyasi nəticələrini müəyyənləşdirmək. Bəşəriyyətin qlobal problemləri və onların meyarlarını, həlli yollarını müəyyənləşdirmək. Dərslik materiallarına, elmi-kütləvi ədəbiyyata və digər mənbələrə əsaslanaraq ayrı-ayrı dövlətlərdə müxtəlif vaxtlarda hakimiyyət başında olmuş dövlət başçılarının yeritdikləri siyasətin fərqli və ümumi cəhələrini müqayisə etmək və nəticələr çıxarmaq.

Müharibədən soqnrakı dövrdə beynəlxalq münasibətlərdə baş verən dəyişikliklərin, onların inkişafının yekunlarını və dərslərini, XX-XXI əsrlərin qovşağında meydana çıxan problemlərin mahiyyətini və səbəblərini aydınlaşdırmaq.

**Yekunlaşdırıcı dərs: Müasir dünyanın siyasi xəritəsi - 1(2) saat.**

**Qaynaqlar və ədəbiyyat**

**I Bölməyə dair**


1.Bağırov Y.Ə. Türkiyə Lozan konfransında. Bakı. 1957.

2.Devlet N. Rusiya türklərinin milli mücadilə tarixi. 1905-1917. Ankara. 1981.

3.Fətəliyev M. Türkiyə diplomatiyası və balkanlar. Bakı, 1995.

4.Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı. 1994.

5.История новейшего времени стран Европы и Америки. (1918-1945 гг). Москва, 1989.

6.История стран Азии и Африки в новейшее время. Часть I. Москва, 1976.

7.Кредер А.А. Новейшая история XX век. Учебник. Москва, 1996.

8.Qasımov M. Xarici dövlətlər və Azərbaycan (1920-1922). Dərs vəsaiti. Bakı, 1998.

9.Qasımov M., Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr, I hissə, 1900-1945-ci illər). Dərs vəsaiti. Bakı, 1998.

10.Qocatürk U. Atatürk. Bakı, 1991.

11.Мельгунов П. Красный террор в России. Москва, 1990.

12.Mustafazadə T. Ümumi tarix. IV cild. Bakı, 1998.

13.Новейшая история зарубежных стран. XX век. Ч.1.1900-1945. Учебник. Москва, 1998.

14.Проэктор Д.М. Мировые войны и судьбы человечества. Москва. 1986.

15.Проэктор Д.М. Фашизм. Путь агрессии и гибель. Москва, 1089.

16.Всемирная история. Учебник. Москва, 1997.

17.Siyasi tarix. I hissə. Bakı. 1991.

18.Siyasi tarix. II hissə. Bakı, 1995.

19.Siyasi tarix, II hissə. Bakı, 1988.

20.Всемирная история в 24-х томах. Том 19-22. Москва, 1997.

21.Верт Н. История Советского государства (перевод с французского языка) - 1900-1991. Москва, 1996.

22.Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 1991.

**II Bölməyə dair**

1.Дален Франц. Накануне Второй Мировой войны. 1938 август-1939. Воспоминания в 2-х томах. Москва, 1982.

2.Ən yeni tarix. Dərslik. Bakı, 1998.

3.İran və Türkiyə: tarix məsələləri, Bakı, 1986.

4.История стран Азии и Африки в новейшее время, часть I. Москва, 1976.

5.Qasımov M., M.Abdullayev. Beynəlxalq münasibətlər tarixi (XX əsr, I hissə. 1900-1945-ci illər). Dərs vəsaiti. Bakı, 1998.

6.Mustafazadə T. Ümumi tarix. IV cild. Bakı, 1998.

7.Новейшая история зарубежных стран. XX век. Учебник. Ч.II. 1900-1945. Учебник. Москва, 1998.

8.Оппиц Д.М. Фашизм и неофашизм. Москва, 1989.

9.Проэктор Д.М. Мировые войны и судьбы человечества. Москва, 1986.

10.Проэктор Д.М. Фашизм. Путь агрессии и гибель. Москва, 1989.

11.Siyasi tarix, II hissə. Bakı, 1995, 1998.

12.Верикая Отечественная Народная. Москва, 1985.

13.Волков Ф.Д. Тайное становится явным. Москва, 1989.

14.Всемирная история в 24-х томах. Том 23-24. Москва, 1998 гг.

15.Всемирная история. Учебник. Москва, 1997 гг.

16.Верт Н. История Советского государства. Перевод с французского языка. 1900-1991. Москва, 1996.

**III Bölməyə dair**


1.Abdullayev Z. Müasir İran. Bakı, 1976.

2.Краус Т., Белади Л. Сталин. Москва, 1990.

3.Devlet N. Çağdaş türk dünyası. İstanbul, 1980.

4.Əliyev R.Y., Məmmədov A.M. İslam və ərəb ölkələrində milli-azadlıq hərəkatı. Bakı, 1986.

5.Ən yeni tarix, dərslik. Bakı, 1998.

6.Фурсенко А.А. Президенты и политика США: 70-е гг. Ленинграл, 1989.

7.İvanov R.F. Duayt Eyzenhauer. Bakı, 1985.

8.İran və Türkiyə: tarix məsələləri. Bakı, 1986.

9.История стран Азии и Африки в новейшее время. Часть II. Москва, 1979.

10.Капутсин Б.Г. Глобальные проблемы мирового общественного развития. Москва, 1991.

11.Кауль Т.Н. От Сталина до Горбачева и далее. Москва, 1991.

12.Громыко А. Кокошкин А. Братья Кеннеди. Москва, 1985.

13.Малышев В. Линия на ветру: Очерки о современной Италии. Москва, 1987.

14.Моисеев Н. Человек и ноосфера. Москва, 1990.

15.Молчанов Н.Н. Генерал де Голль. Москва, 1988.

16.Mustafazadə T. Ümumi tarix. IV cild. Bakı, 1997.

17.Огден К. Маргарет Тетчер, женщина у власти: Портрет человека и политика. Москва, 1992.

18.Полевой В.М. Двадцатый век: Изобразительное искусство и архитектура стран и народов мира. Москва, 1989.

19.Siyasi tarix, I hissə. Bakı, 1995.

20.Siyasi tarix, II hissə. Bakı, 1995.

21.Siyasi tarix, II hissə. Bakı, 1998.

22.Тавровский. Двухэтажная Япония: Две тысячм дней на Японских островах. Москва, 1989.

23.Trük və Qafqaz xalqları tarixinin bəzi məsələləri. Bakı, 1997.

24.Всемирная история. Учебник. Москва, 1997.

25.Верм Н. История Советского государства (перевод с французского языка) - 1900-1991. Москва, 1996.


**I. Xəritələr**

1."Avropa ölkələri 1918-1923-cü iollərdə".

2."Avropa ölkələri 1924-1939-cu illərdə".

3."Dünya XX əsrin əvvəllərində".

4."Avstriya-Macarıstan impeoriyasının süqutu".
5."Almaniyanın 1933-1939-cu illərdə Avropada işğalları".
6."İkinci dünya müharibəsi".
7."1939-1941-ci illərdə Avropada hərbi əməliyyatlar".
8."Faşist blokunun işğallarının əsas istiqamətləri".
9."Avropada ikinci dünya müharibəsinin yekun mərhələsi (1944-1945-ci illər)".
10."Dünya XX əsrin sonlarında".

**2. Sxemlər, diaqramlar, cədvəllər.**

1. "ABŞ-ın dövlət quruluşu" sxem.
2. "Almaniyada Reyxstaqa 1932-ci il 6 noyabr seçkilərində nəticələri" cədvəl.
3. "BMT-nin quruluşu" sxem.
4. "Ebro çayı sahilində döyüş (1938)" sxem.
5. "Əfqanıstan müharibəsi" sxemi.
6. "Faşist bloku üzvlərinin 1930-1939-cu illərdə işğalları" diaqram.
7. "Fransanın dövlət quruluşu" sxem.
8. "Hərbi siyasi bloklar" cədvəl.
9. "İkinci dünya müharibəsinin əsas hərbi əməliyyatları" cədvəl.
10. "XX əsrin 30-cu illərində beynəlxalq münasibətlər" cədvəl.
11. "Kursk döyüşü" sxem.
12. "Miduey dəniz döyüşü" sxem.
13. "1922-1938- illərdə Almaniya, ABŞ, Britaniya və Fransada sənaye məhsulu istehsalının inkişafı" cədvəl.
14. "Moskva ətrafında döyüş" sxem.
15. "Overlord" əməliyyatı" sxem.
16. "Səhrada tufan" əməliyyatı" (1991) sxem.
17. "Stalinqrad döyüşü" sxem.
18. "Yaxın Şərqdə altı günlük müharibə (1967)" sxem.
19. "Yaponiyanın dövlət quruluşu" sxem.

**Audovizual vasitələr, kinofilmlər:**

"Naməlum müharibə", "Mən sizi ürəkdən sevirdim", "Baharın 17 anı", "Durnalar uçur", "Əsgar haqqında ballada", "İnsanın taleyi", "Heç kəs ölmək istəmirdi", "Əsgər atası", "Azadlıq" kinoepopeyası, "Adi faşizm".

## MÜNDƏRİCAT

Azərbaycan tarixi ........................................................................ 10
Ümumi tarix ............................................................................... 117
Yeni tarix ..................................................................................... 183

Yığılmağa verilmişdir 24.08.2000. Çapa imzalanmışdır 22.09.2000.
Format 60x84 $1/_{16}$. Ofset kağızı. Ofset çapı. F.ç.v. 14,875.
Tiraj 5000 ədəd. Sifariş 932.

“Əbilov, Zeynalov və oğulları” İTK-nın mətbəəsi. Bakı, M.Qorki küç. 43.
Tel.: 973623

